

# BƏXTİYAR VAHABZADƏ

## ƏSƏRLƏRİ
(1960-1969)

*On iki cilddə*

II *cild*

Bakı - 2008
"ELM" nəşriyyatı

Bir rəngi yox, göylərin min rəngini sevirəm,
Bir gülü yox, güllərin çələngini sevirəm.
Mən çıxmağa təpə yox, uca dağ istəyirəm;
Həyatı həyat kimi yaşamaq istəyirəm,
Yaşamaq istəyirəm!

B. Vahabzadə



*Tərtibçi, ön söz müəllifi və redaktoru*
**Ramazan Qafarlı**

**Bəxtiyar Vahabzadə.** Əsərləri. On iki cilddə. II cild (1960-1969). - Bakı, "Elm" nəşriyyatı, 2008. - 616 s.

İSBN 5-8066-1336-4

V $\frac{4702060000}{055\ (02) - 2008}$ Qrifli nəşr

© B.Vahabzadə - 2008

# UCALIQ POEZİYASI

***Bəxtiyar Vahabzadənin*** poeziyası elə nəhəg çıraqdır ki, nurunu mənəvi aləmin ən dərin guşəsinə çatdırmağa qadirdir, dinləyicilərinə haqqın yolunu göstərir, ruhları saflaşdırır. Bu poeziyanın sadəliyinin içərisində dərin fəlsəfi fikirlər gizlənir. Şeirlərinin poetik strukturuna nəzər salanda görürük ki, o, xalqın universallaşıb ümumbəşəri anlam kimi işlənən rəmzlərinə daha çox üz tutur. Müasir elmi ədəbiyyatda «arxetipik simvol» termini adı ilə şərh olunan kateqoriya bədii mətnlərin strukturlarında əsas detallardan biri olsa da, nədənsə, Azərbaycanda indiyədək araşdırılmamışdır. Ona görə də nəzəri aspektdə izahlar verməklə məsələni Bəxtiyar Vahabzadənin yaradıcılığında izləməyə çalışacağıq.

Bəşər oğlu ilk əvvəl dünyanı simvollarla dərk etmişdir. Mifik görüşlərdəki dolayılıq və məcazilik metaforik düşüncə tərzinin inkişafına şərait yaratmış, totemizm, animizm, magiya, fetişizm, kultçuluq mərhələlərində təbiətdəki varlıqlar çevrilmə, cildini dəyişib başqa hala düşmə (metamorfoza), şəxsləndirilmə, canlandırılma (alleqoriya) şəklində qavranılmışdır. Yaranışların mahiyyətini, məkan, zaman, keyfiyyət və kəmiyyət dəyişikliklərinin ardıcıllığını, vəhdətini anlamağa doğru gedilən uzun, yorucu yolda baxışların müxtəlifliyinin nəticəsi olaraq onların dildə ifadəsi də fərqli formalarda təzahür etmişdir. Eyni varlıq və hadisə bir tərəfdən xeyirə, digər tərəfdən şərə yozulmuşdur. Çünki ilkin mifoloji baxış bucağından baxanda gerçəkliklər qatı dumanın arxasında görünmüşdür. Duman çəkilib hava durulanda hər şey aydınlaşdığı kimi, təcrübə, bilik çoxaldıqca fövqəltəbii mənzərələr də təfəkkürdə öz təbii halına qayıtmışdır. Təsadüfi deyil ki, ibtidai görüşlərdə *torpaq anadır* - doğub-törəyir, xeyirxahlıq, xilaskarlıq funksiyasına malikdir, övladlarını qida ilə təmin edir, həmçinin öz körpələrini (toxumları) udmaqla, ölmüşləri qoynuna almaqla şərin daşıyıcısıdır. Ancaq onun indi şər kimi anılan «körpələrini yemə» əməlinin də nəticəsi yeni yaranışla (toxum cücərib bitkiləri meydana gətirir) başa çatır. Bu onu göstərir ki, təbiətin özündə müşahidə olunan ikili xüsusiyyətlər (havaların isinib-soyuması, qaranlıqlaşıb-işıqlaşması) maddi və mənəvi varlıqlara da şamil edilirdi. Torpağın ən əsas rolu, daha doğrusu, gerçək funksiyası - bütün mövcudluqların (insanın, heyvanın, bitkinin və s.) məkanı olması, sinəsində canlıları bəsləməsidir. Onun bu cəhəti tam anlaşılanadək təfəkkürdə tamamilə fərqli xüsusiyyətlərdə təsəvvürə gətirilmişdir. Başqa sözlə, torpağın adiliyi qeyri-adiliyin içərisindən keçərək gerçəkliyə çevrilmişdir.

Bəxtiyar Vahabzadə gen yaddaşına əsaslanaraq gerçəkliyi torpağın mifoloji anlamdakı funksiyasına uyğunlaşdırdığı mətndə insanı yerindən oynadan obrazlı fikir ortaya qoyur:

*Bircə rəngli **qara torpaq***
*Güllərdə min rəng yaradır.*
*Hər ağrıya, hər acıya*
*Əsl çara torpaqdadır.*
*Göylərin də min bir sirri*
*Yenə **qara torpaq**dadır.*

"Qara torpaq" deyiminin birinci tərəfinin anlamı birmənalı deyil. İlk baxışda "qara"lıq şər məkan anlamı təsiri bağışlayır. Lakin "qara" kəlməsinin daha dərin mənaları da var: böyük, geniş və s. Başı bəlalı Qarabağımızda olduğu kimi "qara torpaq"dakı əlamət bildirən söz də ulu məskənin əhatəliliyini nəzərə çatdırır. Və hər ikisinin tarixi taleyində nəzərə çarpan qara günlər insanlarda ani olaraq çaşbaşlıq yaradır, elə bilirik ki, məkan, yurd yeri düşmən tapdağındadır – üzü qaradır. Əks halda Şəmşir bir vaxtlar ata-baba yurduna dönük çıxanlara üzünü tutub deməzdi ki:

*Küsmə, gileylənmə ana Vətəndən,*
*Torpaq qarğış elər, inciyər səndən.*

Torpağın ən böyük qarğışı nə ola bilər? Dünyasını dəyişmişlərə öz qoynunda yer ayırmamaq və bərəkətini kəsmək… Elin dilinə düşən deyimlərdə də bu öz ifadəsini tapıb: *"Səni torpaq götürməsin!"*

Bəxtiyar Vahabzadə yaradıcılığının ilk çağından başlayaraq torpağı incidənlərə qarşı çıxır və bəyan edirdi ki, Azərbaycan atalarımızın çox-çox uzaqlardan qopan qalib səsi ilə Vətənləşib. O səs ulu bir millətin köklə bağlanan fəlsəfi düşüncələrinə çevrildiyindən Qafqaz torpağını loğmanlaşdırıb:

*Hər bir dərdə, hər azara*
*Əsl çara torpaqdadır.*
*Hər kəsin də üz ağlığı*
*Yenə qara torpaqdadır.*

Bəli, torpaq bəşər oğlunun üz ağlığıdır.

Göründüyü kimi, bu gün hamıya sadə hadisə, cisim, varlıq təsiri bağışlayan elə hallar və əşyalar var ki, əvvəllər bütün möcüzəli təsəvvürlərin mayasını təşkil etmiş, başqa sözlə, fövqəltəbiiliyin fövqündə durmuşdur. Əksər xalqlarda eyni və oxşar anlamlarda götürülən söz, ifadə və cümlələr məhz insanların keçdiyi analoji həyat tərzində formalaşdığından işarəli dilin növlərindən - simvollardan

biri kimi təsdiqlənmişdir. Beləliklə, fikrin ümumiləşməsində, geniş məzmunun daraldılıb bir sözün məna tutumunda yerləşdirilməsində, bədiilik üsullarının meydana gəlməsində *arxetipik simvollar* xüsusi rol oynamışdır.

Dildə elə rəmzləşmiş ifadələr var ki, böyük insan kütləsi (çox hallarda bütün bəşəriyyət) üçün oxşar anlamlarda başa düşülür. Müxtəlif zamanlarda yaransa, ayrı-ayrı dillərdə tamamilə başqa cür səslənsə də, bir-birindən çox uzaq məkanlarda yaşayan əksər xalqların milli mədəniyyətlərində eyni məna yükünü daşıyır və müxtəlif dünyagörüşlərinin formalaşmasında böyük əhəmiyyət kəsb edir. İlkin çağlarda miflərlə yozulan və magikliklə əlaqələndirilən bir çox varlıqlar, eləcə də hallar inkişafın sonrakı mərhələsində özündə ibtidai görüş formalarının əlamətlərini yaşatmaqda davam etmiş, gerçək anlamı ilə yanaşı rəmzi mənalar da daşımışdır. Onlar ulu əcdadın kortəbii şüurunun içərisindən keçdiyindən - eyni həyat şəraitində, eyni psixi səviyyədə yaşayan bütün xalqların düşüncəsində bir-birinə uyğun şəkildə başa düşülmüşdür.

Arxetipik simvolların geniş şərhini amerikalı tədqiqatçı F.Uilrayt vermişdir. O, «Metafora və gerçəklik» əsərində müqayisələrdən yaranan metaforik düşüncə tərzinin əlamətlərindən bəhs açmış, fikirdə dolayılığın əmələgəlmə üsullarını göstərmiş və simvolların ibtidai növlərini müəyyənləşdirib sistemini yaratmışdır. Onun irəli sürdüyü qənaətlərdə dil faktoru səslənmədəki oxşarlıqla xarakterizə edilmir, şüurun oyanması dövründə və ibtidai təfəkkür tərzinin kortəbiilik mərhələsində meydana gəldiyi üçün daşıdığı məna tutumunun universallığını dünyanın əksər xalqlarında eyni hal kimi qoruyub saxlamaqla arxetipik simvola çevrilmişdir. Deməli, mifik düşüncədə fikirlər, məlumatlar adi şəkildə də işarələrlə, dolayılıqla və hamının anladığı metaforik ifadələrlə çatdırılır. İnsan düşündüklərini nitqində əks etdirəndə ağlına gətirmir ki, simvollardan faydalanır, yoxsa faydalanmır, sadəcə olaraq hisslərini cilovlayıb düşüncələrini oxşarlıqlar üzərində cəmləşdirir; yeri gələndə ya şərti rəmzlərə üz tutur, ya da elə danışmağa çalışır ki, daha çox gərginlik yaratsın. Deməli, simvollar həm də ictimai-siyasi münasibətlərdə insan qruplarının mövqeyini bildirən vasitədir, bədii yaradıcılıqda isə obrazlı dili formalaşdıran üslubi fiqurlardan biridir. Onların yaranmasında ayrı-ayrı fərdlər iştirak edir. Çox hallarda hamı tərəfindən başa düşülməsi üçün xüsusi izahata ehtiyac duyulur. Doğrudur, bəzi simvollar illər keçdikcə geniş yayılaraq bütün xalqın tez-tez üz tutduğu, hətta canlı danışığında fikrini daha səlis ifadə etdiyi əsas amilə çevrilir. Məsələn, ilk dəfə M.Qorkinin hekayəsi vasitəsi ilə həyata vəsiqə qazanan «fırtına quşu» obrazı neçə illik təbliğatın nəticəsində əksəriyyət tərəfindən azadlığın carçısı kimi anılırdı. Sovet hakimiyyətinin yer üzündən silinməsi nəticəsində «fırtına quşu»nun simvollaşdırılması hadisəsi ancaq tarixin faktoru tək xatırlanır. Lakin arxetipik simvollar lap başlanğıcdan

bütün icma üzvlərinin inancı şəklində meydana gəlir, daha doğrusu, mifoloji əlamətlərlə yoğrulduğundan yarandığı çağlardan başlayaraq tarixin bütün mərhələlərində öz universallığını qoruyub saxayır. Bu səbəbdən də çoxsaylı arxetipik simvollar - ***alt-üst, yuxarı-aşağı, şimal-cənub, göy-yer (ata göy - ana torpaq), gecə-gündüz, xeyir-şər, işıq-zülmət, qan, çevrə (təkər), qılınc, qalxan, ox-yay, od, ocaq, su, torpaq, hava, bayraq, sakral rəqəmlər*** barədəki qənaətlər Yer kürəsinin dili, dini əqidəsi, inkişaf səviyyəsi bir-birindən köklü şəkildə fərqlənən millətlərinin inanclarında üst-üstə düşür. Maraqlıdır ki, əksər məqamlarda insan toplumlarını nə tarixi-mədəni əlaqələr, nə qan qohumluğu, nə də dil birliyi bir-birinə bağlamışdır, lakin aralarındakı hədsiz məsafə, zaman, əqidə, dil ayrılıqlarına baxmayaraq onların arxetipik simvollarla əlaqədar gəldikləri qənaətlər bir-birini təkrarlamışdır. Sual doğur: heç bir rabitə ilə yolları kəsişmədiyi halda hansı səbəbdən dünya xalqlarının çoxu eyni şəkildə düşünmüş və oxşar yaradıcılıq hadisələri ilə rastlaşmışlar? Arxetipik simvolların bəzilərinin yaranmasına təkan verən amilləri müəyyənləşdirib üzə çıxarmaqla oxşarlığın səbəblərini aydınlaşdırmaq mümkündür.

***Aşağı - yuxarı (üst - alt, göy - yer, dağ - düzən).*** Cəmiyyətlərin bir-birindən tamamilə seçilən, ayrılan cəhətləri var, ancaq bütün insanların dünyabaxışı formaları, düşüncə üsulları, təfəkkür tərzi, gördüklərinə, hadisələrə (təbiətdə və cəmiyyətdə baş verən) reaksiyası və təsir dairəsi oxşardır, eləcə də onlar eyni fiziki, əsas psixi quruluşa malikdirlər. Məhz bəşər övladları arasındakı təbii yaxınlığın nəticəsidir ki, şüurun məhsulu olan arxaik simvollarda bənzərlik nəzərə çarpır. F.Uilrayt yazır ki, insanların hamısı fiziki cazibə qüvvəsinə meyillidirlər, ona görə də yuxarıya doğru addımlamaq, aşağıya getməkdən daha çətindir. Bu, yüksəyə qalxma ilə uğurqazanma ideyaları arasında təbii assosiasiya yaratmışdır. Həmçinin digər müxtəlif obrazlarla assosiasiyalardan *yüksəklik - yüksəlmək, dağ - vüqar, ucalmaq, zirvəyə çatmaq - üstünlük qazanmaq, birincilik əldə etmək, yuxarıda oturmaq - hakimiyyət pillələrində başqalarından fərqləndiyini nümayiş etdirmək* ideyaları meydana atılmışdır. Bu mənada ucalıq, yüksəklik Bəxtiyar Vahabzadənin nəzərində zirvə, dağ və göylə assosiasiyada təqdim olunur.

*Bir rəngi yox, göylərin min rəngini sevirəm,*
*Bir gülü yox, güllərin çələngini sevirəm.*
*Mən çıxmağa təpə yox, uca dağ istəyirəm,*
*Həyatı həyat kimi yaşamaq istəyirəm.*

Şairin "Gülüstan" poemasınadək keçdiyi yaradıcılıq yolu axtarışlar, mövqeyinin müəyyənləşməsi və gen yaddaşının oyanması ilə xarakterizə olunur.

1959-1969-cu illər arasında isə o, milli ruhlu söz sənətkarı kimi haqqın carçısına çevrilib humanizm mövqeyində durur və hamını mənsub olduğu xalqın dilinin saflığı, kökünün dərinliyi, soyunun ululuğu, uzaq keçmişindən qalan inanclar, adətlər, tarixi ənənələri barədə düşünməyə çağırır. Manifest xarakterli "Dağda şəlalə kimi" şeirində B.Vahabzadə daim döyüş meydanına cıxmağı bacarmağı yaşamağın əsas mənası sayırdı:

*Göydə qürub çağı da, dan yeri də gözəldir,*
*Həyatın sevinci də, kədəri də gözəldir.*
*Həyat – bir cıdır düzü, bir döyüş meydanıdır.*
*Hər kəsi öz cürəti, öz qüdrəti tanıdır.*

Bütün yaxşı cəhətlərin mənbəyini göydə, işıqlı aləmdə axtaran B.Vahabzadə mübarizə, döyüş üçün stimul yaratdığından kədərdə də gözəllik tapır və həyatı həyat kimi yaşamayanlara, "namusu xərcləməkdən çəkinməyənlərə", "gündən qaçıb həmişə kölgə axtaranlara" qarşı üsyan qaldırır. Ona görə ki, onlar:

*Atlarını daşlığa salıb səyirtmədilər,*
*Adları kişi oldu, ömürdə bircə kərə*
*kişilik etmədilər.*

Sovet ideologiyasının ən mühafizəkar çağında bir çox şeirlərində onlarla arxetipik simvoldan - *isti-soyuq, axşam-səhər, təpə-dağ, dərya, göy, ulduz, dəniz, günəş, şaxta, qar, boran* və s. istifadə edərək insanın hansı misiya ilə dünyada yaşamasını cəsarətlə irəli sürlür. Sair kommunist partiyasının artıq mübarizəyə ehtiyac qalmadığını irəli sürdüyü məqamda dağda şəlalə kimi çağlamaq istəyini açıq-aydın bəyan edirdi. Çünki xalqının haqqı tapdalanmış, Yer üzündə Azərbaycan türklərinə məxsus məkana şər gözlər dikilmiş, dünəni şübhə dumanına bürünmüş, əcdadları danılmış, millət adı belə zorla əlindən alınmışdı. Bütün bunlar elə məharətlə yerinə yetirilmişdi ki, üzdə fitnə-fəsad şəklində görünmür, milli ruhun öldürülməsi üçün saxta "dostluq", "qardaşlıq" şüarları irəli sürülürdü. B.Vahabzadə anlayırdı ki, Azərbaycanı parçalayanların nəvə-nəticələri babalarının məkrli əməllərini "papış tikməklə" davam etdirir, pambıqla baş kəsirlər. Ona görə də soydaşlarını gücünü tükənməz şəklə salmağa, döyüşkən ruhunu oyatmağa səsləyirdi:

*Yaşamaq istəmirəm sürünüb dizin-dizin,*
*İstəyirəm* ***ən uca zirvələrə*** *mən qonam.*

*Xəfif sakitliyini neyləyirəm dənizin,*
*Onun qasırğasına, dalğasına vurğunam.*
*...* ***Çağlamaq istəyirəm dağda şəlalə kimi****,*
*Səpilmək istəyirəm çöllərə lalə kimi.*
*Dərya olub, nəhr olub, çalxanmaq istəyirəm,*
*Göylərdə* ***ulduz kimi*** *mən yanmaq istəyirəm...*

Hər kəs nailiyyətlərdən danışanda heç vaxt *«pillələrlə aşağı enirəm»* demir, *«yuxarı qalxıram»* kəlmələrini işlədir. Eləcə də yarışlarda uduzan tərəflə bağlı söyləyirlər ki, *«rəqibi üzərində qələbə çaldı»*. Təbiidir ki, rəqibin altına düşən - aşağıda qalan üstünlükdən danışa bilməz. Dildə belə bir fikir də işlədilir: *«Hökmdarın nəzəri həmişə rəiyyətinin üstündədir»*, yaxud el alqışlarında vurğulanır ki: *«Atanızın kölgəsi həmişə başınızın üstündə olsun!»* Birinci fikirdə «üst-yuxarı» iqtidarlığı, ikincidə «böyüklüyü» mənalandırır.

«Yuxarı» ideyasının çoxsaylı assosiasiyalarının nəticəsində formalaşan obrazlar: *yüksəkdə uçan quşlar, havaya atılan oxlar, dağlar, ulduzlar, göydələn ağaclar, sıldırım daş qayalar* və *nəhəng qalalar* başqa mənalarla yanaşı (digər anlamları tamamilə fərqli olsa da) dəyəri, arzunu, uğuru bildirir. «Aşağı» sözünün kontekstində isə sadalananların əksi özünə yer alır. Ən xarakter hal budur ki, *«baş ucalığı»* şərəfi, mənliyi, ləyaqəti ifadə etdiyi kimi, *«ayaqlar altına enmək»* namərdliyi, şərəfsizliyi anladır. «Kimlərinsə qarşısında başı aşağı olmamaq», «həyatın dibinə düşməmək» üçün özümüzü gözütox, nəfsi yüksək göstəririk. Təsadüfi deyil ki, «aşağı»lıq Azərbaycan türklərində kişiliyə yaraşmayan hərəkət sayılır. Ona görə də şairin yaratdığı ana obrazı:

*Dolanırdı quş kimi*
*balasının başına.*

(“Mən onu dəyişmərəm” şeirindən)

Yaxud:

*«Başın sağ olsun» - deyib*
*Dağıldılar, getdilər.*

(“Borc” şeirindən)

Mifoloji sistemlərdə və dini inamlarda «yuxarı» Yaradıcının məskənidir, «aşağı» isə onun yaratdıqlarının şərlə əlaqələrinin yerləşdiyi yerdir. Aşağıdakı (miflərdə ortadakı) bolluğun, bərəkətin, xeyirin, haqqın təminatçısı da yuxarıdır.

Bu mənada B.Vahabzadə poeziyası ancaq yüksəkliyə meyillidir:

*Qalxıb zirvəsinə uca bir dağın*
*Burdan seyr edirəm ənginlikləri.*
*Qəribə duyğular hey axın-axın,*
*Süzülür qəlbimə bayaqdan bəri.*

("Ucalıq" şeirindən)

Lakin bəzən aşağıda Yaradıcının iradəsindən kənar qüvvələr də fəaliyyət göstərir və insanlar şərin artıb çoxalmasına şərait yaratdıqda yuxarının qəzəbinə tutulurlar. Onu da qeyd etmək lazımdır ki, hər iki tərəflə bağlı əksliklər də özünü biruzə verir. Yuxarı uğurlara yol açmaqla yanaşı, həm də fəlakətlərin (tufanın, qasırğanın) törədicisidir. Eləcə də aşağı insanın nüfuzuna xələl gətirməkdən başqa, digər əks funksiyanın daşıyıcısıdır (bərəkət, bolluq diyarıdır).

Sair aşağıdakı şərliklərdən bezəndə kimsəsiz dağ zirvəsinə üz tutur:

*Çıxdım dağ başına bir səhər çağı,*
*Ayağım altında daşlar da dindi.*
*Mənə göz elədi hər gül yarpağı,*
*Ürək təzələndi, ruh təzələndi.*

("Dağ çiçəkləri" şeirindən)

Doğrudur, dilin frazeoloji inkişafında bu cəhət az iz qoysa da, mifopoetik yaradıcılıqda böyük rol oynamışdır. Belə ki, səxavətli yer üzü «aşağı»da yerləşir. Anaların anası torpaq bütün canlıları qida ilə təmin edir. «Yuxarı - aşağı»nın daxili ziddiyyətləri və bir-biri arasındakı qarşıdurmalar konkretləşəndə uyğun olaraq göy - yer şəklində ümumiləşdirilir və iki qlobal mifik obraza çevrilir, mifik dünya modelinin ən mühüm elementlərinin yerini tutur. B.Vahabzadənin misralarında göstərilir ki, yuxarının - göyün əlçatmazlığına baxmayaraq aşağıdakılar - yerdəkilər bəzən ona daş atırlar. Günəşin dağlardan boylanması, yağışın göydən yağması ilə yer üzünün bərəkəti artır:

*Təbiət dirçəldi, həyəcana gəldi,*
*Günəş gülümsündü dağlar başından.*
*Torpaq cana gəldi, yer cana gəldi,*
*Tıpır-tıpır yağan yay yağışından.*

("Yağış və torpaq" şeirindən)

Ümumiyyətlə, Azərbaycan mifoloji görüşlərində yuxarı-aşağı bir neçə tərzdə anılır: *Birinci halda,* Günəş gündüzlər, Ay gecələr ən ali və hər şeydən yüksəkdə duran varlıqlardır. Aşağıdakılar onun övladlarıdırlar. *İkinci halda,* Dağ Günəşin və Ayın yerini tutur, onların funksiyasını öz üzərinə götürür. *Üçüncü halda,* bütün varlıqların yaradıcısı onların üstündə dayanan Göy üzüdür - Göy tanrıdır. İşıq da, bolluq - bərəkət də, qaranlıq - bəlalar da ordan gəlir. *Dördüncü halda,* göy özü iki yerə parçalanır: gündüzlər İşığın, Odun - xoşbəxtliyin, gecələr isə Qaranlığın, Soyuğun - fəlakətlərin məskəninə çevrilir. Deməli, yüksəkliyin, ucalığın əzəmətini əbədi qoruyub saxlamaq üçün İşıq və Odun zamana daimi sahibliyi gərəkdir. Bu isə o vaxt gerçəkləşə bilər ki, xeyir şərə - qaranlığa qalib gəlsin. *Beşinci halda* yuxarı qatlardan ibarətdir, ən yüksəkdə Vahid - tək Allah oturmuşdur, aşağının da mərtəbələri var, ən dərin və qızğın yerdə (atəşpərəstlikdə soyuq) haqq-hesab çəkilir. Göründüyü kimi, ulu əcdadın ilkin təsəvvürlərində bütün yaranışların kökü göylə bağlanır. İlahi qüvvələrin qarşılaşması, təbii fəlakətlərin mənbəyi, bolluğun, bərəkətin artmasının səbəbləri, ilin zaman bölgülərində təbii şəraitin dəyişmələri, gecənin gündüzlə, isti havaların soyuqla əvəzlənmələri - bütün funksiyalar yer üzünə səmadan keçir, hər şey yuxarıdan idarə olunur, insanların aşağıda (miflərdə orta qatda) - yer üstündə fəaliyyəti, yaşamaq uğrunda mübarizəsi xeyirlə şər qarşılaşmasının nəticələri kimi götürülür. Şair gen yaddaşından gələn təsəvvürlərə əsaslanaraq bu qənaətləri ümumiləşdirib "Zəhmətimiz" şeirində bildirir:

*Allah deyə-deyə min il, milyon il,*
*Dikildi insanın gözü göylərə.*
*Əvvəlcə xəyalı gəzdi səmanı,*
*Hələ getməsə də özü göylərə.*

*Yazdı zəkasının təntənəsini*
*İnsan ayağının izi göylərə.*
*Demə zəhmətimiz qüdrətimizmiş,*
*Ucaltdı torpaqdan bizi göylərə.*

Y.M.Lotman şeirin struktur təhlilini aparanda mifoloji amillərin hətta müasir poeziyanın da ən sirli cəhətlərinin, görünməyən tərəflərinin əlaqələndiricisi rolunu yerinə yetirdiyini göstərir. Poetik fiqurların dünyanın quruluşuna uyğun verilməsi bir tərəfdən ənənədən gəlir, digər tərəfdən «arxetiplər» təliminə uyğun olaraq alimin yaradıcılığına üz tutduğu söz sənətkarının (N.A.Zabolotski) həyatda çətinliklərlə qarşılaşıb psixoloji hallar keçirməsindən doğur. «Yuxarı-aşağı»

modelinin cəmiyyətdəki əksliklərə şamil edilməsindən danışanda Y.M.Lotman bildirir ki, «yuxarı» həmişə «uzaq», «aşağı» isə «yaxın» anlayışlarına sinonimdir. Ona görə də hər bir hərəkət son nəticədə ya aşağı, ya da yuxarı istiqamətlənir. Hərəkətin təşkili də bu səbəbdən yalnız bir şaquli oxla şərtlənir».

Bədii əsərlərinin poetik strukturu bütünlüklə ilkin təsəvvürlərdən, xalq inanclarından qidalanan B.Vahabzadə kimi şairin yaradıcılığının mifoloji modellərə uyğunluğu ilk baxışda təəccüb doğursa da, əslində əsas mənəvi sərvət sayılan ölçülü-biçimli poeziyanın ilhamdan - dünyanı idarə edən qüvvədən, kənar enerjidən doğduğunu sübuta yetirir. Çünki şeir adi informasiyanın ruhun dərin qatlarından keçirilməsi, xəyali dünyalarda obrazlaşması və kodlarla, işarələrlə, simvollarla əksidir. Bu mənada B.Vahabzadəyə görə, a) yüksəklik, kamillik, haqq (ədalət), xeyir, yaradıcılıq vüsəti, işıq, istilik, gerçəklik, uzaqlıq, genişlik, inkişaf//fəaliyyət, metamorfoza, azadlıq // müstəqillik, müxtəlif məzmunlu dolğun informasiya, fikir // düşüncə (əməl, mədəniyyət), mənəvi varlıqlar, yaradıcılıq potensialı (yeni formalar yaratmaq), harmoniya // tarazlıq, əbədiyyət, yaşarlığın mənbəyi **yuxarıda**; b) alçaqlıq, nadanlıq, zülm, şər, mütilik, zülmət, soyuqluq, yalan (uydurma), yaxınlıq, sıxlıq, fəaliyyətsizlik, mexaniki hərəkət, əsarət // köləlik, məddahlıq, təbiət // maddi varlıqlar, qabiliyyətin yoxluğu, qarışıqlıq, durğunluq, ölüm isə **aşağıda** yerləşir.

Dahi Nizami kimi B.Vahabzadə də belə qənaətə gəlir ki, eşq aşağı ilə yuxarı arasında vasitəçilik edib tarazlıq yaratmasaydı, dünya məhvərindən çıxardı, yüksəklik - alçaqlıq, kamillik - nadanlıq, haqq (ədalət) - zülm, xeyir - şər, istedad - mütilik, işıq - zülmət, istilik - soyuqluq, uzaq - yaxın, genişlik - sıxlıq, inkişaf (fəaliyyət) - fəaliyyətsizlik (tənbəllik), metamorfoza - mexaniki hərəkət, azadlıq (müstəqillik) - əsarət (köləlik), informasiya - məddahlıq, fikir // düşüncə (mədəniyyət) - təbiət, mənəvi aləm - fiziki aləm (maddi varlıqlar), xəyali obrazlar - gerçəklik, yaradıcılıq (yeni formalar tapmaq) - qabiliyyətin yoxluğu, harmoniya (tarazlıq) - qarışıqlıq, əbədiyyat - durğunluq, gerçəklik - yalan (uydurma), həyat - ölüm qarşıdurması təzədən xaos yaradardı. Məhəbbətin atəşi yuxarıdan aşağıya doğru uzanan düz ox boyu çoxaldıqca pisliklərin, mənfiliklərin gücü tükənir, fəallığı sönür. Və B.Vahabzadənin insanlardan ən böyük istəyi odur ki:

*Çıraq ol! Nurunu artır günbəgün,*
*Hər yerdə həyatın boğ zülmətini.*
*Məncə, çıraq olub başqalarıyçün*
*Yananlar tapıbdır səadətini!*

* * *

Çağdaş Azərbaycan şeirinin müqtədir nümayəndələrindən biri, xalq şairi Bəxtiyar Vahabzadənin çoxcildli «Əsərləri»nin 2-ci cildinə yaradıcılığının ən məhsuldar dövrlərindən birində - ötən əsrin 60-cı illərində (1960-69-cu illər) qələmə aldığı və əsasən, həmin illərdə nəşr olunmuş *«Şairin kitabxanası» (1961), «İnsan və zaman» (1964), «Bir ürəkdə dörd fəsil» (1966), «Seçilmiş əsərləri» (1967), «Köklər-budaqlar» (1968), «Dəniz-sahil» (1969)* və *«Dörd yüz on altı» (1970)* kitablarında gedən əsərlərinin bir qismi (320-dən çox şeiri) daxil edilmişdir. Oxucular kitabda şairin bu dövr yaradıcılığının məhsulu olan «Dağda şəlalə kimi», «Özümdən narazıyam», «Mənim şeirim», «Habil segahı», «Şəhriyara», «Karusel», «Nekroloq», «Azərbaycan oğluyam», «Qorxu», «Neo», «Beşik», «Baş», «Elm-əxlaq» və s. kimi onlarla məşhur şeirini oxuya biləcəklər. «Əlvan çiçəklər», «İnsan və zaman», «Həsrət nəğmələri», «Qəzəl, qoşma, gəraylı» bölmələrində toplanmış əsərlər şairin yaradıcılıq təkamülünü, poetik aləminin zənginləşməsini, mövzu dairəsinin genişlənməsini, habelə bədii sənətkarlıq baxımından inkişafını izləməyə imkan verir. 60-cı illərdə yazılsa da, şairin həmin dövrdə çıxmış kitablarında çap edilməmiş, yaxud müəyyən səbəblər üzündən çap etdirmək mümkün olmamış və yalnız 70-ci, hətta 80-ci illərdə nəşr edilmiş kitablarındakı şeirlər də bu cilddə salınmışdır. Bəzi şeirlər isə müxtəlif nəşrlərdə ayrı-ayrı adlarla dərc olunmuşdur. Cilddə onların bəzilərinin sərlövhələri ilk variantda olduğu kimi, bəzilərininki sonrakı nəşrlərdə getdiyi kimi saxlanılmış, ikinci adları mötərizədə göstərilmişdir.

***Ramazan Qafarlı***

# ƏLVAN ÇİÇƏKLƏR



*Nər bir dərdə, hər azara*
*Əsl çara torpaqdadır.*
*Hər kəsin də üz ağlığı*
*Yenə qara torpaqdadır.*



## DAĞDA ŞƏLALƏ KİMİ

Bir rəngi yox, göylərin min rəngini sevirəm,
Bir gülü yox, güllərin çələngini sevirəm.
Mən çıxmağa təpə yox, uca dağ istəyirəm,
Həyatı həyat kimi yaşamaq istəyirəm.
Göydə qürub çağı da, dan yeri də gözəldir,
Həyatın sevinci də, kədəri də gözəldir.
Həyat – bir cıdır düzü, bir döyüş meydanıdır.
Hər kəsi öz cürəti, öz qüdrəti tanıdır.
İnci üzə çıxarmı çalxalanmasa ümman?
Bu meydanda heyif ki, daim eniş axtaran,
«Azca aşım, ağrımaz başım» – deyənlər də var.
Kədərdəki nəşəni, zövqü anlamayanlar
Həyatın nəşəsindən, fərəhindən nə anlar?
Hər kədəri səadət, hər sevinci qəm izlər.
Əsl könül həm qəmi, həm sevinci əzizlər.
Təlatümsüz ürəklər qovuq kimi boş olur.
Daim sevinc axtaran daim qəmə tuş olur.

Düşmənəm yaltaqlanıb təpəyə dağ deyənə,
«Bu dünyada birtəhər qoy yaşayaq», - deyənə.
Ah, birtəhər!.. Lüğətə bu söz hardan gəlmədir?
Yaşamaq yaşamaqdır! Bəs bu birtəhər nədir?
Mən düşmənəm, düşmənəm belə «ölü canlara»,
Gündən qaçıb həmişə kölgə axtaranlara...
Onlar ortada yeyib, qıraqdasa gəzdilər,
Namusu xərcləməkdən onlar çəkinməzdilər.
Onlar orta yol tutub nə «hə», nə də «yox», - dedi.

Havaya nə «istidir», nə də ki, «soyuq», - dedi.
Onlar ölçüb-biçdilər hər bir şeyi dərindən,
Özgəsini qorxudub hürkdülər özlərindən.
Onlar qazdan ayıqdı...
Onlar havaya baxdı...
Gah yağışa, gah qara,
Gah qışa, gah bahara,
Gah axşama, gah da ki, səhərə dəm tutdular,
Özlərini düşünüb özgəni unutdular.
Səslərdən səs aldılar, öz səsləri olmadı,
Yaşadılar ölü tək, nəfəsləri olmadı...
Getdilər iş dalınca, ürəkləri getmədi...
Gəzdilər... hey gəzdilər.
Ayaq səslərinisə tək özləri eşitdi,
bir kimsə eşitmədi...
Atlarını daşlığa salıb səyirtmədilər,
Adları kişi oldu, ömürdə bircə kərə
kişilik etmədilər.
Onlar öləndə belə kimsə xəbər tutmadı,
Bu səssiz, küysüz ölüm kimsəni ağlatmadı.
Çoxdan ölmüş zənn edir, axı, hamı onları.
Diri ikən, sağ ikən,
Öz səsi olmayanın ölümü səssiz keçər,
Min-min dəfə ölənin matəmi yassız keçər.
Qardaş, min duyğu ötsün ürəyindən bir anda
Sən qımışma güləndə, inləmə ağlayanda.
Ağlasan, hönkür ağla, gülsən, qəhqəhə çək, gül,
Gülsən də, ağlasan da tamam doysun qoy könül.

Yaşamaq istəmirəm sürünüb dizin-dizin,
İstəyirəm ən uca zirvələrə mən qonam.

Xəfif sakitliyini neyləyirəm dənizin,
Onun qasırğasına, dalğasına vurğunam.
Qoy döysün yağış məni, boran məni, qar məni,
Həyatın boranları daim yaşadar məni.
İstəmirəm həyatım sakitcə bir otaqda
gəlib keçsin lal kimi...
İstəyirəm döyüşəm qayaların başında
düşmənlə qartal kimi.
Bağçadakı arx kimi ötüb həzin nəğmələr,
axmağı istəmirəm.
Səyyah olub həyata seyirçi bir nəzərlə
baxmağı istəmirəm.
Çağlamaq istəyirəm dağda şəlalə kimi,
Səpilmək istəyirəm çöllərə lalə kimi.
Dərya olub, nəhr olub, çalxanmaq istəyirəm,
Göylərdə ulduz kimi mən yanmaq istəyirəm.
Şığımaq istəyirəm başsız küləklər kimi,
Bəslənmək istəyirəm bütün ürəklərdə mən
arzu, diləklər kimi.

Bir rəngi yox, göylərin min rəngini sevirəm,
Bir gülü yox, güllərin çələngini sevirəm.
Mən çıxmağa təpə yox, uca dağ istəyirəm;
Həyatı həyat kimi yaşamaq istəyirəm,
Yaşamaq istəyirəm!

*May, 1960*

## KİMDİR MƏNİM DÜŞMƏNİM?

Kimdir mənim
Ən qorxulu düşmənim?
Kaş biləydim bunu mən.
O zərbə vurmamışdan
Kəsəydim yolunu mən.
Kimdir mənim
Düşmənim?
Yaxşımı qoyub
Yamanımı danışanmı?
Yox!
Eyblərimi deyib
Arxamca gülənmi?
Yox!..
Mənim nöqsanlarımı
Məndən yaxşı bilənmi?
Yox! Yox! Yox!
Onların gözlərini
Taxaydım öz gözümə.
Özgələrin gözüylə
Baxaydım öz-özümə.
Bacarsaydım bunu mən,
Bu dünyada nə dərdim...
Mən onda öz-özümü
Daha yaxşı görərdim.
Onda eyiblərimə
Özüm düşmən olardım;

görsəydim öz-özümü,
Onda mən, mən olardım!
Ah!.. Məni məndən gözəl
Görə bilən dostlarım,
Arxamca qəh-qəh çəkib
Mənə gülən dostlarım,
Gülün, elə gülün ki,
Çatsın qulaqlarıma -
Sizin gülüşləriniz.
Yamanımı danışın,
Elə danışın ki, siz
Mən də xəbərdar olum.
Danışın, qoymayın ki,
Mən özümə vurulum.
Ən qorxulu düşmənin
Gələrəm öhdəsindən,
Ancaq özüm özümlə
Bacara bilmirəm mən,
Bacara bilmirəm mən.
Özüm öz əllərimlə
Bir gün bal içirəmsə,
Bir gün zəhər içirəm.
Mən həyat yollarından
Ayaqlarımla deyil,
Əqidəmlə keçirəm.

*Aprel, 1960*

## ÖZÜMDƏN NARAZIYAM

Təbiətin könül açan
Min rəngi, min səsi var.
Hər könülün min arzusu,
Min səsli nəğməsi var.

Bu arzular, bu nəğmələr,
Bu səslər bir saz kimi
Mənim solğun sözlərimdə
Heç dil aça bildimi?

Hissim dərin, sözüm solğun,
Qəlbim geniş, sinəm dar.
Məndən əvvəl doğulubdur
Sinəmdəki duyğular.

Səhv atılan addımları
Sonradan anlayıram;
Baxıb vicdan güzgüsünə,
Özümü danlayıram.

Siz ey yanlış addımlarım,
Məni dərdə saldınız.
Mən sizinlə döyüşdükcə,
Gün-gündən çoxaldınız.

Mən haqq-hesab istəyirəm

Gecələr gündüzümdən;
Narahatam, narazıyam
Ömrüm boyu özümdən.

Bizim sənət dünyasının
Qırıq telli sazıyam.
Bircə bundan razıyam ki,
Özümdən narazıyam.

*Riqa. İyul, 1960*

## MƏN ONU DƏYİŞMƏRƏM

Bir az dincəlim deyə,
Bir neçə həftəliyə
Arvadıyla bərabər
o öz kəndinə gəldi.
Altı ilin başında
insafa, dinə gəldi.
Fərəhdən ev-eşiyə
sığmırdı yazıq ana.
Dolanırdı quş kimi
balasının başına.
Dostların qapısını
oğul açdı birbəbir.
Köhnə tanışlarıyla
salamlaşdı birbəbir.
Bircə günün içində
kəndi gəzib dolandı.
Uşaqlıq illərini
min həsrətlə o andı.
Yedi öz əlləriylə
əkdiyi ağacların
şirin meyvələrindən.
«Oxay!» - deyib, köksünü
o ötürdü dərindən.
O, bir doğmalıq görür
addımbaşı bu yerdə.
Üstündən adladığı

hər daşda, hər çəpərdə
İlişib yatır onun
bir əziz xatirəsi.
Sanki çağırır onu
dərədə top oynadan
uşaqların şən səsi.
Ah! O zaman, o zaman
o, qayğısız uşaqdı.
Bugünkü duyğulardan
nə qədər də uzaqdı!
Nə adı, sanı vardı,
nə vəzifəsi vardı.
Ancaq könül oxşayan
isti nəfəsi vardı.
Eşqi, hissi, həvəsi
su kimi şəffaf idi;
Kəndin təbiətitək
ürəyi də saf idi.

Şirin xatirələrin
bürünüb dumanına,
O döndü evlərinə -
anasının yanına.
Uşaqlıq illərinin
təmiz duyğularını
bir daha dadmaq üçün,
Anasının dizinə
başını qoyub o gün
yatdı, dincini aldı.
Bu halı görən gəlin
bulud kimi qaraldı.

- Ana, ana, can ana,
Məlik Məmməd nağlını
Mənə bir danışsana!
- Uşaqlığın düşübdür
yadına yoxsa yenə?
- Danış, qurbanın olum!
- Mən qurban olum sənə!

Gəlin birinci gündən
irad tutdu evdəki
hər söhbətə, hər sözə -
İrad tutdu gecəyə,
irad tutdu gündüzə,
Çarpayıya, xalıya,
çit yorğana, döşəyə,
irad tutdu hər şeyə...
Deyinməyə başladı
«gedək», - deyə o, hər gün.
Gəlin cana gətirdi
ərini də büsbütün.
hirsindən aşdı-daşdı.
Üçüncü gün boş yerə
qaynanayla dalaşdı.
Bir gün bu nazlı gəlin
öz sevimli ərinin
baş divardan asılmış
şəklinə baxdı, güldü.
Bu gülüşdən ananın
üstünə elə bil ki,
qaynar qazan töküldü.

- Dəbdən düşübdür, - deyə,
bəzəkli çərçivəni
o qoydu məsxərəyə.
- Nə yaman bəzəklidir,
bu nə vaxtın şəklidir?
- Onilliyi yenicə
bitirmişdim onda mən;
Ancaq belə geyinmək
gələrdi əlimizdən.
- Belə də köynək olar?
hələ qalstuku da
yoxmuş bizim oğlanın.
İşinə bax dünyanın!..
gör necə də dəyişib
minmiş vidə, fasona!
Aman! Ona bax, ona!
Saçını da qırxdırıb
bu yazıq lap dibindən.
Belə görsəydim onda,
sənə gələrdimmi mən?
Oğul baxdı şəkilə
diqqətlə xeyli zaman,
Dedi: - heç baxmamışdım,
gülməlidir doğrudan.
Ana, çıxart o şəkli.
- Çıxartmasam nə olar?
- Yaxşı şəkillərim var.
Mən sənə təzəsini
göndərərəm Bakıdan.
- Oğul, boyuna qurban!
Mənə sənin indiki

şəkilin gərək deyil.
Bəzəkli qalstukun,
kəkilin gərək deyil.
Uşaqlıq illərinlə
yaşayıram, oğul, mən.
onu alma əlimdən!
Harda olursansa ol,
canın sağ olsun sənin.
Dost, düşmən qabağında
üzün ağ olsun sənin.
Elə güman etmə ki,
anama bundan belə
kömək gərəkdir, kömək.
Mənə təkcə, ay oğul,
yaxşı sorağın gərək.
Qızım, o şəkildə sən
Qalstuksuz köynəyi,
qırxıq başı görürsən.
Mən isə o şəkildə
mənə mehriban olan
baxışları görürəm.
O mehriban baxışdan
ürəyimdə bağlanan
naxışları görürəm.
İndi o mehribanlıq
itib gedibdir artıq.
Bu şəkildə o, ancaq
yaşayır, bir yaxşı bax!
Mənim oğlum burdadır,
ona toxunma, aman!
O indi səninkidir,

mənimkiydi o zaman!
Keçənlər unudulsun!
Özü qoy sənin olsun.
Mehriban illərini
kağız üstdə saxlayan
kölgəsi bəsdir mənə.
Mən onu dəyişmərəm
oğlumun qazandığı
bugünkü şöhrətinə!

*Riqa. İyul, 1960*

## SƏN BİLİRSƏN, MƏN DUYURAM

Çox şeyi bilmirik bu dünyada biz,
Dərk edir əqlimiz, duyur qəlbimiz.
Özgəsi dəlillə, sübutla aşkar
Bilmədiyin şeyi sənə anladar.
Duymadığın şeyi dünyada bir kəs
Sənə hiss etdirib duydura bilməz.

Budaq xırda-xırda düyməçələnmiş,
Çiçəyi üstündə şehlər çilənmiş.
Deyirəm: - Budaqda gözəlliyə bax!
Deyirsən: - Bəhrəsi yaxşı olacaq!

Ağ-ağ daşlar kimi səpələnibdir
Çöllərə, düzlərə qoyun-quzular.
Deyirəm: - Quzunun tükünə bax bir!
Deyirsən: - Kababı çox gözəl olar!

Arılar, arılar uçub anbaan,
Öpür çiçəklərin gül yanağından;
Deyirəm: - Nə gözəl uçur arılar!
Deyirsən: - Balının cana xeyri var!
Sən də bir adamsan, mən də bir adam,
Ancaq sən bilirsən, mənsə duyuram.

Şair, öz qəlbindir yaşadan səni,
Qəlbiylə göylərə ucalır insan.
Hamı bilə bilər sən bildiyini,
Ancaq duyduğunu sən tək duyursan.

*May, 1960*

## BAKI

Bakı, beşiyisən elmin, sənətin -
Qədimdən süzülən mədəniyyətin.
Haqqın öz yolunu göstərdin mənə,
Uçmağa qanadı sən verdin mənə.

Sən üzdün başını sisianovların,
Yolun yoxuş oldu, dərdin min oldu.
Sənin öz sərvətin, sənin öz varın
Əsrlər boyunca düşmənin oldu.

Qala bürcündəki daşlara bir bax;
Görürəm köksündə min yara izi;
Babalar oradan od yağdıraraq,
Qorumuş düşməndən şərəfimizi.

Dişlərə bənzəyir o daşlar çin-çin,
Əcdadın şərəfi bizə əzizdir.
Ağaran daş dişlər yadellilərin
Üstünə qıcanan dişlərimizdir.

Səndən qanad aldım uçmaq üçün mən;
Gözümə nur verdin, əlimə qələm.
Bakı, ömrüm boyu desəm də səndən,
Mən yenə borcunu verə bilmərəm.

*Mart, 1960*

## TORPAQ

Biz torpaqdan göyərmişik,
Bir ot kimi, ay insanlar!
Bu torpağın sinəsində
Göylərin də öz sirri var.
Bir rəngi var bu torpağın, -
O qaradır, o qaradır.
Bircə rəngli qara torpaq
Güllərdə min rəng yaradır.
Hər ağrıya, hər acıya
Əsl çara torpaqdadır.
Göylərin də min bir sirri
Yenə qara torpaqdadır.
Aya qalxdı, göyə qalxdı,
Bu torpaqdan yarananlar.
Ölüm önündə diz çökdü
Özünü Allah sananlar.
Çox-çox uzaqlardan gəlir
Bu torpağı vətən edən
Ataların qalib səsi.
Bu səs həm də bu millətin
Kökdən gələn fəlsəfəsi!
Hər bir dərdə, hər azara
Əsl çara torpaqdadır.
Hər kəsin də üz ağlığı
Yenə qara torpaqdadır.

*May, 1960*

## YÜZ ÖMRÜN SƏSİDİR...

*S.Rəhimovun anadan olmasının*
*60 illiyi münasibətilə*

Sənə şer yazım, dedim, qardaşım,
Bu bayram günündə, bu şad günündə;
Masamın üstünə əyildi başım,
Cilidlər dayandı gözüm önündə.

Min hava eşitdim bir sarı simdə,
Qəmərin gözündə yaş giləlendi.
Böyüyüb anbaan nəzərlərimdə
Azərbaycan oldu o Şehli kəndi.

Səni oxuduqca zirvəsində qar
Çiyni yapıncılı dağlar göründü.
Qaloşlu adamlar, şərbətalılar
Əyilib önümdə yumağa döndü.

Dindi qulağımda ildırım səsi;
Elə bil qayalar yerdən oynadı.
Dağlardan töküldü dağ şəlaləsi,
Yarpaqlar əl çaldı, güllər oynadı.

Xəyalım dolaşdı eli, mahalı,
Könlümə baş vurdum mən neçə kərə.
Gördüm ki, havalı bir dağ qartalı
Sıldırım qayadan qalxdı göylərə.

Sətirlər gül açdı varaqlarımda,
Sözlər: «Bu sənətə məftunam», - dedi.
Mən səni andıqca, qulaqlarımda
Aynalı gurladı, Bozat kişnədi.

Yad səsi qəlbinə qoymadın yaxın,
Kitablar bağlandı könül səsindən.
Aldı öz gücünü ilham qaynağın,
Xalqın hikmət dolu söz xəznəsindən.

Ana yurdumuzun vurğunu Vurğun
Bu bayram günündə sağ olaydı kaş!
O, səni bənzətdi söz ordumuzun
Çox-çox uzaq vuran topuna, qardaş!

Bu həyat, bu dövran yaşadar səni,
İlhamı həyatın özündən aldın.
Əzmini, gücünü, cəsarətini
Dünəndən almadın, bu gündən aldın.
Ağardı saçların masa dalında,
Qocaldın sənətin cəng-cidalında.

Özün qocaldıqca, qardaşım, nə qəm,
Sözün cavanlaşır günbəgün sənin.
Həyat bir aləmdir, sənət bir aləm,
Yüz ömrün səsidir bir ömrün sənin!

*Mart, 1960*

## EY ŞAİR,
## SƏN HAQLISAN

*Rəsul Rzanın anadan olmasının 50 illiyinə*

«Sən ey mahcamal,
Səndədir kamal
Ey gözəl nigar,
Mən diyar-diyar
gəzərəm səni;
Bir çiçək kimi
Üzərəm səni».
Qafiyələr gözəldir,
Ancaq,
Fikir qafiyəni yox,
Qafiyələr fikirləri düzəldir.
Bu sözlərin nə canı,
nə isti nəfəsi var.
Ancaq bir parıltısı,
bir də küylü səsi var.
Fişəng kimi gurlayır
aləmə düşür səsi,
Ancaq bir sərçəni də
öldürə bilməz onun
bər-bəzəkli gülləsi.
Vəzni sözlə doldurub
Qafiyəylə oynamaq.
Daz başa nahaq yerə
Daraq çəkməkdir ancaq!

Sənət gülüstanına elə sözlər əkək ki,
Orda alaq olmasın.
Qafiyən çolaq olsa, zərəri yoxdur, təki
Fikrin çolaq olmasın.
Min illik şeirimizdə təzə cığırlar açan
Mənim məslək yoldaşım,
Açdığı təzə yolda hələlik tək yoldaşım!
Deyirlər: - Vəznin sənin tez-tez dəyişkən olur.
Deyirsən: - Bu vəzndə fikrin yolu gen olur.
Vəzn gərilməlidir dövrün əsəbi kimi,
Qoy o tez-tez dəyişsin əsrin tələbi kimi.
Üzünə gülə-gülə
Deyirlər: - İnsaf elə,
Axı, köhnə bazara
Təzə nırx qoymaq olmaz!
Deyirsən: - Zaman ötür, bir yerdə saymaq olmaz.
Deyirlər: - Nizamiyə, Füzuliyə, bax, barı.
Deyirsən: - Sizdən artıq mən sevirəm onları.
İstəyirəm əsrimi, zəmanəmi mən duyam:
Mən də onlar tək, axı, öz əsrimin oğluyam.
Deyirlər: - Misraları bölmə belə tən yarı,
Axı onda çox olur sətrin dolanbacları.
Deyirsən: - Şeirim mənim öz əsrimə baş əyir,
Vəznim də öz əsrimin yollarına bənzəyir.
Deyirlər: - Qafiyən də yan-yana, qoşa gəlmir;
Vallah, heç xoşa gəlmir.
Deyirlər ki: - Bu ağdır,
Sənin qafiyələrin bir-birindən uzaqdır.
Deyirsən: - Bilirəm mən,
Mənim qafiyələrim gen düşür bir-birindən,
Əli əlimdən çıxan cənublu qardaşım tək,

Öz torpağım, daşım tək.
Ey Rəsul, sən haqlısan,
Çünki sən öz əsrinə
Daha artıq bağlısan.
Sənət gülüstanına qədəm basandan bəri,
O köhnə ölçüləri
Cəsarətlə sən atdın,
«Məna, məna», - demədin,
Sən mənalar yaratdın!

*Aprel, 1960*

## GÜNBATANDAN GÜNDOĞANA

Bu yerlərin mənzərəsi gözəl olur axşamçağı,
Göy üzündə şəfəqlərdən tac qurulur axşamçağı.
Günəş qızıl qələmilə naxış çəkir üfüqlərdə,
Təbəssümü göy sularda gülür göy də, gülür yer də.
Buludlar al şəfəqlərdən taxıb sanki boyunbağı,
Qəriblikdən bir əsər yox bu yerlərdə axşamçağı.
Al buludlar xəlbir kimi dəniz üstə nur çiləyir,
Sarı telli şəfəqlər də elə bil ki, nəğmə deyir.
Günəş batır dəniz üstdə ocaq kimi yana-yana,
Gün əks edir öz nurunu günbatandan gündoğana.
Batan günəş, doğan günə qurban verir öz canını,
Batanda da unutmayır doğulduğu məkanını.

*Riqa. İyul, 1960*

## TARİX KİTABI

### *(Mənzum nağıl)*

*Xalqın tarixini bilməyən insan*
*Özünü tanımaz, sözünü bilməz.*
*Səfalı çeşmədən su içər heyvan,*
*İçdiyi çeşmənin gözünü bilməz.*

Qədim zamanlarda bir qoca loğman
Ayrılıb dünyanın qeylü-qalından
«Xalqın tarixini öyrənim», - deyə,
Çəkilir bir müddət xəlvət guşəyə.
Tökür qabağına min ildən bəri
Yazılmış mamırlı kitabələri...
Daşlar üstündəki izlər, naxışlar,
Qədim əsləhələr, kotanlar, xışlar
Ona min əfsanə pıçıldasa da,
Keçilən yollardan min sirr açsa da,
Bir gizli nöqtədə dolaşır loğman.
Bu sirrə tarixin özü də heyran!..
Suallar cavabsız, alim inadkar,
Bir anlıq geriyə o çəkilməyir.
Nə qədim kitablar, nə daş yazılar
Bu gizli nöqtəni aça bilməyir.
Nəhayət, əlinə keçən bir varaq
O gizli xəznəyə bir açar olur;
Alimin qəlbinə çəkilir min dağ,
Xalqın keçmişindən xəbərdar olur.

O gizli nöqtədə:
bir yadelli şah
Böyük tarixini danmış bu xalqın.
Demiş: «Yer üzündə bir mənəm allah!»
Arzusu qəlbində yanmış bu xalqın.
O, xalqı talamış, doymamış yenə;
Sinəsi üstündə bostan da əkmiş.
Xalqın adətinə, ənənəsinə,
Dilinə, ruhuna qılınc da çəkmiş.
Həmin bu nöqtədə itibdir tamam
Bu xalqın tarixi, həm də varlığı.
Elə buna görə qoca loğmanın
Bir fayda verməyir inadkarlığı.
Özgə bir varaqda oxuyur loğman:
Böyük bir tarixçi elə o zaman
Bu müstəbid şahın qəsdindən bəri
Xalqın yaşadığı müsibətləri
Yazmış birər-birər ürək qanıyla,
Yaşatmış tarixi öz vicdanıyla.
Yazdığı əsəri bu böyük insan
«Quşqonmaz» dağında gizlədir ancaq.
Dörd yüz il keçsə də həmən o vaxtdan,
Sirrini kimsəyə verməmiş o dağ.
Loğman bu xəbərdən gəlir riqqətə,
Əl çəkir o qədim kitabələrdən.
Dözüb hər cəfayə, hər əziyyətə,
«Quşqonmaz» dağına yollanır həmən.
Dağın zirvəsində beş qış, beş bahar
Çalır külüngünü daşlara loğman.
Nə dəli tufanlar, nə gur yağışlar
Onu döndərməyir öz inadından.

Gecəli-gündüzlü əlləşir yenə
O, çata bilməyir dağın təkinə.
Bu qoca vaxtında o, Fərhad təki
Dağa külüng vurur, qayalar çapır;
Yorulmaq bilməyir, ürəyindəki
Böyük məhəbbətdən təskinlik tapır.
Məhəbbət! Məhəbbət ucaldır bizi,
İsidir həmişə ürəyimizi.
Şaxta da, tufan da kəsmir yolunu
Axtardığı küpü tapmasa da o,
Çəkdiyi cəfaya peşman olmayır,
Külüngü «yorulur», o yorulmayır.
- İşimi qoymaram, - deyir, - yarıda.
Yaxındakı kəndin adamları da
Gəlir köməyinə onun. Nəhayət,
Elə zənn edirlər, bu qoca, əlbət,
Belə ki, inamla dağ-daşı yarır,
Yəqin ki, təkindən qızıl axtarır...
Loğman da onların suallarına
Elə cavab verir:
- Burda qızıl var!
Cavabdan xoşlanıb, köməkçün ona
Axışır kənddəki bütün cavanlar.
O, qızıl axtarır! Düz demişdi o.
Gəzdiyi küpdəydi loğmanın varı.
Ancaq bu qızılın nə olduğunu
Anlaya bilmədi kənd adamları
On il dağ çapdılar. Nəhayət, bir gün
Küpə dəyib durdu ucu külüngün.
Küpü ehtiyatla çıxartdı loğman,
Min fikir karvanı ötdü başından.

Süzüldü alnından tər damla-damla;
Onun dörd tərəfi doldu adamla.
Bir işıq oynadı nəzərlərində,
Bir qədər duruxub dondu yerində.
Sonra açdı küpü o yavaş-yavaş.
Nə görsə yaxşıdır?..
Qızıl və qaş-daş!
Demək, külüng vurmuş o, hədər yerə;
Ömründən on ili vermiş yellərə!
Loğmanı güldürmür bu dövlət, bu var,
Ürəyi, vicdanı zəngin olanlar
Qaş-daşı neyləyir, zəri neyləyir?!..
Loğmanın arzusu daşlara dəyir!
Deyir: - Qızıl, qaş-daş güldürməz məni,
Mənə qızıl kimi sözlər gərəkdir.
Düşünür: «Millətim öz tarixini
Demək bilməyəcək, bilməyəcəkdir...»
Uşaqtək ağlayır o, yana-yana,
Bu dərd ağır gəlir qoca loğmana.
Qışqırır, səsinə qayalar dinir,
Meşə uğuldayır, dərə səslənir.
Qaçır dəli kimi o yan-bu yana.
Adamlar heyrətlə baxır loğmana.
Bir daha gözünü o, küpə dikir;
Yazıq, özbaşına qəhqəhə çəkir.
Dırmanır qayaya o, birdən-birə
Buraxır özünü qayadan yerə...
Hörmət, ehtiramla həmən o dağda
Camaat dəfn edir bədbəxt loğmanı;
Ağlayır bu hala daş da, torpaq da,
Dolaşır bu xəbər bütün dünyanı.

Küpdəki qızılı bölüşmək üçün
Deyirlər, yığılır camaat bir gün.
Kəndin ağsaqqalı, möhtərəm ağa
Küpü boşaltmaqçün keçir qabağa.
Yığılır ətrafa camaat bütün,
Hamının gözündə bir heyrət, təlaş.
Ağzını aşağı çevirir küpün,
Beş-on qızıl düşür, beş-on da qaş-daş.
Hamı heyrətdədir... Ağsaqqal yenə
Baxır... bir də baxır küpün dibinə.
İnanmır gözünə... Çatır qaşını;
Saxlaya bilməyir o, göz yaşını.
Saqqalı uzunu süzülür dən-dən,
Əlini uzadıb küpün dibindən
Bir kitab çıxarır, qalın bir kitab:
Yel əsir, qatbaqat çevrilir kitab.
Çevrilir tarixi bizim ellərin,
Köksünü ötürüb o, dərin-dərin
Hönkürüb ağladı, susub inlədi,
- Bunu axtarırmış o mərhum - dedi!

*Riqa. İyul, 1960*

## RƏİSİN MASASI

Rəis qəzəblənib var qüvvəsilə
Çaldı yumruğunu masaya birdən.
Masa cırıldayıb öz cır səsilə,
Söylədi: - Nə yaman qəzəblisən sən?
Axı, hirslənməyə indi səbəb yox,
Zəif bir adamsan, qəzəblənmə çox.
Rəisə toxundu masanın sözü,
Dedi: - Sən mənəmi zəif deyirsən?
Axı, qüdrətimə bələdsən özün,
Neçə yüz nəfərin böyüyüyəm mən.
Kimlə danışırsan, sən, axı, kimlə?
İnsan taleyini həll edirəm mən.
Yalnız bir sözümlə, bir möhürümlə
Dərələr dağ olur, qayalar düzən.
Qapımın ağzında, əli döşündə
Hər gün yüzü durur əmrə müntəzir.
Yüz əmr verirəm bəzən bir gündə.
Səndə bu cəsarət, bu cürət nədir?
Masa gülümsünüb dedi: - Bilirəm,
Gücünə, hökmünə bələddir aləm.
Ancaq, ey qədirsiz, nanəcib insan,
Sən, axı, o gücü məndən almısan!
Sən kimsən, öz əqlin, qüdrətin nədir?
Sənin bütün gücün, axı, məndədir.

Ölməzmi ayrılsa balıq dənizdən?
Bir yoluq sərçəsən məndən ayrı sən.
Axı, bu qüdrəti mən verdim sənə;
Sən heç ikən, hörmət gətirdim sənə.
İndi ki, belədir, çıxıb özündən
Vurma yumruğunu mənə bir də sən!

*May, 1960*

## GÖZ YAŞI

*Həkim Cavanşir Babayevə ithaf edirəm*

Qədəh bir tərəfdə, mey bir tərəfdə,
Rübab bir tərəfdə, ney bir tərəfdə
Boşalır badələr, dolur badələr;
Əlləri döşündə əsilzadələr
Dayanmış qul kimi şahın önündə,
Şah işrət məclisi açmış bu gün də.
Çalıb çağıran kim, mahnı deyən kim,
Ortada quş kimi rəqs eliyən kim.
Şah süzüb məclisi bağırdı birdən:
- Ey, kəsin! Yoruldum bu nəğmələrdən.
Bezdirib könlümü rübab da, saz da;
Bülbülü dinləyək gəlin bir az da.
Əsl səs ondadır, - deyə öyündü,
Hamı divardakı qəfəsə döndü.
Bülbül oxumadı;
Qızdı hökmüdar.
Dedi: - Neçin susdun, sən ey nəğməkar?
Bülbül yenə susdu.
- Əmr edirəm mən,
Oxu, nəşələnim nəğmələrindən!
Bülbül oxumadı, kiriyib durdu,
Hirsindən şah əsir, şah uçunurdu.
Düşdü əl-ayağa dərhal əyanlar:
- Bülbül əmr eləyir, axı, hökmüdar.
Dağlar da baş əyir onun əmrinə,

Sən niyə susursan, nə olub sənə?
Burax bu oyunu, yersiz şıltağı,
Şah sənin səsinə vurğundur, axı...
Bülbül oxumadı, susdu yenə də
Şirin nəğmələri dondu sinədə.
Əsdi şah, coşdu şah, qəzəbləndi şah;
Bir anda göylərdən yenə endi şah.
Çəkdi qılıncını...
Elə bu zaman
Göründü baş hərəm arxa qapıdan.
O gəlib önündə dayandı şahın:
- Qəzəbi keçibdir bizə Allahın -
Deyərək hönkürdü.
- Nə olub, nə var?
- Qızın xəstələnib, ulu hökmüdar.
- Necə? Xəstələnib? Nə zaman? - deyə,
O qalxdı quş kimi üst mərtəbəyə.
Soyuq su ələndi məclisə birdən,
Əyanlar əl açdı:
- Ulu Tanrı, sən,
Qıyma şahımızın tək övladına,
O gül parçasını bağışla ona! -
Deyib kiridilər...
Keçdi bir qədər.
Şah döndü,
Qurudu məclisdəkilər.
Şahın üz-gözündən zəhər yağırdı,
Kədəri sonsuzdu, dərdi ağırdı.
Dondu bədənində qanı bir anlıq,
Özü hiss etmədən o, yazıq-yazıq
Baxdı qəfəsdəki bülbülə sarı,

Döşəndi yanına gücsüz qolları.
Bülbül dilə gəldi elə bu zaman,
Od tökdü yanıqlı mahnılarından.
Məclis lal kəsildi bir an içində;
Ulduz parıldadı duman içində.
Bülbül inildədi, bülbül ağladı,
Bülbül oxumadı, sinə dağladı.
Könüllər oxşayan bir duyğuydu o;
Şahın yarasına məlhəm qoydu o.
Çiçəklər üstünə qondu duman, sis;
Bülbülə səs verib ağladı məclis.
Əyildi sinəyə o məğrur başlar;
Şahın da gözündən töküldü yaşlar.
Bülbül kiriyincə şah da dikəldi,
Qalxıb o bülbülün yanına gəldi.
Dedi: - Bayaq neçin oxumadın sən?
Bəs niyə əmrimi sən yerə saldın?
İndi yalvarmadıq, özün özündən
Oxuyub, əqlimi başımdan aldın.
Bülbül dilə gəldi:
- Əmr etdin bayaq,
Mahnıysa könüldən car olur ancaq.
Əmrlə, təhdidlə danışmaz ürək;
Bu böyük hikməti biləsən gərək!
Hökm ilə danışma mənlə bir də sən.
Bayaq eşitdiyin o bəd xəbərdən
Sarsıldın, qan dondu, can silkələndi,
Bayaq bir şah idin, insansan indi.
Mənim könül yaxan səsimdən bayaq
Nəşə istəyirdin, sən nəşə ancaq.
İndiysə, ey şahım, dərdü-qəmindən

Dinləmək istədin fəryadımı sən.
Ancaq əmr etmədin, susdun bir anlıq,
Baxdın mənə sarı sən yazıq-yazıq.
Baxışın qəlbimə od saldı, yandım;
Mən də öz dərdimi, qüssəmi andım.
Verdim nəğmələrə dərdü-sərimi...
Şahın gözlərindən yenə sel kimi
Yaşlar süzülürdü...
Şah ağlayırdı,
Könül kitabını varaqlayırdı.
Şah dedi: - Anladım mən səni, bülbül;
Anladım qəlbindən keçəni, bülbül.
İstə muradını, söylə arzunu,
Bir anın içində güldürüm onu.
Məndən bir şey istə, arzunu söylə;
Mənim xəzinəmdən bir dilək dilə.
Bülbül dilə gəldi: - Ulu hökmüdar,
Mənə gərək deyil bu dövlət, bu var.
İndicə göylərə qalxıb ucaldım,
İstədiyim şeyi mən səndən aldım.
- Aldın?
- Bəli, aldım, dinlə, hökmüdar!
Dövləti neyləyir əsl sənətkar.
Şahim, qəribədir mənim aləmim;
Mənim öz kədərim, mənim öz qəmim,
Bayramım, şənliyim, toy büsatımdır;
Sənin göz yaşların mükafatımdır.

*Riqa. İyul, 1960*

## HƏKİMLƏ SÖHBƏT

Ürəyim sancan kimi
həkim dostum tutaraq
Dərhal mənim nəbzimi
Sayır: - Bir, iki...doxsan...
Sən özünə baxmağa
gör nə qədər soyuqsan.
Yox, dostum, belə olmaz,
Dincəl, çox da işləmə.
Bir sümüksən bir dəri,
Rahatlıq ver beyninə;
At bu düşüncələri.
Əyləşib nüsxə yazır:
- Bir də... iç bu dərmanı
hər gün xörəkdən əvvəl.
Nahardan sonra dincəl.
Daha nələr, ay nələr -
Uzun sicilləmələr...
- Sənə qurban, ay həkim,
Bu qayda-qanunlara
Dözə bilməz ürəyim.
«Dur» - demək olarmı heç
hava ilə bərabər
Enib-qalxan civəyə?
Qəlbi salmaq olarmı
Balaca çərçivəyə?
Ancaq sözün doğrudur,
Sən haqlısan dünyada
Bir insan ömrü qədər

Yaşamaq istəyənlər,
Sözsüz gözləsin gərək.
Bu qayda-qanunları
Əzbər bilsin onları...
Ancaq insan xəyalı
heç bir qanun-qaydaya
hələ səcdə qılmamış.
Əbədiyyət naminə
yaradan insanlara
qanunlar yazılmamış.
Sərhəd tanımır xəyal,
O düşüb dəmdən-dəmə
İstədiyi vaxt uçur -
İstədiyi aləmə.
Əgər mən çırağamsa,
Şirin düşüncələrim
İşığımdır, ay həkim;
Məni göyə ucaldan
O xoş düşüncələrdən
Axı, necə əl çəkim?
Axı, necə əl çəkim
Qəlbimə ziynət verən
Dövlətimdən, varımdan?
Bu dünyada ən əziz
Vəfalı dostlarımdan?
Onlar mənim ruhuma,
Qəlbimə qanad verir;
Onlar mənə həyatın
Bəzəyilə bərabər
Özəyini göstərir.
Sənə qurban, ay həkim,
Bu böyük dövlətimdən

Axı, necə əl çəkim?
Mən necə işləməyim?
Axı, vəcdə gəlirəm -
Mən ancaq çalışanda -
Yaşayıb dincəlirəm.
Ürəyim duyğularla
Dolur, dolur günbəgün.
Onu boşaltmaq üçün
Yazam, işləyəm gərək,
Yazmasam, partlar ürək.
Sən nəbzimə baxanda
Yeyin döyüntüləri
Sayma, sayma bir də gəl.
Aman həkim, ən əvvəl
Qəlbin dilini öyrən.
Sən o dili bilmədən
Nəbzimə əl
Basma gəl!
Gör, axı, o, nə deyir,
Dünyadan nə istəyir.
İçimdə dərin-dərin
Vuran döyüntülərin
Sən bilsəydin dilini,
Deyərdin:
Bax, beləcə
Qoy döyünsün o ürək!
Ona dinclik nə gərək!
Deyərdin: - Səndə möhkəm
Aslan ürəyi vardır.
Reseptin mübarizə,
Dərmanın arzulardır.

*Riqa. Avqust, 1960*

## GÖZƏLLİK

Baltik sahilində qürub çağında
Göyləri seyr etmək necə gözəlmiş!
Dənizin üstündə, göyün tağında
Al-əlvan boyalar yarışa gəlmiş.

Hüsnünü bir yerə yığıb kainat
Elə bil göylərdən yerə enibdir.
Yanan buludlardan dənizə qat-qat
Payız yarpaqları səpələnibdir.

Yeddi rəng, yeddi səs tanıyırıq biz;
Bəs hardan bu qədər boyalar, səslər?
Yeddi min səs ilə oxuyur dəniz,
Yeddi min rəng ilə bəzənib göy, yer.

Dəyişir gör necə suyun rəngi də
Qabarıb endikcə dalğalar bir-bir.
Ana təbiətin bu ahəngi də
Elə bil müqəyyəd qafiyələrdir.

Rənglər, mənzərələr dəyişib dönür
Qıvrılıb axdıqca yanar buludlar.
Qızılı şəfəqlər alışıb sönür,
Hər anın öz rəngi, öz ahəngi var.

Rənglərin ahəngi, hüsnü, cilvəsi

Ən gözəl nəğməni, şeiri andırır.
Gözəllik ucaldır duyan hər kəsi,
Ürəyi, duyğunu cilalandırır.

Bu gözəl lövhələr döndərib dağa,
Fərəhlə doldurur ürəyimizi.
Bu gözəl lövhələr həssas olmağa,
Duyub düşünməyə çağırır bizi.

Gəlin, gözəllikdən ilham alaq biz,
Yalnız bu eşq ilə baxaq hər şeyə.
Ucalaq, ucalaq, hey ucalaq biz,
Kiçilib enməyək eybəcərliyə.

Xırda duyğulara könül verməyək,
Gözəl duyğularla yaşasın ürək.
Yerdə də, göydə də, adamlarda da
Gözəllik axtaraq, gözəllik görək!

*Riqa. Avqust, 1960*

## SON NÖQTƏ

Ey mənim həyatımın
son anı, son nəfəsi,
ürəyimin son səsi!
Bilmək istəmirəm mən,
Sən nə vaxt gələcəksən.

Haçan gəlirsənsə, gəl,
gəlmə arzudan əvvəl.
Sən ömür kitabımın
vergülü olma ancaq,
nöqtəsi ol, amandır!
Arzudan əvvəl ölmək
Yamanlardan yamandır.
Ömrün ötən illəri
o ömür kitabımın
qoy olsun fəsilləri.
Ayları sərlövhələr,
günləri səhifələr,
anları sözlər olsun!
Ey ömrümün son anı,
axırda bu kitaba
əlinlə vergül deyil,
yalnız nöqtə qoyulsun!

*Avqust, 1960*

## QOY ÖMRÜM ÖTÜŞSÜN BORANDA, QARDA

*(Qağayı kimi)*

Uzadıb sakitcə əl-ayağımı,
Ölmək istəmirəm yatağımda mən.
Boşaldıb havaya söz darağımı.
Yanmaq istəmirəm öz yağımda mən.

Sirdaşım olmasın nə fəryad, nə ah,
Qoy ömrüm ötüşsün boranda, qarda.
Ölmək istəyirəm əlimdə silah,
Əqidəm yolunda vuruşmalarda.

Həkimlər yoxlayıb gündə nəbzimi,
Sinəmə çəkməsin dağı dağ üstə.
Vüqarla dayanan ağaclar kimi
Ölmək istəyirəm mən ayaq üstə.

Ölmək istəmirəm gözlərimdə nəm,
Anamın qu tüklü nazbalışında.
Ölmək istəyirəm əlimdə qələm,
Qarşımda kağızlar, masa başında.

Bir də görürsən ki, sahil boyunca
Uçur qağayılar dəstəbədəstə;
Üzməkdən, süzməkdən bezib doyunca,
Qonur sahildəki qayalıq üstə.

Quşa da məskəndir anamız torpaq;
Yerdən qüvvət alır daim uçanlar.
Deyirlər, torpağa qonsa da, ancaq -
Can verməz ölümə sahildə onlar.

Üzür qağayılar bir yelkən kimi,
Sahil ləpələri üstündən aşır.
Ölümü uzaqdan hiss edən kimi,
Qıy vurub sahildən tez uzaqlaşır.

Dəli dalğalara vurub özünü,
Həyata mərdanə yumur gözünü.
Ey könül, quşdakı xislətə bir bax,
Dalğalar qoynunda can verir ancaq!

Sirdaşım olmasın nə fəryad, nə ah,
Qoy ömrüm ötüşsün boranda, qarda.
Ölmək istəyirəm əlimdə silah,
Əqidəm yolunda vuruşmalarda.

*Riqa. Avqust, 1960*

## KEÇMİŞ-GƏLƏCƏK

Mən tarixdən «beş» alardım,
Fərəhimdən ulduzlara ucalardım.
Qürurumdan yerə-göyə sığmazdım heç...
Mən böyük bir həqiqəti
Gec anladım, əfsus ki, gec...

Mən unutdum gələcəyi,
ötənlərə könül verdim...
Keçmişləri bilməyimlə öyünərdim.
Bilmədim ki,
onu bilmək deyil hünər.
Öz işini tamamlamış ötən illər.
Min il əvvəl olanları bilsəm də mən,
bir an sonra olacağı bilməyirəm.
O bir anın qarşısında baş əyirəm.

*Oktyabr, 1960*

## TƏBRİK

*Gözəl sənətkarımız*
*Ələsgər Ələkbərova*

I

Bu gün daş olan qəlbin
sabah mum olur sənin;
Diləklərin gah azad,
gah məhkum olur sənin.
Sən həm könül tikirsən,
sən həm könül qırırsan.
Bir ürəyə özün de:
həm quzu dincliyini,
həm də şir qəzəbini
necə sığışdırırsan?

Nə qədər ki, qəlbinlə
bu sənətə bağlısan,
Sən fağırdan sadəsən,
şahdan təmtəraqlısan.

II

Adam bir dəfə ölür
Öldüyünü bilmədən.
Ölümün dəhşətini
yaşamısan, duymusan

Yüz dəfə, min dəfə sən.
Otellonun, Elxanın
böyük faciəsini
öz faciən sanmısan;
Sən bu «ölümlərinlə»
ölməzlik qazanmısan.

*Noyabr, 1960*

## ÖZÜNƏ XƏYANƏT

Sənin məhəbbətin nifrətdir ancaq,
Hiylədir ən böyük, müqəddəs andın.
Səni təbiətmi yaratdı alçaq,
Yoxsa həyatdamı bunu qazandın?

Qəlbin bircə dəfə inildədimi,
Sən heç utandınmı əməllərindən?
Oynadın həmişə aktyor kimi,
Səhnə zənn elədin bu həyatı sən.

Qulaq da asmadın qəlbin deyənə,
Götürdün əlinə hiylədən çomaq.
Heç deyən olmadı «düz adam» sənə,
«Bacaran adamdır», - dedilər ancaq.

Tük də yayınmadı sənin gözündən;
Kələkdən, hiylədən sanki doğuldun.
Qaçdın ömrün boyu özün-özündən,
Yalnız keyflənəndə sən özün oldun.

Gəl qoyma özünü aslan yerinə,
Həyat heç kəs üçün deyil oyuncaq.
Özünü bənzətmə özgələrinə,
Nəsənsə özün ol, özün ol ancaq.

Sənin hiylələrin, fırıldaqların

Görən gözün oldu, düşünən ağlın.
Gülüşün hiylədir, yerişin saxta,
Sənin bu dünyada hər işin saxta.

Özgənin səsiylə danışanda sən,
Özgə dodağıyla qımışanda sən,
Özgənin fikrini öz fikrin kimi
Deyəndə heç dilin titrəmədimi?

Gizlədib özünü özgələrindən,
Saxta pərdələrə bürünəndə sən,
Necə sığışırsan öz varlığına?
Vərdiş eləmisən bəlkə sən buna?

Əgər bu vərdişsə, itirdik səni!
Birinin birinə xəyanətini
Mən çox eşitmişəm, a nankor insan,
Sən özün özünə xain çıxmısan!

*Noyabr, 1960*

## GÜNÜN AYAQ SƏSLƏRİ

Bu il qoca dünyamız
bir daha silkələndi.
Neçə xalqın üzünə
haqqın nuru çiləndi.

Əsrlərlə qul olan
ucaltdı öz səsini.
Dedi: - Yenidən quraq
gəlin yer kürəsini!

Mənzərəsi dəyişir
gün-gündən anam Yerin.
Öz haqqını zor ilə
qazanmış millətlərin.

Bayrağı dalğalandı
dünyanın hər yerində.
Millətlərin arzusu
güldü əməllərində.

Sərvəti bu yerlərin,
dövləti bu yerlərin.
Artıq çıxır əlindən
bir-bir cahangirlərin.
görürəm mən, görürəm

cahangirlik bir azdan
Zamanın əllərilə
asılacaq boğazdan.

Eşidirik biz bunu
günün ayaq səsində;
görürük Şərqdən doğan
günəşin cilvəsində.

*Noyabr, 1960*

## İSTƏYİRƏM

Bir şirin, bir gözəl söz istəyirəm,
Hər sözü, söhbəti düz istəyirəm;
Bircə baxışıyla yanan qəlbimi
Görməyi bacaran göz istəyirəm.

*Dekabr, 1960*

## GÜLÜŞLƏR

*Komediya ustası Sabit Rəhmana*

Gülüş var, könlünə fərəh gətirir,
Ucaldır quş kimi səni göylərə.
Gülüş var, hiylədir, qılığa girir,
Çırpır mənliyini göylərdən yerə.

Gülüş var, dərindir, apar yasa da,
Töhfəsi ələmdir, bir də göz yaşı.
Gülüş var, çay kimi şaqqıldasa da,
Dayazdır, görünür dibinin daşı.

Gülüş var, qanmazı onunla qandır,
Onun mənasına dal dərin-dərin.
Gülüş var, mətləbi oxdur, tikandır,
Sancılır bağrına möhtəkirlərin.

Gülüş var, bağrında açılır səhər,
Güclüdür min sözdən, min bir cümlədən.
Kitaba sığmayan incə fikirlər
İncə bir gülüşlə deyilir bəzən.

Gülüşlər ustadı deyirik sənə,
Sənət taleyinə güləndən bəri;
Gecələr sübhəcən bizim səhnəyə
Axır otağından gülüş selləri.

Sakitcə işləyir qələmin, əlbət;
Eşitmək olmayır onun səsini.
Hər sətrin sonunda o yazır fəqət
Neçə min insanın qəhqəhəsini.

Gəlin, qınamayın heç də loğmanı
Dərmanın içinə bal qatan zaman.
Sən də gülə-gülə acı dərmanı
Şərbətin içində aşılayırsan.

Sənin gülüşündən gecə diksindi,
Bağrına xal düşdü qatı zülmətin.
Mirzə Fətəlinin silahı indi
Sənin əlindədir, ay qardaş, sənin!

Sabit, sən nə qədər bizi güldürdün!
Gülüş!.. Çox şeyləri öyrəndik ondan.
Xalqa bəxş etdiyin gülüşlər bu gün
Dönüb gül-çiçəyə, yağsın başından.

İncə fərəhisən düz könüllərin,
Əyri könüllərə vurdun min yara.
«Böyük günlər»ini yazıb ellərin,
«Toy»larla toy tutdun tor quranlara!

*Dekabr, 1960*

## VAĞZALI

Ay vağzalı, səsində
xışıldayır xəzəllər;
Sənin qanadlarında
uçur təzə yuvaya
bizim türfə gözəllər...

Sən yanğıya su səpib
könül müjdələyirsən;
İlk dəfə ər evinə
ayaq basan gəlinə
«Uğur olsun!» - deyirsən.
Səndə həm ayrılığın,
həm vüsalın əsli var;
Səndə iki ürəyin
əbədilik vəsli var.
Yarandın gəlinlərin
asta addım səsindən -
İki həsrətli qəlbin
birgə döyünməsindən.

Qız gedir asta-asta,
həm şaddır, həm nigaran;
Qız ayrılır öz isti,
doğmaca yuvasından.
Qız gedir asta-asta...
ancaq baxışlarından
qəm kölgəsi çəkilmir;

Bu təzə yuvasını
isidə biləcəkmi?
hələ bilmir, o bilmir.

Ay vağzalı, səsində
xışıldayır xəzəllər,
Sənin qanadlarında
uçur təzə yuvaya
bizim türfə gözəllər.

Qəm də xoşdur, fərəh də
hər biri öz yerində.
Mən həm kədər duyuram,
həm də fərəh duyuram
sənin pərdələrində.

Anaların dililə
hər pərdən asta-asta
bizə elə bil deyir:
«görəsən, ər evində
balamı nə gözləyir?»

*Dekabr, 1960*

## UCALIQ

Qalxıb zirvəsinə uca bir dağın
Burdan seyr edirəm ənginlikləri.
Qəribə duyğular hey axın-axın,
Süzülür qəlbimə bayaqdan bəri.

Sonsuz genişliyə, bu ənginliyə
Baxıb nəfəs alır adam dərindən.
Uçmaq istəyirsən ucalıb göyə
Dağın göz qaraldan zirvələrindən.

Təmiz dağ havası... qabarır sinə,
Dağın zirvəsində bir qartalmıyam?
Baxıb təbiətin genişliyinə,
Düşünmək, düşünmək istəyir adam.

Axır dalğa-dalğa qəlbimə işıq
Hər dəfə çıxanda uca dağlara.
Deyirəm, nə qədər sığışdırmışıq
Geniş qəlbimizi dar otaqlara.

Genişlik içində heç olarmı ki,
Ürək də, arzu da genişlənməsin!
Deyirəm, elə bir ürək varmı ki,
Gözəllik önündə coşub dinməsin?

Elə bil qarşında dayanıb sənin
Gözəl bir lövhəsi Bəhlulzadənin.
Dilindən bu sözlər çıxır əlbəəl:

«Heyranam, bu hüsnə, mən də heyranam.
Nə qədər genişsən, nə qədər gözəl,
Ay mənim Vətənim, ay mənim anam».

Nə gözəl görünür dağdan bu yerlər,
Qıvrılıb ətəkdə bulud sürünür.
Uzaqdan baxanda kəndlər, şəhərlər
Necə bir-birinə yaxın görünür.

Uzaqdan baxanda elədir elə,
Çox gözəl görünür hər şey cahanda.
Ən çətin, ən uzaq arzular belə
Sənə yaxın gəlir gendən baxanda.

Bir kəndə min dəfə aşağıdan bax,
Onu tamam-kamal görə bilməzsən.
Yeddi kənd, üç şəhər görürəm ancaq
Bu dağın başında bir baxışla mən.
Bu Xanlar, bu Gəncə, bu Şıx, bu Tağlı,
Bu Azad, bu Morud, bu - Qaradağlı.

Ovcumun içi tək görürəm aydın,
Bir şey yayınmayır nəzərlərimdən.
Uzaqlar necə də yaxınmış, yaxın!
Çünki ucadayam, ucadayam mən!..

Əfsus, böyüdükcə əməllərimiz
Xırda duyğulara bəzən baş əydik.
Deyirəm, həmişə həyata da biz
Uca zirvələrdən baxa biləydik!

*Hacıkənd. İyul, 1961*

## DAĞ ÇİÇƏKLƏRİ

Çıxdım dağ başına bir səhər çağı,
Ayağım altında daşlar da dindi.
Mənə göz elədi hər gül yarpağı,
Ürək təzələndi, ruh təzələndi.

Ləçəklər üstündə baş-başa verib,
Dağın qara xallı kəpənəkləri.
Yallara, döşlərə xalçamı sərib
Al-əlvan naxışlı dağ çiçəkləri?

Dərib mən qoxladım onları bir-bir;
Bəlkə də buradır o cənnət özü.
Bunların bağbanı insan deyildir,
Təbiət özüdür, təbiət özü.

Qəlbin min sevdalı boş səsi deyil,
Özündən göyərən sözü gözəldir.
Oxşarı, təşbehi, kölgəsi - deyil,
Dünyada hər şeyin özü gözəldir.

Sürüdən kənarda gördüm bir çoban,
Otların üstündə dirsəklənibdir.
Lalələr boylanır yanaqlarından,
Papağı gözünün üstə enibdir.

Məni görən kimi qalxdı yerindən,

Ulduzlar töküldü kirpiklərindən.
- Bir ayrı hüsnü var, dedim - bu yerin:
Şair bu dağları salama gəlmiş.
Nə gözəl ətri var gül-çiçəklərin,
Elə bil dağlara ətir səpilmiş.

Çoban gülüb dedi: - Şairəm mən də
Sən dedin, güllərə mən bir də baxdım.
Bakıda üstünə ətir səpəndə,
De ki, dağ gülünü döşümə taxdım.

*İyul, 1961*

## YAĞIŞ VƏ TORPAQ

Dağların başından endi buludlar,
Yarpaqlar üstündə dindi buludlar,
Yağış çisələdi... qarışdı göy, yer.
Telini daradı çöllər bir anda...
İstidən qovrulan güllər, çiçəklər
Yudu əl-üzünü yağış suyunda.

Dəstə-dəstə axan pənbə buludlar,
Ağaclar başında burulur, yağır.
Göylərin döşündən süd əmir otlar,
Göydən yağış yağır, yoxsa nur yağır.

Təbiət dirçəldi, həyəcana gəldi,
Günəş gülümsündü dağlar başından.
Torpaq cana gəldi, yer cana gəldi,
Tıpır-tıpır yağan yay yağışından.

Yağış fərəhlənib öz əməlindən,
Dedi: təbiətin canı mənəm, mən.
Ey torpaq, sənin də hüsnün məndədir;
Mənim qüdrətimə bəs, sözün nədir?

Sən nəyə gərəksən gülsüz, çəmənsiz,
Bir çiçək açarmı bağrında mənsiz?
Suyumdan içməsə yer gilə-gilə,
Quruca torpaqla neyləyər insan?
Sən bu ürək açan gözəlliyinlə,

Tək mənə borclusan, mənə borclusan.
Söylədi yağışa yer gülə-gülə:
- Dostum, haqqı-sayı nə yaman dandın?
Məgər bilməyirsən, sən özün belə
Mənim nəfəsimdən, axı, yarandın.

*Hacıkənd. Avqust, 1961*

## GÖYGÖL

*Dostum Ə.İmamverdiyə*

Göygölə çox gəlmişəm,
Mürgü döyən sulara
Baxıb çox dincəlmişəm.
Yayın oğlan çağında,
Bu dağlar qucağında
Soyuqdan əsə-əsə,
Çox baxmışam Kəpəzə.
Bizim gözəl Göygölə
Dönə-dönə baxmışam,
Axşamına baxmışam,
Səhərinə baxmışam.

O uyuyan sulardan
Mən şeirimə dəmadəm
Rəng almaq istəmişəm,
Səs almaq istəmişəm.
Göygölün hər bucağı
Dağlarıyla bərabər,
Sözsüz bir şerə bənzər,
Səssiz nəğməyə bənzər.
Görən göz, duyan ürək
İmdada çatsın gərək,
Qoy dolaşsın bu yeri,
O sözsüz şeirləri,

O səssiz nəğmələri,
Suların qucağından
Qopara bilsin gərək!

Qopara bilməmişəm!
Dibsiz dərinliklərə
Mən vara bilməmişəm!
Bu dünyada əzəldən
Yeddi səs, yeddi rəng var.
Ən füsunkar gözəllik
Bu yeddilər içində
Qərar tutub boylanar.
Bəs neçin əl atıram
Mən yaxına, uzağa!
Göygölün öz hüsnünü
Köçürməkçün varağa
Səkkizinci səs gərək,
Səkkizinci rəng gərək,
Ayrı bir nəfəs gərək,
Ayrı bir ahəng gərək.

Könlümdəki ən incə
Titrək, həssas tellərə
Mən toxundum min kərə,
Gözəlliyin önündə
Ancaq... dondum min kərə.
İlhamın atəşinə
Donan qəlbim yanmadı.
Aylar keçdi, il ötdü,
Şeirim də yaranmadı.

Əsir etdi gözəllik
İlhamı da, sözü də.
Dedim: Bəlkə şeirdir
Gözəlliyin önündə
Donmağımın özü də!

Biz Göygölə baxanda
Yüz ilin ləzzətini
Duyuruq an içində.
Sözdən, səsdən gizlənib
Bu gözəllər gözəli
Yatır orman içində.
Suları inci-inci,
Ləpəsi narın-narın.
O başını söykəyib
Ayağına dağların
Yatır illərdən bəri -
Yuxuludur gözləri.
Sahildəki qumlara
Astaca ayaq basın,
Bizim dağlar gözəli
Yuxudan oyanmasın.

*Hacıkənd – Göygöl. Avqust, 1961*

## ZƏHMƏTİMİZ

Allah deyə-deyə min il, milyon il,
Dikildi insanın gözü göylərə.
Əvvəlcə xəyalı gəzdi səmanı,
Hələ getməsə də özü göylərə.

Yazdı zəkasının təntənəsini
İnsan ayağının izi göylərə.
Demə zəhmətimiz qüdrətimizmiş,
Ucaltdı torpaqdan bizi göylərə.

*Noyabr, 1961*

## BORC

Yığıldılar, gəldilər,
Nizamla əyləşdilər,
Bir fincan çay içdilər;
Mərhumun arvadına
«Başın sağ olsun» - deyib
Dağıldılar, getdilər.
Bir həftə axşam-səhər
Doldu, boşaldı otaq...
Ölülərin önündə,
Dirilərin görəsən
Borcu bumudur ancaq?

*Yanvar, 1962*

# BETHOVEN HAQQINDA ŞEİRLƏR

## 1. TALEYİN SƏSİ

*Beşinci simfoniyanı dinlərkən*

Könlündə dünyalar gəldi baş-başa:
O, ilham almadı iniltilərdən.
Söylədi insana: «Yaşa, sən yaşa!
Göylərdən əl götür, ayrılma yerdən...»

Özü hər cəfaya köksünü gərdi,
Sarsıda bilmədi əzablar onu.
İnsan qüdrətinə qiyas gətirdi
Hönkürən göylərin gurultusunu.

Özünə inamı artdı günbəgün,
Əyilib tutmadı heç bir ətəkdən.
Özü ağlasa da özgələriyçün
Həyat nəğmələri yazdı ürəkdən.

Dedi: amansızdır həyat, ey insan,
Döyəcək qapını tale hər zaman.
Üzün gülməyəcək bir anlıq sənin,
Taleyin hökmünə əgər qul olsan...

Özü qul olmadı... ömrü boyunca

Çarpışdı... İlhamı həyatdan aldı.
Taleyin səsini gendən duyunca
Onun qapısını o özü çaldı.

Çaldı o qapını... çaldı: taq-taraq!
Hələ üstünə də yazdı adını.
Tale kar elədi onu... işə bax!
Səsə həsrət qoydu səs ustadını!

Tale kar elədi onu... O, yenə
Çevirdi ömrünün varaqlarını.
Öz çılğın, üsyankar nəğmələriylə
Kar etdi taleyin qulaqlarını!

*Mart, 1962*

## 2. BİRCƏ NƏFƏR

Bircə nəfər bəyənmədi
Bethoveni Venada:
O uymadı nə şöhrətə, nə ada.
Dedi, bunlar əfsanədir,
İlhamının qapısını
Gecə, gündüz o döydü.
Bethoveni bəyənməyən
Bethovenin özüydü.

## 3. FACİƏ-MƏZHƏKƏ

O, kar oldu; heç kəsin
Eşidə bilmədiyi
Çox səsi o eşitdi.

Faciələr içində
Yaşasa da, öləndə
Dedi: «Məzhəkə bitdi».
Zaman onu incitdi,
Osa ömrü boyunca
İncitmədi bir kəsi.
Dərd içində yaşadı,
Yazdı həyat nəğməsi.
Dalsa da öz-özünə,
Göyü, yeri düşündü.
O, tək-tənha yaşadı,
Özünü düşünmədi,
Özgələri düşündü.

## 4. MİN SUALI, SÖZÜ VAR

O, sükunət içində ömrünü başa vurdu,
Onun üçün həyat da, kainat da susurdu.
Susurdu əsən külək, susurdu axan bulaq,
Qəlbinin səslərini eşidirdi o, ancaq.

Dinləyirdi səsləri,
Bir cavabsız sualdı bu səslərin hər biri.
Səslər «danış, din» - deyir;
Bu səslərin ilki də, sonu da «Neçin?» deyir.
Səslər dönür suala.
Suallar da cürbəcür,
Səslər özü düşünür, bizi də düşündürür.
Bu səslərdə toplanır
Bütün bəşəriyyətin
Dərdi, eşqi, məlalı.

Qopur bircə ürəkdən min ürəyin sualı:
Doğulduğu o gündə,
Çaxır ildırım kimi əsrin başı üstündə.

O, sükunət içində ömrünü başa vurdu,
Onun üçün həyat da, kainat da susurdu.
Yaradandır o, ancaq,
Eşitməyə lüzum yox...
Hər yenicə yaranan axı yoxdan var olur.
Həm də yaradan zaman
Sənətkarlar həmişə
Onsuz da lal-kar olur.
Onun nəyinə gərək kənar səslər, suallar,
Onun öz ürəyinin öz sualı, sözü var.

## 5. DÜŞÜNCƏ, KAMAL

*Bethovenin «Aylı sonata»sını dinlərkən*

Nəğmələr məlhəmdir könül ağrıma,
Onların önündə baş əyirəm mən.
Bu boyda dünyanı basıb bağrıma,
Öpüb qucaqlamaq istəyirəm mən.

Açır könlümüzdə gün qönçə-qönçə,
Elə bil səslərdən kam alırıq biz.
Səslər - ümid, arzu, səslər - düşüncə,
Hər xalda bir pillə ucalırıq biz.

Bu sirli səslərdə de nə hikmət var?
Ürək genişlənir, xəyal yüksəlir.

Elə bil göylərdən enib ulduzlar
Nəğmə ustadını salama gəlir.

Deyirəm, nə qədər gözəldir həyat,
Yaşa!
Yarat, yaşa! Dünyadan kam al.
Göylər də yerlərə açılır qat-qat -
Göylərə qalxdıqca düşüncə, kamal.

*Sentyabr, 1965*

## 6. MATƏM MARŞI

Deyirlər, o, həyata gözlərini yumanda
Qəfildən göy gurlamış, yağış yağmış bir anda.
Ömrü boyu yaratdı göylərin nəğməsini -
O, göy gurultusunu, o, ildırım səsini.
O öləndə sel kimi axıdıb göz yaşını,
Təbiət özü çaldı onun matəm marşını.

*Mart, 1962*

## QƏDİR

*Qədir adlı birisi M.Ə.Sabirin məzar*
*daşının üstünə mismarla cızıb*
*öz adını yazmışdır*

Məzar daşı üstə Sabirin
Bir ad gördüm:
Qədir!
Qəribədir.
«Fərasətli» bir oğul
Mismarla daşı qazmış,
Öz «mübarək» adını
Sabirlə yanaşı yazmış.
Hər ikisi qafiyədir:
Sabir,
Qədir!
Sən bir işə bax, işə,
Yazıq Qədir uyubdur
Zahiri bənzəyişə!
Vətən naminə yanan -
Yandığıyçin əbədiyyət qazanan
Bir qəlbin kölgəsinə
Necə sığınmış Qədir?
Gör şöhrəti nə qədər
Havayı sanmış Qədir.
Sabirə bu şöhrəti
Vermədilər, o aldı!
Qədir! Qədir! Bu adı,

Eldə qədir-qiymətin
Bilinmədən öz atan
Sənə hədiyyə vermiş,
Bilmədin niyə vermiş!
Yoxsa düşündün ki, sən
Şan-şöhrət də beləcə
Öz-özünə gələrmiş!
Tarix yazdı, ay yazıq,
Onun adını daşa.
Dedi: «Əbədi yaşa!»
Bəs sən? Yazdın sən özün
Əbədi yaşamaq istədin,
Yaşamadan bircə gün!
Özgənin kölgəsində
Şöhrət axtaranların
Aqibəti belədir,
Aman Qədir, ax Qədir!..

*Şamaxı. May, 1962*

## ANA HƏDİYYƏSİ

Anam namaz üstə əl açıb göyə
Allaha yalvarır «ya rəbbim! - deyə:
- Sənsən xəlq eliyən göyləri, yeri,
Candan şirin olur bala, ay Allah.
Sən mənim ömrümdən kəsib illəri,
Balamın ömrünə cala, ay Allah!

Bu nədir? Arzuya, diləyə bir bax,
Gör bir nələr keçir ana qəlbindən?
Çoxdur bu dünyada hədiyyə... ancaq
Ömürdən hədiyyə görməmişəm mən.

İstərəm, bir ana, bir bala sözü
Lüğətdə sözlərin önündə gedə.
Uca olduğundan ananın özü,
Ucadır, böyükdür hədiyyəsi də.

Çoxdur hədiyyələr insan adına:
Qiymətli ziynətlər, qiymətli daşlar.
Ana həyat verir öz övladına,
Həm də öz ömründən ömür bağışlar.

*Şəki. Avqust,1962*

## TAR SƏSİ

*Tarzən Hacı Məmmədova*

Bu nə şikayətdir, bu nə nalədir,
Qopur həzin-həzin simdən, bilmirəm.
Onun sözü nədir, sualı nədir,
Kimə gileylənir kimdən, bilmirəm.

Sanki bizə deyir: «Boş ötür anlar,
Söylə, neyləmisən, ömür yarıdır...»
Bu cansız simlərdən qopan fəğanlar
Həyatın həyata suallarıdır.

*Sentyabr, 1962*

## VƏTƏNDƏN-VƏTƏNƏ

Arazın
bu tayı Vətənim,
o tayı Vətənim.
Vətəni görməyə amanım yox mənim.

Bu necə vətəndir?
Görmədim üzünü,
Çatsam da bu yaşa
Ömründə bir dəfə.
Bəs salam verməzmi
Qardaş da qardaşa?

Bu qəmim, bu dərdim dağlardan ağırdı,
Arazın suyuna qarışıb axıram.
Füzuli həsrətlə qürbətdən Vətənə baxırdı,
Mən isə...
Vətəndən Vətənə baxıram.

*Oktyabr, 1962*

## KARVAN GEDİR

### *(Xaminədən Şəkiyə)*

Xinəbəndin ucuyla silib göz yaşlarını,
«Əlacım nədir...» - deyə,
O yanaşdı dəvəyə.
Ancaq minə bilmədi...
Bir də döndü arxaya, o qışqırmaq istədi,
Yox! Yox!.. Dinə bilmədi...
- Sarvan gözləyir səni,
Tez ol!.. - deyə qəzəblə
Əri süzdü Nanəni...
- Axı, ciyərparamdan ayrılıb gizlicə mən
Necə gedim, necə mən?
Sözüm yoxdur, bizimlə kəsdin haqqı salamı,
Gəl qoyunu quzudan ayırma, ver balamı.
Ver balamı aparım, dərdimə daşlar ağlar,
Sənin arvadın da var, sənin uşağın da var.
Bəs mən yazıq neyləyim, tək balamı ver mənə,
Onu sənə verməyib, veribdir göylər mənə.
Balamı mənə versən,
Allaha da xoş gedər, bəndəyə də, ay kişi,
Qorx Allahdan! Yamandır bu fələyin gərdişi!
Ana nalələrindən qoca Məmmədtağının
Tükü də ürpətmədi,
- Oğul mənimdir, - dedi!
Bir kənarda dayanıb bu söhbəti dinləyən

Qara gözlü qızcığaz,
Dili sözlü qızcığaz
Qaçdı düz evə sarı,
Onun bu addımları,
Uyuyan qoca Şərqin
Qulağına - «qalx!» - dedi.
Öz-özünə bax! - dedi...
Ağlasa da qızcığaz, boğaraq göz yaşını,
Yuxusundan oyatdı balaca qardaşını.
- Fətəli, can Fətəli,
Gedir anan, Fətəli!
Uşaq qalxıb yuxudan qaçdı birbaş küçəyə,
- Mən də gedirəm, - deyə.
Çayın bəndi qırıldı,
Aşdı, daşdı,
Çağladı.
Ana basdı bağrına günahsız körpəsini
Hönkür-hönkür ağladı.
Bu naləyə, bu səsə, sanki daşlar əridi,
Daş ürəkli kişinin üstünəmi yeridi?...
O dinmədi, kiridi.
Ana-bala görüşdü... Dəvələrləngər verib
Dərhal qalxdı yerindən.
Zınqırov səslərindən
Fətəlinin qəlbinə bir dumanlı qəm axdı.
Uşaq yollara baxdı,
Uzaq yollara baxdı.
Karvan gedir... Karvan yox,
Vətənimdən vətənə nurlu bir vicdan gedir,
Bu zamanın içində zamana üsyan gedir.

Karvan gedir... Karvan yox,
Min belə karvanların dərdinə həmdəm gedir,
Bir dəvənin üstündə böyük bir aləm gedir.
«Allahu əkbər!» - deyə sarvan dua oxuyur,
Astadan həzin-həzin.
Xaminədən Şəkiyə uzanan bir vətənin
Dərdlərinə yanacaq
Böyük bir ürək gedir,
Min arzu, dilək gedir.
Sarvan nə biləydi ki,
Axırıncı dəvədə,
Balaca kəcavədə
Apardığı o uşaq
Onun tək milyonların
Dərdini hayqıracaq.
Karvan gedir aramla...
Dəvələr qalxa-qalxa, dəvələr enə-enə,
Dəvələrin bu asta, bu ləng yerişlərinə
Amansız düşmən gedir.
Axırıncı dəvədə,
Balaca kəcavədə...
Karvan gedir aramla...
Bu aramlı yerişdə böyük bir sürət gedir,
Ətalətə, ləngliyə kin gedir, nifrət gedir!...

Nə yaxşı ki, Fətəli Xaminədə qalmadı,
O, əsiri olmadı,
«Həmən xakəm ki, həstəm»* - deyən donuq həyatdan

---

* *Fars şairi Sədinin misrasıdır: «Həmən torpağam ki, varam».*

Düşdü başqa həyata.
Ucaltdı həyat onu,
Elin qadir oğlunu...
Qardaşına qızcığaz
«Qalx!» deməklə zamanın
Çağrışına qoşuldu.
Uşaq ilə bərabər
Cəhalət yuxusundan
Şərqi oyatmış oldu...

*Oktyabr, 1962*

## SƏADƏT NƏDİR?

*Nəsir Sadıqzadəyə*

Səadət nə demək?.. Bu sualla mən
Özümü çox yordum, tapa bilmədim.
Səadət nə demək?.. Bir tələbəykən,
Məktəbi axıra vurmaqdır, - dedim.

Məktəbi bitirdim, işə də girdim:
Səadət bumudur? Yox, bu deyilmiş!
Böyük dahiləri oxuyub gördüm
Çoxları sevgini səadət bilmiş.

Sevdim! Gecə-gündüz yandım şam kimi,
İztirab... Göz yaşı... Min qan, min qada.
Tapmadım yenə də səadətimi,
Eşqin əzabları şirin olsa da...

Evləndim, həsrətə son qoymaq üçün,
Qurtardı o şirin iztirablar da.
İndi də, qayğılar artdı günbəgün,
Dedim: - Ay səadət, hardasan, harda?

Səadət üfüqmüş... əl çatmaz ona,
Aydın görünsə də o, bizə gendən.
Arzular sığışmır onun yoluna,
Səndən uzaqlaşır yeridikcə sən.

Seyr edib yaxını, gah da uzağı
Bir az seçə bildim qaranı ağdan.
Yaxşı görmək üçün uca bir dağı
Gərək sən baxasan ona uzaqdan.

Evləndim... hicrana son qoymaq üçün,
Qurtardı həsrət də, xoş intizar da.
İndi də qayğılar artdı günbəgün,
Dedim: - Ay səadət, hardasan, harda?

Bəlkə də səadət elə budur, bu:
«Hardasan, hardasan, gəl-gəl» - deməkdir.
Bəlkə də səadət ömrümüz boyu
Nəyisə... gözləmək... hey... gözləməkdir.

Tapdım səadəti dara düşəndə,
Alıb öz gücümü xəyallarımdan.
Kiməsə... nəyəsə... hardasa... mən də,
Gərək olduğumu bildiyim zaman.

Çıraq ol! Nurunu artır günbəgün,
Hər yerdə həyatın boğ zülmətini.
Məncə, çıraq olub başqalarıyçün
Yananlar tapıbdır səadətini!

*Aprel, 1962*

***

Dəyişir donunu, dəyişir aləm,
Dəyişir rəngini bu qara torpaq.
Dəyişir ilbəil mənim zahirim,
Amalım, əqidəm dəyişmir ancaq.

Vətən torpağından yaranmışam mən,
Şeirimdir - Vətənin gül-çiçəkləri.
Əqidəm - rəngini dəyişdirməyən
Vətən torpağıdır əzəldən bəri!

*1962*

## SƏMƏNDƏR

Od-alov quşudur səməndər quşu,
O nə göy quşudur, nə də yer quşu.
Alovlar içində yanıb yaşayır,
Yanıb yaxılmağı o, həyat sayır.
Yaşar od içində köz yanan kimi;
Ölər o, yanmaqdan usanan kimi.
İçindən od tutub yanmasa gün də,
Həyat məhv olmazmı bu yer üzündə?!
Ey könül, sən də yan səməndər kimi
Yaşat diləyimi, yaşat eşqimi!

*Yanvar, 1963*

# ANAM HAQQINDA ŞEİRLƏR

## 1. AN - MİN İL

Anam öldü!
Son nəfəs,
Son hıçqırıq,
Son nida!
Bizə dedi əlvida!
Bir saat əvvəl
duyan,
hiss eləyən
bir insan
Yatağında daş oldu.
Heçliyə doğru axan
Bir axına qoşuldu.

Anamın ölümündən
Bir an keçib,
ancaq o,
Daş olub insan ikən,
Öz-özünü danıbdır.
Bircə anda
O bizdən
Min il aralanıbdır.

Elə bil zaman bizə

Bu ölümlər,
ölümlər
Arxasından hey gülür.
Kim deyir ki, vaxt -
zaman
Saat ilə ölçülür?!

## 2. BAŞDAŞI

Anamı dəfn etdik...
töküldü dən-dən
gözümün yaşı.
Ertəsi məzarın baş tərəfindən
Anamın yerinə qalxdı başdaşı.
Anamın əvəzi başdaşı oldu,
Kölgəsi özüylə yanaşı oldu...

Öldümü?
Elə bil o yoxmuş əsla,
Baş daşı üstdəki neçə yazıyla
seçilir insan
başqalarından.

## 3. ZAMAN

Bir ay tamam oldu, düz bir ay,
bir gün
Gəldim qəbiristana...

anamla deyil,
Onun başdaşıyla görüşmək üçün.

Düzü gözlərimə inanmadım mən,
Bir heyrət dalğası ötdü sinəmdən.
Yaxşı yadımdadır...
dəfn ediləndə
Sonuncu qəbirdi anamın qəbri,
Qəbirlə doludur sağ-solu indi.

Nədən məzarlıqda vaxt düşmür yada?
Demə o burda da, burda da varmış!
Ölülər məskəni - məzarlıqda da
Zaman, qədəm-qədəm addımlayırmış!..

## 4. BU GÜN YEDDİN OLDU

***(Anam öldümü?)***

Nə tez əllərini üzdün dünyadan,
Balanı tək qoyub hara getdin sən?
Necə yox olurmuş bir anda insan,
Elə bil dünyada heç yox imişsən.

Günəş qürub etdi... otaq qaraldı,
Bir anda yox oldun sən xəyal kimi.
İndi düşünürəm: səndən nə qaldı,
Könlümdə xatirən qara xal kimi.
Məni boya-başa yetirdin, ana,

Bizə borclu bildik hər zaman səni.
Sən məni dünyaya gətirdin, ana,
Mənsə yola saldım dünyadan səni.

Sən mənə beşikdə laylay çalmısan,
Bu gün laylay çalım sənə məndəmi?
Sənin şirin-şirin laylalarını
Mən sənə qaytarım cənazəndəmi?

«Yuxun şirin olsun» - deyərdin mənə,
«Yuxun şirin olsun» - deyimmi sənə?
Gərək mən başına dönəm-dolanam,
Məni həyat üçün
Yatıran anam,
Söylə ölümçün
Necə yatırım
Səni mən bu gün?
Bu necə dünyadır, anlamıram mən,
Cilvəsi cürbəcür, rəngi cürbəcür.
Dünən nəfəsiylə səni isidən
Bu gün buza dönüb, daşa dönübdür.

Bu necə dünyadır,
İnsan oğlunun
Xəyalı göydədir, özü yerdədir.
Sağ ikən çiynində həyatın yükü
Öləndə cəsədi çiyinlərdədir...
Bu necə dünyadır, bu necə dünya,
Ölümü həqiqət, həyatı röya.
Dərdimin, qəmimin səndin ortağı,

Niyə üz döndərdin, bəs niyə məndən?
«Dərdin mənə gəlsin!» - deyərdin axı,
Niyə dərd caladın dərdimə bəs sən?...

Anam, heç kəs səni incitməmişdir,
Mən səni,
mən səni incidən qədər.
İndi kimə açım dərdimi bir-bir,
Kim mənim dərdimə yanar sən qədər?

Evin hər küncündə görünür yerin,
Gözüm axtarcıdır, ana, ay ana.
«Nənəm hanı?» - deyir körpə Azərin.
Mən nə cavab verim ona, ay ana?

Birmirəm, bilmirəm bu ölüm nədir
Həyat var ikən?
Nəfəsin, ay anam, hələ evdədir,
Özün yer altında daşa dönmüsən.
Toplaşıb qohumlar, yaxınlar bu gün,
Bizimlə bərabər ağlar otaqlar.
Sənə,
yalnız sənə,
sənə deməkçün
Könlümdə nə qədər mənim sözüm var.

«Kimləri çağıraq sabah yeddiyə?»
Xalalar, bacılar soruşur məndən.
Anamdan soruşaq, o bilər deyə,
Sənin otağına üz tuturam mən.
Anam, tapşırıldın ana torpağa,

Bu ölüm, sinəmə çəkdi dağ mənim.
Sən mənim arxamda bənzərdin dağa,
Elə bil arxamdan uçdu dağ mənim.

Qızımın adıdır sənin öz adın.
Bu da göz dağıdır mənə bu gündə.
Son dəfə sən mənə baxıb ağladın.
Surətim məzara getdi gözündə...

Ömrü başa vurdun altmış yaşında,
Altmışın üstündə durub yaşın da.
Artıq sənin üçün dayanan zaman
Mənimçün dolanır...
Gün olur axşam.
Vaxt keçir, sən məndən uzaqlaşırsan,
Mən sənə günbəgün yaxınlaşıram.

*Fevral, 1963*

## GÖY - YER

Okeanlar buxarlanır - göy götürür,
Bulud olub qatarlanır - göy götürür.
Mil-mil olan bacalardan
Tüstü qalxır zaman-zaman - göy götürür.
Meydan açır göydə atom sınaqları -
Göy götürür.
İnsanların saf havaya çəkdirdiyi
Bu dağları - göy götürür.
Hər ahı da, amanı da - göy götürür;
Yaxşını da, yamanı da - göy götürür;
Yer nə versə - göy götürür.
Yerin dərdi qalxır göyə.
Göy yağış da səpələyir,
Yerin ahı, yerin odu sönsün deyə.

*Fevral, 1963*

***

Adamlar içində darıxıram mən,
Uzanır... Günüm də gec axşam olur.
Mən tək olan zaman fikirlərimin
Hər biri yanımda bir adam olur.

*Mart, 1963*

## SAXLA,
## SAXLA FIRÇANI

*Rəssam Odtəkinə*

Rəssam çəkir şəklimi,
Qurumuşam
Mən onun önündə şəkil kimi.
Gah çəkir, gah da silir,
O gah irəli gəlir,
Gah geriyə çəkilir.
Baxır, çəkir təzədən,
Onun üçün indi mən
Cansız  daş parçasıyam.
Yanır önümdə rəssam;
O, can vermək istəyir
Bir kətan parçasına.
O yaradır, yaşayır,
Həsəd çəkirəm ona.
O, mənimlə yaşayır,
Yaşamıram mən ancaq.
İndi kiməm? Mən nəyəm?
Cansız, ruhsuz gövdəyəm,
Odu sönmüş bir ocaq.
Rəssam məni qurudub
Tərpənə də bilmirəm,
Danışa da bilmirəm,
Mən dinə də bilmirəm,
Heç duya da bilmirəm,

Düşünə də bilmirəm.
Donub fikrim, düşüncəm
İndi mənim elə bil.
Yox! Yox! Yelə verdiyim
Anlar, ömürdən deyil.
Dayan! A rəssam, dayan!
Düşünmədən, duymadan,
Birini dindirmədən,
Birinə hay vermədən
Yaşamaq, yaşamaqmı?
Rəssam! Saxla fırçanı!
Çəkdiyin o şəkildə
Eşqim, diləyim hanı?
Saxla! Saxla, fırçanı!
Yox, Yox! Daha önündə
Daşa dönən deyiləm.
Bunu bil ki, a qardaş,
Çəkdiyin mən deyiləm,
Nahaq zəhmət nə gərək!
Sən məni yaratdığım,
Yaşadığım anda çək!
Sən məni düşünəndə,
Sən məni duyanda çək!

*May, 1963*

## TƏYYARƏDƏN YERƏ BAXANDA...

*(Yerdədir)*

Uçur, dağıdaraq buludu lay-lay,
Təyyarə göylərin yeddi qatında.
Açılıb önümdə mənim taybatay,
Geniş qapıları kainatın da.

Neçə dağ, neçə düz, neçə kənd, şəhər
Ötdük... Biz havaya qalxandan bəri.
Kibrit qutusudur elə bil evlər,
İşıq dirəkləri - kibrit çöpləri.

Kiçilir gözümdə ucaldıqca mən,
Sıldırım dağlar da, gen dərələr də.
Təyyarə elə bil asılıb göydən,
Elə bil dayanıb durduğu yerdə.

Donub öz yerində hər təpə, hər düz
Təyyarə qalxdıqca anbaan göyə.
Baxıram əqrəbə...
Saatda beş yüz.
Bəs niyə bilinmir bu sürət, niyə?

Nə qədər yüksəyə qalxsa da... yemçün
Quş gərək yenə də torpağa ensin.
Uçan təyyarənin, süzən bir quşun

Sürəti boşluqda necə bilinsin?..
Göydə nə ağac var, nə dərə, nə dağ
Nəylə tutuşduraq sürətimizi?
Bu geniş dünyada nisbətdir ancaq,
Biri-birimizdən ayıran bizi.

Təyyarə qayalar, dağlar aşdıqca
Şütüyür... Qalmayır havada iz də.
Təyyarə torpağa yaxınlaşdıqca
Bilinir gücümüz, sürətimiz də...

Xəyal göylərdədir, üfüqlərdədir
Eşqimiz, arzumuz, sürətimiz də.
Gücümüz, çəkimiz, qiymətimiz də
Yerdədir, yerdədir, ancaq yerdədir!..

*Şəki. İyun, 1963*

## AĞIL - GÖZ

Yerin layları kimi,
Göyün qatları kimi
Fikrim açılır hərdən
Göz önümdə qatbaqat.
Şeylərin ən kiçiyi -
Atom zərrəcikləri,
Ən böyüyü - kainat.
O da gözlə görünmür,
Bu da gözlə görünmür.
Belə ötdü əsrlər,
Təbiətin verdiyi
Göz acizmiş nə qədər...
İnsan o kiçikliyi,
İnsan o böyüklüyü
Görməyə çox can atdı,
Özünə göz yaratdı.
O, mikroskop yaratdı,
O, teleskop yaratdı.
Çox ehkamlar dağıldı,
Çox qurğular pozuldu
Əsrimizdə
Ağıl döndü göz oldu.

*Avqust, 1963*

## İNSAN

- Qurudan çox-çoxdur bu dünyada su,
Bəs niyə dünyanın adı yer oldu?
- İnsandır şöhrəti bütün aləmin,
O, yerdə yaşadı, yerdə doğuldu.

*Sentyabr, 1963*

## ÇOX DA ÖYÜNMƏ Kİ...

Ey könül, möhkəm ol, keşməkeşlərdə
Çox da öyünmə ki, mən ağıllıyam.
Ağılsız işimi bildiyim yerdə
Mən ən ağıllıyam, ən ağıllıyam!

*Sentyabr, 1963*

## BƏLKƏ DOYA ÜRƏKLƏR

O öldü,
ömrün sapı
düyün düşdü,
qırıldı.
Bər-bəzəkli tabutu
nəğməylə qaldırıldı,
nəğməylə basdırıldı.

Ömür boyu ayaqla
o, getdiyi yolları
İndi çiyində getdi.

Ana laylalarıyla
Başlanan insan ömrü
Matəm marşıyla bitdi...

Gözlər boşaldı, doldu,
Onun qəbri üstünə
Təzə güllər qoyuldu.
Nəğmə, bir də gül-çiçək!
Görən bunlar nə demək?

Yüz il yaşayan belə
Ömrü yenə kəm sayır.
Hər şeydən doyan insan
Təkcə qoca dünyada

Gözəllikdən doymayır.
Qəbirlərin üstünü
Qoy bəzəsin çiçəklər.
Göz yumulandan sonra
Gözəllikdən kam alıb
Bəlkə doya ürəklər.

*1963*

## DÜNYANIN SƏRHƏDİ

Xəritə üstündə rənglərlə erkən
Dünyanı ayırdıq məmləkətlərə.
Hər yerdə torpağın rəngi bir ikən,
Niyə biz ayırdıq onu yüz yerə?

Hər kral «bu dünya mənimdir» - dedi,
Təzədən neçə yol bölündü torpaq.
Dünyanın sərhədi heç dəyişmədi,
Nə böyüdü, nə də kiçildi ancaq.

*Yanvar, 1964*

## BİR ARZUNUN NAMİNƏ

Adam kimi maşınlar da
Çeşid-çeşid, cürbəcür.
Sağdan sola, soldan sağa
Maşın səkir, şütüyür.
Dayandımı?
Bir ölüdür.
Şütüyəndə yaşayır.
O küçədən bu küçəyə,
Bu küçədən o küçəyə
Maşın arzu daşıyır,
Maşın əməl daşıyır.
- Bura döndər!
- Ora sür!
Maşın səkir, şütüyür.
Gecə keçib, saat birdir,
Şofer dayanmır yenə.
Min arzuya maşın sürür
Bir arzunun naminə.

*Fevral, 1964*

## YARPAQ-XƏZƏL

Çöldə günəş, al günəş,
Meşə qara, qapqara.
Çətir kimi açılıb
Kölgə salıb havada
Budaqlar budaqlara.

Hər budağın yüz zoğu,
Hər zoğun da min əli...
Ağacların təpəsi
Zər ləpəli işıqlı,
Ayaqları kölgəli...

Ayağınla başında
Qəribə bir təzad var:
Başı yaşıl yarpaqlı,
Dibi sarı xəzəlli
Ağaclar, ay ağaclar!

Dünəninin zinəti
Gözəlliyi, sevinci
Bu gün ona qəm olub.
Dünən başının tacı
Ayaqları altında
Bu günsə həşəm olub.

Buludda yox, ey könül,

Günəşdə yağışı gör.
Meşə ağaclarının
Başındakı yaza bax,
Dibindəki qışı gör.

*Quba. May, 1964*

## BİZİM GÖZƏL NƏĞMƏLƏR

Məhəbbətdən, arzudan
Könüllərə nur çilər
Bizim şirin nəğmələr,
Bizim gözəl nəğmələr.
Qollara qüvvət gələr,
Gözlərə işıq gələr,
Bizim qardaş ellərin
Hər şirin nəğməsindən...
Rəşidimin səsindən
Dağda bulaq qaynayar,
Bağda güllər oynayar,
Oylaqda ceyran qaçar,
Tarlada sünbül açar.

Nəğmələrlə yaşayır
Eşqim, hissim, həyəcanım.
Top-tüfəng səsilə yox,
Nəğməsilə tanınır
Mənim Azərbaycanım.

Bizim hər nəğməmizdə
Güllə vıyıltısı yox,
Arzuların səsi var.
Çiçəklərin, otların
Ətirli nəfəsi var.

Nəğməmiz bu dünyanın

Hər qütbündən yüksəlir.
Şövkət İrana gedir,
Rəşid Misirdən gəlir.

Həyat verir, can verir
Anamız torpaq bizə.
Özünü də tapşırıb
Bizim iradəmizə.

Ey insanlar, düşünün,
Bütün həyatımızı
Borclu ikən ona biz,
Onun öz sərvətindən
Ölüm hazırlayırıq
Axı, nədən ona biz?...

Bizimkidir əzəldən
Bütün varı dünyanın.
Sağalmamış o köhnə
Yaraları dünyanın.
Gəlin, nəğmə oxuyaq,
Yaraların üstünə
Nəğmədən məlhəm qoyaq!

Nəğmələrə çevrilək,
Dolaşaq hər yanı biz.
Beşikləri tərpədən
Şirin nəğmələrlə də
Tərpədək dünyanı biz!

*Avqust, 1964*

## GECƏNİN SAĞLIĞINA

«Göy üzü damar-damar,
Göydən yerə nur damar...»
Belə gözəl gecədə
Dağ da, daş da, qaya da
Gecədən həyat umar...

Başımız üstündə ay
Üstümüzə nur çilər...
Gecənin yaxasında
Qızıl-qızıl düymələr...

Gecə laldır, gecə kar,
Ancaq minbir gözü var.
Bu gözlərlə gizlicə
Gecə baxır gör necə -
Gecə keçib yarıdan...
Hara tələsirsiniz?
Yatmağamı?..
Bir durun...
Gecənin sağlığına
Qədəhləri doldurun!
Gecə də doldurubdur nurdan öz badəsini,
Gecə də nəğməsinə
Qoy qatsın cingildəyən qədəhlərin səsini!
Yatmaq da nemət isə... qoy əvvəl gecə yatsın!
Gecənin cəlalına təslim edib özünü
Dağ da, daş da, qaya da

Yuma bilmir gözünü,
Bəs insan necə yatsın?
Yox, yox!
Gəlin yatmayaq!..
Arzular dünyasına
Qanadlansın qoy ürək!
Ömür çox uzunmu ki, onun da bir qismini
Biz yuxuda keçirək?..

Onsuz da torpaq altda yatacağıq duyğusuz
Min illər, milyon illər.
Bu cahı, bu cəlalı duymayacaq könüllər...
Gəlin, gəlin, yatınca o quruca yerdə biz,
Heç olmasa yatmayaq belə gecələrdə biz!..
Ey könül!..
Elə bil ki, sən dağların başında
Ucalan bir qayasan.
Sən özünü,
Gözünü
Heç bir zaman yummayan
Bir sıldırım qaya san!
Belə xoş gecələrdə
Gərək sən də, ey könül,
Sübhədək yatmayasan.

*Sentyabr, 1964*

## HABİL SEGAHI

Kəmanə kamana toxunan zaman
Tufanmı hayqırdı, selmi çağladı?
Bədbəxt bir qəribin ah-amanından
Bəlkə göy kişnədi, bulud ağladı?

Durnamı ayrıldı, öz qatarından,
Obamı dağıldı, elmi talandı?
Zamanmı ayrıldı öz axarından,
Əslimi hıçqırdı, Kərəmmi yandı?

Kamanın qolunda yatan xalların
Hər biri qəm yurdu, hicran yuvası.
Bir qolun üstünə cəm olub min-min
Nəsimi üsyanı, Vaqif nəvası.

Ondakı bu qüdrət, bu sirr nədir, nə?
Əzabla, zillətlə doludur bu qol.
Aylara, illərə, qərinələrə
Bölünən tarixin yoludur bu qol.

O enən, o qalxan səslər, avazlar
Yaz başı dağların selidir bəlkə?
Kamanın bağrında ağaran tozlar
Yanan arzuların külüdür bəlkə?

Bu səs, sınaq üçün - qüssənin, qəmin

Könüllər evinə səyahətimi?
Bu səs, ilk atamız qoca Adəmin
Təklikdən gileyi, şikayətimi?

Bəlkə susdurulan neçə dahinin
Yaralı ruhudur bu səs, bu nalə.
Danışmır... düşünür dərindən-dərin
Sözsüz nəğmələrlə ağlayır elə.

Hər xalı bənzəyir bir yanar közə,
Qığılcım sıçrayır hər nəfəsindən.
Bu səslər danışır bəlkə də bizə
Xalqın tarixindən, fəlsəfəsindən.

Deyirəm, bu səsi dinləyəndə mən,
Niyə dəqiqələr dönüb il olmur?
Bu səsin oduna, deyirəm, görən
Niyə bütün səslər yanıb kül olmur?

Bu səsdən ürəyim oldu bir tikə -
Bağrımın başında yaradır bu səs.
Ayın camalında qara bir ləkə,
Lalənin köksündə qaradır bu səs.

Yox! Kardır qulağı kainatın da,
Eşidə bilsəydi suya dönərdi.
Sonsuz kainatın sonsuz qatında
İşıqsız ulduz da şöləlƏnərdi.

Bir ahmı, amanmı ucalır yerdən,

Yer öz fəryadına özü bezdimi?
Qoca Füzuli də bu nalələrdən
Ney kimi bənd-bənd kəsilməzdimi?

Bu ağac parçası yanmayır özü,
Ancaq od-ocaqsız yandırır bizi,
Odun atəşinə od şan-şan olur.
Bu səsin oduna alışar su da;
Ağac hər atəşə alışan olur,
Bu niyə alışmır belə bir oda?

Habil! Ay insafsız, ürəyimizi
Yandırıb yaxmaqda qəsdin nədir, nə?
Niyə yandırırsan atəşsiz bizi?
Bu haqqı kim verib, kim verib sənə?

*Sentyabr-oktyabr, 1964*

## PAYIZ LÖVHƏLƏRİ

Azaldır suyunu şır-şır bulaqlar,
Ömrünü-gününü verir yay sona.
Havada yellənən sarı yarpaqlar
Bənzəyir qırqovul qanadlarına...

Susur... Sükut edir yaxın-uzaqlar,
Elə ki, bağları quşlar tərk edir.
Ağacda titrəşən tək-tük yarpaqlar
Yarpaqmı?
Yoxsa ki, sərçələrmidir?

Yerin xəzəlini sovuran rüzgar
Ötür nəğməsini bir özgə dillə...
Suyu sısqalaşıb quruyan arxlar,
Çalalar, çuxurlar dolur xəzəllə.

Dağdan köç başlanır, dərədən duman,
Elə bil üz tutur arana dağlar.
Dönüb arxasınca boylanır çoban,
Adamsız olurmuş virana dağlar.

Yaylağın çiçəyi, dağın buludu,
Aranda, qışlaqda yerlə süründü.
Dağların çiçəyi, dağların otu
Qoyunun, quzunun yununa döndü.

Bəzən qış ləngiyir... Bozaran döşlər

Təzədən göyərir bahar sayağı.
Otlağa çevrilir düzlər, örüşlər,
İtir ot içində qoyun dırnağı...

Bəzən də, bəlkə də bir sınaq üçün
Yağış səpələyir göy narın-narın.
Quzular soyuqdan qorunmaq üçün
Çəkilir dibinə boz qayaların.

Döyür qapısını yellər qışın da,
Bəzən vaxtsız gələn qonaqlar kimi.
Yarpağı tökülən ağac başında
Yuvalar qaralır papaqlar kimi.

Azalır günəşin odu günbəgün,
Soyudur torpağı, daşı təbiət.
Şaxtanı, soyuğu hiss eləməkçün
Çılpaq qarşılayır qışı təbiət.

*Şəki. Oktyabr 1964*

## MƏNİM ŞEİRİM

Əbədi bir od kimi öz içindən közərib
Hey yanır şeirim mənim.
Bu günümdən sabaha
boylanır şeirim mənim.
Gəzib dildə, dodaqda,
Uçur, uçur həmişə özümdən də qabaqda.
İdrakımın gözləri,
Əqidəmin ən təmiz, ən mənalı sözləri,
Duyan ürəyi şeirim,
Bütün diləklərimin ən saf diləyi şeirim.
Sən ayın, ulduzların nurundan yoğrulmusan,
Batan gecələrimin açılan səhərlərə
salamı sən olmusan.
İstərəm sətirlərin bu günümdən səs alan
əks-sədaya dönsün;
Əsrimizin nəbzi də ahəngində döyünsün.
İstəmirəm ki, şeirim nərmənazik qızların
saçında ətir olsun.
İstərəm gün altında pambıq yığan qızların
başında çətir olsun.
Can vermə hər ötərgi dərd-qəmə, şeirim mənim,
Əzmə-büzmə gözələ bənzəmə, şeirim mənim.
Sən atəş ol, sən od ol,
yandır da sən, yax da sən,
İldırım ol, çax da sən.
Göstər öz işığında bu dünyaya özünü,
Bir an yumma gözünü,
Həm gör sən, həm də göstər!

Fərəhləri fərəhdə, qəmi də qəmdə göstər,
Demirəm ki, zərrəni geniş kürrədə göstər.
Qüdrətin varsa sənin,
Sən bu boyda kürrəni kiçik zərrədə göstər.
Sən düşün dərin-dərin, düşündür dərin-dərin,
Vətənini, elini danan tüfeylilərin
Vətənçin yox,
manatçın yanan tüfeylilərin
yumruğa dön başında,
Keşikçi ol bu yurdun torpağında, daşında.
Vüqarı ol, əzmi ol əyilməyən başların,
Qəlbində mərmiyə dön əsl vətəndaşların.
Sonsuz düşüncələrim,
Bu dünyaya sualım,
Hər istəyim, xəyalım,
Eşqim, həsrətim mənim,
İlk məhəbbətim mənim,
Hədsiz şadlığım mənim,
Bu dünyada əbədi narahatlığım mənim.

Sənə qurban verməyə bir ömür çox azdır, az,
Yalnız bircə günümün sonsuz həyəcanını
Nəğməyə çevirməyə on ömür də çatışmaz.
Mən səninçin,
Anamsa mənimçin yandı, şeirim.
«Balamın rahatlığı yoxdur» - deyə o məni
sənə qısqandı, şeirim.
Ancaq o bilmədi ki, mən anamdan doğuldum,
Sənsə mənim qəlbimdə balamtək bəslədiyim
Duyğulardan doğuldun.
Məni anamdan alıb Vətənimə, xalqıma
Oğul edən sən oldun!

*Noyabr, 1964*

## TÜLU-QÜRUB

Dan yeri ağarır... ala-qaranlıq...
Səhərdir,
axşamdır -
bilinmir hələ.
Elə bil bu anda susub bir anlıq
Dayanır yerində vaxt, zaman belə.

Qürub... şər qarışır...
axşamdır,
ancaq
Çətindir səhərdən onu ayırmaq...
Həm tülu, həm qürub ala-qaranlıq...
Bu anlar təbiət susur bir anlıq...

Gündüzlə axşam
Gündə iki dəfə görüşür müdam,
Bir səhər-səhər,
Bir axşam çağı...
Göydə sükunət,
Yerdə sükunət,
İkilik içində susur təbiət...

Biri yumur,
Biri açır gözünü.
Bəs bu sükut nədir bir deyin mənə.
Sükunət içində bu an özünü

Sanki təhvil verir gedən, gələnə.

Susur qəmli-qəmli təbiət bu an,
Gedən öz halına ağlayır bəlkə.
Üfüqlər boyunca təzə doğulan
Ölənin yasını saxlayır bəlkə?

Gündə iki dəfə işıqla zülmət
Görüşür...
Bəs niyə susur təbiət?
Ötür qəm nəğməsi dünya elə bil,
Qaranlıq işığa qarışır həmən.
Təbiət qəmlənir, vüsalçün deyil,
Onlar ayrılmaqçün görüşdüyündən.

*Yanvar, 1965*

## AL GÜNƏŞİN SAĞLIĞINA

*- A oğul, badələri çatladan, sındıran yalandır, şüşənin nə günahı?*
*- Hansı yalan?*
*- O yalan ki, hər oturanda badələrə deyirsiniz. Ona heç polad da dözməz.*

**Mir Cəlal**

Məclis aşır,
Məclis daşır,
Dumanlanır yenə başlar.
Bir-birinin şərəfinə
Sağlıq deyir dost-tanışlar.
Qədəhləri boşaldırlar, doldururlar,
Bu dünyanı gah uçurur, gah qururlar.
Badə qalxır
ən əvvəlcə
sağlığına
sədrlərin, müdirlərin...
Tost deyilir dadlı-dadlı, şirin-şirin:
- Yalnız onun ürəyilə
vurur bizim ürəyimiz.
Qədəhlərin içindəki
acı təmli arağı biz
İçək şirin dostumuzun
Şirin canı sağlığına,
Uzun ömür arzulayaq gəlin ona.
Məclis buna əl də çalır -

Yalan sözlər, saxta sözlər
Aşağıdan qanadlanıb
Yuxarıya körpü salır.
Məclis yalan,
sözlər yalan.
Burda yaman alver gedir:
Onu satan, biri alan.
- Mən içmərəm,
Yox!
İçmərəm
Hər bir kəsin sağlığına.
Mən içirəm bu badəni
Gözəl insan, gözəl alim
Filankəsin sağlığına!
Gözəl insan!
Gözəl sözdür!
Görən ancaq bu gözəllik
Əməllərdə sınandımı?
Görən bunu deyən özü
öz sözünə inandımı?
Əvvəl bunun, sonra onun
sağlığına içək deyə,
Vicdandan söz açdığımız məclisdə də
Biz bölürük adamları dərəcəyə!
Məclis - bazar,
Rütbə - dəyər.
Bəs insanlıq yoxmu məgər?

Gəlin dostlar, məclislərdə
Mahnı deyək, rəqs eləyək!
Tutulmasın, qoy açılsın ürəyimiz,

Sağlıqsız da onda sağlam olarıq biz!
Gəlin, dostlar, mahnı deyək
Alnımızın açıqlığı,
Üzümüzün ağlığına.
Sağlıq demək vacib isə
Onda deyək:
- Bizə daim təmənnasız işıq verən
Al günəşin sağlığına!

*1965*

## OĞUL KÖMƏYİ

İyirmi yol yarpaqlar açdı, saraldı,
Oğul gəlmədi.
Ananın gözləri yollarda qaldı,
Oğul gəlmədi.

Analar övladla hər görüşəndə
Onun göz yaşını ümidi sildi.
Qapıya hər dəfə kölgə düşəndə
Ana elə bildi balası gəldi.

Balası gəlmədi...
O necə gəlsin?
Zamanın hökmü də oldu amansız...
Uzaq bir diyarda o, indi yəqin
Yatır torpaq altda adsız, ünvansız...

Ana şükür deyib öz taleyinə,
Hər gün xəyalında murada çatdı.
Kimsədən ummadı bir kömək... yenə
Onun öz balası dadına yetdi.

Deməyin kimsəsiz
Ona gəlin siz,
Dilim topuq çaldı,
Yanıldım bayaq.
Oğul qapısını ananın hər ay
Döydü poçtalyonun əlilə ancaq.

Kəndin poçtalyonu cantaraq Saday
Qan pulu gətirdi anaya hər ay.
Bəli,
Yaşamadı o, hayla-küylə,
Öldü...
Gözləmədi kimsədən «sağ ol».
Özü yer altında...
Öz ölümüylə
Yaşatdı ananı, yaşatdı oğul.

*Fevral, 1965*

## GECƏ GÜNƏŞ YATIR Kİ...

Ax... Nə qədər danışaq?
Yetməzmi söz alveri?
Söhbəti kəs, de kiri!..
Ürəyimlə
İndi də
Tək qalmaq istəyirəm,
Onun dərinliyinə
Ucalmaq istəyirəm.
Nələr yoxdur könüldə -
Neyləyirəm çölləri,
Dağları, ya bağları?
Düşünmək istəyirəm,
Söndürün çıraqları!

İstəyirəm bu gecə
Özüm çırağa dönüm,
Düşünüm, hey düşünüm...
Ey könül,
Öz-özünü
Yaxşı görmək istəsən,
Qaranlıqda düşün sən.
Biz çiçək iyləyəndə,
Biz nəğmə dinləyəndə
Gözümüzü yumuruq,
Özümüzə dalırıq

Yalnız gözəlliklə biz
Onda yalqız qalırıq.
Kim deyir ki,
Gecələr
Yatmaq,
Sönmək
Üçündür?
Mən deyirəm:
Gecələr
Hey düşünmək üçündür...
Gecə günəş batır ki...
Biz alışaq,
Biz yanaq.
Gecə günəş yatır ki,
Biz yuxudan oyanaq!

*Fevral, 1965*

## ŞEİRİM - İMANIM MƏNİM

*«Bir iman istiyorum uğrunda baş qoyacaq»*
**Behcət Kamal Çağlar**

İmanmı istəyirsən?
İnanmıram buna mən.
İman gəzən şairin şəkk edirəm, doğrusu
Şair olduğuna mən.
Şairin ürəyində rənglərini dəyişir,
Həyat - ölüm,
Bahar - qış...
Şairlikmi tapmısan
İmanını tapmamış?
Satılıbmı Vətənin?
Ondanmı gileylisən?
Bu dəhşətə yanmağı
İman saymadınmı sən?
Polad polad deyildir, o sınmayıb əyilsə,
Sən özünün deyilsən, Vətən sənin deyilsə...
Özünü tap sən əvvəl!
Vətən darda da olsa,
Yad əllərdə də olsa,
O sənin imanında, ürəyində sənindir,
Arzular məmləkəti sənin öz Vətənindir.

Su içir şeirim mənim əqidə çeşməsindən,
İlham alır, güc alır bir amalın səsindən...

Şərəfimdir bu amal,
Şöhrətimdir bu iman,
Ona şeirim də qurban,
Ona özüm də qurban!
Mənim sevincim belə ürəyimdə gizlənən
Dərdə, qəmə borcludur...
Şeirim,
Şairliyim də
Məsləkimə borcludur,
Əqidəmə borcludur...
Şeirim - namusum mənim, şeirim - vicdanım mənim,
Şeirim - imanım mənim!

*Fevral, 1965*

## ÖZÜMÜZDƏN ÖYRƏNƏK

*Ey könül, möhkəm ol keşməkeşlərdə,*
*Çox da öyünmə ki, mən ağıllıyam.*
*Ağılsız işimi bildiyim yerdə*
*Mən ən ağıllıyam, ən ağıllıyam.*

Dünən biri dedi ki,
- Əbədi ömr eyləyən
Bir uca dağ olaydım,
Bu mümkün deyil!
Ancaq
Heç olmasa, təzədən
Dönüb uşaq olaydım...
- Neylərdin?
Deyə sordum.
Dedi: - İndi mən qışam...
Yazımı duymayırdım,
Nə qədər ki, yaz idim...
Təzədən yaşasaydım,
Köhnə səhvlərimi
Bir də yaşamaz idim
Səhvlərdə tapmısan
Dedim: - axı, sən səni.
Səhvlərdir bu fikrə
Bu gün gətirən səni.
Yıxıldın?
Qalx! İnləmə!

Nə çıxar inləməkdən -
Ah çəkib, uf deməkdən?..
Yıxılmaq ayıb deyil,
Hamı yıxılıb durur...
Yıxılmağın cəbrini
Yerimək unutdurur.
Yıxılıb öyrənirik
Ayaq üstə durmağı
Gözümüzü açandan...
Bir təzə fənd öyrənir
Yıxılanda pəhləvan...
Danışmaq öyrənirik
Dil topuq çala-çala.
Yerimək öyrənirik
Biz yıxıla-yıxıla...
Arzuları çıraqtək
Yandır! Düz yolun üstə,
Ancaq yıxılanda da
Yıxıl öz yolun üstə!
Başqasının çəkdiyi
İztirab çatmaz sənə.
Özgənin yıxılmağı
Yeriş öyrətməz sənə.
Əzab çəkici altda
Öz qəlbini əzsənə!

Özün yıxıl,
Özün dur!
Həyatı dərk etməyin
Əsl yolu bax budur!

Ey şair, sən özün də

Otağında əyləşib
Dağdan, bağdan yazma, gəl,
Sən özün yıxılmamış
Yıxılmaqdan yazma, gəl.
Bu dünyanın sirrini
Kitablardan öyrənək.
Ancaq gəlin, həyatı
Ağrılardan öyrənək,
Əzablardan öyrənək.
Qədim ulu babamız
Gücünə güvənirkən
Məğlub olub yüz kərə...
Əqlinə güvənirkən,
Həmişə qalib gəlib
Özündən güclülərə.

Özüylə bir, bu köhnə,
Bu dərdli dünyanı da
O, kamala yetirmiş.
Cismən zəifliyimiz
Bizim idrakımıza
Yol açıb güc gətirmiş...

Zamanın yollarında
Çox endirmiş,
enmiş o.
Bu dünyada çox şeyi
Özündən öyrənmiş o.
Sevincin mənasını
Öyrətsin qəmlər bizə.
Öyrətsin bu həyatı
Yanlış qədəmlər bizə.

*Fevral, 1965*

## ŞƏHRİYARA

Sən otuz il ayrı düşdün elindən,
Öz ananla danışdığın dilindən,
Simurq sənə pay da verdi telindən,
Qürbət eldə o tel düşdü yadına,
Teli çəkdin, Vətən gəldi dadına.

Vətən səni yenə basdı bağrına,
Məlhəm qoydu sənin könül ağrına.
- Günahımı əfv et, - dedin sən ona, -
Haray sənə, baba yurdu, od-ocaq,
Səndən dönən buza dönüb donacaq!

Sən almışdın gücünü bu ocaqdan,
Ondan dönüb, ona baxdın uzaqdan.
Qönçə ikən ayrı düşdün budaqdan.
Heydərbaba dalınca qan ağladı...
Ancaq ayaq izlərini saxladı.

Haray sənə, ilk hıçqırıq, ilk nəfəs,
Haray sənə, ana südü, doğma səs!
El-obasız ömür quru bir qəfəs,
Xoşdur yenə bu dünyanın cəfası,
Qüdrətimsən, ay anamın laylası!

Nəğmə adlı çeşmələrin gözüsən,
Sən elimin, sən günümün özüsən,
Bu layladan qanad alıb, düzü, sən,

Ey Şəhriyar, öz obana qayıtdın.
Sönmüş idin, yana-yana qayıtdın.
Baba yurdu, doğma ocaq, ay ana!
Mehribansan dizinə baş qoyana.
Naxələflər qəflətindən oyana,
Yenə sənin önündə diz çökələr,
Torpağına göz yaşını tökələr.

Salam verdin bu gün Heydərbabana,
«Qaytar» dedin sən quzunu çobana.
Qayıdarkən öz elinə, obana -
Həm yurduna, həm özünə qayıtdın,
Sən gecəydin, gündüzünə qayıtdın.

Heydərbaba qanad verdi şeirinə,
Bülbülləri dil gətirdi şeirinə.
Gül-çiçəyi bir ətirdi şeirinə,
Məgər bunu sən unutdun, Şəhriyar?
Özgənimi əziz tutdun, Şəhriyar?

Heydərbaba ürəyində dağ oldu,
Sən ayrıldın, o, qəlbində doğuldu.
Fikirlərin, xəyalların dağıldı,
Bəs otuz il ürəyində el dağı,
Axı, necə gizlətmişdin bu dağı?!

Günəş doğdu, yer şəfəqə büründü,
Bulud qaçıb üfüqlərdə süründü.
Ürəyindən Heydərbaba göründü,
Salam verdin bu görünən dağa sən,
Bir qul idin, öz elində ağasan.

Heydərbaba, muradı var hər kəsin,
İstərəm ki, qəm könlünü deşməsin,
Balaların səndən uzaq düşməsin,
Yallı gedək sinən üstə biz hər gün,
Sən «Anamın kitabı»* san bizimçün.

El deyib ki, bostan əkmə bəyilən,
Yalan olmur el adından deyilən.
Heydərbaba qarşısında əyilən -
O başının önündə baş əyirəm,
Yalnız indi sənə qardaş deyirəm!

*Mart, 1965*

---

**C.Məmmədquluzadənin «Anamın kitabı» əsərinə işarədir.*

## SÖKÜN ÇƏPƏRLƏRİ

Hər kəs öz bağını tez çəpərləyir,
«Çəpərdən bu yana mənimdir» deyir.

Sökün çəpərləri, daş hasarları,
Gözlər uzaqlara zillənsin barı.
Könül otaqlara sığarmı təkcə,
O gərək atlana dağdan, dərədən.
Baxmaq istəyirəm göz işlədikcə
Uzanan o geniş üfüqlərə mən.

Tutmayaq çiçəyin, gülün yolunu,
Onların könlünü dağ-dağ etməyək.
Təbiət azaddır, gəlin biz onu
Hasarlar içində dustaq etməyək.

Nərdtaxta üstündə sədəf zər kimi
Xanalar içində oynamayaq biz;
O geniş, o sonsuz üfüqlər kimi
Böyüsün, ucalsın ürəklərimiz.
Sökün çəpərləri, daş hasarları,
Gözlər uzaqlara zillənsin barı.

*Mart, 1965*

## NOVRUZ QARI

Yağır novruz qarı... Sulu qar yağır,
Yağır qorxa-qorxa, o ağır-ağır.
Qar yerə düşdümü, əriyir dən-dən,
Əriyir torpağın yaz nəfəsindən.

Torpaq, ana torpaq daim havanın
Götürüb, götürür hər şıltağını,
Qış, qarlı, şaxtalı sərt kitabının
Açıb önümüzdə son varağını.

*Mart, 1965*

## İSTİLİKÖLÇƏN

Qızdırma içində yanır bədənim,
Yoxdur tərpənməyə amanım mənim.
«Neçəyə qalxıbdır qızdırmam görən?»
Sağ əlim alnımda düşünürəm mən:
-Otuz doqquz olar...
yox, qırx...
Ya qırx bir?...
İnsan öz-özünü anlaya bilmir.
Ax!... İndi olsaydı istiliköiçən,
Bilərdi...
(Civədən az qanıram mən?)
Onu da yaradan axı bizik, biz,
Yoxsa bizi ötüb əməllərimiz?!

*Mart, 1965*

## DAN YERİ AĞARIR

*R.Mustafayev bəstələmişdir*

Dan yeri ağarır... pəncərələrdən,
Baxıb gülümsəyir şəfəqlər bizə.
Dan yeri ağarır... Düşünürəm mən,
Nələr gətirəcək bu səhər bizə?

Dan yeri ağarır... ulduzlar sönür,
Ulduzlar alışır ürəyimizdə.
Gecə kölgə kimi yerdə sürünür,
İnsanı gözləyir dərə də, düz də.

Dan yeri ağarır...oyanır şəhər.
Üfüqdən köz kimi boylandıqca gün.
Dan yeri ağarır... ağarır göy, yer,
Bizim üzümüzü ağartmaq üçün.

Dan yeri ağarır... gülür üfüqlər,
İnsanın eşqinə səhər yar olsun.
Bir arzu naminə bu səhər-səhər
Evdən çıxanlara uğurlar olsun!..

*Mart, 1965*

## GÖZƏLLİK BƏXŞİŞDİR

Səni hər görəndə mat qalıram mən
Ana təbiətin səxavətinə.
Elə bil təbiət gözəlliyindən
Bir parça ayırıb bəxş edib sənə...

Yüz dəfə, min dəfə baxdım,
Mən ancaq
Bir qüsur görmədim səndə...
Gözəlsən!
Öyünmə!
Bununçun özünə yox, yox,
Ana təbiətə minnətdar ol sən!

Gözəllik bəxşişdir... O öz yerini
Dəyişir... Bəxşişlə öyünməz insan.
Ana təbiətin verdiklərini
Alır əlimizdən amansız zaman...

Özünü, bəxşişə güvənsən - qına!
Güvən bu dünyada qazandığına!

*Aprel, 1965*

## NİFRƏTİM

Dəniz yırğalanır belədən-belə,
Elə bil yatağı ona dar gəlir.
Hayqırıb özünü çırpır sahilə,
Ona qəzəbindən bir vüqar gəlir.

Dəniz, qəzəbinə ortağam mən də,
Kinindən, hirsindən sular ürküşür.
Hər dəfə mən səni belə görəndə
Yadıma öz hirsim, nifrətim düşür.

De, hansı nifrətdir səni dindirən,-
Özündən çıxarıb qəzəbləndirən?..
Məni də nifrətim aşıb daşdırır,
Özünə sığmayan Xəzərim kimi.
Özümü özümdən uzaqlaşdırır,
Atır sahilimə köpüklərimi...

Dəyişir qəzəbim fitrətimi də,
Nifrətim doğulub məhəbbətimdən.
Qəribə gəlməsin, nifrətimi də
Məhəbbətim qədər istəyirəm mən.

Arzular naminə yaşayırıq biz,
Nifrətim - məsləkim, əqidəm mənim.
Sevgisiz, nifrətsiz, dalğasız, səssiz,

Nəyimə gərəkdir bu aləm mənim?

Nifrətim ucaldır, böyüdür məni,
Özüm də heyranam öz qüdrətimə.
Nifrətim dağıdıb bəndi, bərəni,
Məni çatdıracaq məhəbbətimə.

*May, 1965*

## XƏYALIM MƏNİM

*Hüquqşünas A.İbrahimova*

Gözlərim, gözlərim, borcluyam sizə,
Torpağa,
Günəşə,
Göyə,
Dənizə,
Baxıram, görürəm hər şeyi güntək,
Ən böyük dövlətdir insana görmək!

Qədim zamandan
Gözünə insan
Dünyaya açılan pəncərəm dedi,
Ancaq qüdrətinə yenə kəm dedi.
Dünyanı göstərir mənə gözlərim,
Deyirəm, acizdir yenə gözlərim.
Göz ilə görünməz heç zaman ürək,
Ürəyə ürəklə baxasan gərək!

Göz görür hər şeyin üzünü, ancaq
İçini görürəm kamalımla mən.
Göz mənə göstərir bu günü, ancaq
Sabahı görürəm xəyalımla mən.

Kim deyər insanın neçə gözü var?
Onu bilən yoxdur - desəm yeridir.

Arzular, arzular, şirin arzular,
Xəyal gözümüzün bəbəkləridir.
Hissim də, duyğum da minbir göz kimi,
Alışır...
Gözəldir bu halım mənim.
Gözlə görmədiyim diləklərimi
Səninlə görürəm, xəyalım mənim.

*Qusar. İyul, 1965*

## QARAĞAC

Bu il neçə-neçə kənddən, şəhərdən
Atımı sürdüm.
Harda qarağaca rast gəldimsə mən
Quruyan gördüm...

Yaşıl ağacların içində tək-tək
Qurular, meşənin sinə dağları...
Adamın gözünə batır iynətək
Çılpaq qarağacın dik budaqları.

Alimlər düşündü: «Nədir bu bəla?»
Dünyada hər şeyə səbəb gərəkdir.
Dedilər: -Bu ildən bəlkə dünyada
Qarağacın nəsli kəsiləcəkdir.

Nəslin kəsilməyi!
Dərdə bax, könül!
Bu dərdin oduna gəl yanaq, könül!
Yaxşı bax quruyan bu ağaclara,
Onun çox qədim tarixi vardır.
Tarixdən danışma! Sən axtar, ara,
Onu məhv eləyən hansı azardır!?

Bu günün eşqinə yan, həm də yax sən!
Tarixə güvənmə, bu günə bax sən!
Dünənin eşqinə çox da yanma gəl,
Sən öz keçmişində daldalanma, gəl!

*Qusar. İyul, 1965*

## KARUSEL

Fırlanır karusel bir təkər kimi,
Daima fırlanan, dönən yer kimi.
Fırlanır uşaqlar dəstəbədəstə,
Kimi «at» belində, kimi «fil» üstdə.

Karusel fırlanır... Ötür xoş anlar.
Uşaqlar əl çalır şadlıqlarından.
Uşaqlar zənn edir, dayanıb onlar,
Ancaq başlarına dolanır cahan.

Sevinin, uşaqlar, gülün, əylənin.
Karusel dolanır,
Dəyişir zaman.
Hələlik cahanın başına siz yox,
Sizin başınıza dolanır cahan.

Sevinin, uşaqlar, ömür gödəkdir,
Həyat tumarlayır, oxşayır sizi.
Hələlik dünya da götürəcəkdir
Sizin nazınızı, şıltağınızı.

Karusel fırlanır... Bir dəstə durna
Sanki dövrə vurub səfə düzülür.
Atalar, analar uşaqlarının
Baxıb sevincinə sevinir, gülür.

Bütün bu şənlikdən uzaqda ancaq
Barmağı ağzında durub bir uşaq.
Uşaqlar fırlanır... baxır onlara,
O gülür... Onun da dəyişir halı.
Uzaqdan baxdıqca fırlananlara,
Fırlanır onun da fikri, xəyalı.

O da xoşhallanır, həzz alır gendən,
Duyur fırlanmağın xoş olduğunu.
Uşaq meydançaya tək gəldiyindən
Yoxdur karuselə mindirən onu.

Ancaq o xoşbəxtdir...
O qəlbə mən də
Heyranam...
Ey könül,
düşün, düşün sən.
O, həzz ala bilir özgəsinin də
Həzzindən, zövqündən, səadətindən!...

*Qusar. İyul, 1965*

## QƏMƏRVAN

*Təsərrüfat rəhbəri Əşrəf Əlimirzəyevə*

Gəldim Qəmərvana əlli üçdə mən,
Yazın oğlan çağı, bir gözəl gündə.
Ucaldım dağların əzəmətindən,
Kiçildim evləri yapıq görəndə.

Elə bil damlara qapaz salmısan,
Hamısı balaca, yastı-yapalaq.
«Bu damlar içində böyüyən insan, -
Dedim - ulduzlara necə qalxacaq?»

Çıxıb Qəbələdən «Əşrəf yolu»yla
Gəldim Qəmərvana altmış beşdə mən.
Gördüm camaatı gözü sabahda,
Ürəyi bu gündə, əli işdə mən.

Gəzdim Qəmərvanı mən addım-addım,
Üstü kirəmitli evlərə baxdım.
Ucaldım, böyüdüm bu evlər kimi,
Başım göyə dəydi,
xəyalımda yox.
Mən kənddə görürdüm diləklərimi.

Klub, kitabxana, qonaq evləri,
Məktəb, xəstəxana, neçə gur bulaq -

Hamısı yaranıb on ildən bəri,
Mümkünmü bunlara heyran olmamaq?
Dedim: -Səbəb nədir bu yüksəlişə?
Dedilər: -İş, birlik!
Dedim ki, şəksiz,
Onda çıxmırdınız məgər siz işə?
Dedilər: -Çıxırdıq, ancaq ürəksiz.
- Bəs niyə ürəksiz?
Bunu deyin siz.
Dedilər: -Ürəyi qanadlandıran,
Bizim önümüzdə çıraq yandıran
Başçımız yox idi...
-İnanıram mən.
Hər şeyə qadirdir insan əzəldən.
Ona inam verin, ona haqq verin,
Ona ürək verin, düz yol göstərin.

Ürəksiz! Könülsüz! - gözəl dedilər, -
Könülsüz gülüş də zərərdir cana.
Düzləri dağ eylər, dağı düz eylər,
Siz qanad versəniz əgər insana.

On addımlıq yolda yorulub qalar
Bir yolu güc-bəla, könülsüz gedən.
Yüz ağaclıq yolu belinə dolar,
Yorulmaz heç zaman yolu düz gedən.

- O kimdir?
Dedilər: -Bizim sədrimiz.
O bizə borcludur, biz ona borclu.
Dünyaya gələli biz hər birimiz

Bu torpağa borclu, Vətənə borclu.
O, bizi düşünür, biz onu hər an,
Hamımız bir canıq bir əməl üstə.
Elliyə canını yandırdığından
Bu gün el gəzdirir onu əl üstə.

Əgər boş olarsa başçının başı,
Camaat əlləşər, nahaq tər tökər.
Ağıl da zəhmətin bir yol-yoldaşı,
Başın bəlasını ayaqlar çəkər.

Yerdə yox, göylərdə ildırım çaxar,
Buluddan səpilər bərəkət yerə.
Dağda qar əriyib sel olar, axar,
Bahar dağdan enər çəmənliklərə.

*Aprel, 1966*

## NƏ SƏN GÜLSƏN,
## NƏ MƏN BÜLBÜL

Bir qız qarlı qış günündə
Dibçəkdə bir gül bitirdi.
Qış fəslində gülə baxıb
Ürəyinə yaz gətirdi.

Bu gül, əsl qızılgüldü -
Ləçəkləri varaq-varaq.
Tikanı bol, rəngi qızıl,
Ətri yoxdu onun ancaq.

***

Qonşuluqda bir oğlanın
Qəfəsdə bülbülü vardı.
Oğlan onun nəğməsilə
Dərdlərini ovudardı.

Nə oldusa...
oxumadı,
Susdu bülbül birdən-birə.
Oğlan düşdü min fikirə.

Qonşudakı qızılgüldən
Xəbər tutdu oğlan bir gün.
Bülbülünü o gətirib

Qənşərinə qoydu gülün.

Gül, bülbülü görən kimi,
Sığallandı,
tumarlandı.
Gözlərinə naz-qəmzədən
Sürmə çəkib xumarlandı...

Oxumadı bülbül yenə
Susub durdu,
Lal kəsildi,
Bu hal gülə acıq gəldi,
Gül daha da şivələndi.
Susub durdu bülbül yenə,
Həsrət qaldı bu dar qəfəs
Nəğməkarın nəğməsinə.

Bu inadı görüncə gül,
Rəngi soldu,
Xəzan oldu,
Yumaq kimi tez yumuldu.

Yavaş-yavaş dilə gəldi
Bu dəm bülbül.
Dedi: - Ey gül,
məni tanı,
Ürəyimdə qəm karvanı,
Sən gülsənsə, ətrin hanı?
Demə susub nədən bülbül?

Yazım dönüb sazaq olub,
Köksüm başı dağ-dağ olub.
Vətənində dustaq olub
Çox desə də, «Vətən», bülbül.
Dibçəkdəsən, qəfəsdəyəm,
Sən əlacsız, mən xəstəyəm.
İndi özgə həvəsdəyəm, -
Ağlar zədən-zədən bülbül.

Zaman bizdən kam alıbdır,
Daha ürək qocalıbdır.
Bizdən ancaq ad qalıbdır,
Nə sən gülsən, nə mən bülbül.

*Aprel, 1956*

## SÜKUT

Yerli, yersiz
Mən də çox danışmışam, dinmişəm.
Ancaq... düzü budur ki,
Mən bildiyim çox şeyi
Sükutdan öyrənmişəm.
Gizli-gizli alışan
Ürəyin istisini
Mən görmədim heç odda.
Mən öz fikirlərimi
Eşidirəm sükutda.

*Avqust, 1961*

***

"Çox eşit, az danış!" -
Demiş babalar, -
İki qulağımız, bir dilimiz var!

## ÖZÜMÜ AXTARIRAM

Bəzən atam deyərdi:
«Min dərdi var hər kəsin
Yazla qışa
Bircə ağıl neyləsin?..»
Atam doğru deyərmiş.
Həyat da iqlim kimi
Baharı var, qışı var,
Yoxuşu, enişi var.
Gah min adam içində
Tək bilirəm özümü.
Gah da yalqız otaqda
Cərgələrə düzülür
Düyün düşən fikirlərin düzümü.
Bir ağ saçlı münəccim
Göydəki ulduzlara
Bəzən elə vurulur.
Könül ulduzlarından
Özü xəbərsiz olur.

Saatda bir cür baxır,
Min fəsilli qəlbimiz
Dörd fəsilli dünyaya.
Heç yol getmək olarmı
Addımı saya-saya?
Yox, Yox!

On beş yaşında,
Səsim kallaşan zaman
Dedilər ki, tanıyıb
Özünü bizim oğlan!
Yaman da tanımışdım!..
Qırxı ötmüşəm... Yenə,
Əqlim - uca rütbədə,
Ürəyimsə tələdə.
Tanıya bilməmişəm,
Mən özümü hələ də...

Tanıyıram -
ömrümdə
İlk dəfə gördüyümü.
Bəzən bircə sözündən...
Ancaq özüm özümü
Tanımıram hələ mən.
Bahar-qış,
Səhər-axşam,
Mən anadan olalı
Ömrün dolaylarında
Özümü axtarmışam.

*1962*

## SƏADƏT HAQQINDA DÜŞÜNCƏLƏR

Arxası üstündə uzanmışam mən,
Süzürəm burulan ağ buludları.
Uçur mərcan kimi başım üstündən
Tək sapa düzülmüş durna qatarı.

Lalələr, nərgizlər açılıb dən-dən,
Çəməndə güllərdən məclis düzəlmiş.
Dərədə səslənən çay nəğməsindən
Təpədə lalələr zür-zükə gəlmiş.

Külək də səslənib ötür ahəstə,
Bilmirəm haradır yurdum, məskənim.
Töküb saçlarını sinəmin üstə
Saçımı oxşayır sevgilim mənim.

Mən - bahar,
O - bahar,
Təbiət - bahar.
Baharla bir vurur ürəklərimiz.
Burulub axdıqca qızıl buludlar,
Günəş işığında yuyunuruq biz.

Deyirəm, doğrudan bu gözəl anda
Gözəldir həyat da, gün də, zaman da.

Ancaq düşünürəm, düşünürəm mən:
«Bu fərəh içində xoşbəxtəm görən?»

Yenə yada düşdü ötən nağıllar...
Babam hey deyərdi:
«Səadət ki, var,
Əlçatmaz, ünyetməz Qaf dağındadır,
Zülmətin tilsimli qucağındadır...
İnsan bu dünyaya gələndən bəri,
Daim səadətin sorağındadır...»

Bu yaşa çatmışam... ömrüm boyu mən,
Səadət yolunda qələm çalmışam -
Onu, gah tarixdən, gah bu günümdən,
gah da gələcəkdən xəbər almışam.

Əl çəkib bugünkü səadətimdən,
Daim gələcəklə yaşamışam mən.
Demişəm, gələcək bu gündən gözəl,
Arzu, həqiqətin özündən gözəl.

İnsan olduğumu biləndən bəri,
Səadət yolunun yolçusuyam mən.
Səpdim bu yollara, səpdim illəri,
Əvvəl nə idimsə, yenə oyam mən...

Elə düşünürəm: «Gedir ömür, gün,
Arzu da böyüyür üfüqlər kimi.
Tilsimli zülmətin bağrından bir gün
Mən ala biləydim səadətimi».
Mən - bahar

O - bahar
Təbiət - bahar.
Bahara dəm tutub ürəklərimiz;
Qıvrılıb ötdükcə göydə buludlar,
Günəş işığında yuyunuruq biz.

...Səadət içində üzürkən insan
Səadət axtarır bəzən uzaqdan.
Xoşbəxtlik naminə dağları yardım,
Top kimi divardan-divara dəydim.
Deyirəm, doğrudan xoşbəxt olardım,
Xoşbəxtlik dalınca sürünməsəydim.

*1963*

## İTLƏ AT HAQQINDA «BALLADA»

Yağış yaman yağır... tökülür leysan,
Axır yollar boyu sel axın-axın.
Damcılar süzülür yal-yalmanından
Kötüyə bağlanan sayğısız atın.

Nə qədər kişnədi, nərə təpdi at,
Səs verən olmadı onun səsinə.
Çarəsiz qalınca həsrətlə mat-mat
Baxdı qarşı evin pəncərəsinə.

Gördü pəncərədə şonquyub tula,
Elə bil od çıxdı atın gözündən.
İt dedi: «Nə olub, hə, xeyir ola?»
At dedi: «Gülürəm bu dünyaya mən.

Bu evin daşını, bilirsən bunu,
Çiynimdə daşıdım illər uzunu.
Bu gün yağış altda islanıram mən,
Sən mənə baxırsan evin içindən.»

İt dedi: «Taqsırı görmə kimsədə,
Günahkar özünsən, inci özündən.
Mən, axı, nə qədər öyrətdimsə də,
Quyruq bulamağı bacarmadın sən.

*May, 1963*

## QƏLBİNİ GEN SAXLA

Ürəyim fərəhdən aşıb-daşanda
Qışı yaz görürəm, qaranı ağ mən.
Həmdəmim yanımdan uzaqlaşanda
Gəzirəm özümdən özüm, uzaq mən.

Könül, öz-özünə gəl söylənmə çox,
Əməl də arzuya gərək tən olsun.
«Yolum vardır» - deyə gileylənmə çox,
Qəlbini gen saxla, yolun gen olsun.

Aləmi dərk üçün, aləmə deyil,
Özünə, arzuna bax dedim - yenə.
Dünyanı qaranlıq sanma, ey könül,
Korsansa, gündüz də gecədir sənə.

Səhər də, axşam da, bahar da, qış da,
Soyuq da, isti də, düz də, yoxuş da
Kim deyir həmişə öz yerindədir?
Hər şey qəlbimizin bir pəncərətək
Bu dünyaya baxan gözlərindədir.

*1964*

## MEŞƏ YOLU

Asılıb divardan gözəl bir şəkil:
Bahar mənzərəsi... Qalın bir meşə..
Gözəldir;
Çox gözəl, ancaq elə bil,
Çərçivə içində inləyir meşə...

Meşənin içindən bir cığır keçir,
Dərədən, təpədən adlayır keçir.
Dolanıb yenə,
Dirənir lövhənin çərçivəsinə.

Rəssam, dinlə məni, sənə sözüm var,
Kim istər getdiyi yollar, cığırlar.
Dayansın sərt üzlü çərçivələrdə?
İnsan yox, meşə də dözməz bu dərdə...

Rəssam, çəkdiyin yol, dönsün, burulsun,
Dağların dalında itib yox olsun!
Məchul bir aləmə uzat sən onu,
Görmək istəmirəm yolun sonunu.

*Yanvar, 1965*

***

Qadir insan,
«Təbiətin ağasıyam» - söyləmə sən,
Sən özün də təbiətin içindəsən.
Nə zamandan sən özünə hakim oldun,
Sən özün də
Təbiətin sirlərini
Ötən sirli bir sim oldun.
Sənin səsin,
Suyun səsi,
Quşun səsi,
Göyün səsi,
Yerin səsi,
Sən özün də
Təbiətin özü qədər möcüzəsi!

*Fevral, 1965*

## ÜZÜK

Qızın barmağına üzük taxdılar,
Qız yerə sığmadı, göyə sığmadı.
Dəyişdi səmtini, dəyişdi rüzgar,
İndi iki oldu qızın bir adı.

Üzük dairədir...
Düşünsək dərin,
Dairə rəmzidir əbədiyyətin.
Ərzimiz fırlanır, fırladır bizi,
Bu sürət görünmür gözlərimizə.
Bu sonsuz dövranın həm ilk nöqtəsi,
Həm də son nöqtəsi gizlidir bizə.

Üzüyü rəmzitək əbədiyyətin
Veririk qızlara ilkin hədiyyə.
- Mənim eşqimin də bu üzük təkin,
Nə ilki, nə də bir sonu var - deyə.

*Mart, 1965*

***

- Fikirlisən?
- Yox! - dedim,
Kədərimi gizlədir, mən qəmimi danıram,
Nədənsə öz dərdimi hamıya qısqanıram.
Kədərli anlarımda məni heç kəs görməsin.
Söndür çırağı, söndür!
Sevincim hamınınsa,
Kədərim özümündür.

*May, 1965*

***

Bu nə iniltidir, bu nə nalədir -
Ey ürək, de görək istəyin nədir?
- Soruşma, gəl bunu bir nadan kimi,
Hissim olmasaydı anlaşılardım.
Yox! Əgər bilsəydim öz istəyimi,
Mən ürək olmazdım, ağıl olardım!..

*Noyabr, 1965*

## HƏYATI YAŞA

Şair qonaq gəldi uzaq bir kəndə
Həyatı «yaxından öyrənmək» üçün.
Kəndin əyri-üyrü küçələrində
Sədrlə qol-qola dolaşdı hər gün.

Gəzdi küçələri, gəzdi birbəbir,
Əlində dəftərçə, dilində «yaz, yaz!»
Küçəni gəzməklə bilmədi şair,
Könüllər mülkünə yol tapmaq olmaz.

Baxdı sahələrə o, soyuq-soyuq,
Neçə şeir yazdı təpəyə, dağa;
Kəndi öyrənməyə, tanımağa yox,
Gəlmişdi özünü tanıtdırmağa.

Yığdı camaatı tarladan kəndə
Dedi: - Ölkəmizə bol məhsul verin!
Sonra da əyləşib sədrin evində
Vurdu sağlığına zəhmətkeşlərin...

«Həyat öyrənirəm» - deyə boş yerə
Kənddə bir ayını o vurdu başa.
Bir deyən olmadı, ancaq şairə,
Həyatı öyrənmə, həyatı yaşa!

*Qusar, 1965*

***

Kitabdan qaçıram...
Gecəbəgündüz
Qəlbimi oxumaq istəyirəm mən.
Başqa ürəkləri oxuyuruq biz,
Ancaq xəbərsizik öz qəlbimizdən.

*1965*

## SÖNDÜRMƏ

Söndürmə çırağı,
dayan,
ömrümün
Ən gözəl gününü yaşadım bu gün.
«Uzatsın ömrünü qoy bu gün an da»
Hələ ki qüssələr məni sarmayıb,
Söndürmə çırağı!
Çıraq yananda
Elə bilirəm ki, gün qurtarmayıb.
Söndürmə çırağı, söndürmə, yansın,
Qoy günüm uzansın, nəşəm uzansın!

*1965*

## VAN KLİBERNƏ

Üzün ağladığını görmüşəm,
Gözün ağladığını görmüşəm,
Barmaqların
Ağladığını görməmişdim,
Gördüm...
Barmaqlar ağladı, hönkürdü,
Mən də için-için ağladım,
Hönkürdüm...
Barmaqlar
Dillər üstündə
Sürünüb ağlar,
Barmaqlar düşünüb ağlar.
Barmaqlar bu günə baxır,
sabahı görür.
Barmaqlar dərin-dərin düşünür,
Bizi də düşündürür.

*Yanvar, 1966*

## XALQ ARTİSTİ
## LÜTVƏLİ ABDULLAYEVƏ

Sən bizi güldürüb özün düşündün,
Tutulan, açılan buluda döndün.
Sənin də silahın gülüşdür, qardaş,
Atəşə tutursan səhnədən bizi.
Qəlbən ağlamasan çirkinliklərə,
Güldürə bilməzsən, axı, sən bizi.

*Yanvar, 1966*

## TƏYYARƏLƏR

*İ.Şıxlıya*

Yerdən alıb öz gücünü
Qalxar göyə təyyarələr.
Məhəl qoymaz
nə yağışa,
nə küləyə
            təyyarələr.
Uçuşu da əzəmətli,
Duruşu da əzəmətli...
Aşıb-daşar
            təyyarələr.
Yerdə deyil,
göydə yaşar
            təyyarələr.
Sərnişinə
Vüqarından - vüqar verir
            təyyarələr,
Günlərin yox,
Saatların az ömründə
Qütbləri birləşdirir
            təyyarələr.
Gecə gedir,
Gündüz gedir
            təyyarələr.

Məqsədinə,
Mənzilinə dümdüz gedir
təyyarələr.
Eniş bilməz,
Yoxuş bilməz,
Dolay bilməz
təyyarələr.
Nə burulmaz,
Nə əyilməz təyyarələr.
İçəridən alışmasa
bu sürətlə,
bu cürətlə
Gedə bilməz
təyyarələr.
Özü kimi
Ölümü də mərdanədir.
Mənzilinə uça-uça,
qaça-qaça
Öz içindən tez üzülər
təyyarələr.
Yavaş-yavaş ölə bilməz,
Öləndə də birdən ölər
təyyarələr.

*Aprel, 1966*

## VƏZİFƏ

Dünənədək mehriban:
- Salam!
- Əleykəssəlam!
Ya onlarda, ya bizdə
Nərd atardıq hər axşam.
Danışardıq, gülərdik,
Zarafat da edərdik.

O, bir günün içində
Böyüdü birdən-birə,
Başı dəydi göylərə.
O, dağın təpəsində,
Dağın dibindəyəm mən.
İnsan boy da alırmış
Sən demə vəzifədən.
Nə əlim çatdı ona,
Nə ünüm yetdi ona.

Bir gün köhnə dostuma
İstədim ki, zəng çalam.
Mümkünmü?
Yox! Dəyişib
Telefon nömrəsi də.
Vəzifə dəyişəndə
Sən demə, dəyişərmiş
Adamın
ədası da,

yerişi də,
səsi də.
Mənim bu köhnə dostum
Təpəsindən-dırnağa
Təzələnib yad oldu,
Dostluq - quru ad oldu.
Yanılırdım bəlkə mən,
O, heç dəyişməmişdi,
Başqa şeydi dəyişən?
Ancaq düzü budur ki,
Sirli bir görkəm aldı
Gözlərimdə o mənim.
Getdi o mehribanlıq
Görən kimdir günahkar -
Mən kimdən gileylənim?

Hərdənbir dostumla mən
Görüşəndə
Yadıma
Köhnə bir nağıl düşür;
Mənə elə gəlir ki,
Təpə dağla görüşür.

Ancaq düzü budur ki,
Zərim əlimdə qaldı.
Nərdtaxtanın yerində
İndi bir dağ ucaldı.
Dağın o üzündə mən
Dağın bu üzündə o.
Kölgədə mən,
Gündə o.

*Aprel, 1966*

## O TƏMİZ İZLƏR

Yamanca korlanıb mənim yaddaşım,
Hər şey unudulur, qalmır yadımda.
İşlərə o qədər qarışır başım,
Gülməyin!
Yadımdan çıxır adım da.

Dünən dediyim söz, aldığım vədə,
Bu gün unudulur, tez yaddan çıxır.
Bəs bu nədəndir ki, uşaqlığımın,
Hər anı, hər günü xatırımdadır?

Dünən təmiz idi bu ürək, təmiz,
Yaddaşın aynası, özüm tək təmiz.
Bu gün o aynaya ləkələr düşüb,
Ora min qəm düşüb, min kədər düşüb.
Yüz eli, obanı dolanıb ayna.
Açılıb,
Durulub,
Bulanıb ayna.

Ancaq xatirələr yenə pak qalıb,
Qəlbimə silinməz minbir iz salıb.
Min çıraq yandırıb xatirələrdən,
O gözəl izlərdən
Keçirəm hərdən
Yenə də, yenə də məni təmizlər,
O qəsdsiz,
Qərəzsiz,
O təmiz izlər!..

*May, 1966*

## QIZ QALASI

*Tələbəm Sokrata*

Qız qalası hey dənizə boylanar,
Gəmilərdə
Yolçuları bəlkə ötürmək üçün,
Yox! Bəlkə də
Zirvəsindən uçurduğu
Durnanı görmək üçün...
Pıçıldaşan ləpələrin
Sözü ahuzar oldu.
Sahillərə çarpan sular,
Nakam eşqin göz yaşı...
Ana Xəzər
Durnaya məzar oldu,
Qız qalası baş daşı...

*Aprel, 1966*

***

Açılır səhər,
Oyanır şəhər.
Gecə növbəsindən
Evə dönür bir nəfər.
Yorğun-arğın,
dalğın-dalğın.
O, başqasını gecə əvəz etmişdi,
Onu səhər əvəz etdilər.
O, gecəni qəbul edib
Təhvil verdi səhəri.
Qəlbindəki səhərlə
Sevindirməyə gedir,
Evdəkiləri!..

*1966*

## UCALIQ,
## UZAQLIQ

Uşaqlıqda
Üfüqlərdən o yandakı
Xəyali bir aləm ilə
hey... yaşardım...
Uzaqları görmək üçün
Ağaclara dırmaşardım...
Sığınardım budaqlara
Baxardım, göz işləməyən
uzaqlara,
uzaqlara...
Gah alışıb
Gah sönərdim,
Xəyalımda yaratdığım
üfüqlərdən o yandakı bir diyarı
düşünərdim...
Bircə şeyi düşünməzdim o zaman mən:
neçin görən,
Yaxınlardan uzaqlaşır,
Uzaqları düşünürəm?..
Demə, mənim ucalığım,
Uzaqlığa qanad açmış
Məni belə düşündürən,
Məni belə ucaldan da
Ayaqlarım altındakı
bu ağacmış...

*May, 1966*

## ÜRƏYİM AĞRIYIR

Ürəyin əlindən, hissin əlindən
Nələr çəkməmişəm bu dünyada mən.
Öyrəndim dünyanı, bildim çox şeyi...
Bilmədim, könlümün nədir istəyi...
Bağlayan da özü, açan da özü;
Qovlayan da özü, qaçan da özü...

Nə qədər yüklənsə... yenə «az» deyir,
Axırda yükünü çəkə bilməyir.
Tövşüyür, ağrıyır, incidir məni,
Dost, düşmən içində xar edir məni.
Bilmirəm, dostumdur, yoxsa düşmənim...
Tövşüyür, ağrıyır ürəyim mənim.

Dəhşətlər içində əriyir zaman,
Keçirik zamanın firtınasından;
Ağlımız dərk edir bu dəhşətləri -
Fəlakətləri...
Ürəksə... İçindən qırılır, qırır,
Tövşüyür, ağrıyır, gah da qışqırır...
Ürəyim ağrıyır, ürəyim, - dedim;
Heç «beynim ağrıyır» - deyən görmədim.

*İyul, 1966*

***

Ömrümüz qısadır bir nəfəs qədər,
O, uzun gəlməsin gözlərimizə.
Xəyal olmasaydı... bir qəfəs qədər,
Darısqal gələrdi bu dünya bizə.
Xəyalda gülümsər diləklərimiz,
Dünyadan çıxırıq düşünəndə biz...

*İyul, 1966*

## TƏKƏRLƏR ÜSTÜNDƏ

Təkərlər üstündə səfərdəyəm mən,
Bir saat içində yüz yerdəyəm mən.
Fırlanıb döndükcə rezin təkərlər,
Dəyişir obalar, dəyişir yerlər.

Gözümün önündə axı dəmbədəm
Dəyişir aləm...
Dəyişirəm mən.
Hər an təzələnən lövhələrlə bir
Könül təzələnir, ruh təzələnir...
Səfərə çıxanda...
keçdiyim yol tək,
Uzanır,
böyüyür,
ucalıram mən.
Səfərə çıxanda çıxıram demək,
Vaxtın saat boylu çərçivəsindən.

Səfərə çıxanda... Dərddən, qayğıdan,
Çıxıb ilkimizə dönürük yenə.
Elə bil bizimçün dayanır zaman,
Təkərlər fırlanır onun yerinə...

*Oktyabr, 1966*

## DAĞ VƏ MƏN

*Oğlum İsfəndiyara*

Dağa baxıb uzaqdan
Lap balaca görərdim,
Bapbalaca görərdim.
Soruşardım özümdən:

«Dağ kiçikdir, mən kiçik?»
O zamanlar sanardım
Özümü dağdan böyük,
Dağı özümdən kiçik...

Dağın yanında durdum,
Dağ böyüdü dağ kimi.
Mənsə...
Kiçildim, ancaq
Zirvəsinə baxanda
Düşdü başımdan papaq...

Dağ nə qədər böyükmüş...
Ona uzaqdan baxıb
Öz qəsdimə uymuşam.
Mən dağın qənşərində
Milçək misallıymışam.

Sonralar bildim ancaq:
Dağ ən uca dağ olsun,
Başı ağappaq olsun,
Yoxuşunu çıxdınmı,
Ondan ucasan demək.
Ayaqların altına
Döşənəcək palaztək.

*Noyabr, 1966*

## AZƏRBAYCAN OĞLUYAM

Azərbaycan oğluyam,
Odu Allah sanmışam.
Anam torpaq,
Atam od,
Mən oddan yaranmışam:

Od kimi istiqanlı,
Seltək dəliqanlıyam.
Həyat qədər qədiməm,
Torpaq qədər şanlıyam.

Od kimi yandıranam,
Su kimi söndürənəm.
Məni yandırsalar da,
Suda batırsalar da,
Yenə mənəm,
Mən mənəm!

Köküm üstə bitmişəm,
Şöhrətim var,
Şanım var.
Mənim gələcəklə də
Öz əhdi-peymanım var.

Azərbaycan oğluyam,
At belində doğuldum;
Zamanın qazanında
Neçə dəfə dağ oldum.

Mənim damarlarımda
Gur sellər çağlamışdır.
Anam cəngilər üstə
Məni qundaqlamışdır.

Azərbaycan oğluyam,
Min ildir,
Öz adımın
Keşiyində durmuşam.
Silahım olmayanda
Nifrətimi barıttək
Qəlbimə doldurmuşam...

Hünər göstərməyincə
Adsız yaşamışam mən.
Dədəm Qorqud ad verdi
Mənə öz hünərimdən.

Yoluma nur çiləyən,
Qoluma qüvvət verən
Eşqim,
Ustadım oldu;
Adım doğdu hünərdən,
Hünərim, adım oldu.

Azərbaycan oğluyam,
Yaşım adımdan qədim.
Heç kəsin toyuğuna
Ömrümdə «kiş» demədim.

Kimsənin torpağında
Gözüm yox;
Bilsin aləm
Torpağımdan bir çərək
Kimsəyə də verməram.

Mən bir qədim mahnıyam,
Xallarım əlvan-əlvan.
Musiqim - Qarabağdır,
Sözlərimsə - Naxçıvan.
Bu torpaqda yaranmış
Koroğlunun cəngisi,
Qıratın üzəngisi!

Özümə vurulmadım,
Sevinc də görmüşəm mən,
Sitəm də,
Dərd də,
Qəm də...
Sabirin göz yaşıyla
Özümə gülmüşəm də.

Çənlibeldən düşəli
Cığırları dağıdıb
Geniş yollar salmışam,

Çənlibeldən də uca
Dağlara ucalmışam.
Ucalsam da günbəgün,
Dünənki son zirvəmə
Bu gün yenə «az» dedim.
Tarixin kölgəsində
Daldalanan millətin
Sabahı olmaz dedim!..

Neyləyək ki...
Zamanın
Uğursuz yollarında
İkiyə bölünmüşəm.
İki başlı, bir qəlbli
Bir bədənə dönmüşəm.

Həm Təbriz, həm Bakıdır
Məkkəm, Mədinəm mənim.
Pasportsuz yaşar bu gün
İki Vətəni olan
Azəroğlum, Qafarım,
Əlim, Mədinəm mənim.

Balaş, biz ikimiz də
Bir ananın oğluyuq,
Biz ki, Azəroğluyuq.
Hər ikimiz əzəldən
Bir arzunun quluyuq.

Elimiz də bir bizim,

Dilimiz də bir bizim.
Vətənimiz bir bizim,
Dünənimiz bir bizim.
Olmuşuq bir Vətəndə
Biz bu gün başqa-başqa.
Bizim talelərimiz
Bəs neçün başqa-başqa?
Öz məsləkim, öz eşqim
Daim məndən öndədir.
Azərbaycan bayrağı
Başımın üstündədir!..

Əqidəmin, eşqimin,
Qanımın rəngi bayraq.
Bütün arzularımın,
Qızıl çələngi bayraq.
Hər şeydən bu dünyada
Şərəf uca,
Şan uca!
Zamanın yollarında
Mən ki, səni tutmuşam,
Daim başımdan uca!

*Noyabr, 1966*

## NƏSƏNSƏ, ÖZÜN OL

Siz, ey bizdən sonra şeirə gələnlər,
Bu çətin yollarda uğurlar sizə!
Eşqiniz - gələcək,
Yaşınız - səhə,.
Qəlbiniz işıqlı, fikriniz təzə!

Mərd olun!
Meydanda durun mərd kimi.
Uymayın ötəri şöhrətə, ada,
Bizim şerimizin dünəni kimi
Böyükdür, şanlıdır istiqbalı da!

Ehtiram olsa da, hamı əzəldən,
«Sələfin yolundan mən uzaq! - deyir.
Dünən atasına «önə bax!» - deyən
Bu gün övladına «dala bax!» - deyir.

Biz öz atamıza deyərdik bir vaxt:
«Unutma,
Hər günün öz hökmü var ha!..»
İndi oğlumuza deyirik ancaq,
«Gəl təzə nırx qoyma köhnə bazara!»

Zövqlər, duyğular dəyişir hər an,
Gəldikcə, getdikcə nəsillər bir-bir.
Əzəldən belədir, övladlarından
Atalar həmişə gileylənibdir:

«Ay həzarat, bir zəmanə gəlibdir,
Ala qarğa şux tərlanı bəyənməz.
Oğullar atanı, qızlar ananı,
Gəlinlər də qaynananı bəyənməz...»

Atamız deyərdi bunu bir zaman,
İndi biz deyirik övladımıza.
Oğul o kəsdir ki, köhnə kitabdan
Bu köhnə yazını, bu fərqi poza!

Ata o kəsdir ki, dayanıb öndə
Övladın hissilə yaşaya bilsin.
Övlad o kəsdir ki, çiyinlərində
Atanın dərdini daşıya bilsin.

Siz, ey bizdən sonra şeirə gələnlər,
Bu çətin yollarda uğurlar sizə.
Eşqiniz - gələcək,
Yaşınız səhər,
Qəlbiniz işıqlı,
hissiniz təzə!

Qaçan tez köhnələr bu təzəlikdən,
Ancaq bir mətləbi deməliyəm mən:
Sazımda eybəcər səslər uyduran
Saxta xallar vuran cavanlar da var.
Özgənin hininə «Qəsri-Süleyman»,
Özünün qəsrinə «hin» deyir onlar.

Mənim beləsinə bircə sözüm var:
«Yad yerin halvası çox şirin olar».
Qaçırsan, min illik ənənədən qaç!

Hər kəsə bənzəmə, sən təzə yol aç!
Dediyin hər sözü duy dərin-dərin,
Həyatda gördüyün geriliklərin
Demə ki, hamısı ənənədəndir!..
Sən niyə arxanı köhnə sayırsan,
Qaçıb öz atandan bəs bu nədəndir,
Özgə ataları yamsılayırsan?

Gülmə öz kökünə, ayıbdır sənə!
Ot kökü üstündə bitər, unutma!
Köhnə damğasını vurub atana,
Özgədən özünə sən ata tutma!

Yadın köhnəsi də dilin əzbəri,
Ənənən çiyninə niyə yük oldu?
Anlaya bilmirəm, nə vaxtdan bəri
Yadı yamsılamaq yenilik oldu?!

Bütün köhnələrə: - «bu nədir?» - deyə
Gülsək, nə qazanar bundan gələcək?
Vətən də, millət də köhnədir deyə,
Bəlkə təzəsini axtarmaq gərək?

Onda kim deyəcək, kim, bizə yaxşı?
Hər köhnə pis deyil, hər təzə yaxşı!
Levə* nə deyirsən? O qoca loğman,
Özgə bulağından qətrə içmədi.
Fövqəlbəşər oldu, ancaq heç zaman,
Mujik paltarını o dəyişmədi!

---

** L.N.Tolstoya işarədir.*

«Təzə yol!» - deyib də qışqırmayın siz,
Sənət aləmində yol birmi, yüzmü?
Əsl sənətkarı yolsuz, cığırsız
Heç gördünüzmü?
Yaz ilham deyəni, ürək deyəni,
Yol özü dolanıb tapacaq səni.

Qəlbini, beynini nahaq yorma sən!
Amandır, özündən yol uydurma sən!
Yenilik xətrinə yazmaqdan sakın!
İlhamdır yaradan sənəti, şeiri,
Yağmaq xatirinə yağan yağışın
Nə bağa xeyri var, nə dağa xeyri!

Qəlbinə, hissinə daim arxalan,
Bir də... əlvan səsli illərimizə.
Köhnə söz deməmiş ilham heç zaman,
Hər qəlbin öz sözü təzədir bizə!

Nəsənsə, özün ol!
Təzəsən onda,
Sən köhnə olursan yamsılayanda!
Nəsənsə, özün ol,
Kökündən yapış!
Dünənə arxalan,
Bu gündən yapış!

*Dekabr, 1966*

## DEYİRLƏR

Danışdın,
İndi də bizi dinlə sən!
«Vətəni sevirəm» - dedin,
çox gözəl!
Ancaq, ay eloğlu, bu sevginlə sən,
Vətənin boynuna minnət qoyma, gəl.

Sən öz şöhrətini, sən öz şanını,
Fikrini, hissini, həyəcanını
Vətənə borclusan, Vətənə, ancaq.
Sən onu sevirsən,
Bu sevgini də,
Tək ona borclusan, tək ona borclu.

Sevirsən, sevgindən əvəz gözləmə,
Axı, sən özünü ona borclusan.
Əgər sevirsənsə, «mənimsən» demə,
Sevənlər «onunam» demiş hər zaman.

Tanına bilərsən bütün dünyada,
Şöhrətin
Vətənin sərhədlərinə
Sığışmasa da -
Sığışmalısan
Sən özün yenə
Səni böyüdən

Bu doğma yurda.
Sən, axı, burda
Qanad açmısan.
Uzaqlara da
Burdan uçmusan.
Unutma bir an,
Kiçiksən dünyanın müqabilində;
Böyüksən, ancaq
Doğma torpağında, doğma elində.

Deyirlər,
Demisən: «Mən Vətənlə yox,
Vətənim mənimlə tanınır indi».
Bir kiçik mətləbi unutdun ancaq,
Səni tanıdan da öz Vətənindi!

Dediyin mətləbi dərindən düşün!..
Gör kimin önündə lovğalanırsan.
Özünü anana deyil, sən bu gün
Ananı özünə borclu sanırsan.

Doğrudur hər yerdə çəkilir adın;
Ancaq bu hörməti tək qazanmadın.
Unutma, arxanda dayanıb Vətən,
Sən onun xətrinə əzizlənirsən.

Anayla, atayla tanınar uşaq -
Naxələf övladdan, sələf nə gözlər!
Unutma, özgələr uşağı ancaq
Ananın xətrinə oxşar, əzizlər.

*Mərdəkan. Yanvar, 1967*

***

Ömür çox qısadır, yatma, ayıq dur!
Daim son səfərə hazır ol, ancaq.
Qısadır, həm də ki, necə uzundur
Doğumdan ölümə gedən yol, ancaq.

Bu yolda fikirlər bizə bir həmdəm,
Fikirlər dayaqdır yoxuş çıxmağa.
Bu qədər az ikən ömür, bilmirəm,
Hardan vaxt tapırıq biz darıxmağa?

*Yanvar, 1967*

***

Körpülər var,
Uzunluğu
min çərək,
milyon çərək.
Bir körpü də var ancaq,
Uzunluğu qırx çərək.
Qısa ikən bu qədər
Uzundur
əsrlərin
eniş, yoxuşu qədər.
Gedirəm,
qədəm-qədəm.
Düz əsr yarımdı ki,
Bu balaca körpünü
Başa vura bilmirəm.

*Yanvar, 1967*

***

Bülbül, min il şeirimizdə
Cəh-cəh vurub dil açdın sən,
Qovdular bir qarğa kimi
Bu gün səni şeirimizdən.
Necə dözək biz bu dərdə?
Sən şeridən qaçaq düşüb
Bu gün artıq dolaşırsan
Dərələrdə, təpələrdə...
Ancaq bunu bilmirik biz:
Dərələrmi qazanıbdır,
Ya şeirimiz?

*Fevral, 1967*

## MÜBARƏK

Ay ellər, Novruz gəlir,
Qışımızın son sözü,
Yazımızın ilk sözü,
Fikrimizin novruzu,
Arzumuzun novruzu.

Ay obalar, ay ellər,
Bayramınız mübarək!
Yaz qışa üstün gəlir,
Novruz -
Təzə gün gəlir!

Dağların başındakı
Qardır selin əvvəli;
Səhər - günün əvvəli,
Bahar - ilin əvvəli!

Gəlin, dostlar, gəlin biz
Yazın bu ilk günündən
Günəşi alqışlayaq.
Günü səhər çağından,
İli yazdan başlayaq:
Tonqallar yandırılsın,
Üstündən tullanaq biz.
Babaların ruhunu
Oddan keçib anaq biz.

Odda yanıb kül olsun
Bütün dərdi-sərimiz.
Od üstündən atılsın
Sonsuz gəlinlərimiz.
Bu bayram məclisinə
Belində qızıl kəmər
Yaşıl securing səməni gəlsin.
Masa üstə dağotu,
Yaylaq çəməni gəlsin.

Ay nişanlı cavanlar,
Bu bayram gecəsində
Hamıdan çox sevinib
Güləsiniz siz gərək!
Hanı bayram xonçanız,
Qız evinə göndərək!

İlaxır çərşənbədə
Hər ocaqda bir büsat,
Hər qapıda səs-səda
Nənəm qapı dinləyib,
Fal açardı kasada.
Yenə də fal açaqmı,
Sınayaqmı iqbalı?
Taleyini,
bəxtini
Özü yaradanların
Çoxdan açılıb «falı»;

Məleykəmiz, Bəstimiz,
Hamıdan qabaq ikən,

Dönüb dalamı baxsın?
Böyük gələcəyini
Özü yaradan insan
Bu gün falamı baxsın?

Yox-yox! Bu bayram günü
Gəlin verib əl-ələ
Yallı gedək bu gün biz.
Novruz çiçəklərindən
İşıq alsın,
Rəng alsın
Taleyimiz, bəxtimiz.

*Mart, 1967*

## QARĞA - BÜLBÜL

Qarğa var, iki yüz, üç yüz yaşında
Qarıldar, quruldar ağac başında.
Bu eybəcər quşa kimsə toxunmaz,
«Səsindən, özündən həzz alaq» - deyə.
Qorxusuz, ürküsüz o uçar qış-yaz,
Qaydadır, od düşməz murdar əskiyə.

Bədbəxt bülbülünsə min bəlası var, -
O, başqa sevdada, başqa həvəsdə.
Deyirəm, ay anam, belə dərd olar,
Qarğa dağ başında, bülbül qəfəsdə?..

Eşitcək sözümü bülbül ağladı,
Səsi yolçuları yoldan saxladı.
Söylədi: - Dolaşdım bütün dünyanı,
Bürüdü şöhrətim, şanım hər yanı.
Öz səsim özümə bir qənim oldu,
Mənim gözəlliyim düşmənim oldu.
Sözüm dilə düşdü, mən səsə düşdüm,
Dilimin ucundan qəfəsə düşdüm.

İnsanın özünə kəsilir düşmən
Dövləti, sərvəti, pulu, varı da.
Bəzən meyvəsinin ağırlığından
Sınır ağacların budaqları da.

*Qusar. İyul, 1960*

## İKİ ÇİNAR

Durur yanaşı bir cüt xan çinar -
Bu iki yoldaş,
Bu iki həmyaş...
Yayın bürkülü ən isti çağı,
Birinin tamam solub yarpağı,
Vaxtsız qocalan cavanlar kimi.

O birininsə... yarpağı dən-dən,
Rəngi yamyaşıl.
Hələ saçına bir dən düşməyən
Arsız, qayğısız insanlar kimi...
Boy-buxununa min sığal çəkər
O, bütün günü,
Həmyaşının da yaşar ömrünü.

*Avqust, 1961*

## MƏN HAZIRAM!..

*Amerikanın Vyetnamda törətdiyi cinayətlərə etiraz olaraq, BMT-nin binası qarşısında özünü yandıran Rocer Laportun xatirəsinə*

«Hərbi bilet nə deməkdir?»
Mən bilirəm mənasını bu biletin.
Hər millətin,
Hər bir kəsin
Şərəfidir öz yurdunun istiqlalı...
Doğulduğum gündən mənə
Çörək verən, həyat verən,
qanad verən
Bu torpağa borcluyam mən.
Haqqı-sayı unutmadım,
unutmaram.
Vətənimin öz haqqını qorumağa
mən də varam!
Ancaq deyin,
Haqqı varmı Vətənimin
Qılıncını qamçı kimi
Dolandırıb sola-sağa,
Bir bəlalı məmləkətin
Öz haqqını tapdamağa?..
Azadlığı bayraq edib öz əlində,
Ancaq daim əməlində
Azadlığı boğan ölkəm,

Nə istəyir bizdən heç nə istəməyən,
Azadlığa «haqqım» deyən
Bir ölkədən?
Bilmirəm mən!
Hərbi bilet!
Mən borcluyam qorumağa Vətənimi,
Məgər borclu deyilmi bəs.
Vətənini qorumağa
Vyetnamlı mənim kimi?
Haqq olmuşam nahaqkən mən.
Haqsızmıdır o, haqq ikən?
Vətənimə basqın varsa,
Mən hazıram!
Haqqımız da tapdanarsa,
Mən hazıram!
Daşındısa sərvətimiz,
Qul olduqsa yadlara biz,
Mən hazıram!
Vyetnamlı Vyetnamdan
Qapımıza daş atdısa,
Bizim bircə tikəmizlə
Uşağını yaşatdısa, -
Mən hazıram!
O yazığın günahı nə, təqsiri nə?
Hücum çəkim Vətəninə?
Neçin, axı özgəsinin
Qapısını qaraldım mən?
Çırağını söndürüm mən?
Neçin axı mən səadət ummalıyam
Özgəsinin zillətindən?
Neçin gərək,

Neçin axı,
Özgəsinə
Xeyirini, zərərini biz göstərək?
Zorluyuqmu?
Zoru olan, gücü olan bir ölkədə
Bəs haqq yoxmu?
Mən hazıram
Haqq yolunda döyüşlərə!
Bu uğurda
Mən ölsəm də min-min kərə
Uf demərəm.
Bu, şərəfdir, şandır mənə,
Qurban olsun
Min-minimiz bir Vətənə!
Əlimdəki hərbi bilet
Mənə deyir, düşünmə sən,
Əvəzinə var düşünən!
Deyir, bütün Şərq oyanmış,
Sənin borcun yatırmaqdır onu ancaq!
Yox!
Zənciri qıran bir xalq,
O zənciri, vallah, bir də
Biləyinə taxmayacaq!
Fikirlərin, məsləklərin ayrılığı
Vyetnamı parçaladı iki yerə;
Bu ayrılıq necə sığır
«Haqqam» deyən fikirlərə,
Məsləklərə?
Fikirlərin, məsləklərin ayrılığı,
Bir ölkənin, bir millətin
Sinəsində çəpər olur.

Bu çəpərin bir ağrısı
Min ağrıdan betər olur.
Yox!
Özgəsi göstərməsin
Öz borcumu bu gün mənə.
Mən bilirəm nədir borcum
Bu torpağa,
Bu Vətənə!
Demə qabdan-qaba girən,
Öz şəklini dəyişdirən
bir suyammış.
Mən dünyaya gəlməmişdən
borcluyammış!
Xeyr! Mənim öz düşüncəm,
Öz əqlim var:
Aldatmamış məni heç vaxt
İçi təzək, çölü bəzək
Qarıltılar, qurultular...»
Rocer Laport
Bu dalğalı fikirlərlə aşıb-daşdı,
Yavaş-yavaş
BMT-nin binasına yaxınlaşdı.
Gəlib durdu o, binanın qabağında
Gecəyarı...
Seyr elədi göy üzündə ulduzları,
Yer üzündə çıraqları.
- Onlar yanır, necə yanır,
Onlar ancaq gecə yanır.
Gündüzlərsə tez sönürlər,
Onlar üzdən yandığıyçın
Gözümüzə görünürlər...

İçəridən yananları
Görə bilmir niyə gözlər?
İçəridə qətran kimi əməlimiz,
Bayırdasa ağappaqdır sözlərimiz.
İçəridən yanıram mən
Vyetnamda el-obası yananlara,
Yurd-yuvası yananlara...
Bəsdir,
Yetər içəridən alışmağım,
Ürək oldu lağım-lağım!
Sinə dağım
Ürəyimi kül elədi,
Çölə çıxır indi mənim alovlarım,
Yanmalıyam!
Yad torpaqda bir millətin
Haqq səsini boğmaq üçün kül olunca,
Haqqım üçün kül olum mən,
Qoy havaya sovrulum mən...
Bu dəm çəkdi kibritini
Benzinlənən paltarına.
O, alovdan don geyindi.
O qarışdı paltarına,
paltar ona.
BMT-nin binasına
işıq düşdü,
Pəncərələr işıqlandı.
Bir düşünən adam yandı,
işıq yandı.
Amerikanın göbəyində
Göyə qalxan
O azadlıq abidəsi

Bu işıqdan utanmazmı?
Utanmadı!
Bir işə bax!?
Azadlığa sədd çəkənin
Azadlıqdır bu gün adı!..
Ay azadlıq,
Vay azadlıq!..
Güc - haqq olub, yalan - doğru,
Yad evində hakim olub bu gün oğru!
Millətlərə matəmini
Toy yerinə yedirirlər.
Əsarətdə can verənə
«Mən azadam» dedirirlər.

BMT-nin divarları titrəmirmi
Yurdsuz qalan qocaların ah səsindən,
Körpələrin naləsindən?
BMT-nin qanununda
Yazılıbmı bu dəhşətlər, bu vəhşətlər,
Görünməmiş cinayətlər?
Conson yenə hökm verir
Harın-harın.
Od içində yanır böyük bir məmləkət.
Bu atəşdən
İnsaf odu niyə düşmür
Ürəyinə consonların?
Vyetnamı anır Rocer,
Vətəninin günahını
Öz günahı sanır Rocer.
Vyetnamın atəşinə
Yanır Rocer...

*Dekabr, 1965*

## EKRANDA GÖRÜŞ

Oğul şəhərdədir,
Anasa kənddə,
Görüşə bilmirlər bir məmləkətdə.

Ekranın önündə oturub ana
Fəxrlə,
Qürurla baxır oğluna.

Oğul şeir oxuyur: «ay anam, sənə
Canımı versəm də, bu azdır yenə...»

Oğul şeir oxuyur,
Ana dinləyir.
«Balam bir balaca sınıxıb» deyir.

*Şəki. May, 1966*

## MEŞİN QAPILAR

Gözləmə otağında
Saatlarla gözlərin
Lal qapıya dikilər.
Mənim nə çəkdiyimi
Qapılar arxasında
Mürgü döyənlər bilər.

Ürəyində böyüyür,
Dodağında kiçilir
Sözün də, sualın da.
Ax!.. bizim ömrümüzün
Görən neçə parçası
Əriyib külə dönmüş
Qapıların dalında?

Qapılar arxasında
Biz nə qədər durmuşuq.
Neçə gözəl arzunu
Siqar tüstülərilə
Havaya sovurmuşuq.

Ax, sərt üzlü qapılar,
İki üzlü qapılar
Talelər həll olunur
Qapının o üzündə.
Adamlar boynubükük

Əyləşib mat-məəttəl
Qapının bu üzündə.
Dindirsən gələr dilə
Qapıların ağzına
Səpilən tozlar belə.
Onlar toz deyil, ancaq
Qapılara toxunub
Ayaqların altına
Tökülən arzulardır.
Ürəklərdə doğulub,
Bircə «yox» kəlməsilə
Yox olan arzulardır.

Ax!.. Bu bir kəlmə «yox»un
Arxasında nələr var,
Neçə əyilmələr var.
O «yox» deyir, bu, yoxdan,
O özü də xoşlanır.
Deyirəm ki,
Yaltaqlıq da,
qorxaqlıq da
Elə burdan başlanır.

Siz, ey meşin qapılar,
Siz, ey meşin qapılar,
Sizin üzünüz soyuq;
Sizdən ümidlə girib,
Ümidsiz çıxan da çox.
Sizi təpiklərilə
Vurub açan tapılar,
Siz, ey bağlı qapılar,

Qaşqabaqlı qapılar!

*Sentyabr, 1966*

## QIŞDA İLAN

Daş çatlayır bürküdən
Qışda belə bir isti
Görməmişəm hələ mən.
Gör işin harasıdır,
Qışın oğlan çağında
İlan çıxıb yuvadan
Günə verir özünü
Asfaltın qırağında.
Tez əyləyib maşını
Əzdilər
aldadılmış
Bu ilanın başını.
İstini yay bildi o,
Aldanıb əzildi o.

*Yanvar, 1967*

## ÜMİD

Qorxmuram, düşmənim qoy min-min olsun,
Neyləyər mənə?
Şöhrət sənin olsun, ad sənin olsun,
Ümid ver mənə!..

Ümid istəyirəm, mən ümid ancaq,
Ümidlə qoyaram dağı dağ üstə.
Nə şöhrət, nə mənsəb, nə dövlət, nə var,
Ey könül, dünyadan sən ümid istə!..

Ümid arzuların qızıl naxşıdır,
Deyərlər, yeməkdən ümid yaxşıdır.

Deyək dənizdəyəm, sahil görünmür,
Ümid mənimlədir,
o, məndən dönmür.
Sahilə can atıb çırpınır ürək,
De, neyləyəcək
Üstümə şığıyan ləpələr mənə?
Ümid ver mənə!

İnamla ucaltdıq anamız yeri,
Biz möhtac olmadıq dosta, düşmənə.
Dəmir çəpərləri, daş hasarları
Dişimlə sökərəm, ümid ver mənə!
Həsrət də, hicran da deyil qorxulu,

Ümidlə açılar hər eşqin yolu!
Bir il - bir an kimi görünər mənə,
Ümid ver mənə!
Həsrət - vüsal qədər xoş gələr mənə,
Ümid ver mənə!
İnam ver mənə!

Yaman darıxır,
Səfərə çıxır
Mənim könlümdəki xəyallar yenə,
Bələdçi yerinə ümid ver mənə.

Diləklər ümidlə birgə doğulsa,
Yerin tərkində də ucalar insan.
Arzumu tapmağa ümidim olsa,
Mənzil başındayam, yola çıxmadan.
Ümidlə qoyaram dağı dağ üstə,
Ey könül, özündən sən ümid istə!..

*Mart, 1967*

## BƏLKƏ DƏ

Gecə də, gündüz də yazmalıyam mən
Bu günümüzdən...
Bu əsrin sözünü gələcək əsrə
Yetirmək üçün.
Gələcək önündə günahkar ollam
Yazmasam bu gün...

Deyirəm, bəlkə də həməsrlərim
Şeirimi gözləmir o qədər mənim...
Çıxacaq işığa,
Əminəm buna -
Bu gün qalsa belə kölgədə şeirim.
Deyirəm, sabahın oxucusuna
Daha çox gərəkdir bəlkə də şeirim...

*Mart, 1967*

## «HƏ» İLƏ «YOX» ARASINDA

Yaxşı tanıyıram düşməni, yaxşı,
Ancaq tanımıram mən səni yaxşı.
Sənin kimisini tanımaq çətin,
Nə nifrətin bəlli, nə məhəbbətin...

Səni bircə kərə görən oldumu,
Həyatın dolaşıq macərasında?
Bütün ömrün boyu, həyatın boyu
Can verdin «hə» ilə «yox» arasında.

Fikrini, hissini varmı bir bilən?
Quru can saxladın bu dünyada sən.
Böyüklər üzünə heç ağ olmadın,
Kimsənin dərdinə ortaq olmadın...

Çəkib çıxarırsan telefonu da
Evə gələn kimi o saat yəqin.
İstəyir bu dünya lap düşsün oda,
Təki pozulmasın istirahətin.

Səhərlər süd içdin, gecələr qatıq,
Narahat olmadın ömründə bir gün.
Ləkəsiz adınla bilsən, ay yazıq,
Zamana ən böyük ləkəsən özün.

Seçmək istəmədin qaradan ağı,
Xəyalın həqiqət, yuxun çin oldu.
Qulaq dincliyilə, can rahatlığı
Dünyada ən böyük məsləkin oldu.

Mənsəbdən bir pillə düşməyin, yəqin
Ən böyük, ən ağır sinə dağındır.
Dünyada ən böyük qəsdin, cürətin
Arvadın üstünə çımxırmağındır.

Sevmədin özündən başqa heç kimi,
Hiylə daşlarından saraylar qurdun.
Bütün ömrün boyu sən qatar kimi
Cədvəllə oturub, cədvəllə durdun.

Ömründə bilmədin yıxılmaq nədir,
Sən addım atdın ki, yıxılasan da?
Əllərin həmişə ətəklərdədir,
Sən əl görməmisən hələ yaxanda...

Günün yarısını dar otaqdasan,
Dörd divar içində quru taxtasan.
Otağın hər küncü tanışdır sənə,
Bilirsən hardadır kürsün, masan da.
Gecə də taparsan istədiyini,
Otaqda çırağı yandırmasan da.

Otağa girəndə sən yavaş-yavaş,
Kürsün öz yerində olmayaydı kaş.
Kürsüyə ilişib sən yıxılaydın,

Ömründə bircə yol dilxor olaydın.

Durduğun pillədən yerə enəydin,
Düzü sevinərdim sən pərt olanda.
Barı, kürsüyəsə qəzəblənəydin,
Qəlbin var, insansan, - deyərdim onda.

*Aprel, 1967*

***

Telefon zəng çalır... - Alo!
- Hə, salam!
Tez tanıyıram,
Danışan kim olsa dərhal səsindən,
Bir kəlməsindən.

Səsimi yazıblar maqnitofona,
Qulaq kəsilmişəm bu axşam ona.
Özgə bir adamı dinləyir kimi
Tanıya bilmirəm mən öz səsimi.

İlk dəfə gördüyüm adamı bəzən,
Bircə baxışından, bircə sözündən
Tanıya bilirəm... Sən bir dərdə bax;
Tanıya bilmirəm özümü ancaq...

Lent axır... özgəni dinləyir kimi,
Tanıya bilmirəm mən öz səsimi.

*Aprel, 1967*

## ŞAİR -VƏTƏN

Arada-bərədə görürsən tez-tez,
Deyirlər: «Nə çoxdur şairlərimiz.
Bunun qarşısını alaq biz gərək,
Bizə həkim gərək, mühəndis gərək...»

Mənsə deyirəm ki, şair bol olsun,
Bütün doğulanlar şair doğulsun.
Sənətkar sənətə amalla başlar,
Şerim - amalımdir - desəm, yeridir.
Şer yazmasa da, əqidədaşlar
Dünyanın ən böyük şairləridir.

«Şair çoxdur» deyə gileylənməyin,
Əlhəzər eləyin tüfeylilərdən.
Yaxşı söz önündə siz də baş əyin,
Şair ki, yığmayır sözləri yerdən.

Şairi kimsəyə dəyişmərəm mən,
Onlar hər cilvədə min sirr axtarır.
İdrakın irişməz dərinliyindən
Onlar söz axtarmır, fikir axtarır.

Onlar gecə-gündüz dərd, ələm çəkir,
Bu ağrı gəlməsin çox yüngül sizə.
Bəlkə də ən zəif, ən kiçik şair

Böyük vətəndaşdır Vətənimizə...

Şairin bədəni - bu ana torpaq,
Nəfəsi - xəzridir, qanı - Kür, Araz.
Çox şey Vətənsiz də yaşayır, ancaq
Şeirsə Vətənsiz, elsiz yaşamaz...
Şairə vəzifə, rütbə nə gərək!
«Vətən», «Vətən» deyir könül səsi də.
Vətəni sevməkdir, Vətəni sevmək,
Şairin ən böyük vəzifəsi də.

Ancaq... bəla onda, dərd ondadır ki,
Vəzifə xumarı gözünü örtən,
Vətəni pul kimi cibinə dürtən
Bir rüşvət düşgünü, rütbəli nadan
Durub kül üfürür gözlərimizə.
Vətəni sevməyin «qaydalarından»
Utanmaz-utanmaz dərs deyir bizə.

Vətəni sevməkdə nə qayda, qanun?
Vətən sevgisinin hüdudu varmı?
Ey nadan, ölçülər özünün olsun,
Məhəbbət ölçüyə, həddə sığarmı?

*May, 1967*

## MİZ ARXASINDA

Gündüzlər gəzirəm bizim şəhəri,
Axşamlar qonuram öz budağıma.
Axşamlar xəyalım gəzir hər yeri
Dünyanı sığdırıb dar otağıma.

Masa arxasında mən söz ordumu
Çəkirəm üstünə hər qaranlığın.
Mən bütün dünyanı,
Mən öz yurdumu
Mizimin üstündə görürəm aydın.

Masa arxasında... əlimdə qələm
Gəzirəm dünyanı mən qarış-qarış,
Mənim xəyalımın, deyirəm, bu dəm
Ayağı dəyməyən bir yer qalmamış.

Masa arxasında könlüm biqərar -
Yolum neçə kənddən, şəhərdən düşür.
Vyetnama yağan ağır bombalar
Elə bilirəm ki, evimə düşür.

Güclüyəm! - deməli, mən haqqam, deyə,
Zülm haqq paltarı geyinir bu gün.
Mənim misralarım dönür gülləyə,
Evini tutanda güclü gücsüzün.

Sinada yandırır gün göyü, yeri,
Yenə də ərəbin Vətəni darda.
«Su» deyib yananda ərəb əsgəri
Mənim dodaqlarım çatlayır burda.
Masa arxasında öz ürəyimi
Məşələ döndərib yandırıram mən;
Dünyanın dərdləri mürəkkəb kimi
Axır qələmimdən, axır sübhəcən.

Ürəyim ilhamla, sözlə dolanda
Hər sətrim könlümdən od alır mənim.
Duyan bir ürəkdə tel qırılanda
Şeirimin vəzni də qırılır mənim.

Masa arxasında... torpağın, yerin
İsti nəfəsiyəm, zərif ətriyəm.
Mən havanın deyil, hadisələrin,
Könül dünyasının barometriyəm.

Qoşuram ardınca xoş xəyalların,
Yer mənim, göy mənim, asiman mənim.
Qəlbimdən min qəlbə gedən yolların
Əvvəli başlanır masamdan mənim.

Elə ki, qalxıram masa dalından,
Xəyalım kiçilir, fikrim gərilmir.
Bayaq otağıma sığışan cahan
İndi öz-özünə sığışa bilmir.

Bayaq öz canıma, qanıma qıydım,
Bilmirdim vaxt keçir, yatasıyam mən;

Bayaq bir dünyanın vətəndaşıydım,
İndi övladımın atasıyam mən.
Oxuyun könlümü şeirlərimdən,
Könül gizlənməsin söz arxasında;
Dünyanın ən gözəl adamıyam mən
İlham aləmində, miz arxasında.

*May, 1967*

## BƏS ÖZÜN NƏSƏN?

Deyirsən: «Maşallah, vəzifən də var,
İşlət sola-sağa bu vəzifəni.
Qohumuq, qardaşıq, axı, nə olar.
Bir az da itələ qabağa məni».

Yıxılar kənardan itələnənlər,
Mənə güvənirsən, bəs özün nəsən?
Bir addım atmaq da çətindir, əgər
Özün içəridən itələnməsən...

*May, 1967*

# PİRQULU RƏSƏDXANASI HAQQINDA ŞEİRLƏR

## 1. SƏN KİÇİK BİR BİNASAN

Rəsədxana!
Kainatla dayanmısan üzbəüz.
Axtarışların - sonsuz,
Əməllərin intəhasız,
Meydanın ölçüsüz...
Ayaqların - yerdəsə,
Əməllərin - göydədir.
Göydən baxdın yerə sən,
Kainata açılan
Ən iri pəncərəsən!

«Gözlə, gəlirəm» - deyə,
Hey güvənir, öyünür
Bu gün anam yer sənə.
Yerin göylərdə gəzən
Ağlı dedilər sənə!
Qaranlıq gecələrdir
Günün,
Gündüzün sənin.
Ulduzların işığı -
Əlifban,

Sözün sənin!
O yumulan üfüqlər,
Münəccimin hər gecə
açılan kirpikləri!
Onlar illərdən bəri
Bir ulduzun sayrışan
İşığını höccələr.
Sən kiçik bir binasan,
Neçə-neçə dünyalar
Qonağındır gecələr.

Bu binada əriyib
Gecə dönür səhərə,
Bu binadan açılır
Səhərlərə pəncərə...
Bu bina
bu günlərin
Sabahkı xoş günlərə
Uzanan tunc əlidir.
Bu bina
dağ başında
Sabahın heykəlidir!
Ulduzların gözüylə
Bizə baxıb uzaqdan
İşıq saçır gələcək;
Bu binada doğulub
Ayaq açır gələcək!

## 2. TELESKOP

Göydə sirr,
Yerdə sirr,
Kainatda sirr.
Nə qədər sehirli sirr açdın yerə.
Göylərə dikilən gözün işləyir
Ağıl işləməyən dərinliklərə!

İnsanın eşqini
Alışıb sən də
Sonsuz boşluqlara yetirən oldun,
Ən dərin, ən dibsiz boşluq içində
Süzən əvvəlinci gəmi sən oldun!
İnsanla kainat, məntiqlə güman,
Məlumla məchullar arasındasan.
Dərinlik - məqsədin, mənzilin, yolun,
Ənginlik - başında zərli tac oldu.
Sonsuzluq - ən yaxın həddin, hüdudun,
Uzaqlıq - səninçin başlanğıc oldu.

## 3. MÜNƏCCİM-ŞAİR

*Rəsədxananın elmi işçisi Teymur Əminzadəyə*

Sən də münəccimsən, mən də münəccim,
Sənin teleskopun, mənim qələmim.
Axtarır,
Axtarır...
Axtarırıq biz.
Sən təzə bir ulduz,
Mən təzə bir söz...

Beləcə ağarır gecələrimiz,
Axtara-axtara ucalırıq biz.
Gümanlı, gümansız bu axtarışlar
Bəzən uğurludur, bəzən uğursuz...
Təzə yol,
Təzə söz,
Təzə bir ulduz
Sirrini verməyir bəzən yüz ilə.
Min-min illərdir ki,
İnsan sirr ilə
Döyüşür...
Daima gedir yarışlar,
Tükənən deyildir bu axtarışlar.

Sirli kitab kimi baxmışıq göyə,
Bilirik sonsuzluq, ənginlik nədir.
Daim dərinliyə en, dərinliyə!
Təzəlik - həmişə dərinlikdədir!

Başlayıb müşəxxəs rəqəmdən: 1-dən
Qalxırsan! Ayağın üzülür yerdən.
Üzürsən qoynunda xoş xəyalların -
Boşluğa dirənən ehtimalların...

Mənzilsiz yollarda süzürkən ürək,
Özün də cavabsız min sirr olursan.
Qardaş, bu nöqtədə sən də mənimtək
Xəyallar qoynunda şair olursan.

Təzəlik - arzumdur, intizar - qəmim,
Sən göylərə ucal, mən enim yerə.

Sənin teleskopun, mənim qələmim
İşləsin həmişə dərinliklərə!
Açılsın önündə sonsuz kainat,
Batsan da, qardaşım, dərinlikdə bat!
Dayazda batanlar
Çox vaxt qorxudan,
Xofdan boğulur.
Dərində batanlar qəhrəman olur!

Sirli kitab kimi baxmışıq göyə;
Bilirik - sonsuzluq, ənginlik nədir.
Daim dərinliyə,
En dərinliyə!
Təzəlik - həmişə dərinlikdədir!

## 4. GÖYÜN XƏRİTƏSİ

Zilləyib gözünü ənginliklərə,
Çəkirsən göylərin xəritəsini:
Bu Günəş
Bu Neptun,
Bu Mars,
Bu Zöhrə.
Bu da filan bürcün
uzunu,
eni.

Burdakı cizgilər, boyalar, xətlər
Ayırır bürcləri biri-birindən.
Bəs hanı yerdəki hüdudlar, hədlər,

Dövləti dövlətdən ayırmadın sən,
Göydə ayrılmayır ölkə ölkədən.
Səninçün bir dünya, bir kainat var,
Sərhədlər, hüdudlar yaşatmır səni.
Yaxşı ki, hələlik yaratmayıblar
Göylərin siyasi xəritəsini.

Böyük duyğulardır şərəfin, şanın,
Sənin gözlərində açılır səhər.
Yerdəki gələcək, vahid dünyanın
İlkin evləridir rəsədxanalar.

## 5. SONSUZLUQ

Sonsuzluq nə demək?
Dərk etmək çətin!
Gör hara işləyir əqlin, qüdrətin!
Xoşbəxtsən,
Anamız qoca dünyanı
Sənin əməlinlə tanıyır göylər.
Fikrinin, hissinin yolu, meydanı
Genişdir, sonsuzdur, sonsuzluq qədər.

Ənginlik içində üzür xəyalın,
İdrakın sığmayır dar otaqlara.
Qibtəyə layiqdir sənin bu halın,
Fikrin kəmənd atır gör hardan-hara.

Önündə sonsuzluq... Yol üstəsən sən!
Öyrənmək həvəsin kainat qədər.

Bu yola çıxanlar, dövrü qədimdən
Nə həvəsdən düşər, nə «çatdım» deyər!
Fırlanır,
Bənd olub fikrin oxlara,
Kainat nizamı dağılar onsuz.
O qədər baxmısan sonsuzluqlara,
Fikrin də sonsuzdur,
Eşqin də sonsuz!

*Şamaxı. İyul, 1967*

## ƏBƏDİ GƏNCLİK

*İmamverdi müəllimə*

Müəllim,
Əbədi gəncliyinik biz -
Sənindir ən gözəl əməllərimiz.

Sənin şagirdlərin dəstəbədəstə,
Həmişə bahardır, həmişə səhər.
İldə bir yaş gəlir yaşının üstə,
Daim bir yaşdadır önündəkilər.

Qürubda qızaran günəşsən...
Nə qəm,
Solmaz ürəkdəki böyük duyğular.
Sən dağsan,
Qarşından axır dəmadəm
Həmişə dəyişən, çağlayan sular.

*1967*

## SEYİZ KEÇİ

Qoyuna bir bax
Aranda,
Dağda...
Sürü - arxada,
Keçi - qabaqda.
Öskürə-öskürə yollar uzunu
Örüşə aparır qoyun-quzunu.

Sürünün dalınca cəfakeş çoban,
Elə hey yüyürür...
Yürü, ha yürü!
Adlayıb dərədən,
Adlayıb sudan,
Keçinin dalınca sürünür sürü.

Taleyin qisməti, hökmünə bax sən -
Bir qotur keçiyə baş əyir sürü.
Sərkərdə dalınca hücuma keçən
Bir bölük qoşuna bənzəyir sürü.

Dərədən-təpədən keçi yan keçir,
Arayıb-axtarıb düz yoldan keçir;
Ölümlə gəlməyir döş-döşə sürü,
Salamat yetişir örüşə sürü.

Ancaq qəribədir,

Sallaxanada
Tamam üzü dönür keçilərin də.
Dağlarda sürüyə yollar göstərən
Cəllada dönürmüş ölüm yerində.

Qan iyisi gəlir sallaxanadan,
Ölümü qoyun da hiss edir...
Bir an
Dayanır...
Arxaya çevrilir yönü...
Keçini verirlər qabağa dərhal.
Baltanın ağzına verib sürünü,
Burulur şəst ilə o, sağa dərhal.

Belə deyildi ki, bir zaman keçi,
Dağlarda mərd idi dağlar tək o da.
Sürünü örüşə aparan keçi
Ölümə aparır sallaxanada.

*Avqust, 1967*

## RİYAKAR

Mənim övladıma ana dilində
Dərs deyən «ağıllı» müəllimə bax.
«Vətən», «Vətən» deyir,
Öz övladını
Əcnəbi dilində oxudur ancaq.

Özgəyə: «Dilini öyrən!» - deyirsən,
Özünsə... Bu dili bəyənməyirsən!..
Nə deyək bu miskin riyakarlığa?..
Yoxsa, öz qınını bəyənmir bağa?..

Bir nədir, beş-altı dil bilsin gərək,
Bizim sabahımız - körpələrimiz.
Vətən dilinə də dodaq büzməyək,
Burdan ayaq açıb, yola çıxaq biz.

Evdə ayaq açır əvvəlcə hər kəs,
Sonra uzaqlara düşür qədəmlər.
İlkini bilməyən sonunu bilməz,
Evdən üz döndərən çöldə vərəmlər.

«Əvvəl evin içi» demişlər nədən?
Sən çölü bilməzsən, içi bilmədən.
Yaxşı bilmək üçün özgə bir dili
Əvvəl öz dilini yaxşı bilməli.

Niyə özümüzü ögey sayaq biz?
Niyə atamızı tanımayaq biz?
Özgəni sevirsən?
İnanmıram mən!
Özünü sevməyən özgəni sevməz.
Vətənin dilinə gərəksiz deyən
Vətənin özünü necə sevir bəs?
Üzünə dursaydı yediyin çörək,
Rəzil olduğunu özün qanardın.
Dilimi dansaydım mən də sənin tək,
Sən kimə dərs deyib pul qazanardın?

Vətən qeyrətini çəkməyən oğul
Həm özünə yükdür, həm özgəsinə;
Bu dildə dərs deyib qazandığın pul,
Yediyin çörək də haramdır sənə!

Böyüt balanı da sən özün təki,
Denən, özün yaşa, aləm yox olsun.
Namus olmasa da keçinər, təki
Dilin uzun olsun, qarnın tox olsun.

Səninçin dünyaya dəyər, a nadan,
Bir anlıq ötəri könül xoşluğun.
Min dəfə kiçikdir atalığından
Sənin insanlığın,
Vətəndaşlığın!

*Oktyabr, 1967*

## «ANAMIN KİTABI»

*Böyük əməlpərvər, böyük vətəndaş*
*C.Məmmədquluzadənin əziz xatirəsinə*

«Anamın kitabı!» - oxudum bir də,
Bu günüm dünənlə gəldi, görüşdü;
Cəlilin çaldığı sarı simlərdə
Qədim bir təmsil də yadıma düşdü:

Xərçəng - arabanı çəkir quruya,
Ördək - buludlara,
Kor balıq - suya...
Araba tərpənmir, ancaq yerindən,
Sənin timsalınmış bu hal, ey Vətən!

Talandı bir zaman dövlətin, varın...
Varlıykən əl açdın sən özgələrə.
Yadlar yox,
Səni də öz övladların
Çəkdi üç tərəfə, çəkdi üç yerə.

Ana ümid oldu doğma övlada,
Övlad bel bağladı yadlara yalnız.
Övlad bilmədi ki,
qonşuya,
yada,
Göz dikən qalacaq şamsız, çıraqsız.

Bu doğma torpaqda doğulub onlar,
Dedilər, biz hara, bu torpaq hara,
Doğma kitablara yad olub onlar
Ümid bağladılar yad kitablara.

Ananın kitabı çatdı imdada,
Dedi: «özünə bax, əl açma yada;
Vaxt çatıb uzağı, yaxını tanı,
Bil, sənin əvvəlin, axırın nədir.
Vətən xəstədirsə, onun dərmanı
Kənarda deyildir, öz içindədir...»

Anamın kitabı! Tarixdən qədim,
Çiçəkdən - təzə-tər,
Göylərdən dərin.
Ayağı altında torpaq görmədim
Anadan üzünü çevirənlərin.

Bu böyük mətləbi bilmədik bəzən,
Bizi bölə-bölə çəkdilər dara.
Əl çəkib müqəddəs atəşimizdən
Yüzillər baş əydik yad kitablara...

Tapdandı anamın şərəfi, şanı,
Bizdən sərvət alıb söz gətirdilər.
Bu boyda ölkəni - Azərbaycanı
Bir ərəb qızına cehiz verdilər.

Məni bağışlasın Şəhriyarım da,
Otuz il özgəyə «bəradər» dedi.
Öz doğma yurdunda, öz diyarında

Doğma anasına o, «madər» dedi.
Elə ki, yumruğu yerə dirəndi,
Dərhal yada düşdü doğmaca kəndi.
Bunlar nağıl deyil, tarixdir, ancaq
Tarixin hökmünə, könül, yaxşı bax!
Gəl bilək, insanmı, zamanmı haqsız
Gah ona, gah buna biz yamaq olduq.
Kiçik komamızı qoyub çıraqsız,
Özgənin qəsrində biz çıraq olduq.

Bu böyük dərdləri düşündü Cəlil,
Onu qorxutdular,
Öz amalından
Nə bezdi,
Nə küsdü,
Nə döndü Cəlil!
O da bu günlərə ümid bağladı,
Ayıldıb atamı,
Bir ürək kimi
Milyon ürəklərdə döyündü Cəlil!

## MƏNƏ NƏ VAR?

*«Bizdə bu soyuq qanları neylərdin, ilahi?»*
**M.Ə.Sabir**

«Mənə nə var?!» - dedin,
Düzmü dedin sən?
Birləşir axırda ən uzun yollar.
Kənara çəkilmə, bil ki, bu gündən
Bu gün mənə varsa, sabah sənə var.

Daşqın böyrü üstə yıxsa bir dağı,
Yanındakı dağ da əyiləcəkdir.
Bu gün yeyilirsə birinin haqqı,
Sabah da səninki yeyiləcəkdir.

Buzdan soyuq olar ilanın qanı,
İnsansan!
O isti qanın bəs hanı?
De görək, sən necə baxa bilirsən
Gözünün önündə tapdanan haqqa?
Nədən alışmayır bədənin, nədən,
Haqsız məşəl tutub o yanan haqqa?
Necə insan deyim, necə mən sənə?
Qoy övlad deməsin bu Vətən sənə!..

Əgər adamsansa... sev adamları,
Demə, bu, dostumdur, o, düşmənimdir;

Demə, əzizimdir ev adamları,
De, mən bu xalqınam, xalq da mənimdir.
Demə, daş yayınıb qardaşa dəydi,
Mən elə bildim ki, daş daşa dəydi.
Yurdun o başında yıxılan kəsin
Ağrısı qəlbində gərək göynəsin!

Ən böyük dəryanın birdir sahili,
Onu hər tərəfdən döyər dalğalar.
Bir böyük Vətəni, bir böyük eli
Tarimar eləyər «mənə nə var»lar.

Ağaclar qatarla cərgələnibdir,
Onlar bir-birindən çox uzaqdadır.
Budaqlar, yarpaqlar görüşməsə də,
Kökləri bir yerdə, bir torpaqdadır!

*Noyabr, 1967*

## MÜSAFİR

Pəncərəmin qabağından
Gecələr qatar keçir.
Hər qatarda
Neçə vüsal,
Neçə intizar keçir.
Biri toya,
Biri yasa gedənlər,
Biri kefə,
Biri işə gedənlər,
Bir qatarda müsafir.

Uçuran da,
Quran da
Bir dünyada müsafir.
Yıxılan da,
Vuran da
Bir dünyada müsafir.

Yaranandan bu günədək
Qoşa uzansalar da
Heç bir zaman görüşməyən
Bu dəmir relslər kimi,
Ürəyimdən
Bir-birilə barışmayan
Neçə duyğular keçir.
Pəncərəmin qabağından,
Gecələr qatar keçir.

*Noyabr, 1967*

## SƏRBƏST ŞEİR

Deyirsən, bu günün sərt fikirləri
Vəznə, qafiyəyə, ölçüyə sığmır.
Deyirəm, Sabirin vəznli şeiri
Çəkidə nə yerə, nə göyə sığmır.

Gülü də sevdirən bizə ətirdi,
Gəl hikmət axtaraq söz gülzarında.
Nehru Hindistana bahar gətirdi
Qırçınlı, o köhnə hind paltarında.

Vəzni sındıra da bilərsən, ancaq
Bu günün sözünü deyək bu gündə.
Vəzndə axtarma gəl sərbəstliyi,
Axtar fikirlərin böyüklüyündə.

*1967*

## OĞRULAR

Yusif, milis dostum, od kimisən sən,
Oğrunun, əyrinin qənimisən sən.
Ancaq...
Cürbəcürdür, axı, oğrular,
Anbar oğrusunu tutmağa nə var?..

Düşüb arxasınca bir tüfeylinin,
İzlər axtarmısan, izlər gəzmisən.
Kiçik oğrulardır hədəfin sənin,
Böyük oğrulardan xəbərsizmisən?

Gözlər önündədir dükan, ya anbar,
Artığı, əskiyi bilinir asan.
Əlhəzar,
əlhəzar,
dostum, əlhəzar
Vicdan oğrusundan, qəlb oğrusundan...
Onlar aça bilir düz ürəkləri,
Ancaq...
Qıfıllıdır öz ürəkləri...

Haqqa qılınc çəkib vicdana qıydı,
Onlar üzümüzə baxdılar dik-dik;
Ya səndə, ya məndə qüdrət olaydı,
Onların içini aça biləydik.
Vəzifə sahibi bir imza üçün

Bizi süründürür on gün, iyirmi gün...
Taleyin asılıb tək bircə qoldan -
Sən bir imzadakı gücə bax, gücə.
Bir də görürsən ki, dağ boyda insan
Bir cırtdan önündə cücədir, cücə.

Ömür parçalanıb doğranır min-min,
Səpilir yollara get-gəl içində.
Gəlməzdi bu vaxta bir tikə heyfim,
Əgər ərisəydi əməl içində...
Haray!
Az ömürdən vaxt oğurlanır,
İnam oğurlanır,
Əsəb korlanır...

Bilmirəm, sən mənə başa sal bunu,
Bu hansı zamandır, bu hansı çağdır.
Əsəb oğrusunu, qəlb oğrusunu,
Sevinc oğrusunu kim tutacaqdır?

Bir daş sifətlinin, bir sərt cavabı
Uman ürəklərdə iz açır dərin.
Bəs niyə sorulmur haqqı, hesabı
Ürəkdə açılan bu şırımların?..
Çoxalır şırımlar, artır şırımlar,
Dönüb infarkt olur ürək də bir gün.
Bir həlqəyə dönüb axır şırımlar,
İri nöqtə qoyur sonuna ömrün.

Sonra deyirlər ki, indi adamlar
Ölür birdən-birə dağ uçan kimi.

Məgər ürəyinə düşən şırımlar
Onu yavaş-yavaş öldürmürdümü?
Bəs onun ömrünü kim oğurladı?
Bəs niyə dəyişir oğrunun adı?..
Malı ucuz alıb, baha satanlar
Dəllaldır,
Onları cilovlayaq biz.
Zəhmətsiz, mayasız qazanan da var,
De görək, onlara nə ad qoyaq biz?..

Dəllalmı? Yox!
Bu ad yaraşmır ona.
Onun bir adı var: «mədəni» oğru.
Talayır adamı göz baxa-baxa
Bu yeni cibkəsən, bu yeni oğru...

Haqqı tapdasa da,
Söylə, bir nədən
Güclünü çox yerdə doğru sayırlar?
Əlini uzadıb uzaq qitədən,
Gücsüzün varını oğurlayırlar.

Belə dəllallara deyən yoxmu bir:
Hərrac malımıdır namusun, arın?
... Bəs kökü nə zaman kəsiləcəkdir
Bu gizli, mənəvi oğurluqların?

*1967*

## ƏKS-SƏDA

Əgər qalxsan
Uca dağlar zirvəsinə,
Səs alarsan öz səsinə.
O zaman sən
Demə, təksən.

Əgər ensən
Dərin-dərin
Dərələrin
Tərkinə sən,
Səs alarsan səsinə sən.
Onda demə, demə, təksən!..

Əks-səda! -
Bu səs nədir?
Əks-səda - dərinlikdə,
Əks-səda -
Zirvədədir.

Dərinliyə əgər ensən,
Ucalığa əgər qalxsan,
Cansız daşdan, qayadan da
Səsinə səs alacaqsan...

*1967*

## KÖK

Ağaclar
Kök üstə boy atır,
Ucalır.
Ağaclar
Kökündən güc alır.

Dünyada
Hər şeyin kökü var.
Kökü var
Torpağın, daşın da...
Adamsa kökünü
Gəzdirir başında.

*1967*

***

Ürək sinəmizdən asıldığından -
Həmişə narahat,
Həmişə giryan...

*1967*

## MƏNİM ANAM

Savadsızdır,
Adını da yaza bilmir
Mənim anam...
Ancaq mənə,
Say öyrədib,
Ay öyrədib,
İl öyrədib;
Ən vacibi:
Dil öyrədib
Mənim anam...

Bu dil ilə tanımışam
Həm sevinci,
Həm də qəmi...
Bu dil ilə yaratmışam
Hər şeirimi,
Hər nəğməmi.

Yox, mən heçəm,
Mən yalanam.
Kitab-kitab sözlərimin
Müəllifi - mənim anam!..

*Yanvar, 1968*

## BULUDLAR NƏ YAMAN GÖZƏL OLURMUŞ

*Dostum M.Xudu üçün*

Komamız meşənin qalın yerində,
Dağda salamlardı hər günü babam.
Odun daşımadı, çiyinlərində,
Daşıdı həyatın yükünü babam.

Səksən il, ömrünün hər bir anında
Qəmi şərbət kimi içərdi babam.
Ömrün tarlasına qəm kotanında
Həmişə gül əkdi, vay dərdi babam.

Ancaq darılmadı, çalışdı yenə,
Dərdi tabaqladı, qəmi üyütdü.
Qatlaşıb dünyanın hər möhnətinə,
Yeddi lay divarlı oğul böyütdü.

Dedi, şərəfidir hər kəsin adı -
Yaşa gülə-gülə, öl gülə-gülə.
Yeddi tərlanına o, əl açmadı,
Ölüncə yaşadı öz əməyilə.

Dinməzcə dolaşdı bir gün o, kəndi,
Gəlib yatağına girdi nagahan.
Ömründə bir dəfə o xəstələndi,

Həmən azarla da köçdü dünyadan.
Yatdı üzü üstə, yatdı iki ay,
Dinmədi.
Nəyisə andı və yandı.
Nəhayət, çöllərə düşdü hay-haray,
Baharın səsinə kişi oyandı.

Dedi, çöldə salın yerimi, çöldə,
Son dəfə seyr edim çölü-çəməni.
Gör nə yaman yerdə gəldi əcəl də,
Arxası üstünə çevirin məni.

Yerini saldılar göy çəmən üstə,
Uzandı, dərindən köks ötürərək.
Göydə ağ buludlar dəstəbədəstə,
Yerdə badə tutan gül ləçək-ləçək.

Üfüqdə yanırdı buludlar par-par,
O baxdı göylərə... axşam çağında.
- Mən indi görürəm, - dedi - buludlar
Nə gözəl olurmuş göyün tağında.

Babam niyə baxdı göyə son kərə?
Getdi damağında dünyanın dadı.
Səksən il yaşadı, ancaq göylərə
Doyunca baxmağa macal tapmadı.

*Avqust, 1968*

***

Dağ seliyəm,
Budaq-budaq qollarım var,
Əyri-üyrü yollarım var.
Mən çılğınam, mən dəliyəm,
Əvvəlcədən biləmmədim -
Hansı dağdan enməliyəm,
Hansı düzdən keçməliyəm.

Mən maşınam, mən maşınam,
Gah bu dağa dırmaşıram,
Gah o dağa dırmaşıram...

Gah əyildim, gah buruldum;
Dərələrdə, təpələrdə
Lap yoruldum,
Dağa dəydim, daşa dəydim.
Bir tramvay olaydım mən,
Hələ yola çıxmamışdan
Öz yolumu kaş biləydim...

*Nalçik. Avqust, 1968*

## İKİ KOR

Bir kor tanıyıram, gözü korsa da,
özü kor deyil.
Bəzən qəm odunda qovrulursa da,
Ağlına, hissinə o nankor deyil.
Gecəli-gündüzlü yazır, oxuyur,
Ağlının gözüylə o görür, duyur.

Ancaq... biri də var... kor deyilsə də,
gözü görməyir.
Dostu göz önündə öldürülsə də,
görmədim deyir...
Yaxşıya ortaqdır, yamanı görmür,
O, saata baxır, zamanı görmür.
Fikrini, hissini ucadan deməz,
Bəzən gördüyünü görmək istəməz.

Gözləri görməyən kor deyil hələ,
Görmək istəməyən kordur, deyərdim.
Belə müqəvvaya, belə cahilə
Həyatın özü də gordur deyərdim.

*1968*

## MƏNİM GƏNCLİYİM

*Dövlət Universitetinin*
*50 illiyi münasibətilə*

Darülfünun!
Əlli ildə
Qəbul edib yola saldın
Neçə-neçə minləri sən...
Beşcə ildə
beyinlərdə
Çıraqlara döndərirsən
Ayları sən,
Günləri sən!..
Polad körpü yaradırsan
Ürəklərlə beyinlərin arasında
sən beş ilə.
Arzuları, duyğuları
Yoğurursan idrak ilə!..
Hər il sənin qucağında
de, nə qədər
Möhürlənir
gələcəyə vəsiqələr!..
Bu möhürlü vəsiqələr
Arzuların sözü, səsi!
Kağızlarda istəmirəm,
Beyinlərdə möhürlənə

Bu həyatın vəsiqəsi!
Qol-budaqlı bir ağacsan,
Kölgəsisən
yaxınların,
uzaqların...
Bakıdasan,
Yaxın, uzaq kəndlərdədir,
Budaqların,
yarpaqların!
Hamar deyil ömrün yolu:
Gah dirənir sal qayaya,
Gah da çıxır düzə yollar.
Sən ömürdən beş il alıb
Bəxş edirsən ömürlərə
təzə yollar...
Bu yolların,
Son mənzili gələcəkdir.
Sənin adın
Mən deyərdim: Gələcəkdir!
«Gələcəyə körpü» - dedim
adına mən.
Bizim elə-obalara doğan günəş,
Doğur sənin pəncərəndən...
Bahar özü
Nəsil-nəsil, zaman-zaman
Gəlib keçir qucağından.
Sən ki, daim köhnə-köhnə fikirlərlə
savaşdasan.
Kim deyir ki, əlli yaşın tamam olub?
Sən həmişə
Bahar ilə bir yaşdasan!

Axı sənin sakinlərin
Bahar üzlü,
Bahar yaşlı,
Bahar sözlü...
Sən həmişə
Ömürlərin yaz çağısan.
Böyük-böyük fikirlərin,
Təzə-təzə duyğuların
qaynağısan!..
Təzə-təzə nəsillərin,
Dili ilə darülfünun
Danışıbdır dünən,
bu gün:
Mən gəncliyəm,
Mənim könlüm od parçası,
Yeniliyin özü mənəm,
sözü mənəm!
Kif bağlamış qalıbları,
Buz bağlamış fikirləri
Əridənəm,
Əridənəm!
Mən gəncliyəm,
Öz çiynimdə
Ataların dərdlərini daşıyıram!
Mən gəncliyəm,
Bu gündə də
Sabahımla yaşayıram!
Mən atama,
Mən babama
xor baxmaram.
Ancaq fikrən kötük olan

kötükləri
Yaşıl-yaşıl ağacların
cərgəsinə buraxmaram!
Mən gəncliyəm,
Özüm kimi təzə-tərdir
Sözüm mənim!
Mən gəncliyəm,
Uzaqları yaxşı görür gözüm mənim.
Mən gəncliyəm,
Həm özümlə,
Həm dostum, həm düşmənimlə
Bir yarışdır mənim eşqim.
Mən gəncliyəm,
Əbədi bir axtarışdır mənim eşqim.
Mən gəncliyəm,
Yerdə dilək, göydə ayam,
Açılmamış bir dünyayam!
Mən gəncliyəm,
Arzularım, xəyallarım
Bənzər coşqun selə mənim.
Yerin, göyün neçə sirri
Sinəmdədir hələ mənim.
Mən gəncliyəm,
Öz xəyalım, öz amalım
Öz yoluma işıq salıb.
Duyğularım - dünənimdən,
Fikirlərim - bu günümdən,
Arzularım - sabahımdan qüvvət alıb.
İstəmirəm,
Mən açılmış cığırlara
qədəm qoyam!

Mən gəncliyəm,
Təzə yollar yolçusuyam!
Mən gəncliyəm,
Ömürlərin yaz çağıyam,
Böyük-böyük fikirlərin,
Təzə-təzə duyğuların
Qaynağıyam!

*Oktyabr, 1968*

## DAĞLAR DA ƏYİLƏR ÖZ KƏDƏRİNDƏN

Dağları duymasan insan deyilsən,
Nə belə uzanıb silsilə dağlar?..
Onu öz dililə dindirə bilsən,
Hər biri dil deyib yüz il qan ağlar.
Ürəyin var isə dağları dindir,
Soruş, bağrındakı sərtlik nədəndir?

Günəşə çatmaqçın ucaldı dağlar:
Dağ günə çatmadı,
Dağa gün düşüb.
Bu böyük həsrətdən dağlar qan ağlar,
Dağların bağrına min düyün düşüb.

Dağlar da əyilər öz kədərindən,
Bilmirəm, bu dağlar, bu dərdlər nədir?
Görünən dağlara dağ deməhərəm mən,
Ən böyük dağlar da ürəklərdədir.

Dağların dərdini bizə söyləyən,
Dağlardan baş alan bulaqlar oldu.
Çağanı böyüdüb cahan eyləyən,
Cahanı kiçildən o dağlar oldu.

Sinəsi dağlardan dağ-dağ olanlar,
Dağlar ucalıqda, demək, varsınız.
Siz, ey bu dağlardan uzaq olanlar,

Elə bilməyin ki, yaşayırsınız.

*1968*

## SƏHƏNDƏ MƏKTUB

Səhənd, sözlərindən odlar töküldü,
Oxuduq şeirini göz yaşlarıyla.
Ata malı kimi yarıya böldü,
Qardaş eyni dərdi qardaşlarıyla.

Yazdın, eyni dərdi yaşayaq bahəm,
Qardaş qardaşıyla həmfikir olar.
Sənin düşüncəndi mənim düşüncəm,
Dərdlər bir olanda fikir bir olar.

O acı fəryadlar, şirin nəfəslər
Mənim də könlümün ahı, naləsi!
Qardaşım, Təbrizdən gələn bu səslər
Bakının səsidir, Bakının səsi!

Deyirsən, yarıya bölünənlərin,
Dərdini dünyada bir bilməyən yox.
Biz də bölünmüşük, ancaq bu dərdi
Uca kürsülərdən heç bir deyən yox.

Yıxılar kənardan itələnənlər,
Təkanı yaradaq özümüz gərək.

---

**Fars şairi Sədinin «Həmən xakəm ki, həstəm» (Həmən torpağam ki, varam) misrasına işarədir.*

Yenə də «olarıq həmən xak»* əgər,
Biz öz içimizdən itələnməsək.

Xırda təpələri sellər oyanda,
Əsər bu həmləyə dağlar da zağ-zağ.
Biz də dərdimizə ağlamayanda,
Bizim yerimizə kim ağlayacaq?

Günahkar tutmayaq burda heç kəsi,
Dərilib ayrıldıq biz qonça-qonça.
Ana da süd vermir, ciyərparəsi
Nalələr qoparıb ağlamayınca.

Deyirsən, salama cavab almadın,
Bulud toqquşmasa, buluda neylər?
Mənim öz adımdır sənin öz adın,
Odu su keçirər, od oda neylər?

Mən dizimə döyüb zar-zar ağladım,
Çöllər göz yaşımdan gölmə-gölmədi.
Qranit dağları dələn fəryadım,
Biz Araz çayını aşa bilmədi.

Yüz il, yüz əlli il ağladıq əbəs,
Ancaq ərimədi sinə dağları.
Qardaş, bilmədik ki, göz yaşı dəlməz,
Arzunun önündə duran dağları...

Dünyada hər şeyin bütövü gözəl,
Yarımçıq səadət düşmənin olsun.
Mənə qəm versən də, yarı bölmə, gəl,

Sevinc verirsənsə... qoy yəqin olsun.
Hamlet doğru deyib: «Ya öl, ya da ol!»
Ey!... Yarı canınla demə ki, varsan.
Qəmin də tamını istəyən oğul,
Bəs yarı Vətəndə necə yaşarsan?
Hanı?...
Sormadılar - bəs yarı canın?
Niyə ucaltmırsan üsyan səsini?
Hələ görməmişik, Azərbaycanın
Bir yerdə, biz bütöv xəritəsini...

*1968*

***

Həm yerin,
Həm göyün sirrini aşkar
Oxudum bir gülün ləçəklərindən.
Böcəklər, çiçəklər, güllər, arılar,
Kim deyir ayrıdır biri-birindən?

Eşqdir yaşadan təbiəti də,
Çiçəklər torpağın min bir rəngidir.
Böcəklə çiçəyin məhəbbəti də
Ana təbiətin öz ahəngidir.

*1968*

***

Yaxşı ki, dünyada ələm var imiş,
Yoxsa, yaşamaq da yönsüz olardı.
Yaxşı ki, dünyada ölüm var imiş,
Yoxsa, əzablar da sonsuz olardı.

*1969*

## DAĞ ÇAYI

*(Axın)*

Yuxuma dəm tutub gecə sübhədək
Nə yaman ötürsən belə, dağ çayı?
Elə bil boşalır dolu bir ürək
Gətirdin könlümü dilə, dağ çayı.

Sükutun bağrını yarıb gecələr
Biləydim nə deyir, nə deyir səsin.
Gündüzsə... səhərdən-axşama qədər
Yad səslər içində əriyir səsin.

Dağın sərvətini hey axın-axın
Çöllərə, düzlərə yetirən oldun.
Uca təpələrin, uca dağların
Dənizə uzanan əli sən oldun.

Gecə də, gündüz də, bahar da, qış da
Axırsan...
Bu axın nə deyir bizə?
Axın var, axın var torpaqda, daşda,
Yerlərdən göylərə, dağdan dənizə,
Dağlardan düzlərə gur sellər - axın,

Bu aylar, bu illər, fəsillər axın,
Babadan nəvəyə nəsillər axın.
Qanım dövrə vurub axır bədəndə,
Bu sonsuz axının içində mən də
Bir kiçik zərrəyəm... Döyünür ürək...
Axır dəqiqələr, gün olur axşam.
Heçlikdən varlığa axdığımız tək,
Varlıqdan heçliyə axırıq müdam.

*Qusar. İyul, 1965*

## FİKİR QANADLARIM

Mənim qanadlarım var:
Şirin-şirin arzular,
Böyük-böyük xəyallar
Qanadlarımdır mənim!..
Dünya - qanadlarımçın
çox kiçikdir, kiçikdir,
Kainatdır - Vətənim!..

Arzular dünyasına
Uçan zaman ağıllar
Yarandı əfsanələr,
Əsatirlər, nağıllar...

Uçuram, hey!.. uçuram!..
Mən təpə, düz bilmirəm,
Gecə, gündüz bilmirəm!
Xəyalın bir hüdudu,
Xəyalın bir həddi yox!
Göylərin sərhəddi yox!
Quşlar niyə azaddır?
Azadlığın təşbehi,
Yaşayır quş adında.
Azadlıq uçur, uçur,
Quşun sərhəd bilməyən

O qoşa qanadında.
Fikrin qanadları da
Azaddır!..
Sərhəddi yox!
Səma kimi həddi yox!..
Fikirdə min hal olur.
Bəzən səmanın özü
Fikrə darısqal olur!

Uçur, uçur xəyallar,
Səmadan da o yana.
Boşluqda mənzilmi var -
Orda fikrin qanadı,
Qərar tutub dayana?..

Nə qədər istəyirsən
Bax!
Üzümə bax! Nə qəm!
Məndən çox-çox böyükdür
Ayaqları başımda
Başı, sonsuz səmada
Süzən fikrim, düşüncəm!..

Mən azadam, azadam!
Mənzili görünməyən
Bir əbədi yolum var.
Məni yerdən qaldıran,
Həddi, hüdudu qıran
Fikir qanadlarım var.

*Yanvar, 1969*

## ŞAİRLƏR

Şairə heykəllər qoyulan zaman,
Deyirlər, ona bax, nə bəxtəvərmiş.
Ancaq demirlər ki, mən yaşayırkən,
O öz sinəsini masaya gərmiş.

O keçib canından ömrə qıyanda
Sənin nəşələrin aşıb-daşırdı.
O ki yaşamırdı, sən yaşayanda
Sənin yerinə də o alışırdı.

Dəryanın dibindən çıxmamış hələ
Tanımaq olmayır mərcanı, dürrü.
Sən həsəd aparma o daş heykələ,
Ömürdən sonradır onların ömrü.

Şairlər, şairlər, bircə söz üstə
Sübhədək yaxdınız ürəyinizi.
Sizi görmədilər heç vaxt diz üstə -
Qəribə yaradıb təbiət sizi!

Hamıdan gec yatıb qalxdınız erkən,
Ağardı dan yeri gözlərinizdə.
Min əzab çəkdiniz siz yaşayırkən
Ölüb yaşadınız sözlərinizdə.

Zamandan-zamana əqidənizi
Keçirib yaşatdı nəğmələriniz;
Adi bir uşaq da aldadar sizi -
Xəyal dünyasında yaşadınız siz.

Bir kam almadınız siz ki, doyunca,
Sizə xoşbəxt deyən tanımır sizi.
Heç kəs çəkə bilməz ömrü boyunca
Sizin bircə gündə çəkdiyinizi.

Dünyanın əlindən dad çəkən zaman
Xəyal kölgəsində daldalandınız.
Şahların, çarların saraylarından
Alçaq daxmaları uca sandınız.

Ölümdən, sürgündən qorxmayıb əsla,
Yanıb özünüzü oda atdınız.
Ürək qanınızla, amalınızla
Zindanlar küncündə söz yaratdınız.

Təqiblə gəldiniz daim döş-döşə,
Yolunuz haqq yolu, həqiqət yolu.
Bu da qəribədir, sizin həmişə
Cibiniz boş oldu, qəlbiniz dolu.

Sözünüz, qəsdiniz çıxdı sınaqdan
Ötüb haqq nəğməsi, haqq oldunuz siz.
Yaşamaq naminə keçməyib haqqdan,
«Ənəl-həqq» qışqırıb soyuldunuz siz.

Lağ edib güləndə haqqa yalanlar,
Siz də zəmanəyə, dövrə güldünüz.
Gah gizli-xəlvəti, gah açıq-aşkar,
Gah da duellərdə öldürüldünüz.

Dünyanı gəzdiniz siz oymaq-oymaq,
Fərəhin içində qəm gördünüz siz.
Adi bir milçəyə qıymayıb, ancaq
Bəzən özünüzü öldürdünüz siz.
Sizindir dünyanın sinə dağları,
Bu dağlar içində kama çatdınız.
Siz hey yana-yana, qaranlıqları
Könül atəşilə işıqlatdınız.

Zalim zülmündə də naşıdır, naşı,
Axı, əzabdan da zövq aldınız siz.
Zalimlər, cahillər hər addımbaşı
Sizi alçaltdıqca ucaldınız siz.

Sanmayın özümü sanıram yəqin
Belə şairlərin cərgəsində... Yox!
Axı, mənim kimi şaircиklərin
İlhamı az olur, iddiası çox!

Şair - fikirlərin çırpınan seli,
Şair - həqiqətin müğənnisidir.
Şair - təbiətin danışan dili,
Şair - cəmiyyətin üsyan səsidir.

Şair - zəmanənin, əsrin vicdanı,
Şair - tarixlərin şərəfi, şanı.
Şair - bu dünyaya zamanın sözü,
Şair - həqiqətin, haqqın güzgüsü!
Bütün millətləri siz anlarsınız,
Sevən də sizsiniz qəlbən onları.
Vətənə gəlincə, məcnunlarsınız -
Vətən məcnunları, dil məcnunları.
Məcnunluq gözəldir! «Bu nədir?» - deyə,
Hər cahil anlamaz bu ülviyyəti.
Yazıq o kəsə ki, yoxdur bir şeyə
Nə sonsuz nifrəti, nə məhəbbəti!
Yoxdur beləsinin amalı, yolu,
Qəlbi ehtiyatdan çilik-çilikdir.
Düşmənin nifrəti deyil qorxulu,
Dostun soyuqluğu düşmənçilikdir.

Bəzən yıxıldınız ancaq çəlikdən,
Kömək ummadınız ağır gündə də.
Həmişə qaçdınız biganəlikdən,
Ürəklə öldünüz siz öləndə də.

*Noyabr, 1969*

## BEŞİK

*M.Zeynal müəllimə*

Kəndimə getmişdim,
Gəzdim hər yeri -
Təzə küçələri, təzə evləri...
Hər köhnə ocaqda, təzə bir ocaq...
Ruhum təzələndi, fikrim ucaldı.
Təzəlik gözəldir, gözlərim, ancaq
O köhnə yüyrükdə, beşikdə qaldı...

Beşik... nişanədir uşaqlığımdan,
Könlümdə ah nələr, nələr oyatdı.
Bu taxta beşikdə axı, bir zaman
Anam da, atam da, babam da yatdı!..
Beşik ilk mənzilim, ilk yuvam mənim,
Laylalar dünyası ilk dünyam mənim.

Babamtək, atamtək dünyaya mən də
Açdım gözlərimi taxta beşikdə.
Anam beşiyimi tərpətməyəndə,
Bilərdim, keşikçim yatıb keşikdə.

Qoymazdım anamı ala dincini,
Doymazdım anamın gül nəfəsindən.
Dadardım dünyanın ilk sevincini

Beşikdən asılan «şax-şax»larla mən.

Elə bilirdim ki, dolanır dünya,
Mənim beşiyimin başına ancaq.
Mənim dünyam idi uşaqlığımda
Bir anam, bir beşik, bir də o şax-şax!..

Qara gözmuncuğu sol biləyimdə,
Beşiyin üstündə üzərlik, Quran.
Anam qoruyardı məni bunlarla
Dünyanın hər cürə bəlalarından.

Bizim ala-bəzək bu beşiklərdə
Ümidlər, arzular, diləklər yatıb.
Qılınc çəkmək üçün aləmə, dərdə
Sabirlər, Nəbilər, Babəklər yatıb.

İnsanın insana məhəbbətini,
Ey beşik,
İlk dəfə biz səndə duyduq.
Dünyanın zövqünü, səadətini
Ananın o ılıq südündə duyduq:

Laylay dedim yatasan,
Qızıl gülə batasan.
Qızıl güllər içində
Şirin yuxu tapasan.

Hopdu ruhumuza bayatılardan
Nəğməyə bənzəyən ləhcələrimiz.
Daddıq dilimizin şirinliyini,
Hələ bələkdəykən beşiklərdə biz.

Beşiyin üstünə səpildi dən-dən,
Qaynar çeşmələrin zümzümələri.
Aldı öz kökünü beşiyimizdən
Üzeyir nəğməsi, Füzuli şeiri.
Laylanın hər xalı bir ümid, güman,
Onun ahənginə qaynadı qanım.
Anamın yanıqlı laylalarından
Süzüldü ruhuma Azərbaycanım.

Yoxsul babaların qaranlıq damı
Güldü körpələrin gülüşlərində.
Atdıq dünyamıza biz ilk addımı
Taxta beşiklərin həndəvərində.

Düşdük arxasınca xoş xəyalların,
Arzular ayırdı bizi də bizdən.
Uzaq səfərlərin, böyük yolların
Əvvəli başlandı beşiyimizdən.

Çıxdı qarşımıza gah dağ, gah dərə,
Həyat gözümüzdə bir sual oldu.
Bir beşiyə sığan Nəsimilərə,
Sonra cahan özü darısqal oldu.

Bizim anaların laylalarından
Axdı ruhumuza Vətənin özü.
Beşik kökümüzdür... ucalıb ordan
Tanıdaq dünyaya öz kökümüzü!..

*1969*

***

Vətən eşqi hər eşqidən əzəldir,
Mənim elim, mənim dilim gözəldir.
Öz canımdır, öz anamdır Vətənim,
Azərbaycan, mən səninəm, sən mənim.

Bu torpaqdan qüvvət alıb boy atdıq,
Vətən üçün biz yaşadıq, yaratdıq.
Bülbül ötməz gülüstansız, çəmənsiz
Biz də köksüz budaqlarıq Vətənsiz.

*1969*

## QAFİYƏLƏR

İstəmirəm səsdən doğan qafiyəni
Düşündürür məna məni, hikmət məni.
Qafiyədir,
İki simin bir kök üstə titrəməsi,
Qafiyədir, gül nəfəsi, bülbül səsi.
Qafiyədir göy ilə yer,
Qafiyədir sevinc-kədər.
Qafiyədir eniş-yoxuş.
Axşam-səhər, təzə-boyat,
Ən müqəyyəd qafiyədir: ölüm-həyat!

*1969*

## İKİ SÖZ

*Bəstəkar Q.Qarayevə*

1

Sən sənətin
«İldırımlı yollarında»
Mətanətlə addımladın.
Bu gün sənət dünyasında
Təzə yollar açanların
Əllərində
Bayraq olub sənin adın.

2

Azərbaycan oğlusan,
Ancaq bütün dünyanın
Şərəfisən, fəxrisən.
Bu torpağa arxalanıb
Bu torpaqda qazandın
Bu şöhrəti, fəxri sən!
Sən Odlar diyarının
Odundan od alırsan.
Sən bu günün simində
Gələcəyi çalırsan.

*1969*

# NAKAM

## (Pyesdən parça)

### V səhnə

*Filosof şairimiz M.Hadinin xatirəsinə*

Xəstəxana. Sağda növbətçi otağı. Solda palata. H a d i 3 il Türkiyədə sərgərdan həyat keçirəndən sonra əsəb xəstəliyinə tutulmuş, Vətənə - Azərbaycana qayıtmışdır. Pərdə açılarkən palatanın küçə pəncərəsindən bir əl Hadinin çarpayısı üstünə bir qəzet atıb çəkilir. X i d m ə t ç i ilə H a d i bağçadan gəzməkdən gəlir.

H a d i

Mən nə istəyirəm eşit, xalacan,
Bəxtəvər yaşasın deyirəm insan.
Gözlər gülər olsun, üzlər şən olsun,
Nə əzilən olsun, nə əzən olsun.
İmzalar içində, deyirəm, mən də,
Görüm imzasını millətimin də.

X i d m ə t ç i

Çox da dərinliyə getmə, ay oğul,
Tapdığın qismətə daim şükran ol.

Çox da dərd əlindən gileylənmə sən,
Belə yaranıbdır dünya əzəldən.
Hə, oğul, di get yat, şükür Allaha,
Gün-gündən eynin də açılır daha.

(Hadi otağına çəkilir, uzanmaq istəyir. Birdən çarpayının üstündəki qəzetə gözü sataşır).

H a d i

«Bəsirət» qəzeti. Görən, bu hardan?
Qəzet oxumağı axı, bu Fərman
Yasaq eləmişdi mənə... zərər yox!
Təzə nömrəsidir?.. Bəli! Nekroloq?
Ölən kimdir görən? Bu nə yazır ah!

Eyvah!.. Bu ki, mənim şəklimdir, eyvah!

(Oxuyur)

«Dünən keçinmişdir Məhəmməd Hadi» -
Ha...ha... Mən, demək, ölmüşəm indi?
Dəhşət!... Öldürüblər diriykən məni,
Yaxşı düzəldiblər bu məzhəkəni...
Ah!... Bəlkə ölmüşəm doğrudan da mən?
Bəlkə xəbərsizəm özüm-özümdən.
Əgər ölüyəmsə, bəs bu səs nədir?
Bəlkə bu səs deyil, bir Həyulədir?
Yaşayıb dünyada kamsız, diləksiz,
Onsuz da bir kölgə, bir xəyalıq biz.

Artır məlalımız, artır günbəgün,
Yüz gün düşünürük, bir söz deməkçün.
Dünyada birtəhər baş girləməkçün,
Nədən «yox» yerinə «bəli» deyirlər.

Dünya bir cənnətdir kağızda, sözdə,
Qaldı muradımız həmişə gözdə.
Anlaya bilmədim, zəmanəmizdə
Niyə ağıllıya dəli deyirlər.

(Fərman əlində qəzet hövlnak gəlir. Yan otaqda dayanıb Hadiyə qulaq asır)

Öz eşqim, fikrimlə yalnız öyündüm,
Nə ora meyl etdim, nə bura döndüm.
Dinlədim öz qəlbim, fikrim deyəni,
Meydanda tək qaldım, döydülər məni.
Yaşaya bilməzsən yaltaq olmasan,
Yaltaq deyilmidir anamız cahan?
Pərvanə özünü tez yetirərmi,
Çırağın üstünə çıraq yanmasa?!
Günəş yer üzünə, işıq verərmi,
Yer onun başına hey dolanmasa?
Ən böyük yaltaqdır dünyanın özü,
Onun da bir deyil, ikidir üzü.

F ər m a n

(Xidmətçidən)

Ona o qəzeti kim verib?

X i d m ə t ç i

Qəzet?
Bilmirəm, nə qəzet?!

F ə r m a n

Neyləyək, dəhşət!

H a d i

Vətənin dərdini çəkən oğlanın
Dağ boyda qüdrəti ola dünyada.
Bir arif söylədi, nahaqdır, nahaq!
Dərdini boynuna dola dünyada.

Dünyada bəxtəvər olmaq istəsən,
Hər nə buyursalar, de baş üstə sən.
Nə haqqı tələb et, nə də istə sən,
Gah mıxa döy, gah da nala dünyada.

Batırsan, dayazda üzsən nə olar,
Sənin dərinlikdə nə ölümün var?
Gözünü kor eylə, qulağını kar,
Zamanla getməsən yola dünyada.

(Fərman Hadinin yanına keçir)

F ə r m a n

Nə olub?

H a d i

Al, oxu!

F ə r m a n

Bilirəm, bəli!
Dostum, gülməlisən, billah gülməli!
Bu elə belə də olmalıydı... sən
Tərif gözləyirsən düşmənlərindən?

Bayronu, Russonu oxuyaydın kaş...
Həmişə bu belə olubdur, qardaş!
Tarixin qəribə ibrət dərsi var,
Həmişə alçaqlar, adamcığazlar,
Böyük kəllələri damğalayıbdır.
Bundan dilxor olmaq?! Dostum, ayıbdır!..

(Xatirə gəlir, xidmətçinin üstünə atılır)

X a t i r ə

Xala, bu nə işdir? Bu nə bəd xəbər?
Ah!.. Axı, burdaydım mən dünən səhər.
Ona birdən-birə nə oldu belə?

(Hönkürüb ağlayır)

X i d m ə t ç i

Axı, nə olubdur?

X a t i r ə

Bilmirsən hələ?

(Hadi şaşqın halda qəhqəhə çəkərək palatadan çıxır. Xatirə onu görüb dəhşətlə geri çəkilir)

H a d i

Ölmüşəm, əllərim, ayağım buzdur,
Ölüdən qorxmayın, o qorxusuzdur.
Siz diridən qorxun, diridən, bəli,
Onun düşüncəsi, fikri, əməli
Cinayət törədir dünyada yalnız,
Gözəl qız, siz məndən heç qorxmayınız.

X a t i r ə

Ah! Dəhşət!.. Bu nədir?

H a d i

Ey Fərman, yenə
İçmək istəyirəm, araq ver mənə!

(Araq şüşəsini əlinə alır)

Ey araq, tutmuşam səndən dörd əlli.

F ə r m a n

Acizlər içkidə tapar təsəlli.
Dur! O, sənə hardan?

H a d i

(Şüşəni ona verir).

Ala, qoxla bir,
İçindəki sudur, araq deyildir.

F ə r m a n

(Şüşəni qoxlayır)

Doğrudan, belədir.

H a d i

Mənə araq tap,
Araqla yuyular bu dərd, bu əzab!
Ölkələr dolaşdım, elləri gəzdim,
Əzablarım oldu qazancım, varım.
Mən acı arağa meyl eləməzdim,
Acı olmasaydı iztirablarım.

F ə r m a n

Özünü ələ al.

H a d i

Dözmürəm daha,
Fərman, and verirəm səni Allaha,
Bir içim araq tap... araq tap mənə!
İndiki vermirsən, araq yerinə
Araq şüşəsindən su içməliyəm!

(İçir)

F ə r m a n

Hadi, axı, neçin?

H a d i

Mən ki, dəliyəm,
Zavallı bəşərə hökm edir zaman:
Özünü aldadıb yaşamalısan.
Yadımdadır uşaqlıqda
Biz ağacdan at minərdik.
Bu fərəhli oyunlarla
Nə qədər də sevinərdik.

Yalan-yalan oyunlarla
Hey... nə qədər əylənmişik.
Biz elə zənn edərdik ki,
Ağac deyil, at minmişik.

Bu dünyaya, dostum, düzü,
Açan gündən gözümüzü
Aldatmışıq özümüzü,
Qana-qana, bilə-bilə.

Həyat zindan, ömür sürgün,
Yaşamadıq, düzü, bir gün.
Kim istər ki, gəlib düşsün
Bu zindana bilə-bilə?

Dərd bir deyil, min-min olur,
Ürək dərddə mətin olur,
Yaşamaq da çətin olur,
Qana-qana, bilə-bilə!

Əzablara döş gərməsən,
Heç yaşaya bilərmisən,
Aldatmasan özünü sən -
Qana-qana, bilə-bilə?

F ə r m a n

Doğrudan, şairsən, ancaq bu qədər!..

H a d i

Mənim kədərlərim yansaydı əgər
Tüstüsü tutardı bütün dünyanı.
Bu dərdi, bu qəmi anlayan hanı?

F ə r m a n

Yanırsan, yanırsan sən özbaşına,
Alovun yetişmir öz qardaşına.
Havayı yanmağın faydası varmı?

Dağdakı ocağa əl qızınarmı?
Ağız şirin olmaz «halva» deməklə!
Sən nə qazanırsan inildəməklə?

H a d i

Xalqım diri ikən öldürdü məni!

X a t i r ə

Məgər xalqmı yazmış bu məqaləni?

(Çöldən uşaqların mahnı səsi gəlir)

M a h n ı s ə s i

«Məktəb nə demək? - Şəmsi-şəbistani-cəhalət.
Məktəb nə demək? - Seyqəli-mirati-təbiət.
Məktəb nə demək? - Ümmətə bir babi-səadət.
«Darülədəbin» bilməliyiz qədrini, millət,
İkmalına göstərməli olduqca həmiyyət».

(Hadi qalxıb pəncərədən boylanır)

H a d i

Uşaqlar, uşaqlar, oxuduğunuz
Bu sözlər kimindir?

U ş a q s ə s i

Məhəmməd Hadinin.

H a d i

Sizə bu sözləri kim öyrədib, kim?

U ş a q  s ə s i

Xatirə müəllimə!

H a d i

Hansı müəllim?

U ş a q  s ə s i

Xatirə!..

H a d i

... O indi hardadır, görən?
Onu lap yadımdan çıxartmışam mən,
Osa unutmayıb məni... İşə bax!

F ə r m a n

Dost, səni unutmaq asandır, ancaq
Böyük amalını unutmaq çətin.
O da əqidənə vurğundur sənin!

(Əli ilə Xatirəni göstərir)

H a d i

Yoxsa... Bu sənmisən, Xatirə?

X a t i r ə

Bəli!

F ə r m a n

Şeirinə bağlıdır eşqi, əməli.

(Görüşürlər)

Səninlə yaşayır dünyada bu qız,
Sənsə ölüm deyib durmusan yalnız.
Bu qız, o uşaqlar... biz dostlar bütün,
Səni sevmirikmi, Hadi, bir düşün?

H a d i

(Qərənfil çiçəklərinə işarə ilə)

Yoxsa bunları da sən gətirirsən?
Bir görün nə qədər kor olmuşam mən!
Nə qədər istisən, ey ana torpaq!
Quş da gen düşməsin öz Vətənindən.
Qəzet gecikmişdir bir qədər, ancaq,
Vətənə dönəli dirilmişəm mən.

(Pərdə)

*1960*



# İNSAN VƏ ZAMAN

*Biri digərinə «haqsızdır» deyir,*
*Özü də bilir ki, yalan danışır.*
*Zalım öz gözündə tiri seçməyir,*
*Özgə gözündəki qıldan danışır.*



## QAĞAYI KİMİ

Həm dənizdə, həm havada, həm də yerdə cövlanı var,
Həm üzürlər,
həm süzürlər,
həm gəzirlər,
qağayılar.
Bu arzunun həsrətilə əsrlərlə mən yanmışam,
Təbiətin qağayıya bəxş etdiyi nemətləri
Mən əqlimlə qazanmışam:
həm gəzirəm,
həm üzürəm,
həm süzürəm!

*Riqa. İyul, 1960*

## HƏR ŞƏKİLDƏ BİR ANIM...

*Qələm yoldaşım Yusif*
*Səmədoğluna*

Hərdən töküb önümə
köhnə şəkillərimi,
Mən yadıma salıram
o ötən illərimi.
Bu şəkillər, şəkillər
köhnə xatirələrin
min nəğməli səsidir.
Yaşadığım anların
kağızlar üzərində
əks olan kölgəsidir.
Şəkillər yığın-yığın,
şəkillər dəstə-dəstə;
Hər şəkildə bir anım
əbədilik yaşayır
cansız bir kağız üstə.
Yaşamışam o anı,
O an çıxıb əlimdən;
O anda keçirdiyim
Həyəcanı, duyğunu
yaşamaram bir də mən.
Siz, ey ötən illərdən
mənə xatirə qalan

cansız dövlətim, varım –
Kağız parçalarında
donub qalan anlarım!
Siz üstünü toz basan
nəğməsiz bir simsiniz,
mənim zahirimsiniz...
O anda yaşadığım
hissim, duyğum, düşüncəm,
bura əks olunmamış –
kağız üstə qonmamış.
Bax, bu şəkil: əlimdə
bir dəstə gül tutmuşam;
Sanki qaya başından
yerə baxan bir quşam.
On il əvvəl çəkilmiş
bu şəkilə baxanda,
O vaxtkı duyğularım
yada düşür bir anda.
O duyğuma gülürəm,
o arzuma gülürəm.
Duyğular başqalaşmış,
Arzular başqalaşmış.
O zamandan bu yana
çox sıldırım dağları,
qayaları aşmışam.
Arzular başqalaşmış,
mən də başqalaşmışam.
O şəkildə gördüyün
əli çiçəkli oğlan –
sadə ürəkli oğlan
mənəmmi?.. Ah, dəyişir –

Axı, insan dəmbədəm.
Doğrusu, o, həm mənəm,
Həm də ki, mən deyiləm.
Bu şəkillər, şəkillər
köhnə xatirələrin
min nəğməli səsidir.
yaşadığım anların
kağızlar üzərində
Həkk olan kölgəsidir.

*Riqa, Dubultı. İyul, 1960*

## TƏLƏSİRƏM MƏN

*Uzadaq ömrünü hər bir anın da,*
*Yel kimi keçməsin vaxt üstümüzdən.*
**Səməd Vurğun**

Səhər olcaq küçələrdə qaynaşır insan,
Hamı qaçır sağa, sola qarışqalartək.
Sinəmizdə ürəyimiz dinir astadan:
«Filan vaxtda filan işi görəsən gərək».
Hamı hər gün sağa, sola yel kimi əsir,
Hamı qovur, hamı qaçır, hamı tələsir.

Küçədə də, otaqda da belədən-belə,
Səhər-axşam bizi qovan de, nədir elə?
Zaman! Zaman bizi qovur, biz də hey onu,
Qurtarmaqmı istəyirik ömrün yolunu?
Gah yoxuşa dırmanırıq, gah enirik biz,
Əqrəblərin ucundaca hərlənirik biz;
Tələsirik, bir anımız getməsin bada,
Tələsməsək, zaman bizi qoyar arxada.

Küçələrin sinəsində hey zaman-zaman
Ayaqların silləleri min iz buraxır.
Ürəklərin dağlar boyda arzularından
Daş səkilər, döşəmələr, əriyib axır.
Ayaq səsi! Anın hökmü səslənir onda,
Xəbər verir hər insanın öz aləmindən.

Ayaqların bu yeknəsəq tappıltısında,
Min ürəyin min arzusu səslənir həmən.
Ötən karvan buludlarda, daşda, kəsəkdə
Məna görür, bu dünyaya bağlanırıq biz.
Ömrü başa vurmaq üçün tələsməsək də,
Xəyalları dalda qoyur əməllərimiz.
Əsrin addım səslərinə uyuşmaq üçün
Tələsirik, tələsirik hər saat, hər gün.

Axı, necə tələsməyim, mənim cürbəcür
Arzularım, xəyallarım, dərdi-sərim var.
Axı, necə tələsməyim yarıdır ömür,
Hələ mənim görülməmiş çox işlərim var.
Bir də hələ bu dünyada nə görmüşəm mən?
Doymamışam bu dünyanın gözəlliyindən.

Haqlı idi «tələsmirəm», - deyən o şair,
Axı, vaxtın pəncəsində o da əsirdi.
Daha artıq görmək üçün vaxtı əyləyir,
«Tələsmirəm» - deyəndə də o tələsirdi.
Hey doyunca görmək üçün o, ayı, günü
Uzatmaq da istəyirdi anın ömrünü.

Daşdan qanad istəyirəm, işıqdan sürət,
Selin, yelin qarşısını mən saxlayaydım.
Ürəyimdə bu dünyaya sonsuz məhəbbət,
Xəyalımın sürətini qabaqlayaydım.
Bərk yapışaq axıb keçən dəqiqələrdən,
Tələsirəm, tələsirəm, tələsirəm mən.

Məsafələr olmuş indi sürətin qulu,

Bir anda biz qət edirik bir günlük yolu.
Sürət, köhnə qalıbları uçurub qırır,
Qütbləri qütblərə yaxınlaşdırır.
Bu iqlimdən o iqlimə uçmaqçın həmən,
Tələsirəm, tələsirəm, tələsirəm mən.

Saatları kim yaratdı? Neçin yaratdı?
Bu ölçüylə kim dünyada murada çatdı?
Neçin bu az ömrümüzü ölçüyə saldıq?
Ömür getdi, həyat getdi, vaxtsız qocaldıq.
Arzulardan geri qaldı əməllərimiz,
Yandıq dilək atəşinə pərvanələrtək.
Dostlar, anın sürətini qabaqlayıb biz,
Zaman üçün təzə ölçü yaradaq gərək.

Bəzən ömrü yaşayırıq bir an içində,
Təzə zaman yaradırıq zaman içində.
Qoy keçməsin bu dünyada an da boş yerə,
Zəfərlərlə yola salaq keçən hər günü.
Biz xəyalın sürətini verək əllərə,
Gəlin, umaq dəqiqədən günün ömrünü.
Duya-duya, sevə-sevə ömr etdiyimdən,
Tələsirəm, tələsirəm, tələsirəm mən.

*İyul, 1960, Riqa*

## ÖMRÜN PAYIZI

*(Yavaş-yavaş)*

Dövran tez dolanır, illər tez gəlir,
Biz də dəyişirik hey ildən-ilə.
Ömrün pillələri necə düz gəlir
Ana təbiətin fəsillərilə!

İlk bahar çağıdır uşaqlıq ömrün,
Şıltaqdır, oynaqdır kəpənək kimi.
Ömrün yay çağıdır gənclik büsbütün,
Coşğundur, dəlidir o, külək kimi.

Barlı-bəhərlidir payızı ömrün,
İnsan da bar verib əyir başını.
Dünyanı dərindən dərk etmək üçün
Düşünüb, gizlicə çatır qaşını.

Ağarır saç, saqqal ömrün qışında,
Həyat zəifləyir, axıra çatır.
Əl-ələ verərək, qoca yaşında
İnsan mürgüləyir, təbiət yatır.

Ömrün payız fəsli sıxdı əlimi,
Yoxsa qocalıram mən yavaş-yavaş.
Payızda yarpağa xal düşən kimi

Düşür saçlarıma dən yavaş-yavaş.
Ağaclar soyunur, yer xəzəllənir,
Fikir dumanlanır, gözlər zillənir,
Güllərin üstünə enən tək enir
Mənim gözlərimə çən yavaş-yavaş.

Soyuyur havalar, soyuyur bütün,
Qısalır, qısalır günlər günbəgün.
Axı, yaxınlaşır qürubu ömrün,
Əyilir dağlardan gün yavaş-yavaş.

Saralır get-gedə çöl, çəmən, çayır,
Könül hər saatı ömürdən sayır.
Bir səs qulağıma hey pıçıldayır:
- Bəxtiyar, göylərdən en yavaş-yavaş!

*Oktyabr, 1960*

## GÖRƏ BİLMİRƏM

On addım uzağı görə bilmirəm,
Düşmür gözlərimdən daha çeşməyim.
Qızğın ehtiraslar sönür dəmbədəm,
Gənclik həvəsindən necə düşməyim?..

Gözlərim itiykən görmürdüm hələ,
Görmürdüm içini bər-bəzəklərin.
İndi zəifsə də, baxmadan belə
Hər şeyi görürəm dərindən dərin.

*Noyabr, 1960*

## YERİN GÖYDƏKİ İLK ELÇİSİNƏ

Bilmirəm adın nə, yaşın neçədir?
İşin nə, gücün nə, millətin nədir?
Bəlkə də bir zaman yoldan keçərkən
Sənin qoluna da toxunmuşam mən.

Sən, ey fəzaların ilk vətəndaşı,
Eşq olsun, eşq olsun sənə min kərə!
Anamız dünyanın o məğrur başı
Sənin hünərinlə dəyər göylərə.

Yalnız bir dövlətin, bir xalqın deyil,
Göydə elçisisən anamız yerin.
Fövqünə qalxmısan, fövqünə, qardaş,
Yerdəki o xırda çəkişmələrin.

Arxanca qoy baxaq iftixarla biz,
Yerin şan-şərəfi göyə ucalmış.
Min səsli, min rəngli qoca ərzimiz
Sənin timsalında bir məqsəd almış.

*Yanvar, 1961*

## İKİ SAAT

*İlk kosmonavt Y.Qaqarinə*

Xəyallar fövqünə ucaldıqca sən,
Güldü insanlığın eşqi, niyyəti.
İkicə saatın iradəsindən
Yarandı bir ömrün əbədiyyəti.

Alqış şərəfinə, alqış min kərə,
Sən, ey fəzaların ilk vətəndaşı!
Sənin hünərinlə dəydi göylərə
Torpaqdan ucalan insanın başı.

Hansı duyğularla iki saat sən
Dolandın başına anamız yerin?
Bu iki saatla asılıb göydən
Çatdın arzusuna sən əsrlərin.

Səninlə bərabər ucaldı min-min
Zəkalar, ürəklər o yüksəkliyə.
Neçə filosofun, neçə alimin
Qəlbini özünlə apardın göyə!

Bu iki saatda sənin hər anın
Bir şərəf gətirdi anamız yerə.

Min il yerdən göyə baxan insanın
Gözləri gözündə qalxdı göylərə.

Sirli kitablardır göy qalın-qalın,
Milyon ilə yazmış onu kainat.
Əlifbası oldu bu kitabların
Ömründən verdiyin bu iki saat.

Bizimçin yenidən göylər doğuldu,
İndi ayrı gözlə baxırıq ona.
Bu iki saatın bir cavab oldu
Min alim ömrünün suallarına.

O ayaq dəyməyən, göz işləməyən
Fəzaya tarixin ilk sözü oldun.
Qalxanda, beşinin dostuydunsa sən,
Enəndə - dünyanın əzizi oldun.

Xəyallar fövqünə ucaldıqca sən,
Güldü insanlığın ülvi niyyəti.
İkicə saatın iradəsindən
Yarandı bir ömrün əbədiyyəti.

*May, 1961*

## GÖZƏLLİK ÖNÜNDƏ

Abdulla, bir dayan, maşını əylə,
Mümkünmü, a qardaş, bu mənzərəylə
Üz-üzə durmamaq, salamlaşmamaq?
Gözəllik önündə aşıb-daşmamaq?

Ömrümüz ötəydi bu yerlərdə kaş,
Əylə, dinclik verək bir az maşına.
Dünya dağılmaz ki, nolar, a qardaş,
Bir az gec çatarıq mənzil başına.

Oxqay!... Havadakı saflığa bax bir,
Könül təzələnir, can təzələnir.
Zaman əldən gedir, onu saxlayaq.
Döşlərə səpilən güllərə bir bax!

İrasıq çəkibdir qaşına güllər,
Ah, yaman gözlərdən yaşına, güllər...
İndi sür! Yüzlə yox, minlə də sürsən,
Vaxtı qabaqlaya bilməyəcəksən!

Ancaq o anda, -
Gözəllik önündə fikrə dalanda
Vaxtı bir anlığa biz qabaqladıq,
Onda maşını yox, vaxtı saxladıq.

*May, 1962*

## KİBERNETİKA

Maşın kitab oxuyur,
Maşın «düşünür», «duyur».
Çəkir hesabını da
Neçə-neçə tonların,
Minlərin, milyonların.
Demək, varmış onun da
Düşünən insan kimi
Zehni, ürəyi, canı.
Demək, yaxın zamanda
Maşın əvəz edəcək
Tamam-kamal insanı?!..
O, şeir də yazacaq,
O, mahnı da, - deyirlər.
Ancaq deyə bilmərəm,
Necə olacaq onun
Düzəltdiyi şeirlər...

Gör idrak hara çatdı?
Maşını kim yaratdı?
İnsan! Bax, yenə insan!
Eşq olsun sənə, insan!
Demək, yaxın zamanda
Silməyəcək bir daha
İnsan alın tərini.
Maşına tapşıracaq

Bütün əməllərini!
İnsan öz nifrətini
Sözsüz, tapşıra bilər
O duyğusuz maşına.
Maşın da od yağdırar
İnsanların başına.
Məhəbbəti bəs necə?..
Burda dayan, burda dur!
Bu dünyanın özü də
Məhəbbətə borcludur!
Ey insan, mən heyranam,
Heyranam kamalına -
Eşqinə, amalına.
İnsafla de, toxum da
Daşa əkilərmi heç?
İnsan məhəbbətini
Duyğusuz maşınlara
Tapşıra bilərmi heç?

*Şəki. İyul, 1962*

## BARMAQLAR

Barmaqlar, barmaqlar,
Nə qədər işiniz, əməliniz var!
Kitab yazırsınız, ot çalırsınız,
Calaq vurursunuz, bağ salırsınız.

Siz çırtma da çalıb gah için-için
Məsum bir körpəni güldürürsünüz.
Çəkib tətiyini gah da tüfəngin
Yaxşı bir insanı öldürürsünüz.

Barmaqlar pul sayır, çiçək də dərir,
Barmaqlar can verir kamana, tara.
Barmaqlar, barmaqlar yol da göstərir
Nabələd yollarda yol azanlara.

Barmaqlar qaldırır ən ağır yük də,
Barmaqlar can verir daşa, torpağa.
Ürəyin elçisi qızıl üzük də,
Barmağa taxılır, bəli, barmağa.

Mümkünmü, mümkünmü saymaq, büsbütün
Nələrə qadirdir barmaqlar yenə?
Bizim əsrimizdə barmaqlar üçün
Yaranıb lap təzə bir vəzifə də...

Bir kiçik düyməni basmaq! Bu nədir?
Basdısa, bu dünya bir viranədir.
Məhv etmək bəşəri, ərzi, hər şeyi,
Bir anda dünyanı alt-üst eyləmək!
İşə bax! Bu boyda ərzin taleyi, -
Bir kiçik barmağa bənd imiş, demək!

İnsan idrakının yaratdıqları
İnsan idrakının hədəsindədir.
Gəlin, ay insanlar, birləşək barı,
Dünyanın taleyi məndə, səndədir.

Nələr görməmişdir bu qara torpaq,
Yenicə sağalır sinə dağları.
Bizim birliyimiz kəsəcək ancaq,
Düyməyə uzanan o barmaqları.

*Noyabr, 1962*

## ÖLÇÜ

Uşaqların üstünə tez-tez qışqırır ana:
- Qaçma!
- Gülmə!
- Yüyürmə!
- Bir farağat dursana!
Uşaq çöldə-bayırda gülməsin, yüyürməsin,
Yıxılmağın, durmağın ləzzətini görməsin.
Bəs neyləsin, ay ana?
Uşağı dinc qoysana!
Qoysana ləzzət ala
Bu dünyadan o bala!
Azad uşaq könlünə ölçü-biçi nə gərək?
Onsuz da bir vaxt onun hər işi ölçüləcək,
Gülüşü ölçüləcək, yerişi ölçüləcək...

*Yanvar, 1963*

## OTUZ YEDDİ YAŞIM

Otuz yeddim tamam oldu,
Bir çiçək də solub düşdü
Bu gün ömrün çəmənindən.
Başa vurdum
Otuz yeddi saat kimi,
Otuz yeddi ilimi mən.
Yay qurtarır, payız gəlir,
Saçlarıma qırov düşür.
Üzümdəki bu qırışlar nə deyir bəs?
Yavaş-yavaş soyuyurmu eşq, həvəs.
Yox, yanıldım mən nə qədər!
Üzə düşür, qəlbə düşmür
Qocalığın nişanəsi o cizgilər.
Ürək ki var, heç bir hökmə ram olmayır,
İnsan özü qocalsa da,
Ürəyi yüz yaşında da qocalmayır...
Bu vaxtadək min kərə mən,
Baxdım ötən illərə mən,
Günlərə mən.
Günlər necə al-əlvandır,
Hər birində bir təlatüm, bir macəra!
Neçəsinin rəngi ağdır,
Neçəsinin rəngi qara.
Ömür yolu - gah enişdir, gah yoxuşdur,
Neçəsinin əli dolu,

Neçəsinin əli boşdur.
Neçəsində fərəhim var,
Neçəsində kədərim var,
Neçəsində neçə-neçə xətərim var.
Yaşadığım bu illərin, bu günlərin,
Hərəsinin bir səsi var,
Bir rəngi var.
Hamısının başındasa
Arzuların çələngi var.
Yol gedirəm... Ömür yolu...
Yox, yanıldım!
Arzuların, ümidlərin yoludur bu.
Otuz yeddi ildən bəri,
Mən tapmışam bu yollarda
Arzuları, ümidləri...
Bu yollarda çiçək aça
Gərək arzum, diləyim də.
Yolun sonu həyatdadır,
Başlanğıcı ürəyimdə...
Oğul odur, birləşdirə bu yolları,
Otuz yeddi pillə qalxdım,
Ömür yarı, yol da yarı,
Arzular da hələ yarı.
Hər il təzə bir arzuya könül verdim,
Həyat çaldı otuz yeddi simdə məni.
Ah, kim bilir, nə gözləyir,
Otuz səkkizimdə məni.
Keçmiş - dünən olsa belə,
O - uzaqdır, gəlməz ələ.
Gələcəksə - çox yaxındır,
Yüz il sonra olsa belə.

Axı, ekiz qardaşıdır
Gələcək - xoş ümidlərin, arzuların,
Könül, sən də ona sığın!
O nə qədər uzaq olsa,
Yenə axır gələcəkdir.
Hər şey, hər şey yıxılsa da,
Qalan yalnız gələcəkdir.
Zəhmət oldu mənim andım,
Günlərimə yenə yandım.
Düşünürəm: - Nə qazandım
Otuz yeddi il içində?

Utanıram doğrusu mən
Hədər keçən günlərimdən.
Daş-kəsək də gəlir bəzən
Dağdan enən sel içində.

Günlərimi sapa düzdüm,
Dərdi qovdum, qəmə dözdüm.
Niyə bəzən qanqal üzdüm
Dolaşsam da gül içində?

Şeir oduna bilir aləm:
Gah alışıb, gah sönürəm,
Bircə buna öyünürəm:-
Xar olmadım el içində,
Otuz yeddi il içində.

*Yanvar, 1963*

## QALİLEY

Dedi: - Yer fırlanır... inanmadılar,
Onlar ona güldü, o da onlara.
Dedi: - Həqiqətə şübhənizmi var?
Dedilər: - Haqq deyən çəkilir dara.

O dedi: - Fırlanır, fırlanacaq yer,
Buna gülsəniz də, gülməsəniz də.
Yerdən dərs götürüb ölənə qədər
Məgər fırlanmırıq həyatda biz də?..

«Fırlanır» - Sözüylə o müdrik insan
Qırdı mövhumatın sərt buzlarını.
Əqlin baltasıyla vurdu başından,
Sındırdı öküzün buynuzlarını.

Milyon il dedilər: - Qaşqa öküzlə
Çatıbdır şöhrətə, şərəfə dünya.
Dedi: - Yer fırlanır... ancaq bu sözlə
Tanıdı özünü ilk dəfə dünya!

Qaliley «fırlanır» - deyəndən bəri,
Ucaldı, göylərdən yerlərə baxdı.
Hər cürə uydurma əfsanələri,
Əqlin alovunda yandırdı, yaxdı.

Yer fırlanır, - deyə o çəkdi fəryad,
Sözünün gücünü özü də bildi.
Elə bil, bir anlıq susub kainat,
Bu iki kəlməyə qulaq kəsildi.

Dedi: - Yer fırlanır - qarışdı aləm,
Yer durdu, fırlandı məscid, kəlisa.
Dedi: - Yer fırlanır, elə bil bu dəm
Təzədən çəkildi çarmıxa İsa...

Dedi: - Öz hökmümə inanıram mən,
Gərək dəyişilə dünyanın adı.
Dedi: - Yer fırlanır!... Bu iki sözdən
Papanın başında göy guruldadı.

Dedi: - Yer fırlanır... Bu ikicə söz,
Min bir sual düzdü «İncil»in üstə.
Papa qəzəblənib - Dağ basarıq biz -
Dedi, - bunu deyən o dilin üstə.

Divana çəkdilər alimi dərhal,
Dünyanı düşündü, eşqini andı.
Böyük Cordanonu yandıran tonqal,
Gözünün önündə gəlib dayandı.

Müqəddəs kitaba əl basıb həmən
Dedi: - Şəkkim yoxdur, bu kitab haqdır.
Ancaq düzü budur; deməsəm də mən,
Yer elə fırlanır, fırlanacaqdır!

Qəlbə bax, eşqə bax!..
Qorxub ölümdən,
O öz məsləkindən geri dönmədi.
- Həyatın naminə sürünmərəm mən,
Məsləkin naminə ölərəm, - dedi.

Bəşər tarixində bəlalı insan,
İki qütb önündə çox dayanıbdır.
Haqdan yapışanlar keçib həyatdan,
Həyatdan qopmayan haqqı danıbdır.

Bu hünər önündə baş əyirəm mən,
Ötən zamanlarla fikrim öpüşdü.
Ölüm ayağında «Ənəlhəqq!»* - deyən
Mənim Nəsimim də yadıma düşdü.

Qaliley! Hələlik kəşfin bir yana,
Onun qiymətini alimlər bilər!
Sən haqdan dönmədin həyat naminə,
Bundadır böyüklük, bundadır hünər!

*May, 1963*

---

**"Ənəlhəqq" ərəbcə «mənəm Allah» deməkdir.*

***

Günün ömrü
Öz vaxtında uzanır,
Öz vaxtında gödəlir.
Vaxtında axşam gedir,
Vaxtında gündüz gəlir.
Həyatın doğuşu da
Bu qanuna düz gəlir.

İnsan dünyaya gəlir
Doqquz ay tamam olcaq.
Bu nədəndir, ölümsə
Heç kəsin həyatına
Vaxtında gəlmir ancaq...

*Yanvar, 1963*

## SÜRƏT

Bir zaman vardı,
Verst ağaclarını saya-saya,
Üç günə gedərdik
Moskvaya.
Darıxardıq,
Bu sürətin ləngliyinə.
Sonra uçduq səkkiz saata,
Darıxdıq,
Darıxdıq yenə...
İndi üç saata gedirik,
ancaq
yolun uzunluğu
yenə darıxdırır bizi,
İşıqdan almaq istəyirik
sürətimizi.
Yox!
Bu sürət də bizə yenə azdır, az!
Bu sürət
Fikrimizin sürətinə çatmaz.
Mən əsrin oğluyam,
Əsrin!
Darıxmamaqçın
Mənə
Fikrimin sürətini verin!

*Sentyabr, 1963*

## XOŞBƏXTDİR O ADAM Kİ...

*Ey an, ötmə, dayan!*
**V.Höte**

Bütün ömrümüz boyu «vaxt çatışmır» deyirik,
Vaxtı vaxtın özündən borc almaq istəyirik.
Bizə baxmır, vaxt ötür,
Vaxt atlı, biz piyada.
Hey qovsaq da biz onu,
Piyadalar atlıya çata bilməz dünyada.
İş çox... vaxt az... ömür az,
Bir saatın arzusu neçə ömrə sığışmaz.
İşin qulpundan tutaq, xəyalların səsinə
Dalıb qulaq asınca
Biz işləri,
İşlər də
Bizi çəkib aparır
Daim öz arxasınca.
Günlər, qanadlı günlər, axır belədən-belə,
Bəzən fikirləşirsən:
Nə qədər görülməli işim, gücüm var hələ.
Hansından başlamalı? Özün də bilməyirsən,
Günlər ötür... sən elə «vaxt çatışmır» deyirsən.
Vaxt çatışmır, çatışmır, işimiz qalaq-qalaq,
Bunları görmək üçün vaxtı hardan borc alaq?
Niyə çıxa bilmirik, vaxtın çərçivəsindən?

Dondurmaq istəyirəm ömürdən, heç olmasa,
Bircə dəqiqəmi mən!
Saatları saxlayın, əqrəblər işləməsin,
İş görək... qoca dünya bizə bekar deməsin!
Bu anamız dünyanın özü bekar deyildir,
Gör neçə milyon ildir
O fırlanır, fırlanır günəşin dövrəsinə.
Yorulmaq bilmir yenə.
O görür öz işini, hər işi düz gətirir,
Bizə vaxtlı-vaxtında gecə-gündüz gətirir.
Bu dünyada nə qədər,
Qoxlanmamış çiçəklər, dərilməmiş meyvələr,
Geyilməmiş libaslar,
Yarımçıq qalan işlər, əsərlər, nəğmələr var.
Onların sahibləri zəhmətdən qaçmamışdır,
Ah... ancaq onların da vaxtı çatışmamışdır.
İş qurtaran deyil ki... iş özü işdən doğur,
Yoxuş enişdən doğur.
Vaxt çatmaya-çatmaya ömrümüz çatır sona,
Xoşbəxtdir o adam ki, təslim olur vaxt ona.

*1958*

## ZAMAN

Zaman!
Yarandığın gün
Bəlli deyil insana,
Neçə-neçə əsrlik
Dövran sənə borcludur,
Yoxsa...
Sən bu dövrana?

Dünya səndən qabaqdır,
Ya sən ondan qabaqsan?
Sən hardan başlanmısan,
Harda qurtaracaqsan?

İlkin bəlli deyilsə,
Bəlli deyil sonun da.
Sən təpədən-dırnağa
Məchul ikən...
Bəs onda
Kim belə böldü səni
Saatlara,
İllərə,
Aylara,
Fəsillərə?

Bunlar nəyə gərəkdir,
Bunlar nə deyir bizə.
Bu bölgülər bəlkə də
Hədd qoymaqçün yaranıb
Bu gödək ömrümüzə?

Ölüm olan dünyada
Bilmək əbəsdir, əbəs.
Cavan öldü filankəs,
Qoca öldü filankəs...
Yəqin ulu babamız
Bilmirdi qoca nədir,
Bilmirdi cavan nədir.
Məkanını bilsə də,
Bilmirdi zaman nədir?

Sənin yaşın yəqin ki,
Min belə kainatı,
Dünyanı yola salmış,
Sənin bir dövranında
Min kainat qocalmış...
Sən hər şeydən güclüsən,
Qüvvətlisən,
Ey zaman,
Sən bütün varlıqların
Həm ilki,
Həm sonusan!
Zaman, ömrümüz boyu
Bilməsək də sən nəsən.
Daim bədənimizdə

Dövr edən qanımız tək
Sən həmişə bizdəsən...
Neçə xalqın,
Ölkənin
Axırına çatmısan.
Neçə salnamələri,
Tarix kitablarını
Hökmünlə yaratmısan!
Tarixin yollarında
Min-min yoxuşların var,
Min-min enişlərin var.
Hələ sənin qabaqda
Nə qədər işlərin var.

Sən hər şeydən həm qoca,
Həm cavansan, ey zaman.
Çünki həm əbədiyyət,
Həm bir ansan, ey zaman!

Niyə bilinmir, niyə
Zamanın ilki, sonu?
Unutdunmu sən ərzin
Yuvarlaq olduğunu?..
Ərzin getdiyi yol da,
Dövranı da özü tək
yuvarlaqdır, yuvarlaq!
Nə qədər istəsən bax
Topun ilk nöqtəsini
Topun son nöqtəsini
Tapa bilməzsən, bəli,
Hərlənən bir aləmin

Nə sonu, nə əvvəli...

Hər şey təkrar olunur
Fırlandıqca ərzimiz.
Əvəz edir birbəbir
Qışı yay,
Yayı payız...
Əvəz edir birbəbir
Gecələr gündüzü də.
Bu təkrardan dərs alıb,
Bəlkə təkrar olunur
İnsanların özü də...
Mən də,
Sən də,
Hamımız
Özümüzdən bixəbər
Bəlkə də, milyon dəfə
Gəlmişik bu cahana,
Dolanan, təkrar olan
Ərzimizlə bərabər.

*Sentyabr, 1963*

## YENİ İL DUYĞULARI

Bayramlar cürbəcür... bayramlar əziz,
Bayramlar təqvimdə ən gözəl gündür.
Minbir qayğılarla yaşasaq da biz,
Bayramlar - sevinib, gülmək üçündür.

Könüllər saz tutur təntənəsindən
Gələndə bu gözəl əziz bayramlar;
Ancaq...
Bir bayram da tanıyıram mən,
Onda şadlıq da var, gizli qəm də var.

Həzin duyğularla yaşayıram mən,
Bu əziz gecədə, a dostlar, yenə.
Gəlin ötən ilin son gecəsindən
Baxaq təzə ilin ilk səhərinə.

Hava o havadır... iqlim o iqlim,
Hələ ərimәyib dünən yağan qar.
Bəs dəyişən nədir?
Divarda təqvim!
Könüldə yurd salan gizli duyğular...

Hava bir gecədə dəyişmir... ancaq
Dəyişir havası insan könlünün.

Bu gecə hamıdan,
Hər şeydən qabaq
Sorulur hesabı hər ötən günün.

Ürəyim döyünür... onun səsində
Duyulur çox gizli qəribə hallar.
Nədənsə illərin son gecəsində
Şadlıqla bərabər gizli qəm də var.

Zaman dayanmadan daim axsa da,
Dərk edə bilmirik biz hər an bunu.
Bütün dəhşətilə o düşür yada
İlin son gecəsi, ilin son günü.

İllər yada düşür bir-bir bu gecə,
Arzular səfbəsəf, dəstəbədəstə;
Hər kəs öz-özünə deyir bu gecə:
«Bir yaş da tez gəldi yaşımın üstə».

İlə son qoyulur... Gəlin bu gecə
Hər kəs öz-özünə haqq-hesab versin.
İllər yaş üstünə yaş gətirincə,
İllər daş üstünə qoy daş gətirsin.

Kim ki zəhmətinə «tanrımsan» dedi,
Bu gecə fərəhdən aşıb daşdı o.
Yaşının üstünə bir yaş gəlmədi -
Deyərdim, bir yaş da cavanlaşdı o.

*Dekabr, 1963*

***

Ulduzlar da kainat,
Ay da,
Gün də kainat.
Onsuz da çox böyükdür
Özlüyündə kainat.
İnsanın nəfəsilə
O daha da böyüdü,
O daha da ucaldı.
İnsan
Göylərdən deyil,
Artıq,
Göylər insandan
Şərəf aldı,
Şan aldı!..

*Dekabr, 1963*

## HÜDUD

Yox! Kosmosa qalxmadı
İnsan,
Əslində baxsan!..
Axırıncı kosmonavt
Cansız maşına deyil,
Güvənib öz qəlbinin
Atəşinə, oduna,
Qalxdı insan ağlının
Bugünkü hüduduna.

Genişlənir, böyüyür
Bu hüdud ildən-ilə.
Əqlimizin yelkəni
Sabah yan alacaqdır
Tamam özgə sahilə.

Bizim idrakımızın
Öz gündəlik həddi var.
Ancaq hüdud tanımır
Bizim böyük arzular,
Həyəcanlar, duyğular...

*Yanvar, 1964*

***

Bəzən soruşuram özüm-özümdən:
- Neçə il yaşamaq istəyirəm mən?
- Yüz il.
- Yox, beş yüz il.
- Min il.
- On min il.
- Yüz min il, milyon il.
- Yox, yox, bəs deyil!
Sonu olan ömrü istəmirəm mən,
Çıxaydım zamanın çərçivəsindən.
Bəlkə dəniz olum?
Bəlkə dağ olum?
Onların ömrünə mən ortaq olum?
Bəlkə günəş olum?
Soyuyur o da,
Artıq kül deyirik qaralan oda.
Bu haqdır...
Alışan sönür, yox olur,
Dəniz də quruyur, dağ da uçulur.
Əbədi olan şey zamandır, zaman,
Özündən uydurub onu da insan!

*Yanvar, 1964*

## NEKROLOQ

Nekroloq - bir həyatın son nidası, son səsi,
Bir mənalı həyatın ən qısa mənzərəsi.
Ömrün bütün günləri tez bir yerə yığışdı,
On cümləyə sığışdı...
Mərhuma bircə anlıq versəydilər ömr əgər,
Baxıb, baxıb yad kimi
O buna ağlardımı, o buna gülərdimi?..
Boylandı əməllərin ən kütah lövhəsindən
Mərhum bizə son kərə.
Hər kəsin arzuları çoxdur əməllərindən
Min kərə, milyon kərə.
Ürəkdəki arzular əməllərdən əzəldir,
Eləmək istədiyim mənim elədiyimdən
Həm çox, həm də gözəldir!
Eləysə... Nekroloqa ömür tam olsun deyə,
Əməllərlə bərabər ən gözəl arzular da
Niyə yazılmır, niyə?!

*Fevral, 1964*

## İLLƏRƏ NƏ VAR Kİ...

Sel kimi köpürüb yel kimi əsən,
İllər uçub gedir... yaman tələsir.
İllərmi? Əslində bizik tələsən,
Elə bilirik ki, zaman tələsir...

İllərə nə var ki, qocalırıq biz,
O baxmır arzunun, qəlbin səsinə.
İllərə nə var ki... əməllərimiz
Sığışmır özünün çərçivəsinə.

İllərə nə var ki... tək bircə günü
Yüz günə, min günə bəs olur bəzən.
İllərə nə var ki... onun yükünü,
Onun ağrısını insandır çəkən.

İllərə nə var ki... Ötür yel kimi,
Doğulan doğulur, yox olan olur.
İllərə nə var ki... bu qoca dünya
«Bir yandan boşalır, bir yandan dolur».

Dünyaya sığmayan arzu, əməllər
İllərin qoynuna necə sığır bəs?
Məgər arşınmıdır bilmirəm, illər,
Axı, arzular ki ölçüyə gəlməz.

Öz ilk mənasını hər şey ilbəil
Dəyişir yel atlı zəmanəmizdə.
İllərin ömrünü təqvimlə deyil,
Ölçək arzularla, əməllə biz də.

*1964*

## HƏR KƏSİN ÖZÜYLƏ YAŞIDDIR CAHAN

Dünyamız qocamı?...
Əfv et səhvimi,
Bəzən tarixə də inanmıram mən.
Bəzən sanıram ki, özümüz kimi,
Dünən yaranıbdır dünyamız, dünən...

İnsanın arzusu dünyaya sığmaz,
Cahan bir aləmdir, insan min aləm.
Dünən bildiyimiz bu gün azdır, az,
Əqlin təşnəliyi özü bir aləm.

İnsana yaraşmır «bilmirəm» sözü,
Bizi «biləcəyəm» ucaldır hər an.
Hələ açılmayıb sabahın gözü,
Həmişə yaşayır gələcək zaman.

Həyat - intizardır yarandığından,
Həmişə nəyisə... gözləyir insan...
Sabah bu gün olur, gözləyir yenə,
İnanır, inanır ən gözəl günün,
Ən gözəl saatın gələcəyinə...

Axı, kim deyir ki, ən gözəl günü,
Ən gözəl saatı yaşamışıq biz.
Axı, kim deyir ki, günün ömrünü
Uzadıb, uzadır əməllərimiz.
Axı, kim deyir ki, yaranıb çoxdan
Ən gözəl nəğmələr...
Yox, yox! Nahaqdır,
Hələ qarşıdadır gələcək zaman,
Ən gözəl nəğmələr yaranacaqdır.

Hər şey qarşıdadır...
Sabaha alqış!
Cahana sığmayır cahan arzular.
Hələ açılmamış, kəşf edilməmiş,
Günəşə, ulduza yollarımız var.

Zaman dövr eləyir...
Əvəzə əvəz...
Qış da öz yerini tapşırır yaya.
Özüylə bərabər hər doğulan kəs
Bir dünya gətirir qoca dünyaya.

Dünyamız qocamı?
Bu ola bilməz.
Neçə ki, dövr edir, dolanır zaman,
O, qocala bilməz, qocala bilməz.
Hər kəsin özüylə yaşıddır cahan!

*Mərdəkan. Mart, 1964*

## ZİRVƏ OLDU O ÖZÜ

Əvvəl təpəyə,
Sonra
Dağlara qalxdı insan.
Bir vaxt iməklədiyi,
Süründüyü yerlərə
Ucadan baxdı insan.
Yox,
Gözü qaralmadı.
Ucalmaq arzusundan
İnsan yenə qalmadı.
Yerdə süründüyünü
Unutdu,
Unutdu o.
Yavaş-yavaş ən uca
Zirvələri tutdu o.
Uçuş, yüksəliş oldu
İnsanın ilk arzusu,
Son arzusu, son sözü.
Zirvələrin başında
Zirvə oldu o özü.

*May, 1964*

## DİNCƏLMƏK İSTƏMİRƏM

Səsli-küylü şəhərdən
Dağların qoynundakı
doğma yurda gəlmişəm.
Mən o qədər şadam ki...
Bu dağlardan da uca
Dağlara yüksəlmişəm.
Qulaqlarım dincəlir zavodların səsindən,
Obamı seyr edirəm qəlbin pəncərəsindən.
Məxmər donlu göy otlar çarpayım olmuş mənim,
Suların şırıltısı laylayım olmuş mənim.
Radiodan, qəzetdən qəsdən kənar gəzirəm,
Dostların qulluğunda qul kimi müntəzirəm.
Yığılıbdır başıma köhnə dostlar, tanışlar.
Ehtiramlar, hörmətlər, rəğbət dolu baxışlar,
Ziyafətlər, badələr,
Dostlar ötən günləri sağlıqlarda yad elər.
Bir gün... beş gün... altı gün...
Gah bunun, gah da onun əziz qonağı oldum.
Axır bezdim,
Yoruldum...
Gözlərimdə bir oldu mənim göylər də, yer də,
Usandırdı lap məni
Duzlu lətifələr də, şaqraq qəhqəhələr də...

Boş bir nağara kimi gumbuldayan günlərə
Min dəfə lənət dedim.
Yenə də öz-özümə mən qayıtmaq istədim:
Tapdım qəzetlərini buraxdığım günlərin,
Oxudum şirin-şirin...
Dünyadan birər-birər yenə xəbərdar oldum,
Mən dünyaya qarışıb
Hadisələr içində
Əriyəndə var oldum.
Mən yaşadım, böyüdüm,
Mən dünyanı düşündüm,
Qəlbim, hissim böyüdü,
Bu dünyanın içində mən də dünyaya döndüm.
İndi xoşdur deyirəm şəhərlərdə gördüyüm
O səs-küy, o hərəkət,
O hərəkət, o sürət.
Dünya kurort deyil ki,
Bu cıdır meydanına
Dincəlməyə gələk biz.
Dəzgah arxasında,
Masa başında
Şərəflə dincələk biz.

Bu fırlanan dünyada,
Bu hərlənən dünyada
Gah sevinən,
Gah da ki, kədərlənən dünyada
Mən yorulan deyiləm!
Mən poladam, dəmirəm -
Dincəlmək istəmirəm,
Dincəlmək istəmirəm!

*Şəki. İyun, 1964*

## ÜRƏKDƏKİ «SAATLAR»

Dünya,
Bu qoca dünya
Bina olandan bəri,
Hərlənir soldan-sağa
Göydə günəş,
Yerdəsə
Saatın əqrəbləri.
Bu minvalla dolanır,
Yerlər,
Göylər,
Dənizlər.
Əqrəblər vaxtı izlər,
Vaxt da günəşi izlər.
Ah!...Bu daş, bu tərəzi,
Ah!... Bu ölçü, bu mizan,
Bəzən irəli gedir.
Bəzən geriyə qalır
Qəlbimizdə qurulan
Min bir səsli saatdan.
Bəzən səhər olmamış
Axşam olur mənimçün,
Bəzən sonsuzluq qədər

Uzanır,
uzanır gün.
Ürəkdəki «saatlar»
Qəlbin öz iqliminə,
Nəğməsinə, siminə
Daim həmahəng olur,
Hər qəlbin öz eşqinə,
Arzusuna qurulur...
İnsan saata görə
Çox dolandı,
Çox döndü,
O cansız əqrəblərin
Arxasınca süründü.
Daha böyük günlərə
Qanadlanır eşqimiz,
Alnıaçıq,
güləruz,
Sabaha gedirik biz.
Vaxt gələcək,
Bir zaman
Qəlbimizdə dolanan
Saatlarla dönəcək,
Dolanacaq bu dövran.

*İyun, 1964*

***

Ömür bizə verilmir
Ancaq yaşamaq üçün.
Ömür bizə verilir,
Dünyanın da dərdini,
Qəmini çiynimizdə
Çəkmək, daşımaq üçün.
Ömür - qəlbin, zəkanın
Min eşqi, min əməli.
Ömür - ömürdən sonra
Yaşamağın təməli!

*Yanvar, 1965*

## BİR ÜRƏKDƏ DÖRD FƏSİL

Hər gecə danışır radio havadan:
«Sabah az buludlu, biri gün yağış...»
İqlimin sirrini bu qadir insan
Gör necə öyrənmiş, gör necə açmış...

Sabahkı havanı bilirik bu gün,
Ey insan,
Bununla demərəm öyün...
Minbir havasını yerin, dənizin
Əvvəldən bilirik çox zaman, şəksiz.
Bəs niyə bilmirik öz qəlbimizin
Bir andan sonrakı havasını biz?..

Dörd fəsil yaşayır bir ildə torpaq,
Qış, qış kimi gəlir, bahar bahartək.
Bir saat içində bəs nədən, ancaq
Dörd fəsil yaşayır bəzən bir ürək?

Sabahkı havanı bilirik bu gün,
Ey insan,
Bununla demərəm öyün...

*1965*

## BABAMDAN QOCAYAM MƏN

Babam öldü səksənində
Atamsa altmışında.
Həm babamdan,
Həm atamdan
Qocayam
Mənsə qırxca yaşında.
Telefonlar,
Teleqraflar,
Radiolar,
Qəzetlər,
Yükləndirir günün, ayın yüküylə,
Hər saatı, hər anı...
Bir otağa sığışdırır -
Sağı gündüz, solu gecə
Başı bahar, ayağı qış dünyanı...
Qitələri,
Qütbləri
Birləşdirir sürətim.
Bu sürətin,
Bu cürətin,
Alovunda, odunda
Dəyişibdir

Mənim eşqim,
Fitrətim...
Sürətimiz çoxaldıqca
Məsafələr qısalır.
Dünənim bu günümdən,
Bu günümsə sabahımdan
Dəqiqələr borc alır.
Günlər günə,
Aylar aya qarışıbdır -
İtirmişik
Ayların,
İllərin sahilini,
Mən bir ayda yaşayıram
Babamın bir ilini.
Dağdan enib
Dağ başına dolanan,
Burulduqca bulanan,
Düzənlərdə durulan
Yüz xislətli çayam mən.
Atamdan qocayam mən,
Babamdan qocayam mən.

*Fevral, 1965*

## BİR BİNADA DOĞULDUQ

Hamı adsız doğulur,
Sonradan ad qoyulur.
Əvvəl bir ad,
Sonrasa...
Kiminin neçə adı,
Çini, rütbəsi olur...

Ancaq doğum evində
Hamının bir adı var.
Bütün doğulanları
Çağa adlandırırlar.

Yumuludur gözləri,
Gecəsi,
Gündüzü bir,
Arzusu bir,
Sözü bir...
Deyək,
Acdır,
Susuzdur,
Ya da ki,
Yuxusuzdur.

Ağlayacaq -
O, ancaq...
Ağlamaq - onun hələ
Bircə bu silahı var.
Ağlamaqla bildirir
Arzusunu, sözünü
Anasına çağalar.
Ağlamaq - ilk dilidir
Bəlkə bəşəriyyətin?...
Ağlamaqdan başlayıb
Əlifbası sənətin,
Fəlsəfənin, hikmətin...
Bir binada doğulduq,
Biz hər işdə bir olduq.
Doğulduq...
Ancaq bunu
Biz o zaman bilmədik,
Boydan, sifətdən belə,
O qədər seçilmədik:
Bərabər olduq demək,
İlk adımız bir: çağa.
İlk paltarımız - bələk.
İlk sözümüz - ağlamaq,
İlk qidamız - süd oldu.
Sonrakılar bilmirəm
Heç hardan uyduruldu?...
Adlarımız - dəyişdi,
Paltarımız - dəyişdi,
Sifətimiz - dəyişdi,
Yeməyimiz - dəyişdi,
Dilimiz də - dəyişdi.

Hər işimiz bir ikən
Bəs sonradan yaranan
Bu ayrılıq nə işdi?...

*Fevral, 1965*

## YER ÖZ YERİNDƏMİ?

Yaşıl işıqları mən saya-saya,
Gedirəm qatarda axşamdan bəri.
Gecə yavaş-yavaş açır dünyaya
Üfüqdə yumulan kirpiklərini.

Al-qızıl şəfəqlər dəstəbədəstə
Qızarır üfüqdə hey zolaq-zolaq.
Nə qədər gözəldir, təkərlər üstdə
Özün gedə-gedə gələnə baxmaq.

Ulduzlar qaralır, ulduzlar sönür,
Sulara səpilən qızıl zər kimi.
Günəş də hərlənir, günəş də dönür,
Üstündə getdiyim təkərlər kimi.

Hərlənir təkərlər, dönür təkərlər,
Saat əqrəbi tək... Bu dövran nədir?
Gecəli-gündüzlü yol gedir göy, yer,
Ancaq öz yerində, öz yerindədir.

Həmişə cavandır, qocalan deyil,
Onun da dərdinə hey yanan bizik.
Daim fırlansa da cahan, elə bil,

O öz yerindədir, fırlanan bizik.

*Fevral, 1965*

## UÇUŞ

Qusara gəldim bu il bir az dincəlim deyə,
Ağır zəhmətdən sonra özümə gəlim deyə.
Ancaq... bir gün, bir saat dincələ bilmədim mən
Ürəyimin səsindən...
O səs daim izlədi hara getdimsə məni,
Gülər üzlü görmədi burda bir kimsə məni.
O səs qulaqlarımda bir top kimi gurladı,
Fərəhimi həbs edib, nəşəmi oğurladı.
Pozdu rahatlığımı,
Dincliyimi,
Yuxumu...
Dedim: - Dincəlmək bumu?
Dedim: - Ürək, ay ürək,
Bircə ay məndən əl çək!
Axı, mən də insanam,
Mənə nəsib deyilmi bəs həyatın nəşəsi?
Dəldi qulaqlarımı qəlbimin çılğın səsi:
- Dünyada yaşamayan dünyadan dinclik umar,
Yanmağında tapmalı dincliyini sənətkar.
- Çoxaldıqca yaşım da,
Azalmadı arzular;
Aşıb daşdı arzular,
Başdan aşdı arzular.

Çoxaldı,
Şabaş oldu.
İtirdiyim ömür, gün,
Qazandığım yaş oldu.
İndi nə istəyirsən?
- Demə, demə heç zaman «istəyin nədir?» - mənə,
Dünən zirvə bildiyim, bu gün pillədir mənə.
İstəyim birmi, onmu?
Çoxaldıqca arzular dünya mənə dar gəlir.
Köhnəsinə çatmamış təzə arzular gəlir,
Köhnə arzularımın saçlarına dən düşür,
Dünənimin istəyi bu gün gözümdən düşür.
Bir çuxurda lillənən,
Bircə çırtma daşından üzü səpən, güllənən
Göl olmaq istəmirəm.
Əvvəlini dağların zirvəsindən götürən,
Dağlarda qah-qah çəkib dərələrdə hönkürən.
Saçı dağda-təpədə köpük-köpük ağarıb
Düzənlərdə qaralan,
Əvvəli müdrik qoca, sonrası cavan olan
Sel olmaq istəyirəm...
Qışdan bahara gələn yol olmaq istəyirəm...

Zirvələrdən zirvəyə uçub ancaq heç yerdə
Qərar tuta bilməyən
Bir qanadım olaydı,
Adım unudulaydı,
Əməllərimin adı mənim adım olaydı.
Əbədi yol gedəydim
Gecə-gündüz;
Günəş - ay

Sağım-solum olaydı,
Ulduz kəhkəşanları mənim yolum olaydı.
Daim uçuş istərəm,
Ad, arzudan doğuldu;
Qolumdakı saatın adı da «uçuş» oldu.
Daim təzə zirvələr,
Bilinməyə heç zaman son zirvəm,
Son məskənim.
Mən il, ay bilməyəydim,
Əbədiyyət ən kiçik ölçüm olaydı mənim...
Mən sahili olmayan dənizlər istəyirəm,
Axşamları olmayan gündüzlər istəyirəm.
Röyalar aləminə məni daim səsləyən
Cilvələr istəyirəm,
Zirvəsi görünməyən zirvələr istəyirəm.
Mən kiçik bir ürəyəm -
Bu dünyanın, həyatın
Bəzəyiyəm, süsüyəm.
Mən kiçik bir ürəyəm,
Sonsuzluq ölçüsüyəm!

*Qusar. İyul, 1965*

## YOL ÇƏKİRİK

*Həzrə - Nəcəfkənd, Zuxul, Tahircal kəndləri boyunca dağlardan yol çəkən Qusar zəhmətkeşlərinə*

Biz əlbirik, biz dilbirik,
Yerdən göyə yol çəkirik.
Kənddən-kəndə
Yol çəkməyə nə var, dağlar.
Qüdrətimdən
Muma dönüb axar dağlar.
Vüqarıma həsəd ilə baxar dağlar,
Biz dağları
Qoysaq əgər özbaşına,
Dağlar bizi
Dolandırar öz başına.
Gücümüzü dağlara da biz qandıraq,
Dolanmayaq,
Dağları da başımıza dolandıraq!
Biz yol çəkib dağ önündə
Əyilmirik, burulmuruq,
Düz yol gedən yorulmamış -
Yorulmuruq, yorulmuruq!
Əsrimizdə hacət varmı dolaylara!..

Yol çəkirik,
Biz dağları yara-yara.
Tarixin də yollarını kəsə getdik,
Uzun yolu qısa getdik.
Bəzən günün badəsini
Bir saatda içənlərik,
Özümüzü keçənlərik!..
Biz zamanı saatla yox,
Siqlətiylə ölçənlərik!
Dağdan düzə yol çəkirik,
Bir gecədən min gündüzə yol çəkirik,
Ölümlərin ölümünə yol çəkirik.
Daim vaxtı qısaldırıq,
Andan-ana deyil artıq,
Andan günə yol çəkirik,
Yol çəkirik...
Yolun özü qəlbimizdə,
Yolun izi yollardadır.
Çünki daim insanlığın
Arzu gözü yollardadır.
Bütün izlər, bütün yollar
Qəlbimizdən çəkdiyimiz
Yoldan doğur.
Yol çəkirik!..
Bu yollara
Uğur,
Uğur!

*İyul, 1965*

## MƏNİM AD GÜNLƏRİM

Bu gün ad günümdür... evdə hamı şən,
Ancaq fikirliyəm, kədərliyəm mən.

Gəncliyim ötəli, belə günlərdə
Anıb yoxuşumu töyşüyürəm mən.
Xəzan yarpaqları oynaşan yerdə
Necə üşüməyim?.. Üşüyürəm mən.

Ancaq... uşaqlıqda istərdim hər gün,
Bizim evimizdə məclis qurulsun.
Günlərin hamısı dönüb büsbütün
Məni sevindirən ad günüm olsun.

Atamın, anamın yeganəsiydim,
Arzusu, həvəsi, könül səsiydim.
Ömrün nə qəribə günləri vardı,
Mənim ad günlərim bayram olardı.
Mən nə biləydim ki, dəyişir insan,
Ad günün, şad günün olmur bir zaman.

Aldığım o gözəl oyuncaqları,
Qaçıb göstərərdim dostlara bir-bir.
Hanı, hanı ömrün o şən çağları?

Gedən, a qardaşlar, bir daha gəlmir...
Həmən adamammı?... yox, başqayam mən,
Özgə cür görünür bu aləm mənə.
Bir zaman könlümə sevinc gətirən
Ad günüm gətirir indi qəm mənə.

Deyirəm, yenə də ömrümdən bir il
Ötdü...
Ötən illər səfə düzülür.
Mənim ad günümdə indi mən deyil,
Mənim balalarım sevinib gülür.

*Avqust, 1965*

## MƏN, YA AVTOMAT

İşıqfor yandı
Qızardı qantək -
Dayanaq gərək!
Maşın dayandı...

Baxdım mən yola,
Sağa, həm sola.
Nə sağda maşın,
Nə solda maşın.
Getmirik, ancaq
Cansız, ürəksiz
Bir avtomatın
Hökmünə sən bax...
Gözləyirəm mən,
Çıxmaq olarmı
Onun əmrindən?
İzin verməsə,
Gözləməliyəm
Lap neçə saat.
Ancaq bilmirəm
Kim ağıllıdır:
Mən, ya avtomat?!

*Sentyabr, 1963*

## BİZƏ ELƏ GƏLİR Kİ...

Biz uşaqkən
Elə bil,
Vaxt özü də uşaqdı,
Hər qayğıdan uzaqdı...
Hələ yetkin deyildi,
Uşaq kimi təmizdi,
Vaxt, bizim kölgəmizdi...

Biz onu saxlayardıq,
Bizimlə oynardı o.
Gülərdi,
Əylənərdi...
Vaxt, atıb tutduğumuz
Rezin topa dönərdi...
Nə səhəri bilərdik,
Nə axşamı onda biz.
Saysız,
Adsız
Ötərdi
Al-əlvan günlərimiz...
Biz baxmazdıq dünyaya
Vaxtın ayıq gözüylə.

Gizlənpaç oynayardıq,
Biz lap vaxtın özüylə.
Böyüdük...
Hər birimiz
Tutduq
Mübarizədə
Bir məsləkin yolunu.
Vaxt,
Elə gizləndi ki,
Tapa bilmədik onu.

Vaxt qaçdı,
Biz qovladıq,
Gəldi uzaqdan səsi.
Dönüb özümüz olduq,
İndi vaxtın kölgəsi.

Bizə elə gəlir ki,
Vaxtın da vaxtı yoxdur.
Bizim kimi çox şeyə...
O da həvəsdən düşüb;
Vaxtın da saçlarına
Bizim kimi dən düşüb.

Yox, yox!
Biz aldanırıq -
Zaman
Elə zamandır,
O, həmişə cavandır.

*1964*

## ÖZÜMDƏN QABAQ

Uçuram təyyarədə...
Yerdəki min enişdən-yoxuşdan xəbərim yox,
Kim deyir ki, quş kimi mənim balu-pərim yox?
Təyyarədə uçmuram,
Uçuram qanadında xəyalımın, arzumun,
Fikirlər qatar-qatar, arzular qoşun-qoşun.

Deməyin ki, sadəcə mən bir xəyalpərəstəm,
Xəyalımın meyindən nə sərxoşam, nə məstəm.
İşsiz-gücsüz olmayıb qələm tutan əllərim,
Sonsuz arzularımla yarışır əməllərim.
Mənim zəhmətdən özgə ayrı bir vərdişim yox,
Yarışıram özümlə... Özgə ilə işim yox...
Uçuram təyyarədə...
Təyyarə yox, sən ona əsrin qanadı söylə!
Bizim zəmanəmizdə
Öz səsindən qabaqda uçub təyyarələr də,
Yarışır öz-özüylə!
Təyyarə yox,
Sən ona əsrin qanadı söylə!
Uçuram...
Dalda qalır neçə oymaq, neçə dağ,
Uçuram təyyarətək mən öz səsimdən qabaq,

Arzularımdan qabaq, demək, özümdən qabaq!

*1964*

## AY

Babam
Gözəlliyinə heyrət edib «ay!» - dedi.
Sənin uzaqlığına,
O füsunkar hüsnünə,
Yerdən baxıb doymadı.
«Vay!» - söylədi,
«Ay!» - dedi...
Heyrətidir insanın
«Vay!» - nidası,
«Ay!» - sözü.
Allah əməllər üçün
Bizə verdi gündüzü...

Gah batdın, gah doğuldun,
Batıb doğmağınla da
Sən bizə təqvim oldun.
Günəşin adıyla gün,
Adınla ay yarandı.
Otuz günü saydılar,
Elə ki, sən doğuldun,
Ay bitdi,

Say yarandı.
Ulduz kəhkəşanında
Sən hamıdan baş oldun.
Planetlər içində
Sən bizim dünyamıza
Ən yaxın yoldaş oldun.
Sənə dedi dərdini
Çox vaxt gözü yaşlılar.
Ömür qara, gün qara,
Səni şahid çəkdilər*
Bu dərdli dünyadakı
Min-min haqsızlıqlara.
İnsan elə bildi ki,
Bu dilsiz göylər onun
Dərdinin ortağıdır.
Üzündəki ləkələr,
Könlünü sənə açmış
Dərdli bəlakeşlərin
Bəlkə sinə dağıdır?

Sən çaylarda çimmisən,
Dənizlərdə üzmüsən.
Sən incilər düzmüsən,
Gecələr ağ sulara.
Sən yol da göstərmisən,
Yol azan yolçulara.

Yerdəki zillətləri
Bəlkə də görməməkçün,

*Ə.Haqverdiyevin «Ayın şahidliyi» əsəri nəzərdə tutulur.

Buludlar arxasında
Sən gizlənib  batmısan.
Sən öz gözəlliyinlə
Sirr dolu əfsanələr,
Nağıllar yaratmısan.

Nimçədəki bir ovuc
Suda üzüb sən hərdən,
Fal açmısan qızlara.
Sən həmdəm də olmusan
Gecələr yalqızlara.

Bethoven də ən gözəl,
Ən dərin nəğməsinə*
Verdi sənin adını,
Sənsə ona kar oldun.
Eşitmədin sən onun
Daş dələn fəryadını.

Zaman-zaman,
Anbaan
Yerdəki zillətləri
Seyr etmisən uzaqdan:

Yerlər eşitməmişdir
Gördüyün dəhşətlərə
Sənin üsyan səsini.
Ancaq yer oğulları

---

**«Ay» sonatası*

*** S.Vurğunun «Ayın əfsanəsi» poeması nəzərdə tutulur.*

Yazdı sənin şəninə
«Ayın əfsanəsi»ni**.

Gün gəlib sığışmırıq
Bu geniş dünyaya biz.
Lap yaxından baxırıq
Bizə uzaqdan baxan
Əfsanəvi aya biz.

İndi insan ay ilə
Dayanıbdır üz-üzə,
Heyrət - həqiqət olmuş.
İndi sarsıda bilməz
Bizi heç bir möcüzə.
Dağıldı əfsanələr,
Dağıldı birər-birər.

Bizim olmuş ay indi,
Ay göydən yerə endi;
Ay enmədi, ucaldıq
Zirvəsinə göylərin.
Çatdırdıq boşluqlara
Qüdrətini biz yerin.
Ay bizimçün yer oldu,
Ay - təzədən doğuldu.

*Yalta. Aprel, 1965*

## İTKİ

Qırılıb hardasa düşüb qolumdan
Saatım mənim.
Dincələ bilmirəm o gündən bir an,
Hey axtarıram
Mən səhər, axşam...

O gündən neçə yol dolaşdım bütün
Keçdiyim yolları, çəmənlikləri.
yaxşı deyirlər ki, adamı hər gün
Ağrıdar itkinin boş qalan yeri.

Tapmadım!
İtirmək yaman dərdimiş,
(Demə əl mərd isə göz namərdimiş).
Gündə itiririk gündə bir günü,
Bir an düşünmürük ancaq biz bunu.
Xəbərsizəm mən
Axtara-axtara itirdiyimdən.
Axtara-axtara vaxt ölçüsünü,
Vaxtı itirirəm mən səhər-axşam.
Qızıl saatıma yanıram düzü,
Bəs qızıl vaxtıma niyə yanmıram?

*Noyabr, 1965*

## İKİ YOLDAŞ -
## İKİ HƏMYAŞ

Uşaqlıqda qış ayları
Min həsrətlə göz dikərdim yollarına
Mən baharın,
Özüm kimi şən baharın.
Deyərdim ki:
Bahar gəlir,
Ancaq yaman nazla gəlir,
Yavaş gəlir.
Sədasını eşidincə
Deyərdim ki,
Mənim ilə oynamağa
Yoldaş gəlir.
Mənim ilə həmyaş idi
O vaxt bahar.
Biz bir yerdə hey oynayar,
Şənlənərdik.
Mən də bahar,
O da bahar,
İki həmyaş,
İki yoldaş
Əylənərdik...

Zaman döndü,
Ömür keçdi...
Dərələrdə, təpələrdə
Məclis açır yenə bahar,
Əl eləyir mənə bahar.
İndi min bir dərd-sərim var,
Daha vacib işlərim var,
Tələsirəm.
Dərədə su şırıldayır,
Dönüb onu dinləmirəm,
Tələsirəm,
Küsür bahar.
Çiçəkləyib çəmən-çayır,
Durub onu iyləmirəm.
Tələsirəm,
Küsür bahar,
Haqqı da var.

İndi qışın son günləri,
Sevinirəm,
Bahar gəlir,
Təzə-təzə nübar gəlir.
Ürəyimdə deyirəm ki,
Yox, bu bahar
Oynamalı, gülməliyəm
Necə olsa, baharla mən.
Bir də baxıb görürəm ki,
Bahar gedib,
Mənsə xəbər tutmamışam
Gəlişindən,
Gedişindən!..

İndi, indi mən baharın özündən çox
Gəlişindən həzz alıram,
Bahar üçün ürəyimdən yol salıram.
Gözləyirəm,
Gözləyirəm, yol yoxuşdur.
Mənim üçün indi həsrət,
Həsrətilə yaşadığım bahardan da
Daha gözəl,
Daha xoşdur.

*Aprel, 1966*

## QORXU

Mənim sol əlimdə yanıq yeri var,
O, mənə töhfədir körpəliyimdən.
Odun odluğundan xəbərsiz vaxtlar,
Əlimi manqalda yandırmışam mən.

Mənə «cız!» - dedilər,
Ancaq qorxmadım,
Əlimi yandırıb tanıdım odu.
Mənim həyat ilə ilk tanışlığım,
Əlimi yandıran oddan başladı.

Oxşadı gözümü hələ uşaqkən
Ocağın al-əlvan alovu, közü.
Dünyaya gələli, bilmirəm nədən,
Nəyə vurulduqsa, yandırdı bizi...

Mən oddan qorxmadım yanana qədər;
Mən qorxu bilmədim qanana qədər.
Elə ki, yandım -
Odla oynamaqdan qorxdum, dayandım.
Başlandı qorxu -
Başlandı ehtiyat -
Başlandı həyat...

*Şəki. İyul, 1966*

## ANAM TƏZƏDƏN BÖYÜYÜR

*Qızım Gülzara*

Anam, öz adını qızıma verdi,
Anam, nəvəsini çox istəyərdi.

Körpə nəvəsini qoyub yerində,
Anam arxayınca dünyadan getdi.
Qızımın qıyqacı nəzərlərində
Anamı görürəm, anamı indi.

Nəvə nənəsinə oxşayır eynən,
Böyüyür, ucalır ilbəil qızım.
Təzədən böyüyür, anam təzədən,
Anamın özüdür elə bil, qızım.

Həyat öz qəribə sirlərindən
Bizə əlvan-əlvan möcüz göstərir.
Qızımı adıyla çağırmıram mən,
«Ay anam» deyirəm, o da hay verir.

O mənim anamdır, o mənim anam,
Ancaq bir fərqi var, bunu danmaram:
Bir vaxt anam mənə can-can deyərdi,

İndi mən anama can-can deyirəm.
Bir vaxt anam məni çox istəyərdi,
İndi mən «anamı» çox istəyirəm.

*Sentyabr, 1966*

## QIRX BİRİNCİ DURACAQ

Qırx bir ili yola saldım
Ömür-gün yarı.
İllər ki var, ömrümüzün
Verst ağacları.
Bu mənzilə çatanacan
Nələr görmüşəm.
Ağacları ötürdükcə
Köks ötürmüşəm.

Bilməyirik mənzil yaxın,
Yoxsa uzaqdır.
Bilməyirik qarşımıza
Nə çıxacaqdır.
Səfərdəyik, əridirik
Ömür yolunu.
Gecə-gündüz yol gedirik
İllərin sonu,
Nəfəs dərib düşünməkçün
Dayanacaqdır.
Axır nəfəs, axırıncı
Dayanacaqdır.
Qırx birinci duracaqda

Durmuşam bu gün.
Dala baxıb gələcəyi
Düşünmək üçün.
Bəlkə yolun yarısında,
Bəlkə sondayam?..
Cavanlıqla qocalığın
Arasındayam...
Bəlkə məni elə burda
Don vuracaqdır.
Qırx birinci duracağım
Son duracaqdır.
Bəlkə hələ gedəcəyəm,
Gəldiyim qədər.
Bəlkə... yenə qolumuzdan
Tutur bəlkələr...
Bəlkələrdən, gümanlardan
Kar aşmaz bizə.
Boş havadan asıllaşmaq
yaraşmaz bizə.
Qırx birinci duracaqdan
Dayanıb gərək
Yüz birinci duracağa
Boylansın ürək!

*Oktyabr, 1966*

## KÖHNƏ - TƏZƏ

Ölüm yüklü təyyarələr
Nərildəyə-nərildəyə
Qalxdı göyə...
Maşın - təzə,
Sürət - təzə,
İçindəki silah - təzə.
İşlədiyi günah - köhnə,
Məqsəd - köhnə,
Əməl - köhnə.

*Oktyabr, 1966*

## NƏSƏ ÇATMIR

Gecə-gündüz, səhər-axşam,
Mən yazıram, oxuyuram,
Yazılarım kitab-kitab.
Nə olsun ki,
Ürəyimə çoxu yatmır,
Şeirimdə də nəsə çatmır,
Sözümdə də nəsə çatmır.

Könlümüzdən
Keçənlərin arxasınca biz qoşuruq,
Çalışırıq, vuruşuruq.
Səsə düşür məramımız,
Əməlsə bu səsə çatmır.
Düzü budur:
Sözümüzdə hər şey çatır,
Özümüzdə nəsə çatmır.

Gəmilərdə üzürük biz,
Maşınlarda gəzirik biz.
Hey gedirik,
Hey gəlirik.
Qışı böyük şəhərlərdə,
Yayı - dağda,

Kurortlarda dincəlirik,
Ancaq yenə biz bilirik:
Nəsə çatmır,
Nəsə çatmır...
Lap ayda da,
Lap gündə də nəsə çatmır,
Çatanların özündə də
Nəsə çatmır.

Tək mənəmmi bunu duyan?
Yox-yox! Hamı gileylidir.
Bu, insanın öz həvəsi,
Öz meylidir.
Yaşayırıq, yaradırıq,
Öyrənməklə boy atırıq.
Dünya - cıdır,
Həyat yarış...
Ucalırıq pillə-pillə,
Boy atırıq qarış-qarış.

Biz həmişə ucalmırıq
Bir qalxanda,
Bir enirik...
Bu enişdən, bu qalxışdan
Yaşamağı öyrənirik.
Həyat özü - bir möcüzə,
Bu möcüzün qarşısında
Gah susuruq,
Gah dinirik,
Öləndə də öyrənirik.
Deyirik ki, gör təbabət nə acizmiş

Xəstəlik çox,
Dərman çatmır, dava çatmır...
Son nəfəsdə qışqırırıq:
Hava çatmır,
Hava çatmır.
Öyrənirik -
Demək daim qalxırıq biz
Son zirvəyə çatmır ancaq əllərimiz.
İstəyimiz aşır-daşır,
Arzulara çata-çata
Arzu bizdən uzaqlaşır.
Şikayətə başlayırıq özgəsindən,
Ancaq heç vaxt
Biz şikayət eləmirik özümüzdən.
Bir arzuya çatan kimi
Arzu düşür gözümüzdən...
Gah alışır,
Gah sönürük,
Çırpınırıq,
Düşünürük:
Nəsə çatmır,
Nəsə çatmır...

İdrakımın işığıyla
Zülmətləri çox yarmışam,
Ömrüm boyu axtarmışam,
Tapmamışam:
Nədir, axı, bu çatmayan!?
Hər bir sirri açan zaman
Açılan sirr,
Min bir sirrin

Varlığından xəbər verir,
Açıldıqca
Açılmayan azalmayır.
Aça-aça düyünləri bağlayırıq,
Biz günbəgün.
Çox vaxt elə bilirik ki,
Dadı-duzu qabaqdadır ömrümüzün.

Öyrənirik -
Günü-gündən
Ucalırıq, qalxırıq biz...
Son zirvəyə
Çata bilmir əllərimiz,
Qoy çatmasın!
Elə deyək: nəsə çatmır!
Axı, insan
Çatmayana çata-çata insan olmuş.
«Hər şey çatır» - deməkdənsə,
Ömrün başa çatması xoş!..

*Noyabr, 1965*

## XOŞBƏXT ÖLÜM

Azadlıq!
Dünyaya tamam car oldu
Nehrunun arzusu, eşqi, xəyalı.
Təqiblər, sürgünlər, zindanlar oldu
O böyük hindlinin tərcümeyi-halı.

Düşdü, Vətənindən düşdü dərbədər,
Vətənin naminə cəngə girəli.
Cəvahir diləklər, ləl düşüncələr
Böyütdü, partlatdı Cəvahirləli.

Nəhrdən almışdı bu adı Nehru,
Nəhrlər kimi də çağladı Nehru.
Onun ürəyində Qanq ilə Cəmnə
Qarışdı, qovuşdu biri-birinə.

Onun ürəyində açıldı bahar,
Dağıldı buludlar, dəyişdi dövran.
Onun ürəyində güldü arzular,
Vətən xilas oldu yad caynağından.

O böyük Handiylə verib əl-ələ
Çarpışdı, vuruşdu illərdən bəri -

Yurdun öz idrakı, fəlsəfəsilə
Qovdular Vətəndən yadelliləri.

Başlandı ölkədə təzə bir dövran,
O köhnə yaralar tez unuduldu.
Təzəcə doğulan azad Hindistan
Handiyə, Nehruya minnətdar oldu.

Yandı BMT-də daha bir bayraq,
İngilis bayrağı başını əydi.
O bayraq zahirə çıxmazdan qabaq
Handinin, Nehrunun ürəyindəydi.

Nehru məmləkətin durdu başında,
Dolaşdı ölkəni,
Gəzdi hər yanı.
Ayağa qaldırdı qoca yaşında
Üç yüz il soyulan lüt Hindistanı.

Söküldü, uçuldu nə qədər məhbəs,
Fərman gözləmədi Londondan Vətən.
Bir dilənçi payı ummadı heç kəs,
«Hakimi-mütləqdən» - İngiltərədən.

***

Gecə, gündüz çalışdı,
Nəqşə çəkdi cürbəcür,
Yorulmadı o, yenə.
Canını qurban dedi
Nehru doğma Vətənə.

Zəhmət məhbus eylədi,
Nehrunu... məhbus Vətən
Azad olandan bəri.
Gözlərində açıldı
Vətənin səhərləri.
Axır bədən dözmədi,
Vəzifəsi başında
Gülə-gülə öldü o.
Öldüyünü bilsə də
Fərəhindən güldü o.

Qəm yaraşmır Nehruya
O, əlindən gələni
Eləmişdi Vətənə.
Təzədən yaşasaydı,
Hindistana verərdi
Öz ömrünü o, yenə.

Axırıncı nəfəsi
Nehru aldı dərindən,
Xoşbəxtdir o adam ki,
Gedəndə razı gedə
Bütün əməllərindən.

O söndü yana-yana,
O yandı sönə-sönə.
Hindistan bayrağını
Çəkdilər başdan-başa
Cənazənin üstünə.

İndira düz dedi ki,
Ağlamayaq, ay ellər,
Onu rahat qoyaq biz.
Sinəsində o bayraq
Bu dünyadan getməyi
Bədbəxtlikmi sayaq biz?
Yox-yox! O bədbəxt deyil,
Belə gözəl ölümə
Qibtə edər qananlar.
Axı, belə ölümdə
Qələbə var, həyat var.

O, vəsiyyət eləmiş:
«Yandırılsın meyitim.
Kül olmaq istəyirəm,
Çünki əvvəl kül idim!».

Müqəddəsdir vəsiyyət,
Tonqalları çatdılar;
Mürgü deyən gecəni
Yuxudan oyatdılar.

Yandırdılar Nehrunu
Daim diri ölünü.
Neçə gümüş qutuya
Götürdülər külünü.

Nehru istəmədi ki,
Onun məzarı olsun
Üstünə də mərmərdən
Bir abidə qoyulsun.

(Çox bütləri dağılan,
Yeksan olan görmüşük.
Çox mərmər heykəlləri
Biz uçulan görmüşük)
Yaratdığı bu dövlət -
Azad Vətən bəs nədir?
Azad Hindistan özü
Onun xatirəsinə
Ən böyük abidədir.

Durna qatarıtək qalxdı göylərə,
Neçə yüz təyyarə hamısı birdən.
Açıb qutuları səpdilər yerə
Nehrunun külünü təyyarələrdən.

Qüzeydən güneyə əsdi sərt külək,
Külək səpələdi külü hər yana.
Nehru batan zaman, doğan günəştək
Yayıldı Vətənin dörd bucağına.

Hər kül zərrəsindən hər yerdə min-min
Çiçəklər açıldı, güllər yetişdi.
Dərib o gülləri xəstə Vətənin
Bağrına qoydular, yara bitişdi.

Öldü, başa vurub hələ cavankən
Boynuna çəkdiyi vəzifələri.
Öldü, toxum kimi səpildi dən-dən,
Eşqiylə, sözüylə gəzdi hər yeri...

*1966*

## «EMADİN» - «VOLQA»

Düşür xatirətək hərdənbir yada
Davadan əvvəlki avtomobillər.
Adamlar bir yana, maşınları da
Gör necə qocaldır bu zalım illər...

Bu gün bir «Emadin» gördüm yolda mən,
Qulaq tutulurdu nəriltisindən.
Baxdım, bu maşının əldən-ayaqdan
Düşən bir qocaya bənzəri vardı.
Maşınlar içində ancaq bir zaman,
Onun da öz adı, öz yeri vardır...

Bəs indi?
İndiysə unudulubdur,
Təzələr çıxalı gülünc olubdur.

Könül, duyursansa hökmü zamanı
Təzəlik önündən sən də əyil keç.
Əgər görməsəydik bu gün «Volqanı»,
Qoca «Emadinə» gülərdikmi heç?

Təzənin dalınca baxıb çəkmə ah,
Bir fayda verməmiş ahu-zarımız,
Bu gün «Emadinə» gülürük...

Sabah
«Volqa»ya güləcək övladlarımız...

Gedir «Emadin»lə «Volqa» yanaşı,
«Volqa», «Emadini» qoyur arxada.
Şöhrət pərdəsinə bürünən naşı
Bu gün güvənməsin dünənki ada...

Onun da öz adı, öz yeri vardı,
Maşınlar içində ancaq bir zaman.
Onun şöhrətini illər apardı,
«Emadin» «Volqa»ya baxır arxadan.

Bu nəyə bənzəyir, nəyə?
Elə bil,
Zavodda hərlənir dəyirman daşı.
Sanki baş qaldırıb otuzuncu il
Altmışıncı illə durub yanaşı.

Elə bil, danışır arzularından
Ölüm yatağında can verən xəstə.
Elə bil, bildirki ot tayasından
Bir çəngə ot düşüb yaz otu üstə.

Zaman bizə deyir: «Vaxt ötür, gərək
Yerini təzəyə tərk edə köhnə.
Bədbəxt o kəsdir ki, bu «Emadin»tək
Çölü də köhnədir, içi də köhnə.

Zaman bizə deyir: «Həyata düz bax!
Fikrin bu sürətdən geri qalmasın!»
Böyük bir dərd deyil yaşca qocalmaq,

Fikir qocalmasın, baş qocalmasın!

*Aprel, 1967*

## ANTENNA

Binaların damında
Antenna dirəkləri...
Dəmir,
Polad çubuqlar,
Bir dam üstə göyərib
Cahanı qucaqlayan
Nəhəng qanad çubuqlar,
Günün sözü çubuqlar.
İdrakın təntənəsi,
Bəzəyi,
Süsü çubuqlar.
Şəhərlərdən-şəhərə
Səs körpüsü çubuqlar.
Qutularda yaşayan
İnsanın,
Gör-götür dünyasından
Hər an,
Hər gün bir təzə
Pay götürmək arzusu,
Hər şeyi bilmək,
Duymaq,
Görmək arzusu!..

Beyin qutularında
Çox darıxmış bu arzu.
Artıq
Bir neştər kimi
Binaların damını yarıb çıxmış
Bu arzu!
Əsrin,
Günün
Başında
Közərir taclar kimi,
Qışda yarpaqlarını
Tökən ağaclar kimi.
Titrəyir,
Rüzgarmıdır
Onu belə titrədən?..
Xeyr!
İnanmıram mən!
Əsrin əsəbləridir
Onu belə titrədən!

Ax! bu dəmir ağaclar, -
Həndəsi üçbucaqlar,
Dünyanın o başını
Çəkib evlərə bağlar...
Cərəyan telləritək
İnsan əsəblərinin
Hey gərilmək arzusu...
Hər şeyi gözlərilə
Görmək,
Qulaqlarıyla

Eşitmək,
Əqliylə
Bilmək arzusu!
Yarışıb gecə-gündüz
Dərin dənizlərlə biz.
Sıldırım dağlarla biz,
Dünyanın o başını
Eşidirik, görürük
Bu dəmir gözlərlə biz,
Polad qulaqlarla biz...
Ancaq...
Yenə də, ancaq
Bəs deyil bunlar bizə.
Könlümüzün min sözü,
Min sualı var bizə!
Bəzən duya bilmirik
Bizimlə illər boyu
Bir binada yaşayan
Eyni dərdi daşıyan
Qonşumuzun
Ürəyindən keçəni.
Burda kimi qınayaq?
Onu,
Məni,
Ya səni?..
Bizə elə gəlir ki,
Ağlımız dərindədir,
Hissimizsə dayazda...
Bilməkdən bezmədikmi?
Gəlin duyaq bir az da...

Bal kimi röyalara
Uyaq, uyaq bir az da.
Qəlbimizin başına
Dəmirdən yox,
Amandır! -
Duyğumuzun telindən
Bir antenna qoyaq biz.
Uzaqları bilirik,
Yaxınları duyaq biz!

*İyul, 1967*

## KÖHNƏ BAYATI

*BMT iclasında Pakistan nümayəndəsi* **Ağa Şahi** *demişdir: «Köhnə müstəmləkəçilər kimi İsrail də öz təcavüzünü iltifat kimi qələmə verərək iddia edir ki, o, tutulmuş ərazilərə guya «mədəniyyət bəhrələri» gətirmişdir».*

**Qəzetlərdən.**

Haqq-ədalət gücdəmidir?
Zorun, gücün var deyə
Sənə qul olmalıyam?
Bu arzudan o arzuya çatmaq üçün
Ayaqların altında
Bəlkə yol olmalıyam?
Bəlkə sənin havan çatmır,
Havamı da sənə verib
Özüm boğulmalıyam?
Sinəm üstə gəzə-gəzə,
Deyirsən ki:
- Mədəniyyət gətirmişəm
Mən sizə!...
Bu ki köhnə bayatıdır,

Keçən əsrdən qalıb.
O taydakı hamilərin
Bu zurnanı çox çalıb.
Sən zurnanı təzələyə bilmədin,
Heç olmazsa bayatını təzələ.
Hamilərin qaça bilər dalından -
Durma,
Tələs,
Tez elə!
Mədəniyyət pərdəsilə
Əməlini danırsan.
Başımıza yağdırdığın bombaları
Bəlkə çiçək dəstələri sanırsan?

Bir millətin
Özgəsinə qul olmağı
Nə zamandan mədəniyyət sayılmış?
Bil ki, ərəb,
O əzilən, məhkum ərəb deyil, artıq,
O da çoxdan ayılmış!

Öz alnımın təri ilə
Becərdiyim torpaqların
Meyvəsini dərirsən.
Öz yolumda
Mənə yol göstərirsən.

Bu dözülməz rəzalətə,
Təhqirəmi
Mədəniyyət deyirsən?

Qolumdakı zəncirəmi
Mədəniyyət deyirsən?

Afərin ustadına!
Vəhşiliyi mədəniyyət adına
Millətlərə sırımağı
Çox gözəl öyrənmisən
Sən öz hamilərindən!
Hitler at oynadırdı
Dünən obalarında!
Bunu unutmamışdır
Yer altında çürüyən
Sənin babaların da.
Sən sabun olmadınmı
Dünənki faşistlərin
Ölüm sobalarında?

Qaçıb zülmün əlindən,
Dən kimi səpildiniz
Dünyanın hər yerinə.
Hərdən baxsa pis olmaz
Millət yola saldığı
Dünənki günlərinə...

Dünəni çıxarmısan
Nə tez yadından bu gün?
Cəlladlıq öyrənirsən
Öz cəlladından bu gün...

Qonşuya diş qıcadıb,

Uzaqdakı düşmənə
Əl açmağın yeri yox;
Sən elə düşünmə ki,
Uzun qış gecəsinin
Bir aydın səhəri yox!

Okeanın o tayından
Dil verən olmasaydı,
Siz belə çaşmazdınız.
Qəmli tarixinizə
Siz öz qələbənizlə
Məğlubiyyət yazdınız.

*Avqust, 1967*

## FAYTON

Bakı küçələrindən
Fayton keçir...
Bu günlə
Keçən əsr görüşdü,
Babam yadıma düşdü...
Nə qəribə səslənir
Asfalt üstdə
Nal səsi...
Köhlən atlarla birgə
O dünyada qeyb olan
Babaların nərəsi...

Asfalt üstə nal səsi,
Batıra bilməsə də
Bu günün gur səsini,
Döydü hafizələrin...
Qırıq pəncərəsini...

Nənəm
Baxıb faytona
Gülümsündü...
Bu gülüş

Onun cavanlığıydı.
Zaman
Hər şeyə qıydı...
Faytonda
Gəlin gələn
Gününü andı nənəm.
Minib yenə faytona
Gəncliyin gülzarında
Gəzdi, dolandı nənəm.
Bəzəkli faytonların,
Büzməli tumanların,
Əlvan kəlağayıların,
O illərin,
Ayların,
Həsrətilə yaşayır
Mənim nənəm bu gün də...
Təzələr əfsanədir,
Heçdir onun gözündə.

Birdən
Hava çatmadı,
Sıxıldı, darıxdı o.
Faytona baxmadı, yox!
Faytonlarda qoyduğu
Gəncliyinə baxdı o.

Bakı küçələrindən
Bəzəkli fayton keçir...
Fikirdən nələr keçir.
Bu təzə küçələrdən,

Köhnə küçələr keçir.
Bu günün sinəsindən
Mənim dünənim keçir.
Dünən kimlər keçirdi,
Görün, bu gün kim keçir.
Biz qalstuq taxırıq,
Biz dəblə geyinirik,
Taksilərə minirik.
Dağılmaz ki, bu dünya
Hərdən
Ata da minsək,
Hərdən arxaya baxıb
Babamızı düşünsək...

*Avqust, 1967*

## İNSAN QƏHQƏHƏSİ

Şimşək parıldadı,
Göy guruldadı.
Göy yerə nur səpdi,
Baxdı dörd yana.
Göylər şaqqıldayıb hey guruldadı,
Qorxudub insanı,
Güldü insana!..

İnsan ildırımı ilahi sandı,
Atəşə tapındı, qeybə inandı...
Duruxdu qorxudan,
Dondu qorxudan.
«Dünyadan o yanda dünya var» dedi.
Allahın adına o, zaman-zaman
Nağıllar uydurdu, mahnılar dedi.

Mahnılar Allahdan qanad istədi,
Bərəkət istədi, imdad istədi.
Elə ki, özünə inandı insan,
Üzdü əllərini dilsiz fəzadan.
«Allah içimizdə, bizdədir» - deyə
Torpağa bağlanıb ucaldı göyə.
İnsan qayaları, dağları uddu,

İnsan odu mindi, suyu qurutdu.
Söylədi: «qadirəm, müqtədirəm mən!»
Özünə, gücünə o səcdə qıldı.
İndi də insanın qəhqəhəsindən
O dilsiz göylərin bağrı yarıldı.
Taleyi insanın üzünə gülmüş,
O sığmaz özünə, o aşar-daşar.
Köhnə düşüncələr yerə gömülmüş,
Onları mədh edən mahnılar yaşar.

*Noyabr, 1967*

## ZÖHRƏ

Uzun-uzun əsrlər,
Zöhrənin gözəlliyi
Valeh etdi hər kəsi.
Babam ona ad verdi:
«Gözəllik ilahəsi».

Ürəyimin gözüylə
Babam baxdı Zöhrəyə.
Əfsanələr yaradıb
Xəyalın qanadında
Babam qalxdı Zöhrəyə.

«Ulduzların sirri nə?
Özü,
Sözü, nə?» - deyə
Qalxdı,
Qalxdı bu günsə
Ağlın qanadlarında
«Venera 4» - Zöhrəyə.

İdrakımız
Maşın olub durdu Zöhrədə.

Cansız hava,
Ölü torpaq
Gördü Zöhrədə.
Yer oğlunun
Yerə sığmaz,
Göyə sığmaz ağılı,
Dəfn elədi
Əfsanəni, nağılı!

*Noyabr, 1967*

## SABAH... SABAH...

Çimir nur dənizində
Çəmən-çayır,
Çöl-bayır.
Həmyaşı körpələrlə
Bahar gülür, oynayır.

Mənim balalarım da
Balalara qoşulmuş.
Baharın oğlan çağı
Bahara yoldaş olmuş.

Şaqraq gülüşlərilə
Bahara dəm tuturlar.
Oynadıqca sabahkı
Qayğını unudurlar.

Oyun gözəldir, ancaq
Müəllimin önündə
Bəs sabah kim duracaq?..
Sabah, sabah...
İndi mən,
Sabahın xatirinə
Onların bu gününü
Alımmı əllərindən?...

Almalıyam!..
Çarə yox!..
Bu günün duyğusuyla
Onlar əylənsələr də
Görürəm sabahı mən.
Neyləyim ki, baxıram
Bu şirin duyğulara
Ağlımın zirvəsindən.

Çağırıram onları:
- Yetər oynadığınız...
Ay uşaqlar... sabah bəs?..
Evə gəlib əyləşir
Dəftər, kitab dalında
Onlar dinməz-söyləməz.

Nədənsə, ancaq bu dəm
Öz sözümə gülürəm...
Bu gün xoşbəxtdi onlar,
Sabah görən nə olar?
Onların öz nəqdini
Axı niyə, mən niyə
Dəyişirəm nisyəyə?..

*1967*

## BƏSDİR!

«Bizim müdrik,
Ağsaçlı,
Qəhrəman elimiz var.
Bizim qoç Koroğlumuz,
Bizim Nəsrəddinimiz,
Bizim Füzulimiz var!..»

Vallah, bunu çox dedik,
Billah, bunu çox dedik.
Keçmişin kölgəsində
Ağzımızı havaya
Açıb, yatmaq istədik...
Ancaq bunu bilmədik:
Köhnə hava içində
Ürək bəzən boğulur.
Kölgədə yatanların
Öz kölgəsi yox olur...

İndi hara gedirik
Boş əllə, quru sözlə?
Yetər öyündüyümüz
Soyumuz, kökümüzlə!..
Ot bitər kökü üstə,

Yalanmış, bu, yalanmış.
Babək nəsli, gör, bu gün
Necə də xırdalanmış!

Yetər, yetər deyirəm,
Qartal familyasıyla
Bu gün xırda quş olmaq.
Dünənin xumarıyla
Hələ də sərxoş olmaq!..

Bizim emblemamız,
Rəmzimiz,
Şərəfimiz
Qoy olsun sələf, - dedik.
Ağıllı övladımız
Səhvimizi deyəndə
Ona naxələf dedik,
Dünənlə çox öyündük.
Soruşuram: bəs hanı
Bu günün Füzulisi,
Bu günün Nəsrəddini,
Bu günün Səttərxanı?
Koroğluya, Sabirə
Abidə qoymaqla da
Öyünməyək biz bu gün.
Onların amalını
yaşatmaq ən möhtəşəm
Heykəldir onlar üçün.

*1967*

## EFİRDƏ SƏSLƏR

1.

Əvvəllər beləydi:
durub döş-döşə
Çıxardı düşmənlər açıq döyüşə...
Qılıncda parlardı qəzəb, ədavət,
Bu açıq döyüşdə sözə nə hacət?
Arxadan vurmazdı düşməni düşmən,
Həm ölən kişiydi, həm də öldürən...

Dəyişdi dünyanın köhnə əhvalı,
Artıq bu adətlər qocaldı, getdi;
Koroğlu demişkən: «Tüfəng çıxalı
Mərdlik də dünyadan baş aldı, getdi...»

Bu gün, bu əsrdə biz nahaq yerə
Vəhşilik demirik bu adətlərə.
Deyirik, məhv olsun ədavət gərək,
Qardaş olmalıdır bütün adamlar.
Böyük duyğularla yaşasın ürək,
Axı, qan tökməkdə nə yaxşılıq var?

Ancaq dərd odur ki, ədavətin də
Özü məhv olmadı, sözü dəyişdi;
Cılız ürəklərdə qəzəb də, kin də,
Astarı saxladı, üzü dəyişdi.
Qan tökmək qanunla yasaq olandan,
Qanları qaraltmaq dəb olub yaman!..
İnqilab elədik, zülmü devirdik,
Uymadıq zamanın min qəzasına.
Biz mərdü-mərdana döyüşə girdik,
Haqsızı çatdırdıq öz cəzasına.
İnqilab - zamanın, əsrin səsidir,
İnqilab - kişilik nümunəsidir.
İnqilab - mərdliyi şərəf, şan etmiş,
Arxadan vurmağı qadağan etmiş.

- Bəs onda?
Bilirəm, nə soracaqsan.
Nədir bu yaltaqlıq, ikiüzlülük?
Əfsus! Öz yoluyla gedirkən zaman,
On safı korlayır bəzən bir çürük...

Diplomla, sənədlə sanırıq ki, biz
Çatmışıq ən ali mədəniyyətə.
Ancaq qıcqıranda əsəblərimiz
Məhəbbət bir anda dönür nifrətə.
Qəzəbli anlarda
İnsan büsbütün
Dəyişir, alçalır, gözlərdən iraq...
O öz mənliyini böyütmək üçün
Dediyi «mən»lərlə kiçilir ancaq.

Arxada «filankəs alçaqdır» deyən
«Alçağın» üzünə irişir indi.
Açıqca döyüşə girə bilməyən
İmzasız məktuba girişir indi.
Yazır ki: «Oğrudur filan, filankəs»,
Yazır ki: «Onların gözü tox deyil».
Hamıdan yayınıb gizli-gizli bəs
Özgəyə gor qazmaq oğurluq deyil?

Özgəyə xəlvəti quyu qazanda
Söylə, öz-özündən utanmadınmı?
Öz dəsti-xəttinlə sən «k» yazanda
Kişilik sözündən utanmadınmı?

Qələm gələcəyə yol göstərəndir,
O ki yaranmayıb böhtanlar üçün.
Qələm könüllərdən çiçək dərəndir,
Ona yaraşarmı gor qazmaq bu gün?

Düşün babaları:
Müdrik sözləri,
Yurdun dövlətidir, elin varıdır.
Yalçın qayalarda qılınc izləri
Düşmənə imzalı məktublarıdır.

2

Düyməni burursan, efirdə səslər...
Qarışıb dolaşır biri-birinə;
Bir ölkə havadan hey axşam-səhər

Böhtanlar yağdırır özgələrinə.

Amerikanın səsi
Bi-bi-si,
Pekin...
Dinməmiş bilirsən nə deyəcəkdir.
Dolub qulaqları bəşəriyyətin -
Axı, bu yalanlar kimə gərəkdir?

Biri digərinə «haqsızdır» deyir,
Özü də bilir ki, yalan danışır.
Zalım öz gözündə tiri seçməyir,
Özgə gözündəki qıldan danışır.

Efirdə qarışıb səslər səslərə,
Yalanlar titrəyir, əsir havada.
Bir mətləb səslənir gündə min kərə,
Sözlər bir-birini kəsir havada.
Susun, ey bayquşlar, yazıqdır insan,
Sizdə bir azacıq insaf varmıdır?
Bu bəşər övladı eşq ucbatından
Dünyaya gəlməkdə günahkarmıdır?

İnsanın qayğısı, dərdi cürbəcür,
Ona aman vermir həyəcanları.
Onsuz da qəlbləri təlatümlüdür,
Qoyun, qulaqları dincəlsin barı.

Ölkələr qışqırır, deyir: «Mənəm, mən!»
Eşidə bilmirik «o da var!» - deyən.

Nigar Koroğludan sordu: - Heç səni
Bir yıxan olubmu, biləydim bunu?
Koroğlu dedi ki: «Gizir Mustafa
Bu gün çaya basdı qoç Koroğlunu».
Daladı qurd kimi bəşəriyyəti,
Mən, mən! - deyə-deyə Hitler də bir vaxt.
Özgə hesabına o, bir millәti
Böyütmək istədi, kiçiltdi ancaq.

İndi silahları əvəz edib söz,
Boyunlar söz ilə düşür qarmağa.
Böhtanlar yağdırır Bonn, gecə-gündüz
Çalışır haqsızı haqlandırmağa.

Namərdlər ağzında haqq çilik-çilik
Doğranıb səpildi efirə yerdən...
Böhtanlar yurdunda mərdlik, kişilik
Baxır adamlara abidələrdən...

*1967*

## MƏN KİMƏM

Adım nədir?
Soruşma!
Ad əvvəldən qoyulur.
Ad qoyanlar
Sonradan
Çox vaxt peşiman olur.
Bəzən cahilin adı
Arif, ya Loğman olur.

Yaşımı da soruşma!
Demə ki, yaş
Ürəklə,
Qanacaqla,
Hünərlə
Həmişə həmsaz olur.
Bəzən əlli yaşlının
Düşüncəsi,
Duyğusu,
Uşaq qanacağından,
Duyğusundan az olur.

Tanımaq istəyirsən
Sən məni.
Mən kiməm, kim?

Mən - düşüncəm,
Mən - eşqim,
Mən - xəyalım, məsləkim!..

*1967*

## ON SƏKKİZ GÜN

*Dünyada ilk dəfə ürək köçürən*
*cərrah K.Bernarda*

Yağdı qəm leysanı, başını tutdu,
Dünyadan nə qədər acılar uddu.
Payızı gəlməmiş töküldü barı,
Dəldi ürəyini qəm damcıları...
Dünyanın dərdini qəlbinə saldı,
Bədən qocalmamış ürək qocaldı.
Dağlar ürəyində qalandı dağ-dağ,
Fikir də cürbəcür,
Dərd də cürbəcür.

Həyatın ən ağır yükünü çox vaxt
Ağıl götürsə də, ürək götürmür...
Tövşüdü,
Dayandı onun ürəyi, -
Ləkəli zədəli, yorğun ürəyi
Çıxardıb,
Yerinə cavan bir qızın
Sağlam ürəyini tikdilər o gün.

Doğru deyirlər ki, insan əməli
Qoy baxsın özünə həmişə gendən.
Tarixdə ilk dəfə, ilk dəfə, bəli,
İnsan çox yaşadı öz ürəyindən!

Yoxdur - deyirdilər - yazıya pozu,
Həqiqət, dağıtdı yozulanları.
Geriyə qaytarıb axan ulduzu,
Təzədən yazdılar pozulanları.

O, necə yaşadı on səkkiz günü,
Anları, günləri necə sayırdı?
Özgə ürəyilə özgə ömrünü,
Yoxsa, öz ömrünü o yaşayırdı?

Biləydik, nə oldu onun son sözü?
Nə idi ondakı son arzu, həvəs?
Özgənin qəlbilə, bilmirəm düzü,
O öz dünyasını necə sevdi bəs?

Köhnə həyatına, boyat ömrünə
Təzə ürəyilə o, necə baxdı?
Ürək öz hissinə, öz dünyasına
İnsanın özündən vəfalı çıxdı.

Özgə hesabına yaşayan, həkim,
Onsuz da tapılar nə qədər desən;
Düşün bir mətləbi hər zaman, həkim,
Ürəyin yerini dəyişəndə sən.

Həkim, sən uydurdun ömürdən payı,
Baisi olmayan müftə qanların.
Qorxuram çoxala gün-gündən sayı
Özgə hesabına yaşayanların...
Əqlin təntənəsi!...
Ancaq bir şeyi
Anlamıram mən,
Necə dərk elədi beyin
Ürəyi,
Hələ öz-özünü dərk etməmişkən?

*Yanvar, 1968*

## TƏƏSSÜF

*(İdman yarışı)*

Çörək yeyə-yeyə, nərd vura-vura,
Baxırıq hər axşam televizora.

Ekranda görürük: dəstəbədəstə
Adamlar qırılır...
Yenə ölüm, qan,
Bombalar tökülür şəhərlər üstə,
Ölən də insandır, baxan da insan.

Analar, körpələr ağlaşır zar-zar,
Dərələr, təpələr bələnir qana.
Elə bil uzanan odlar, alovlar
Qəhqəhə çəkərək gülür insana.

Od-alov sürünür şəhərdə dil-dil,
Uçur uca evlər, balaca damlar.
Elə bil ekranda qırğına deyil,
İdman yarışına baxır adamlar.
Çörək yeyə-yeyə, nərd vura-vura,
Baxırıq hər axşam televizora...

*1968*

## BAŞ

*Amerika alimi R.Uayt meymunun beynini bədəndən ayrı uzun müddət yaşada bilir. Bu məsələ ilə əlaqədar beynin köçürülməsi problemi üzrə dünya filosofları arasında böyük mübahisələr gedir.*

Qəribə aləmdir... zəmanəmizdə
İdrak təbiətlə yarışa girmiş...
Böyrək də,
ürək də,
qulaq da,
göz də
Bədəndən bədənə köçürülərmiş...

Bir maşın sahibi gərək olanda,
Sınan hissələri alır dükandan.
Deyirəm, insanın əzaları da,
Aptekdə satıldı bəlkə bir zaman.

Azmıdır insanın məgər dərd-səri?
Bu da bəşər üçün təzə təhlükə!
Hazır fikirləri, düşüncələri

Başlara doldurub satdılar bəlkə?

Böyrəyi, ürəyi dəyişmək asan.
Bəs başı?
Bu yerdə bir qədər dayan!
Hər şeyi dəyişir, axı, baş, beyin.
Baş özü, başları necə dəyişsin?

İnsanın adına, şərəf-şanına,
Deyirəm, gəlməzmi bundan bir ləkə?
Bir nadan güvənib öz imkanına
Dahinin başına göz dikdi bəlkə?

Ey həkim, gücünə inansan da sən,
Bu yükü boynuna heç götürmə, gəl.
Ayırıb insanı öz aləmindən,
Ana təbiətlə bəhsə girmə, gəl!

Həkim, təbiəti gəl hakim sayaq,
Hifz edək bir səsin yüz ahəngini;
Gücümüz çatsa da
gərək pozmayaq
Bəzən təbiətin öz ahəngini.

Dahinin beyninə qan sızdı birdən,
Cahil də qəzaya düşdü həmən gün.
Cahilin başını öz bədənindən
Ayırdıq dahini yaşatmaq üçün!

Nə deyək?
Kim öldü?

Dahi, ya cahil?
Hansına yas tutsun qohum, qardaşı?
Dirilən kim oldu?
Bu ki, sirr deyil,
Dahinin bədəni, cahilin başı.
Dahi, yaşayacaq bir nadan kimi...
Kimi aldadırıq burda, biz kimi?
Cahilin başıyla, düşüncəsilə
yaşayan o dahi, yenə dahimi?

Hanı o əvvəlki əqidə, məslək?
Əgər fikri yoxsa, özü sağmıdır?
yaşamaq xətrinə fikri dəyişmək -
Məsləki dəyişmək yaşamaqmıdır?..

*1968*

## ZƏRRƏ - DÜNYA

Dedilər, qonşuda öldü bir nəfər,
Dünya qayğısıyla doluydu, getdi.
Ağlaşma qurdular,
şivən çəkdilər.
Toydan yaranmışdı,
Yas qoydu, getdi...

Dünyaya gələndə...
Onun bir tikə
Nə dərdi, qayğısı, nə qəmi vardı.
Dünyadan gedəndə... özüylə birgə
Elə dünya boyda dünya apardı...

Yox-yox! Anasından doğulmur insan,
Doğulur fikrindən, arzularından.
İnsanı böyüdür dərdlər, qayğılar
Axı, hər insanın öz dünyası var!..

Ürəklər dəryadır... Onun hər günü
Doludur...
Nə qədər məddi, cəzri var.
Bir qəlbin bir günlük təlatümünü
Yazmağa nə qələm, nə kağız çatar.

Batıb doğmasıyla günəşin hər gün
Min günəş doğulur, min günəş batır.
Yerə ayağını asta bas, düşün -
Torpağın altında dünyalar yatır.
Torpağın altında yatır nə qədər
Arzular,
Fikirlər,
Dərdlər,
Əzablar.
Yatır ilk ümidlər, son düşüncələr,
Yatır yazılmamış min-min kitablar.

Gəldiyi kimi də getmir gedənlər,
Vəhdətdir həm məndə, həm səndə dünya,
Deməyin, qonşuda öldü bir nəfər,
Gələndə zərrəydi, gedəndə dünya.

*Avqust, 1968*

## SİQNALLAR

*Dostum R.Nurəddin üçün*

Uzaq ulduzların sakinlərinə
Yoxsa bizim kimi dünya dar gəlir?
O biri dünyadan dalbadal yenə
Bizim dünyamıza siqnallar gəlir.

Ulduzlar insana nə deyir görən?
Bu səslər salammı,
Yoxsa hədəmi?
Bizə uzaqlardan siqnallar verən,
Əcaib məxluqmu?
İnsanmı?
Nəmi?

Hələ dünyasına qapılıb insan.
Dünya vəznindəndir diləyimiz də.
Alimlər düşünür: varlığımızdan
Xəbər göndərəkmi onlara biz də?
Bəlkə də... Gülürlər bizə uzaqdan,
Yəni biz onlardan geriyik belə?
Onlara baxanda,
Bəlkə də insan

Uşaqlıq dövrünü yaşayır hələ?..

Təhlükə gözləyir bəlkə dünyanı?
Bəlkə...
Hədələyir bu səslər bizi?
Bəlkə...
O dünyanın qadir insanı
Öyrənmək istəyir qüdrətimizi?..
Əgər bu təhlükə olsa, bu yerdə
İndiki təzadlar kimə gərəkdir?
Millətlər,
Fikirlər,
Əqidələr də,
Onda bir məsləkdə birləşəcəkdir.

Kökü kəsiləcək nifrətin, kinin,
Loğmanlar olacaq onda hökmran.
Hamı bir ağızdan deyəcək yəqin:
Yaşasın dünyamız, yaşasın insan!

*Avqust, 1968*

## NEO

*Asiya və Afrika yazıçılarının*
*Daşkənd müşavirəsindən təəssürat*

Bir salonda iki qitə,
Hər qitədə neçə millət...
Hər natiqin çiyinləri arxasında
bir məmləkət
Dayanıbdır...
Oyanıbdır
yuxusundan,
Afrikanın, Asiyanın
qaraları,
yaraları
Köz bağlayır.
Varaqlayır ötənləri
hər danışan öz dilində...
Mənzilində məhbus olan
bu dünənin məhkumları
danışırlar
indi uca bir kürsüdən,
yox hürküdən,
yox qorxudan
bu dünənki məzlumları,

Dili bağlı, qolu bağlı məhkumları.
Dillər əlvan,
Mətləb eyni...
Dərdlər, qəmlər bir olanda
söz bir olar.
Dünyanın bu başı ilə
O başı həmfikir olar.
Danışanlar eyni sözü
təkrar edir dönə-dönə,
Dillərini bilməsəm də
Üççə kəlmə bəsdi mənə:
«İmperiya»
«Koloniya»
«Neo, neo!»
Nədir neo?
Köhnə tələ,
Təzə hiylə!
Bu neolar - sözü gizli, qəsdi dərin.
Oyun açdı başlarına
Sözü hərfi mənasında
başa düşən millətlərin.
Bu neolar -
bu tələlər,
bu hiylələr
min-min olur.
Təzə-təzə hiylələrdən
baş açmaq da çətin olur.
Haqla-nahaq qarışıbdır bir-birinə -
Gəl baş çıxart
neoların üstü bəzək, altı təzək
Min cür fitnə-fəsadından.

Haqq boğulur haqq adından.
Öz haqqını təzə-təzə başa düşən
millət, uşaq misallıdır.
Siyasətdən xəbəri yox,
min arzulu, xəyallıdır,
Hələ dünya səhnəsində
o tapmayıb öz yerini.
Qamaşdırır parıltılar
hələ onun gözlərini.
Körpə uşaq hardan bilə
Ona yaxın görünənin
Çox-çox uzaq mənasını?
Hardan bilə
Qaranın ağ mənasını?
Köhnə, qədim hiylələri neçə kərə
Təzə-təzə boyalarla
yedirdirlər sözü açıq,
gözü bağlı millətlərə.

O danışan natiqə bax!
«Neolardan» fəryad çəkir
Bütün təzə hiylələri, kələkləri
sayır bir-bir,
Deyir: bəsdir, bu aldanış.
Artıq bütün bu «neolar» bizə tanış!
Bu neolar - üstümüzdə qılınc kimi
əsir bizim.
Saçımızı sığallaya-sığallaya
Başımızı kəsir bizim.
Sizin kimi bir insanıq.
Biz nə daşıq, nə dəmirik,

yetər, artıq biz heç kəsə
yamaq olmaq istəmirik!

Yaman dərddir,
Özgəsinə yamaq olmaq!
yaman dərddir,
Azadlığın həsrətinə
damaq olmaq.
yaman dərddir,
Gözün ola,
amma görə bilməyəsən.
yaman dərddir,
Əlin ola,
Evindəki zir-zibili
sən süpürə bilməyəsən.
yaman dərddir,
Dilin ola,
nə danışıb, nə dinəsən.
yaman dərddir,
Ağlın ola,
özgəsinin ağlı ilə
düşünəsən...
yox, zamanın öz sözü var.
Hər gecənin gündüzü var.
Əyrilər də düz görünür
Siyasətin aynasında.
Bu nə sirdir?
Aynanın ki, bir üzü var.

İki yerə parçalanmış Vyetnamın
İki bədbəxt vətəndaşı

Bu salonda
Oturubdur yan-yanaşı.
O da insan,
Bu da insan..
Eyni dərdi
o da çəkir, bu da çəkir.
Hər ikisi suya qaçır,
Amma gözə görünməyən sirr onları
oda çəkir, oda çəkir,
Türk yunana deyir: Kipr
Həm mənimdir, həm sənindir.
Sənin mənə,
Mənim sənə
Atdığımız güllələrsə
düşmənindir.
«Parçalayıb sən hökm sür!» siyasəti
yurdumuzda od qaladı.
Biz bir yana,
Eyni dili,
Eyni dini
neçə yerə parçaladı.
Sən də quzu,
Mən də quzu,
Gəl qoruyaq canavardan özümüzü!
Gəl qorxmayaq
Nə sən məndən,
Nə mən səndən.
Gəl biz qorxaq
canavarın mədəsindən.
O mədədə həzm olunur
Neçə-neçə balacalar.

Kiçik-kiçik təpələrdən
dağ ucalar.
Biz vuruşub
Çiynimizin üzərində
Ucaldırıq imperiyanı...
Böyüklərin qidasıdır
kiçiklərin qızıl qanı.
Gəl anlayaq bu haqqı biz:
Bir qılıncla,
Bir qələmlə
yazılıbdır tariximiz.
Bizim böyük sənətkarlar
Bir qaynaqdan ilham alıb.
Sizin ağac,
Bizim bağa kölgə salıb.
Öküzümüz olmayanda
Sənin baban,
Bizə verib öküzünü.
Babam ölüm yatağında
Pir babanı çağırtdırıb
Ona deyib son sözünü.
Axı bizim
Dədəmiz də,
Babamız da
Qardaş olub.
Məgər indi,
bu qardaşlıq,
unudulub?..
Daha bəsdir,
Gəl, qardaşım, verək bu gün əl-ələ biz,
Salaq qurdun yuvasına vəlvələ biz!

Neçə dildə danışan bu adamların,
ürəyi bir,
sözü birdir.
Siyasətin aynasında
Əyrilər düz görünsə də,
Aynanın ki, üzü birdir!
Dillər əlvan,
Mətləb eyni,
Dərdlər, qəmlər bir olanda
Söz bir olar.
Dünyanın bu başı ilə
O başı həmfikir olar.

*Daşkənd – Bakı. 1968*

## HƏRƏKƏTDƏ... HƏRƏKƏTDƏ...

Təyyarələr qalxır göyə,
O ölkədən bu ölkəyə,
Bu ölkədən o ölkəyə.
Gəmilər də xana-xana,
O limandan bu limana,
Bu limandan o limana.
Göy qatarlar
Nəfəsini dərə-dərə,
O şəhərdən bu şəhərə,
Bu şəhərdən o şəhərə.
Adamlarsa,
Qollarını ata-ata,
Bellərini əyə-əyə
O küçədən bu küçəyə,
Bu küçədən o küçəyə
Hərəkətdə,
Hərəkətdə...

Bulud ötür para-para,
Su da axır daş-torpağı
Yara-yara.
Qanımız da

Bu damardan o damara,
O damardan bu damara
Hərəkətdə,
Hərəkətdə...

Ərzimiz də hərəkətdə;
Biz də,
Biz də hərəkətdə...
Fırlandıqca bu ərzimiz
O dünyadan bu dünyaya
Bu dünyadan o dünyaya
Gedirik biz,
Gəlirik biz.

*1968*

## HEMİNQUEY

Bir ayağı burda,
Bir ayağı gorda
Qocanın,
Həyat naminə
Dənizlə döyüşünü
Yazdı Hem.
Əgər öz sonunu görsəydi,
Bəlkə də
Qocanın həyat eşqini
Qələmə almazdı Hem.
Yazanda dedi:
Həyat, eşq olsun sənə!
Əzabı çox olsa da,
Ölümdən
Həyat yaxşıdır yenə!..
Özü
Həyatdasa
Bunu unutdu.
Ölümü
Həyatdan
Üstün tutdu!

*1968*

***

O öldü. Birdən-birə
Söndü həyat işığı
Gözündəki gilədə.
İşləyirdi hələ də,
Qolundakı saatsa.

*1960*

## ELƏ BÖYÜDÜK Kİ...

İnsanam,
Yox ikən var olmuşam mən.
Uydum min nağıla,
Şeytana, cinə.
Cavab tapmaq üçün doğulmuşam mən
Ana təbiətin «neçin»lərinə...

Deyirəm, bəlkə də «neçin» olubdur,
Dünyaya insanın ən ilkin sözü.
Suallar yüz deyil, min-min olubdur,
Sualdan doğulub dünyanın özü.

Yer nədir?
Göy nədir?
Bu torpaq nədir?
Ölüm nə?
Həyat nə?
Yaşamaq nədir?
İlk nədir?
Son nədir?
Gün nə?
An nədir?
Gecə nə?

Gündüz nə?
Bu dövran nədir?

Ağlın suallarla ilk savaşından
Uzaq cəddimizdən ayrılmışıq biz;
Mübhəm neçinlərin çaxmaq daşından
Alışıb fikrimiz, yanıb qəlbimiz.

Sualdan güc aldı əqlin qanadı,
Neçindir insanın ən böyük adı...
Cavab tapa-tapa bu neçinlərə,
Böyüdük, ucaldıq, sığmadıq yerə.
Elə böyüdük ki, cahanın özü
Bizə arzumuzdan kiçik göründü;
Elə böyüdük ki, insanın özü
Təbiət önündə suala döndü...
Qıfıl da məndədir,
Açar da məndə.
Öyrənən də mənəm,
Öyrənilən də.

*Mart, 1969*

## ELM - ƏXLAQ

*«Təbiət üzərindəki qələbələrimizlə çox da öyünməyək. Hər bir belə qələbə üçün təbiət bizdən intiqam alır».*

**F.Engels**

Cürbəcür adlarla adlandırmışıq
Ötən hər əyyamı, ötən hər əsri.
Köhnə hüdudları çoxdan qırmışıq,
Əsrimiz elm əsri, kəşflər əsri!

Hüdudlar içində özünü dandı,
Elm - yüz illərlə yatdı beşikdə.
Elm - ayaq açıb dolanır indi,
Havada, torpaqda, evdə, eşikdə!..

Dağların çəməni, bağların barı
Çatışmır,
Kimyaya meydan vermişik.
İpək corabları, yun paltarları
Sintetik şeylərə dəyişdirmişik.

Bəlkə torpağın da, bəlkə yerin də
Qalmayıb o köhnə gücü-qüvvəti?

Elə bil, elə bil meyvələrin də
Dəyişib əvvəlki dadı, ləzzəti.

Təbii nemətlər çatışmır, nədir?
Təbiət zəngindir, o, yoxsul deyil;
Təbiət insana səxavətlidir,
Ancaq qul deyil.

O ki öz varını insana vermiş,
Ona qəsd eləmək cinayət olar.
Bu gün təbiətlə yarışa girmiş
Kimyəvi zavodlar, laboratoriyalar.

Elm hökm eləyir indi hər yerə,
Zülmətin bağrına işıq nəqş edir.
Sonsuz qadınlara, ya ərsizlərə
Naməlum kişidən övlad bəxş edir.

Elm, özünəmi yoxsa... güvəndi?
Axı, bu qüdrəti biz verdik ona.
Əqlin yaratdığı elmlər indi
Düşübdür xaliqlik iddiasına...

Dava-dərman ilə doğulan kəsin,
Anası məlumdur, atasıysa yad.
Atanı - övladın əslini yəqin,
Nə ana biləcək, nə də ki, övlad.

Fərari olmurmu bəs əsl ata?
Bəs saxta atanın nədir günahı?

Uşaq anasına doğma olsa da,
Qondarma ataya ögeydir, axı.

Daha bir cinayət, daha bir xata!
Bu da bəşər üçün böyük bir ləkə -
Doğma övladından xəbərsiz ata
Bir vaxt öz qızına ər oldu bəlkə?

Səni danlamırmı içində bir səs -
Demirmi, ay həkim, cəhdin nahaqdır?
Övlad öz kökünü tanımırsa bəs,
De, hansı kök üstə boy atacaqdır?

Kökünü bilməyən özünü bilməz,
Bizə nə gətirir bu niyyət, həkim?
Onda bir-birinə qarışmazmı bəs
Fərdiyyət,
Şəxsiyyət,
Milliyyət,
Həkim?

Bu nədir? Gerimi qalmışam yoxsa?
Mən ki, güvənmişəm hər zaman elmə.
Əxlaqa, qaydaya toxunandasa,
Mən üsyan edirəm, mən üsyan, elmə...

Təbiət həmişə təzədir, təzə,
Biz üz çevirməyək bu təzəlikdən.
Elm əxlaq ilə durub üz-üzə
İndi biz hansına haqq verək, görən?

Axı, bu tədbirlər bizi çaşdırır,
Gəlin uca tutaq əqidəmizi.
Həkim, təbiətdən uzaqlaşdırır
Qondarma davalar, dərmanlar bizi.

Bir şey ki, saxtadır - ondan nə fayda -
Saxtanın nə yönü, nə etibarı;
Əynimiz, başımız kimyalaşsa da,
Mayamız, kökümüz saf qalsın barı.

Anadır, deməli güclüdür torpaq,
Ondadır əlacı, axı, hər şeyin.
Gəlin, təbiətin özündən alaq
Dava-dərmanını hər şikəstliyin.

*May, 1969*

***

Sığınmadım o bucağa, bu bucağa -
Qalxdım dağa, endim düzə.
Gəzə-gəzə yaşamadım bu dünyanı səyyah kimi,
«Tufanlara tapşırmışam ürəyimi»...
Bu tufanın, təlatümün sahili yox,
Arzuların mənzili yox...
Tufan harda, mən də orda...
İşim yoxdur gözdən uzaq
Dar dolambac cığırlarda.
Lermontovun yelkənitək
Sakitliyi tufanlarda aramışam.
Ürəyimin tellərini
Qasırğada daramışam.
Qışda çiçək, yayda qaram,
Zamanın baş küçəsiylə addımlaram!

*May, 1969*

## QİTƏLƏR

Yolunu axtaran sel kimiyəm mən,
Hələ bişməmişəm, hələ çiyəm mən.
Şair mən deyiləm, xalqımdır, onun
Kamala dolmamış katibiyəm mən.

*1968*

***

Mən olduğum kimiyəm
Sən belə də gör məni,
Vur məni,
Öldür məni!
Hər sözünə, əmrinə,
Qul olub
Əyilmərəm!
Sümüyümə düşməyən,
Sən çaldığın havaya
Mən oynaya bilmərəm!

*Noyabr, 1967*

***

Bir böyük yasın
Bünövrəsidir
Hər toy, hər büsat...
Çox sevirik biz,
Az tanıdıqca

Səni, ey həyat!..

*Mart 1963*

***

Fikirlərim, duyğularım
Ürəyimdə
Qaynar mənim,
Daşar mənim.
Bu duyğular yanıb sönər,
Sözlərimdə yaşar mənim.

Ürəyimdən qopub gələn
Nəğmələrin sayı qədər
Əzabım var.
Vüqarımdır, şərəfimdir
Bu əzablar.
Fərəhimdir bu dərd mənim,
Bu qəm mənim
Yaşadığım bir dünyadır
Hər qoşduğum nəğməm mənim...

*1968*

***

Gedirəm meşənin qalın yerinə
Əlimə çöp gəlir odun yerinə.
Bilirəm, çör-çöpdən axı köz olmur.
Mənim addımlarım bəzən düz olmur,
Məni soruşmayın addım səsindən,
Soruşun könlümün qəhqəhəsindən.

*Dekabr, 1967*

***

Gecə də, gündüz də əlimdə qələm.
Şairçün boş ürək tonlardan ağır.
Mənim şeirlərim,
Elə bilirəm,
Özümdən özümə məktublarımdır.

*1968*

***

Ana təbiətə yaxınlaşdıqca,
Hisslə, həyəcanla yaşayırıq biz.
Göylərin dibinə yollar aşdıqca
Artır idrakımız, artır əqlimiz.

*1968*

***

Səhra seli udub qışqırır: - Selin
Mənəm pasibanı hər zaman, bilin;
Qoy bu yaxşılığı eşitsin aləm:
Suları günəşdən qoruyan mənəm.

*1967*

***

Günəşdən işığı, nəğmədən odu,
Poladdan bərkliyi qoparmaq olmaz.
Baldan şirinliyi, qardan ağlığı,
Qayadan sərtliyi qoparmaq olmaz.
Yerdən cazibəni, ürəkdən eşqi,
Mərddən də mərdliyi qoparmaq olmaz.

*1968*



# HƏSRƏT NƏĞMƏLƏRİ



*Yağış dayandımı?*
*Qalın buluddan*
*Sıyrılıb yenidən təzə gün doğur.*
*Hər uzun ayrılıq, hər qısa hicran*
*Səni mənim üçün təzədən doğur.*

## DAHA YAXŞI GÖRÜRƏM

İntizar, məhəbbətin
Ən vəfalı yarıdır;
Yolunu gözlədiyim
Anlar, mənim ömrümün
Ən şirin anlarıdır.

Mən sənə bənzədirəm
Hər uzaqdan gələni;
Gözümlə gördüyümdən,
Daha yaxşı görürəm
Bu anlarda mən səni.

Həsrət əlimdən tutub
Məni yer kürəsinin
Başına dolandırır;
Mənimçin dünya özü
Xəlvət görüşə gələn
Sevgilimi andırır.

*Noyabr, 1960*

## QINAMAYIN SİZ MƏNİ

Qınamayın siz məni,
Məhəbbətsiz bir ömrü
Ömür saya bilmərəm!
Məhəbbətsiz, duyğusuz
Mən yaşaya bilmərəm!

Məhəbbətsiz bir həyat
Hhəyat yox, zindan olar.
Məhəbbətsiz ürəkdə
Yel əsər, xəzan olar.
Eşqim könüldə inlər...
Toxunmayın, amandır,
Qəlbimdəki bu simə!
Mən sevəndə, elə bil,
Bahar gəlir qəlbimə.
Həyat yalnız eşq ilə
Qanadlanır, ucalır.
Əgər boğsam eşqimi,
Daha mənə nə qalır?

*Dekabr, 1960*

## HEYF

*Elza İbrahimova bəstələmişdir*

Heyf o gözlərə, o baxışlara,
Özgə birisinə baxacaq həmən.
Heyf o ilahi, qövsi qaşlara,
Sınacaq kədərli düşüncələrdən.

Heyf o alovlu ötən çağlara,
Uçan yad budağa tez qonacaqdır.
Heyf gülə bənzər o dodaqlara,
Özgə bir dodağa toxunacaqdır.

Gülüm, heyf sənə, yazıqlar mənə,
Qoruya bilmədim məhəbbətimi.
Özüm bilə-bilə verirəm yenə
Özgə birisinə səadətimi.

*Avqust, 1960*

## QISQANIRAM MƏN

O çalır, nəğmənin hər xalında sən,
Qəlbini, ruhunu tapmısan deyən.
Unudub zamanı, vaxtı, məkanı,
Xəyal dünyasında məclis qurmusan.
Səslərin oduna əridib canı,
Özünü nəğməyə qarışdırmısan.
Nəğmə aldı səni mənim əlimdən,
Səni nəğməyə də qısqanıram mən.

Dayanıb güzgünün qabağında sən,
Pərişan saçına daraq çəkirsən.
Arzular, diləklər təmənnasıdır
Bu qoca dünyada hər kəsin, gülüm.
«Pərişanlıq zülfün öz qaydasıdır»,
Halı pərişanlar neyləsin, gülüm?
Güzgü də zövq alır gözəlliyindən,
Səni güzgüyə də qısqanıram mən.

Ömrün yollarını inamla keçdim,
Axırda odlandı bağrımın başı.
Eşqin çeşməsindən bir damcı içdim,
Axdı sellər qədər gözümün yaşı.
Bu dərdə tablamaq müşkül olsa da,
Eşqsiz ürəyi daş sanıram mən.

Düşməsin araya, gülüm, qan-qada,
Səni özünə də qısqanıram mən.
Daim öz-özünün yanındasan sən,
Neyləsin həftədə bir yol görüşən?

*Dekabr, 1961*

## GÖZÜN DİLİ

Qara gözlər,
Ala gözlər,
Qonur gözlər...
Nə qədər sözlər
Deyilmiş mədhinə gözəl gözlərin,
Şairlər, indi də mənə söz verin.
Qorxuram gözlərin mən gözəlindən,
Aman göz əlindən, dad göz əlindən!

Gözdən hansı qəlbə dağlar çəkilməz?
Gözün dediyini dil deyə bilməz.
Həm incə, həm dərin dili var gözün,
Sözünü ürəklər anlayar gözün.

Mələr, çıxmasa da ürəyin səsi,
Elə ki, havada gözlər öpüşür.
Eşqin də ilk odu, ilk şərarəsi
Əvvəlcə ürəyə gözlərdən düşür.

Gözləri mədh edən şeir də gerçək
Gözün öz dilində yazılsın gərək,
Bu dil müəmmadır, bu dil çətindir,
Bu dillə dinəni, bu dillə dindir.

*1961*

## SORUŞMA

Soruşma, mən səni neçin sevmişəm,
Neçin yaranıbdır, neçin bu aləm?
Bir soruş, buludlar neçin burulur,
Neçin o gah yağış, gah bulud olur?
Bir soruş, bir soruş bəs nədən belə, -
Dalğalar özünü çırpır sahilə?
Bir soruş, əsəndə dəli küləklər,
Niyə pıçıldaşır, güllər, çiçəklər?

Neçin sevdiyimi bilmədən mən də,
Sevirəm, sevirəm... insan sevəndə.
Yalnız öz könlünün səsini dinlər,
Neçin sevdiyini bilməz sevənlər.
Neçin sevdiyini bilsə bir ürək,
                    Sevməyir demək,
                    Sevməyir demək!

*Yanvar, 1962*

***

- Elə baxma, qadan alım,
Hər baxanda könlüm olur dilim-dilim.
- Necə baxım?
- Elə bax ki, mən də sənə baxa bilim.
- Bu mənim öz baxışımdır,
Hardan alım təzə baxış?
- Düzü məndə can qalmamış.
- Onda baxma!
- Necə? Məgər bu mümkünmü?
Gülüm, məndən nə tez bezdin?
Əgər sənə mən baxmasam,
Sən də belə görünməzdin.

*Avqust, 1962*

## HANSIMIZ YOXUQ?

Təkəm, təkəm otaqda,
Üşütmələr dolaşır elə bil ki, canımda.
Yanıldım!
Heç olmayıb sənsiz bircə anım da.
Haçan tək olmuşam mən?
Mənim düşüncələrim məgər sən deyilmisən?
Məgər gizlənməyibmi taxıl, sünbül içində -
Ətir də gül içində?
Bizə birdir yaxın da, bizə birdir uzaq da,
İndi hansımız yoxuq, bilmirəm bu otaqda?!

*Yanvar, 1963*

## EŞQİM

Ömrünə nur çilə, alış, yan, eşqim,
Ruhum da, canım da artıq sənindi.
Mənim öz könlümdə doğulan eşqim,
Hakim kəsilibdir könlümə indi.

*Avqust, 1963*

## SƏNİ GÖRÜRƏM, SƏNİ

Mən həmişə, həmişə
İnanmışam eşqimə -
Aya inanan kimi,
Günə inanan kimi.
Sənə yaxın olduğum
Bir an tanımıram mən,
Bizim hicranımızın
Başlandığı an kimi.
Səninlə gecə-gündüz
Əyləşirəm üzbəüz,
Səni görə bilmirəm.
Üzüm üzünə baxır,
Gözüm gözünə baxır,
Səni görə bilmirəm.
İllər həsrəti kimi
Baxıram dönə-dönə, -
Çatılmış qaşlarına,
İncə təbəssümünə,
Səni görə bilmirəm.

Elə ki ayrılıram,
Mən qarşıya baxıram

Səni görürəm, səni.
Mən arxaya baxıram,
Səni görürəm, səni.
Günə, Aya baxıram,
Səni görürəm, səni...
Xəyalən
Gözlərimi
Gözündən götürmürəm,
Mən özümə baxıram,
Özümü də görmürəm,
Səni görürəm, səni!

Ey ayrılıq, bilmirəm
Nəsən, nəsən deyim sən?
Sən cismən ayrılığım,
Sən mənim sevgilimlə
Mənəvi birliyimsən.

Uçan qanadlarısan
Arzumun, niyyətimin.
Sən duyan ürəyisən,
Sən görən gözlərisən
Mənim məhəbbətimin!..
Elə kitabsan ki, sən
Oxumaq istəyənlər
Bilir son mətləbini
Səni başlayan kimi.
Mən səndən öyrənmişəm
Bütün bildiklərimi...

Ayrılıq, hardan aldın

Bu qüdrəti, hökmü sən?
İnsan duyğularını
Təmizləyən, ucaldan,
Məgər sən deyilmisən?

Füzulini inlədən,
Qeysi də Məcnun edən
Məgər sən deyilmisən?
Keçmişə əl atmağın
Nə lüzumu, bilmirəm.
Mən səndən ayrılanda
Özümdən ayrılıram,
Ancaq tapıram səni...
Heç özümü bilmirəm.
Mən uşaq deyiləm ki,
Hər ötərgi duyğuya
Könül verəm,
Tez uyam.
Mən ki öz eşqimi də
Ayrılığa borcluyam!

*Moskva. Oktyabr, 1963*

## YOX DÜŞMÜRƏM, QALXIRAM

Ən uca mərtəbədə yaşayırsan...
Çox gözəl.
Məni bu pillələrlə
İmtahana çəkmə, gəl!
Yox, yox!
Mənə demə ki,
Muğayat ol özündən,
Çıxma bu pillələri
Xəstə ürəyinlə sən!
Yox!
Onlar yormur məni!
Bir addıma qalxıram
Qalxanda beş pilləni.
Düşəndə bir pilləni
Beş addıma düşürəm.
Düşürəm... Yox düşmürəm,
Sanki yoxuş qalxıram.
Məni yola salırsan:
Gah özümə,
Gah da sənə baxıram.
Düşürəm...
Düşə bilmirəm

Köynəyim tondan ağır,
Sıxır məni əynimdə.
Düşürəm...
Düşə bilmirəm
Sənin baxışlarının
Ağırlığı çiynimdə.
Yox!
Mən pillə düşmürəm,
Ruhum düşür göylərin
Min-min mərtəbəsindən.
Hara gedim, bilmirəm,
Ayağıma dolaşan
Ürəyimlə indi mən?...

Düşürəm, xəyal kimi...
Aparıram beynimi,
Ürəyim sizdə qalır.
Kədərim yanımdadır,
Fərəhim sizdə qalır...

Mənim bu tərs taleyim
Gör necə də zalımdır.
Enişim - hicranımsa,
Yoxuşum - vüsalımdır.

Sənin pillələrini
Qalxmaq necə asandır.
Düşmək, enmək çox çətin!
Bu da mənasız deyil,
Hər işi tərsinədir
Əzəldən məhəbbətin!..

*Oktyabr, 1963*

## BİR SALAMA DƏYMƏDİ

Bu gün mən səni gördüm,
Salam vermək istədim,
Üzünü yana tutdun.
Söylə, illərdən bəri
Qəlbimizin bir duyub,
Bir vurduğu illəri,
Axı, nə tez unutdun?
Beş ildə gözümüzdən axan o qanlı sellər,
Bir salama dəymədi?
Həyəcanla, fərəhlə, qəmlə dolu o illər
Bir salama dəymədi?
Heç üzümə baxmadan yanımdan necə keçdin?
Sən eşqin salamını qorxuyamı dəyişdin?
Yoxsa sən öz əhdinə, ilqarına ağ oldun?
O qədər yaxın ikən, bu qədər uzaq oldun.
Şirin gülüşlərimiz, acı fəğanlarımız
Bir salama dəymədi?
Qayğılı anlarımız, qayğısız anlarımız
Bir salama dəymədi?
Sən neylədin, bir düşün!
Yalnız indi anladım: ah, sən daha mənimçün
Əlçatmaz bir çiçəksən,
Yaşanmış günlərim tək geri dönməyəcəksən!...

Qop, ey tufan, əs, ey yel! Xəzəl olum, tökülüm,
Düz beş il ürəyimdə
Bəslədiyim məhəbbət, bir salama dəymədi.
Bir günlük həsrətimə dözə bilməyən gülüm,
Bəs nə oldu? Bu həsrət bir salama dəymədi?
Getdin, dalınca baxdım, can ayrıldı canımdan,
Sən necə etinasız ötə bildin yanımdan.
Ah çəkdim, başım üstə yarpaqlar əsdi, gülüm,
Sənin qəlbin əsmədi,
Arxana da baxmadın!
Niyə sənin yolunu məhəbbətin kəsmədi?...
Qazancımız de, bumu?
Deyilməmiş o salam əlvidamız oldumu?
Sən mənə zülm eylədin, mənə zülm yaraşır,
Bir salama dəyməyən eşqə ölüm yaraşır.

*Sentyabr, 1961*

***

Bu gün ömür yarıdır,
Dünən iməkləyən mən.
Ömür keçir, gün keçir,
Nə sən sənsən, nə mən mən.

Dünən məndən qaçırdın,
Bu gün peyman kəsən sən.
Ömür keçir, gün keçir,
Nə mən mənəm, nə sən sən!

İtirdiyim ruhumu
Tapdım ancaq səndə mən.
Dəyişməyən sevgidir, -
Mən ki sənəm, sən də mən!

*Şəki. İyul, 1962*

## ON DƏQİQƏ SONRA

Ayrıldıq... Ayrılanda
Elə zənn elədim ki,
Qəlbim boşalıb tamam.
Qəlbimdəki hər sözü,
Hər sirri, hər mətləbi
Mən deyib qurtarmışam.

Onca dəqiqə sonra
On min sözün, sualın
Oxu batdı qəlbimə.
Bu sözü, bu söhbəti
Kimə deyim, mən kimə?

Onca dəqiqə sonra
Gülüm, sənlə təzədən
Görüşmək istədim mən.
Onca dəqiqə sonra
Mənə elə gəldi ki,
On il danışsam əgər
Sözüm qurtarmaz yenə,
Yüz il azdır, az, yenə.

O görüş saatları

Gəldi mənə an kimi.
Görüşmək istəyirəm
Səndən ayrılan kimi.

*Sentyabr, 1963*

***

Bu gün ad günündür, bu günə qurban,
Könlümün hakimi könlünə qurban!
Dünyaya eşqindən gec gəlmisən sən,
Eşqin çox yaşlıdır təvəllüdündən!..

*1964*

## SƏN – İLHAM

Mənim iki sevgilim var -
Biri sənsən,
Biri ilham.
İlhamı da səndən alıb,
Mən göylərə ucalmışam.
Vüsalından deyil, gülüm,
Həsrətindən kam almışam.

İlhamımı səsləyəndə
Göz önümə gələn sənsən.
İlhamımla bir ağlayıb,
İlhamımla bir gülənsən.

Dönüb səni səsləyəndə
Səninlə bir,
Ürəyimə ilham gəlir,
İlham gəlir...

*Aprel, 1964*

## İŞIQ – QARANLIQ

İşığa möhtacdır işlər, əməllər,
Ancaq qaranlıqda görüşürük biz.
Özün de, işığa nə lüzum, əgər
Alışıb yanırsa ürəklərimiz?!

Adamlar içində mənim deyilsən,
Hamı seyr eləyir hey, müdam səni.
Həmişə işıqda itirirəm mən,
Ancaq qaranlıqda tapıram səni.

*Aprel, 1964*

## MƏKTUBLAR

Payız yarpağı tək pərişan olur
Dolablar küncündə qalan məktublar.
İzsiz günlər kimi lap unudulur
Bir vaxt könlümüzü alan məktublar.

Köhnə məktublara baxıram bir-bir
Günlər gəlib keçir gözüm önündən.
Günlər gah ağlayır, gah gülümsəyir,
Od sönüb,
Kül ilə oynayıram mən.

Bir vaxt hər sözünü əzbər bildiyim
Məktublar adicə varaqdır bu gün.
Burdakı arzular, duyğular  mənim
Könlümə nə qədər uzaqdır bu gün.

Könlümü titrədən nə duyğudur bu?
Zaman gəncliyimi yeləmi vermiş?
İnsanın öz hissi, eşqi, arzusu,
İnsandan nə qədər uzaq düşərmiş.

Keçmişi təzədən yaşayıram mən,
Ömrün üfüqündə gülür dan yeri.

Deyirəm, insanın bəzən özündən
Daha canlı olur xatirələri.

Hər varaq üstündə bir günün izi,
Canlanır təzədən ötən günlərim...
Cansız varaqlarda tapmışam sizi,
Ey itən günlərim, itən günlərim.

Məktublar bir qəlbin arzusu, eşqi,
Bənzəyir çağlayan yaz sellərinə.
Məktublar körpüdür, bağlayır məni
Ömrümün çiçəkli sahillərinə...

Gülməli görünür bəlkə də sənə
Ey könül, bu köhnə «şanlı məktublar».
Ancaq şirinsiniz,
Ey məni mənə
Qaytaran məktublar, canlı məktublar!

*Oktyabr, 1964*

## HƏSRƏT

Yoxsan...
Qəribə işdir:
Danışıram yenə mən.
Əlim qələm də tutur,
Durub şeir yazıram
Səhər-səhər sənə mən.

Sən həm mənim kədərim,
Sən həm də şadlığımsan.
Sən mənim əsarətim,
Həm də azadlığımsan...

Yoxsan...
Qəribə işdir:
Qəlbim,
Hissim,
Düşüncəm,
Axı, oyaqdır mənim.
Necə nəfəs alıram,
Havam ki yoxdur mənim?

Yoxsan...

Sən mənim üçün!
Xoş arzularsan, demək,
Baharda qarsan, demək,
Qışda baharsan, demək.
Yoxsan...
Sən mənim üçün
Daha çox varsan, demək.

Sevilənlər, sevənlər
Ayrılığın, həsrətin
Əlindən dad çəkdi, dad.
Eşq - həsrətin anası,
Həsrət - aşiqə ustad.

Ömrün boyu qaçmısan,
Arxanca yüyürmüşəm.
Səndə imkansızlığı,
Uzaqlığı görmüşəm.

Həsrət öyrətdi mənə
Hardayam...
İndi hardan
Hara gedəcəyəm mən.
Nəydim,
İndi nəyəm mən?

Həsrət öyrətdi, həsrət
Vaxtın hardan başlayıb,
Haraya vardığını.
Həsrət öyrətdi
Mənlə

Başlayan bir həyatın
Səndə qurtardığını.

Həsrətinin gözüylə
Mən dünyaya baxanda,
Gecələr gündüz olur.
Həsrətinin zülməti
Gözlərimə nur verir,
İdrakıma göz olur.
Həsrətim başlananda
Başlanır bu cahana
Sonsuz heyrətim mənim.
İdrakımla yaşıddır
Eşqim, həsrətim mənim...

Böyük bir şair dünən
Vaxtın qısalığından
Dad çəkib «uzan!» - dedi.
Anın qısa ömrünü
O, uzatmaq istədi.

«Ey an, sən uzan» deyib,
Vaxta böhtan yazdı o.
Əgər həsrət çəksəydi,
Ana yalvarmazdı o.

Onda o bilərdi ki,
Həsrətin bircə anı
Bərabərdir illərə.
Bircə günlük ayrılıq

Neçə illik vüsaldan
Uzun olur yüz kərə.
Bircə günlük ayrılıq
Bir ömürlə tən olur;
Həsrət vaxtı uzadan,
Səbri gödəldən olur.
Həsrətin - məhək daşım,
Həsrətin - yol yoldaşım.
Yanır başım üstündə
O, ulduz tək, o, gün tək.
Mərdanədir, böyükdür
Həsrətin də özün tək...

*Kislovodsk. İyul, 1964*

***

Necə odsan, bilmirəm,
Sən başa sal bir məni.
Nə qədər yanındayam,
Odun yandırmır məni.

Elə ki ayrılıram,
Ayın, günün başına
Məni dolandırırsan.
Necə odsan bilmirəm,
Uzaqdan yandırırsan...

*Noyabr, 1964*

## SEVƏ BİLİRƏMSƏ...

Ancaq məhəbbətçün yaranmışam mən,
Alammaz əlimdən bu haqqı kimsə.
Xoşbəxtəm,
Küsmərəm öz taleyimdən,
Əgər sevirəmsə,
Sevilirəmsə...

Məhəbbət - amalım, arzularımdır,
Ona kainatım, cahanım deyim.
Mənim dövlətimdir, mənim varımdır,
Bütün varlığımla sevə bilməyim.

Sevə bilirəmsə, əgər ürəkdən,
Dünyanın ən gözəl adamıyam mən.

Səni sevirəmsə, sevirəm demək
Həyatı,
Dünyanı,
Yoxdur düşmənim...
Əgər sevirəmsə - qəlbim aynatək
Şəffafdır,
Həssasdır,
Kövrəkdir mənim...

Bu könül aynama gülümsəyərək,
Göylər də,
Yerlər də
Əks olur həmən.
Sevirəm,
Sevirəm,
Sevirəm,
Demək,
Bütöv bir aləməm, kainatam mən.

Mən ki kainatam, aləməm, nə qəm,
Ayım da,
Günüm də,
Ulduzum da var.
Həm zülmət,
Həm də ki,
Aydınlıq gecəm,
Həm açıq,
Həm tutqun
Gündüzüm də var.
De, məndən varlısı dünyada varmı?
Sevən də özünü yoxsul sanarmı?

Mənim öz eşqimin öz ulduzları
Dağıdır, könlümə nur, qucaq-qucaq...
Axı, bu sərvəti, dövləti, varı,
Məhəbbət bəxş edir insana ancaq.

Bəli, ilk insanla həmyaşam artıq,
Bilmirəm aydayam, ya gündəyəm mən.
Zamandan, məkandan çıxmışam artıq,

Dünyəvi aləmin fövqündəyəm mən.

Öz böyük eşqimlə fəzadayam mən,
Məni endirməyin yerə, amandır.
Dünya çox kiçikdir məhəbbətimdən,
Hər arzum bir cahan, bir asimandır.
Verir arzularım göydə səs-səsə,
Deməyin yerdə uç, yer bəs deyilmi?
Yanan bir ürəyə, sevən bir kəsə
Asiman özü də qəfəs deyilmi?

Sevə bilirəmsə, əgər ürəkdən,
Dünyanın ən yaxşı adamıyam mən!

*Dekabr, 1964*

## BİR QIZ... BİR OĞLAN

Qaya kölgəsində bir qıza oğlan
Danışır gələcək arzularından...
Nə qədər gözəldir bu saf arzular,
Dağılır buludlar, dayanır ruzgar.
Bir qulaq kəsilir oğlana dünya,
Sən də bu eşq ilə odlan, a dünya.

Hər sözün başında qabarır sinə,
Hər sözün üstündə min arzu yanır.
Gözəllik eşqinə, həyat eşqinə
Dünya gözəlləşir, zaman dayanır.

Qartal qanad çalıb göylərdən enir,
Dağ da «əyil» deyib səsləyir dağı.
Daşlar çiçək açır, qayalar dinir,
Ağaclar başını dikir aşağı.

Ədavət, paxıllıq yox olur...
Bu an,
Nağıl dünyasında yaşayır insan.
Sökülür sərhədlər, uçur çəpərlər,
Elə bil qovuşur göylərə yerlər.

Qaya kölgəsində bir qıza oğlan
Danışır gələcək arzularından.

*1964*

## TƏZƏDƏN

Bu şirin sevdaya düşəndən bəri,
Neçə yol ayrıldıq bir-birimizdən.
Ayrılıq günləri, hicran günləri
Uzandı...
Ömrünə ömr aldı bizdən.

Biz ki öyrənmişik hicrana artıq,
Cövrü yadda qalır, qəm unudulur.
Sevən könüllərçün, gülüm, uzaqlıq
Ən böyük, ən gözəl yaxınlıq olur.

Yağış dayandımı?
Qalın buluddan
Sıyrılıb yenidən təzə gün doğur.
Hər uzun ayrılıq, hər qısa hicran
Səni mənim üçün təzədən doğur.

Ayrılıq dəmləri düşürkən yada
Təzədən sevirəm, təzədən səni.
Elə bilirəm ki, bu gen dünyada
İlk dəfə görürəm, gülüm, mən səni.

Ayrılıq günləri düzülür səfə,

Hər gün gözləyirik, hər gün bir günü.
Ayrı bir adamsan, gülüm, hər dəfə
Vüsalın əvvəli, hicranın sonu.
Teleqraf kağızı... kiçik bir varaq
Alışan könlümə su səpir yenə.
Səndən ayrıldığım on gündür, ancaq
Milyon illərdir ki, həsrətəm sənə.

On gündə əzabla neçə-neçə min
Dəqiqə, saniyə yola saldıq biz.
Bu uzun anların, dəqiqələrin
Hansını yaşadıq bir-birimizsiz?

Sənin də yerinə danışıram mən,
Qoy olsun, qəlbimiz ayrı deyildir!
Biz iki olsaq da vüsal günləri,
Ayrılıq günləri bir oluruq, bir!

Həsrət, ürəyimdə qaladan möhkəm,
Hicran çöplərindən bir yuva qurmuş.
Sənin yanında da sənə həsrətəm,
Həsrət ayrılıqdan uzun olurmuş...

Görüş qışdan sonra gələn bahardır,
Ayrılıq, görüşlə bitir... tez olur.
Eh! Ona nə var ki, müddəti vardır,
Həsrətsə ölçüsüz, müddətsiz olur.

Bil, yaman gündə də, yaxşı gündə də,
İstərəm qovuşam, mən yetəm sənə.
Gözüm gözlərinə dikiləndə də

Həsrətəm, həsrətəm, həsrətəm sənə!

*Qusar. İyul 1965*

## NEY SƏSİNDƏ SƏNİN ƏKSİN

Zabil segah inildəyir, inildəyir,
Nalə çəkib o dil deyir, o dil deyir.
Rəssam kimi şəkil çəkir,
Zili rəngdir, bəmi kölgə.
Ağı - nəşə,
Qəmi - kölgə.
Yanıq səslər axır neydən, axır çin-çin,
Bu rənglərlə, kölgələrlə
Durur mənim göz önümdə
Sənin əksin,
Sənin əksin.
Şəkil çəkən səslərə dal,
Uçur xəyal, uçur xəyal,
Həsrətimi qucur xəyal.
Uzaqlara qanad çalır,
Bu diyardan o diyara körpü salır.
Aradakı məsafəni udub səslər
Səni səslər, səni səslər!
Sən gəlirsən...
Qəmli-qəmli boylanırsan mənə sarı,
Yanağından axır inci göz yaşları.
Mən ömrümdə heç bir zaman

Görməmişdim səni belə lap yaxından
İndi gördüm...
Gözlərinə o damlalar hardan enmiş?
Sən muğamın ən yanıqlı guşəsindən
Qopan həzin naləsənmiş
Başdan-başa kədərsənmiş...
Mən istəsəm gələrsənmiş,
Mən istəsəm gedərsənmiş...

İyul, 1965

## NƏSƏN SƏN

***(Hamidanə)***

*R.Mustafayev bəstələmişdir*

Röya kimi səssiz keçən ömrün,
Hər şöhrəti sənsən, şanı sənsən.
Min dərdə giriftar dəli könlün
Həm dərdi və həm dərmanı sənsən.
Ömrün bəzəyi, ziynətisən sən,
Mənamı, ya hikmətmi, nəsən sən?

Sən həm şəkərim, həm zəhərimsən,
Sən həm xeyirim, həm zərərimsən.
Sən həm savabım, həm günahımsan,
Sən həm dünənim, həm sabahımsan.
Çoxdur pərilər, bir dənəsən sən,
Ömrümmü, həyatımmı, nəsən sən?

Uçmaq dilərəm, göylərə uçmaq!
Xəncər kimi öndən çıxıb, ancaq
Hər cəhdimi hər yerdə kəsən sən,

Bir dostmu, ya düşmənmi, nəsən sən?
Hökmünlə sən aldın məni məndən,
Sultanmı, ya xaqanmı, nəsən sən?

Könlümdəki bir arzunu açmam,
Hər arzumun ilk arzusu sənsən.
Sənsiz bu həyat zəqqum olardı,
Ömrün dadı sənsən, duzu sənsən.
Bir meh kimi ruhumda əsən sən,
Ruhummu, xəyalımmı, nəsən sən?

*Oktyabr, 1965*

## ÖZÜNDƏN AYRILA BİLMƏYƏCƏKSƏN

Deyirsən, dərd oldu bizə eşqimiz,
Sarsıntı, üzüntü yetməzmi artıq?
Ürəkcə nə qədər bir olsaq da biz,
Həyat yollarında ayrılmalıyıq.

Ayrılmaq! Söz asan, əməl çətindir,
Sevmək! Bu ki sənin öz fitrətindir.
Necə ayırasan odu ürəkdən,
İstini atəşdən, ətri çiçəkdən?..

Mənim öz istəyim, mənim öz kamım -
Sənin öz istəyin, sənin öz kamın.
Sənin ad günündür mənim bayramım,
Mənim ad günümdür sənin bayramın.
Biri-birimizçün doğulmuşuq biz,
Birdir hər eşqimiz, hər istəyimiz.

Hərdənbir darıxıb gəzməyə çıxsan,
Ayağını öpən göy otlar mənəm.
Başını qaldırıb göylərə baxsan,
Kövrəlib qaralan buludlar mənəm.

Demə ki, yanımca nə hərlənirsən?..

Mehvərin başına gərək hərlənəm.
Bəzən səbəbsiz də kədərlənirsən,
Səbəbi axtarma,
O səbəb mənəm!

Qəlbin çox ucalır, çox qanadlanır,
Ona zirvə mənəm,
Ona son mənəm.
Yata da bilmirsən uzun gecələr,
Gözlərindən qaçan o yuxun mənəm...

Hər kəsə tutmadın, axı, tən məni.
Sən də bu dünyada mənimçün təksən.
Sən qova bilərsən evindən məni,
Qəlbindən ki, qova bilməyəcəksən.
Sənin hər dəqiqən, hər anın mənəm,
Axı, adın mənəm, ünvanın mənəm.

Qapını üzümə bağlasan da sən,
Özündən ayrıla bilməyəcəksən...
Sən ki sən deyilsən,
Sən də bil, mənəm.
Yaşını çoxaldan, səni ucaldan,
Gün mənəm,
Ay mənəm,
Gülüm, il mənəm!..

*1965*

## QAYIT

Telefon səslənəndə, dərhal özüm durardım,
Ümid çəkisindəki dəstəyi qaldırardım.
Gizli işarələrlə danışardım səninlə,
Yoxsan, yoxsan sən artıq,
İnlə, ey eşqim, inlə.
İndi gecəbəgündüz telefon səslənsə də,
Dəstəyi götürmürəm,
Götürmürəm, mənə nə!..
Bu yetim ürəyimlə yolları geşt eylərəm,
Sən ki, yoxsan,
O dilbər gecələri neylərəm!..
Deyirlər ki, Bakıda gözəl keçir havalar,
Sənsiz bu gözəlliyin, axı, nə mənası var?!.

Sənsiz bu gözəlliyi mən ki duya bilmirəm;
Köksüm alışıb yanır, ufuldaya bilmirəm.
Gözəlliyi sən idin mənimçin havanın da,
Baharın da, qışın da,
Saatın da, anın da.
Hara getdin, ey mənim ürəyimin ürəyi,
Mənim əzablarımın, qəmlərimin bəzəyi?
Sənsiz heç istəmirəm günün üzünə baxam;
Sən yoxsan,
Elə bil ki, mən özüm də heç yoxam!..

Sənsiz
Özündən əvvəl səsi, sorağı gəlmiş
Buz nəfəsli yazam mən,
İşıqsız ulduzam mən.
Sənsiz açarı itmiş qapalı bir xəznəyəm,
Sənsiz axı, mən nəyəm?
Kim yazdı bu hicranı ömrümüzə, bilmirəm?
Qayıt, qayıt, sevgilim, axı, dözə bilmirəm!
Sən, ey mənim baharım, sən ey ömür gülşənim,
Gözümə göz yaşımdan pərdə çəkilsin mənim.
Ta ki, görə bilməyim səndən özgə kimsəni,
Məndən də özgə ancaq görməsin heç kim səni.
Ayrılıq neştərilə, gəl, qanatma yaramı,
Gəl, gözümün yuxusu, gəl könlümün aramı.
Gəl, səni axşam olcaq küçələrdə gəzirəm.
Qayıt, qayıt,
Tez qayıt, yoluna müntəzirəm!

*İyul, 1957*

***

Əgər bu dünyada sən olmasaydın,
Mən kimi sevərdim, axı, mən kimi?
Sən əgər mənimçün doğulmasaydın,
Kiminlə bölərdim diləklərimi?

Sən doğulan zaman gün də elə bil
Doğubmuş balaca pəncərənizdən.
Anan bilməyib ki, onunçün deyil,
Başqa birisiyçün doğulmusan sən.

Dedin, gərək əqlə qulaq asaydım,
Bu sözlə necə də xətrimə dəydin.
Əgər bu dünyada mən olmasaydım,
Sən də sən deyildin, bir özgəsiydin.

*Fevral, 1958*

***

Xəyalın elə qalxıb gözümdə yüksəlir ki,
Deyirəm həyatımın əzəli mənasısan.
Mənə elə gəlir ki,
Sən dünyanın qəlbisən, qəlbimin dünyasısan.

*İyul, 1960*

***

Kupe sıxır məni, yata bilmirəm,
Zamantək ötüşür, axır təkərlər.
Təkərlər məni də özüylə bahəm,
Bir oxun başına fırladar, hərlər...

Durursan önümdə dərd-sərinlə,
Gah «gəlmə» deyirsən, gah «gəl» deyirsən.
Nifrətinlə deyil, məhəbbətinlə
Sən məni necə də lənətləyirsən!

*Avqust, 1960*

***

Unutmaq istərəm!..
Özüm özümdən
Bir daha ayrılıb haçalanmayım.
Gecələr yatıram bir fikirlə mən:
Səni düşünməyim, səni anmayım!..

Bu elə qayğı ki, bu elə qəm ki,
Azdırar yüz illik yolundan səni.
Səhər də, axşam da düşünürəm ki,
Gərək düşünməyim heç zaman səni.

Unudar fikirdə, xəyalda, təkcə
Unutmaz ürəkdə sevən-sevəni.
Mən özüm-özümə «unut!» - dedikcə,
Özümü itirib tapıram səni...

«Unudum» - deyirəm, ancaq nə fayda!..
Yadımdan çıxmamış düşürsən yada.
Eşqimin odunu söndürə bilmir,
Qəzəbim sel kimi aşıb daşsa da.

*Oktyabr, 1961*

## UNUTDURDUN SƏN MƏNƏ

Xəyalınla, fikrinlə
Həmişə sərxoşam mən.
Unutmuşam özümü,
Dönüb sən olmuşam mən.

Öz könlümün səsindən,
Öz könlümə ün düşüb.
Dağlar başı qaralıb,
Dərələrə gün düşüb.
Niyə belədir, gülüm,
Sən özün bilməlisən,
Fikrimə düyün düşüb!

Həqiqət, - güman olub,
Xəyalım - duman olub.
Gah düzəndə sürünür,
Gah təpədə görünür.
İlişir kolluqlara
Fikirlər - qırıq-qırıq,
Arzular - para-para,
Ümidlər pərən-pərən,
Qəsəmlər - yalan olub

An var dönüb il olub.
İl var dönüb an olub.
Həsrətim bu anları,
Günləri,
Danır mənim.
Saatımın əqrəbi
Yalnız sənin başına
Dönüb dolanır mənim.
Sənə könül verəli,
Mənim üçün bu köhnə
Vaxt ölçüsü pozuldu.
Sənin məhəbbətinin
Dərəcəsi, ölçüsü
Mənim vaxt ölçüm oldu.

Bir şaxtalı qışdayam,
Mənə əlvan baharı
Unutduran sən oldun.
Ancaq hər gün baharı
Məndən soran sən oldun!

Ümmanam,
Sahilimi
Unutdurdun sən mənə.
Qarlı dağam,
Selimi
Unutdurdun sən mənə.

Gecəyəm,
Gündüzümü

Unutdurdun sən mənə.
İnsanam, öz-özümü
Unutdurdun sən mənə.

Bu dünyada hər şeyi
Unutdurub sən mənə
Çəkdirmisən göz dağı,
Əvəzində öyrətdin
Səni unutmamağı!..

*1965*

## NÖQTƏYƏ DÖNDƏRƏRDİM

Mən burdayam, sən orda...
Yenə hicran, yenə qəm...
Yerdəyəmmi? - bilmirəm,
Göydəyəmmi? - bilmirəm...

Aramızda sədd kimi,
Uçrum kimi dayanan
Bu uzun yollar deyil,
Gülüm, zamandır, zaman!..

Məhəbbətimiz qədər
Əzabımız var bizim.
Aramızda dayanmır
Bu uzun yollar bizim!..

Aramızda dayanır
Neçə-neçə il, gülüm,
Neçə-neçə ay, gülüm!
Bu ayları, illəri
Fikrimin sürətilə
Necə udum, ay gülüm!
Bizim istəyimizlə

Qara dönüb ağ olmur!
Yolu qısaltmaq olur,
Vaxtı qısaltmaq olmur.

Uzun yollar, dolaylar
Əgər olsaydı dərdim,
Mən onları kəmərtək
Belimə dolandırıb
Nöqtəyə döndərərdim!

*Avqust, 1965*

# «SON GÖRÜŞ» POEMASINDAN PARÇALAR

## 1. DƏNİZƏM, BEZMİŞƏM TƏLATÜMÜMDƏN

Sevirəm!
Həmişə narahatam mən,
Nə dost tanıyıram, nə həmdəm, gülüm!
Dənizəm, bezmişəm təlatümümdən,
Məhəbbətim qədər bədbəxtəm, gülüm!
Əmziyə aldanan bir uşaq kimi
Səadət sanmışam məhəbbətimi...

Bu istək, bu sevgi nə verdi mənə?
Boş üzüntülər?..
Dərdim istəyimlə həmyaşdır mənim,
Yanıb yaxılıram istəyim qədər.

Mən könül verəli bu şirin dərdə
Bir üzüm qaradır,
Bir üzüm ağdır.
Bu haqsız eşqimin ömrü qədər də
Mənim bədbəxtliyim uzanacaqdır.

Vuruşdu
Gah aşkar,
Gah da gizlicə,
Axır məhəbbətim qələbə çaldı;
Bilmirəm sükanı nə zaman, necə,
Eşqim, taleyimin əlindən aldı.

İndi bilmirəm ki, məhəbbətimdən,
Yoxsa... taleyimdən gileylənim mən?!
Dərdimdən baş açar, axı, kim mənim?
Eşqim, dönüb olmuş taleyim mənim.

*1966-1967*

## 2. EŞİTDİM SƏSİNİ...

Eşitdim səsini telefonda mən,
Yerdəydim...
Elə bil ucaldım göyə...
Keçdiyim yolları keçib təzədən,
Bir anda qayıtdım on il geriyə.

Sayrışdı gözümdə yenə ulduzlar,
Qəlbim ötənlərə min səcdə qıldı.
Elə bil yaz gəldi,
Əridi buzlar...
Donmuş duyğuların donu açıldı.

Bu sehrə,
Bu sirrə söylə, nə deyim,
Nə deyim xəyali sərzənişinə?

Telefonda
Çoxdan eşitmədiyim
Gözəl bir mahnını eşitdim yenə.

Elə bil yox oldu hər dərdi-sərim,
Ürəyim yenə də qımışdı, güldü.
Elə bil dağılmış xatirələrim
Səsinin sapında səfə düzüldü.

*Dekabr, 1960*

## 3. SON GÖRÜŞ

1

Qayıtdıq Vətənə, qayıtdıq yenə,
Axı geci-tezi qayıtmalıydıq.
Biz yenə qıymadıq özgələrinə,
Qıydıq özümüzə...
Ah!... necə qıydıq!..

Gülüm, yadındamı o son gecəmiz?
İldırım çaxırdı, göy gurlayırdı.
Onda unutmuşduq bu dünyanı biz,
Göy də o vüsalı uğurlayırdı.

Nə göy gurultusu, nə şimşək səni,
Oynada bilmədi bir an yerindən.
Şimşək də almışdı öz atəşini
Sənin hərarətli öpüşlərindən...

Elə bil gəlmişdi cana təbiət,
O bizə borcluydu, yoxsa biz ona?
Sanki dəm tutmuşdu ana təbiət
Bizim ruhumuzun çılğınlığına...
Qayıtdıq...
Qatarda biz xısın-xısın,
Danışıb yad etdik o xoş dəmləri.
Vüsaldan sonrakı hicranımızın,
İlk gecəsi yazdı bu qəmli şeiri.

2

Hicrin ilk gecəsi...
Sən tək... mən də tək...
Yenə göy gurlayır, ildırım çaxır.
Sənin gözlərindir çaxan o şimşək
Mənim otağıma göylərdən baxır.
Bakıda ildırım, göy gurultusu?
İlk dəfə görürəm... nə deməkdi bu?

Gurlayan o göylər, o şimşək əlbət,
Bizə xatırladır son gecəmizi.
Vüsala əl çalan ana təbiət,
Deyəsən indi də danlayır bizi.

Yerləri, göyləri, titrədib tir-tir,
Təbiət ağlayır bu anımıza.
Qürbətdə vüsala əl çalan göylər,
Vətəndə ağlayır hicranımıza.

Bizim ki, eşqimiz başdan-binadan,

Axı aydan arı, sudan təmizdir.
Gör necə bədbəxtik, Vətəndə hicran,
Qərib eldə vüsal qismətimizdir.

*Avqust, 1962*

## 4. İNAM - ŞÜBHƏ

Şübhə yeyib tökdü içimdən məni,
Tanıya bilmirəm indi mən, məni...
Haqq ilə nahaqqın arasındayam,
Bilmirəm dünyanın harasındayam...
Havadan tutmuşam, sulanıram mən,
Bir yolu neçə yol dolanıram mən.
Şübhələr oduna inam yanıbdır,
Ümidim, inamım oğurlanıbdır.
Düşüb cığırlara, düşüb izlərə,
Onu axtarıram, gümana imdad!..
Yaxşı deyirlər ki, itən bir yerə,
Gümansa min yerə gedər hər saat.
Hər söz tənə olub dəyər qəlbinə,
Əməllər, arzular səndən yan gəzər.
Şübhə yol tapıbsa əyər qəlbinə
İnamın yollarda sərgərdan gəzər.

İnamım!
Bəs hanı bizim əhdimiz?
Əyilən belimin dayağı səndin.
Şübhənin önündə əyilib nə tez,
Qul kimi,
Çul kimi yerə döşəndin!

Şübhə, ürəyimi az gəmir mənim,
Xeyrim, zərərimi ödəmir mənim.
Səni həqiqətin yolu sanıb mən,
İzini izlədim, yolunu tutdum.
Dönüb inamımdan, həqiqətimdən,
Doğru yolumu da azdım, unutdum.

Dolaşıq, qarışıq həyatdır məni,
Şübhələr içində qovurub yaxan.
Şübhə, həqiqətə ya çatdır məni,
Ya da ürəyimdən çıx, səndən aman!..

Aman istəyirəm xoş əməllərə,
Qolları zəncirli əsirinəm mən.
Min acı həqiqət xoşdur min kərə,
Bir kiçik şübhənin əziyyətindən.
Şübhə, dərdi-ağır, əzabı-dərin
Müdhiş yaraların yarasısan sən.
Bütün bəlaların, bütün dərdlərin
Ağırı, sağırı, qarasısan sən.

Sənə düçar olan, yola göz dikən,
Hicran ağrısına heç vaxt sərt deməz.
Sənin əzabını bircə gün çəkən,
Yüz illik dərdinə susar, dərd deməz.

Ürək narahatsa... o, sənin deyil,
Fikrin bir nöqtəyə calanır ancaq.
Dünya öz oxundan çıxıb elə bil,
Şübhənin başına dolanır ancaq.

Ürək narahatsa... min yerdəsən sən,
Min fikrə düşəcək könül hər saat.
Ürəyi içindən yeyib gəmirən
Fikir də narahat, qəlb də narahat.
Ürək narahatsa... şəkərin zəhər,
Sevincin qəm, kədər, xeyirin zərər.
Birin yüzə dönür, yüzün bir olur,
Öz fikrin özünə dönüb sirr olur.

Ürək narahatsa... saatlar bütün
Tərsinə dolanır, vurur baş-ayaq.
Dünya şübhən qədər kiçilir sənin,
Şübhən dünya qədər böyüyür ancaq.

Şübhə yeyib tökdü içimdən məni,
Tanıya bilmirəm indi mən məni.
Bilmirəm dünyanın harasındayam,
Haqq ilə nahaqqın arasındayam.

*Dekabr, 1965*

**5. QOY OLSUN**

Ax, neçə qıfılla qıfıllanmışam,
Mən bu dustaqlığı həyat sanmışam.
Bənd-bənd buxovluyam öz ürəyimə,
Həyat ayrı cür də olurmuş demə.
Qırılıb tökülən qanadlarımdan
Qan axır...
Gün-gündən böyüyür yaram.
Bir bəndim, qıfılım açılan zaman

Min yerdən bağlanıb qıfıllanıram.

Arzumu?
Dünyada arzularına
Ən az yetənlərdən biriyəm, ey dost.
Mənim bir arzum var:
Çatmaqçün ona
Gərək muma dönüb əriyəm, ey dost!

Bu qədər ağrıya tablamaq olmaz,
Mənim cəhdim böyük, tələbimsə az;
Ancaq almaq üçün bu azı səndən,
Ömrümü, günümü verməliyəm mən.

Xoşbəxtin arzusu, diləyi min-min,
Çatar hamısına, deməz «bəs» - yenə.
Bədbəxt bir arzuya qovuşmaq üçün
Min dağı dağıdar, yetişməz, yenə.

Qoy olsun!
Dönmərəm öz dediyimdən,
Əbədi yolçuyam, yol gedirəm mən.
Eşqimin əzablı yoludur bu yol,
Haqqın yolundan da uludur bu yol.
Namərdəm, dönərsəm öz dediyimdən,
Yorulub bu çətin dolaylarda mən
Almaq istəmirəm bir an dincimi,
Dərdimdə tapmışam hər sevincimi...

*Noyabr, 1965*

## 6. MƏN DƏRDDƏN QAÇANDA...

Mənim ürəyimdə verib baş-başa
Dayanır dağ boyda dağlar sükutda.
Biri digərindən xəbərsiz, səssiz
Dərdlərim şam kimi ağlar sükutda.

Zaman dara çəkir fikri, xəyalı,
Zaman damcı-damcı axır gözümdən.
Arzular başıma qaxınc olalı
Özümü sükuta tapşırmışam mən.

Qalmışam su üstdə tənha qu kimi,
Fikrimə dar gəlir bu yerlər mənim.
Mən dərddən qaçanda,
Bir oğru kimi,
Tutur ayağımdan fikirlər mənim...

Solub ürəyimdə saralır dən-dən
Hələ açılmamış tər qönçələrim.
Yatmaq istəyəndə dərdin əlindən,
Mənə yorğan olur düşüncələrim...

Mən dərddən qaçanda, yolda iz qalır,
Alov közdən qaçır, közə dərd olur.
Dərdimdən qaçanda dərd yalqız qalır,
Bu da mənim üçün təzə dərd olur.

Solan bir çiçəyəm, gün batan kimi,
Min hala düşürəm bu dövran kimi.
Bir günlük nəşəmiz ötür an kimi,

Bir anlıq qəmimiz bizə dərd olur.

Saralıb yox olur min arzu, dilək,
Bu dərdi də çəkən ürəkdir, ürək;
Düzəndə bürküdən solur gül-çiçək,
Çiçəyə dərd olmur, düzə dərd olur.

*Noyabr, 1965*

## 7. ELƏ BİLİRDİM Kİ...

Dedin, sən şairsən,
Ancaq nə fayda!
Mənə şeirdən çox, həyat gərəkdir.
Sənin şeirlərin gözəl olsa da,
Mənə sözdən başqa nə verəcəkdir?

Bəli, mən şairəm,
Şair, büsbütün!
Şeir yazanda da, yol gedəndə də,
Mən sənə vuruldum, bilirsən özün,
Şair xəyalını görüb səndə də...

Şairlər hər şeyi şişirdən olur,
Mən də çox böyüdüb şişirtdim yəqin.
Elə bilirdim ki, nurdan yoğrulur
Mayası, ürəyi sevən kəslərin.

Şairlər yanılır, yanıldım mən də,
Uçan xəyalların de hara enmiş?
Şairsən sözündə, söhbətlərində,

Arzunda, fikrində lap adisənmiş...

Şair olmasaydım... sevməzdim səni,
Üzümə durmazdı bu boyda dərdim!
Şair olmasaydım, sənin qəsdini
Gözündən oxuyub çoxdan bilərdim.

Şair olmasaydım, ləpirlərinə
Düşüb izlərdimmi səni yerbəyer?
Şair olmasaydım, təhqirlərinə
Dözə bilərdimmi bu vaxta qədər?

Sənə də gərəkmiş demə geyinmək,
Bəzəyə bilmirmiş söz, şeir səni.
Elə bilirdim ki,
Qışda da odtək
Mənim nəğmələrim isidir səni.

Mənim nəğmələrim - qızılım, zərim,
Sənə də gərəkmiş bu ziynət andır?
Elə bilirdim ki, söz incilərim
Sənin ən qiymətli boyunbağındır.

Gümüşü qab-qacaq, büllur stəkan,
Sənin də qəlbindən keçirmiş demə.
Mən elə bilirdim, soyuq daşlardan
İsti göz yaşlarım əzizdir sənə.

Sənə ev gərəkmiş, ancaq o dəmdə
Bilmədim arzunu birbəbir sənin.
Mən güman etdim ki, fikirlərimdə

Qurduğum qəsrlər evindir sənin.

Bunu aləm bilir, biz kimdən danaq,
On dörd il ağladı, gülmədi şeirim.
Sənin ürəyini qəsb etdi,
Ancaq
Sonadək saxlaya bilmədi şeirim...

Elə bilirdim ki, bütün dərdlərin
Dərmanı şeirdir!..
O - gələcəkdir!
Dünyanın özü də sanırdım yəqin
Şeirlə, nəğməylə düzələcəkdir!
Əlləşib vuruşdum, mən göylə, yerlə -
Təbiət mənə də bir ilham vermiş.
Mən indi bildim ki,
Ancaq şeirlə
Arzular, fikirlər gülümsəmirmiş.

Gülüm, qaranlıqdır həyatın dibi,
Qorxuram batasan çamurluqda sən.
Nəğmənin sehrindən çıxan bir qəlbi
Hara aparacaq bu həyat, görən?..

Düşündüm, düşündüm, düzünə baxsan
Kimi xoşbəxt edib şirin xəyallar?
Mənim də evimdə büllur stəkan,
Mənim də qolumda qızıl saat var.

*Yanvar, 1968*

***

Bu gün sənin ad gününmü?
Xeyr! Bu gün,
Doğulduğun gündü sənin.
Sevən gündən yaşamağa başlamısan,
Bu gündən də hesablanır təvəllüdün.
Eşqimizin on yaşı var,
Dərya qədər göz yaşı var.
Həsrət axır aramızdan bir çay kimi,
O sahildə sən durmusan,
Bu sahildə mən durmuşam.
Məhəbbətin badəsini
Mən bu çaydan doldurmuşam...
Bu çay bizim göz yaşımız,
Dibindəki sal daşları
Qəmxarımız, sirdaşımız.
Bu sövdaya düşən gündən,
Bu dünyanın hər dərdinə, hər qəminə
Sirdaşam mən!
Deməyin ki, qırx yaşım var,
Həsrətimlə həmyaşam mən.
Həsrət axır aramızdan
Bir çay kimi...
Gecə-gündüz
Fəqanda mən, harayda mən.

Bu həsrətlə birləşirik,
Dayansaq da
O tayda sən, bu tayda mən!..

*Noyabr, 1965*

## MƏHƏBBƏTƏ QIYMADIN

Açıb kədərlərimin
Yumulu gözlərini
Sevincimi kor etdin...
Mənim məhəbbətimə
Öz könlümü gor etdin...
Öz içimdə qırıldım,
Könlümdə basdırıldım.

Sən öyrətdin, sən mənə
Harda düyün düşübdür
Arzuların ilməyi.
Sən öyrətdin, sən mənə
Gözlərimin yaşını
Gizli-gizli silməyi.

Bir saatlıq görüşdə
Bir günlük kədər verib
Yenə gedirsən, yenə.
Ötən sevinclərimə
Kədərlə baxmağı da
Sən öyrətdin, sən mənə!

Qulaqlarım tutuldu
Öz könlümün səsindən.

Hər şeyə qıydın, ancaq
Məhəbbətə qıymadın,
Apardın özünlə sən!

*Yanvar, 1966*

## BİZ YENƏ DƏ SÖZƏ GƏLDİK

Biz yenə də sözə gəldik,
Tez geyindim pencəyimi.
Getmək üçün...
Donub qaldım,
Öz içimdən mən asıldım.
Guya mənim məhəbbətim
Asılıymış pencəyimdən.
Onu geysəm,
Məhəbbəti soyunaram ürəyimdən.
Nə asanmış...
Donub qaldım
Mən qapının kandarında,
Yox, durmuşam ürəyimin yarasında.
Yox, durmuşam
Mən nifrətlə - məhəbbətin arasında.
Neçə dəfə mən getmişəm,
Getməmişəm, sürünmüşəm...
O sürünən ayaqlarla
Yenə, yenə mən dönmüşəm...
Çətin-çətin!..
Gəlmək - asan,
Getmək - çətin...
Demə, demə bu gedişlər,

Davamıymış məhəbbətin...
Dəli könlüm bir qov kimi
Məni atdı, məni tutdu.
İstədiyi yerə sürdü...
Bu gedişlər nifrətimdi,
Yerimirdi, sürünürdü...
Gəlişimsə - məhəbbətim,
Onda qüdrət, cəsarət var,
Mətanət var.
Öz-özümdən gen düşmüşəm...
İndi mən öz taleyimi
İki tale arasında
Bölüşmüşəm.
Gecə-gündüz, səhər-axşam
Arasında vurnuxuram
Mən hissimlə-düşüncəmin.
İndi məndən qaçır dərd də,
Qaçır qəm də.
Mən hissimdə səni tapır,
İtirirəm düşüncəmdə...

*Mart, 1966*

***

Mən qürbətdə,
Sən Vətəndə...
Aramızda neçə dəniz,
Neçə dərə, neçə dağ var.
Səni məndən,
Məni səndən
Ayırammır fəqət bunlar...
Açılıbsa bir-birinə
Ürəkdəki pəncərələr
İki qəlbi bir-birindən
Ayırammaz bu dənizlər,
Bu təpələr, bu dərələr...

Bir otaqda olanda da
Məgər bizim aramızda
Dayanmırmı uca dağlar?
Qəlbimizin arasında
Gah o qəlbə,
Gah bu qəlbə,
Baxıb dolan bir ürək var...

*Yalta. Aprel, 1966*

***

Uzaq bir səfərə çıxmısan, uzaq!
Gözlərim yoluna dikilib, ancaq
Gözlərim qapıda,
Bir aydan bəri.
Gözlərəm,
Gözlərəm səni dəmadəm
Mən yola saldıqca sənsiz günləri,
Həsrətin yükündən yüngülləşirəm.

Ayrıldıq məkanca, həm də zamanca,
Bu iki nöqtədə göynəyir yaram.
Sən getdin, uzanan yollar boyunca,
Mən vaxtı öldürüb yol qısaldıram.

Zaman daim axır...
Göy yerə ensə,
O qalmaz bir anlıq öz səfərindən.
Sən yollar boyunca səfərdəsənsə,
Zamanın boyunca səfərdəyəm mən.

*Aprel, 1966*

***

Sənə məktub yazıram,
Bir sözü şirin,
Bir sözü acı.
Sözlər
Aramızdakı məsafəni anbaan
Qısaldan verst ağacı...
Cümləm başa çatanda,
Mənə elə gəlir ki, başa çatır həsrətim.
Məktub...
Yollar boyunca sürünən məhəbbətim...
Eləysə... zərfin üstə
Bəs sənin ünvanını
Niyə yazdım, mən niyə?..
Lüzum varmı bilmirəm,
Ürəkçün bələdçiyə?..
Mənə elə gəlir ki,
Kövrəldib ağ gül kimi
Çoxdan intizar səni.
Sözlərim
Harda olsan axtarıb tapar səni.

*İyul, 1966*

***

Ay bəlalı başımın bəlalı macərası,
Ay mənim ağlar qalan ürəyimin parası,
Mən əlacsız, sən ağlar,
Könül ağlar, can ağlar.
Neyləmək?..
Sən özün de!
Nöqsan mənim, haqq sənin.
Haqqın,
Haqlar önündə gücsüzdür, ancaq sənin!
Ağla, ey gülüm, ağla,
Ağla, ey könlüm, ağla!
Ağlamaqdan nə fayda!..
İnsan ilə arzunun arasında dayanan
Dağı dələ bilməmiş göz yaşları heç zaman.

*İyul, 1966*

## AYLI GECƏLƏR

İtirmişəm...
Sevgilimi itirmişəm.

O getməyib,
Öz əlimlə göndərmişəm.
Həsrətimin torpağına
Mən gül əkib, vay dərmişəm.

Şaxta vurdu,
Arzu gülüm dondu ayaz gecələrdə.
Özüm-zülmət gecələrdə,
Fikrim - bəyaz gecələrdə...

Yatammıram...
Həsrət çəkir
Sinəm üstə dağ gecələr,
Mənə zülmət gətirdiniz,
Sevgilimi qucaqlayan ağ gecələr...
Mənim eşqim, mənim dərdim
Ağızlarda min söz oldu.
Burda mənim gündüzüm də qara gecə,
Sevgilimin gecəsi də gündüz oldu.

*İyul, 1966*

## AZADLIQ

Azadlıq istəyirdin...
İndi məndən uzaqda
Azadsan, cismən azad.
İndi buyur, sevgilim,
Mən dustağam, sən azad!..

Beləmi?
İnanmıram.
Biz bir şəhərdə ikən,
Dəqiqəni, anını,
Sapa düzüb incitək,
İzləyirdim səni mən.

İndi məndən uzaqda
İzləmir heç kəs səni.
Ancaq azad deyilsən,
İzləyir, öz köksündə
Aldığın nəfəs səni.

Orda pərəstişkarın
Bir deyil, min-min olsun.
Qorxmuram, yox, qorxmuram,

Mən yox, sənin öz hissin,
Sənin gözətçin olsun!
Sən sevən bir ürəyin

Özü boyda dağısan!
Mənim dustağım deyil,
Hissinin dustağısan,
Qəlbinin dustağısan.

*Şəki. İyul, 1966*

***

Nəğmə olub gecələr
Sənə layla çalaydım,
Dönüb yuxun olaydım.
Ayaqların altına
Sərəydim gül-çiçəkli
Çölü mən, çəməni mən,
Nağıllar dünyasına
Aparaydım səni mən.

Çıxıb çərçivələrdən
Göylərə baş vuraydıq,
Vaxtı da donduraydıq.
Qanunlara od vurub
Sərhədləri qıraydıq, -
Eşqimizin oduna
Dünyanı yandıraydıq;
Biz məhəbbət ünvanlı
Təzə dünya quraydıq.

Səni hər an, hər saat
Görmək üçün, sevgilim,
Gecələr ay olaydım,
Gündüzlər gün olaydım.

Sənin gözəlliyindən
Səhər-axşam həzz alan
Dilsiz güzgün olaydım.
Güzgün olsaydım əgər,
Qəm yeməzdim yenə mən;
Səni, öz diləyimcə
Göstərərdim sənə mən.

*Sentyabr, 1966*

***

Həmişə həsrətəm, mən sənə həsrət,
Mən səni ömrümdə bir yol görmüşəm.
Bir qərib yolçuyam, Vətənə həsrət,
Mən səni yaşımdan əvvəl görmüşəm.

*Oktyabr, 1966*

## SƏFƏRƏ ÇIXMIŞIQ

Hər görüş, bizimçün bir hicran doğur,
Gümanlar, ümidlər cahanımızdır...
Hər günün əvvəli vüsalımızsa,
Hər günün axırı hicranımızdır.

Ağırdır, əzabdır bu da bizimçün,
Ayrılıq naminə çox görüşmüşük.
Biri-birimizi tapdığımız gün,
Biri-birimizdən itkin düşmüşük.

Səfərə çıxmışıq, uzun səfərə,
Biri-birimizi axtarırıq biz.
Düşürəm izinə gündə yüz kərə,
Yenə itirirəm xəbər-ətərsiz...

Yüz yoldan ötürük bəzən bir gündə.
Yorub usandırmır bu yollar bizi.
Gözün gözümdədir, gözüm gözündə,
Yenə axtarırıq bir-birimizi.

*Oktyabr, 1966*

***

Evinizin kandarında
İtib mənim izim artıq.
Quruca bir «salam» qalıb
Aramızda bizim artıq,
Mən eşqsiz daşa döndüm,
Yoxdur sənə sözüm artıq.

Hər dərdimə dərman idin
Niyə dönüb zəhər oldun?
Ey sevincim, niyə birdən
Boğazımda qəhər oldun?
Sən getsən də düşünmə ki,
Ürəyimdən gedər oldun.

Mən boynunda mərcan idim,
Pərən-pərən pozulmuşam.
Uca-uca bir dağ idim,
Ərimişəm, toz olmuşam.
Mən bir yanar vulkan idim,
Yana-yana buz olmuşam.

*Noyabr, 1967*

***

Hirsimdən gör necə əsir bədənim,
De, niyə çıxırsan sözümdən mənim?
Mən sənə o qədər qəzəbliyəm ki,
Dilim topuq çalır, qırılır sözüm...
Ancaq ürəyimdə deyirəm yenə:
«Ay ürək, buna da gərək mən dözüm...»
Əsirəm, coşuram,
Ancaq bir azdan,
Barışıram mən
Acığım tutsa da nə qədər sənə.
Anlaya bilmirəm, bəs neçin, nədən,
Nifrətə çevrilmir bu qəzəb yenə?...
Danlağıyla da
Əzizlər, gülüm,
Sevən sevəni.
Qəzəbim qədər
Sevirəm səni.
Qəlbim didərgin,
Eşqim yetimdir.
Mənim qəzəbim,
Nifrətim deyil,
Məhəbbətimdir!

*1967*

***

Bilmirəm, tək qoyub səni şəhərdə
Niyə uzaqlara gedirəm hərdən?
Onsuz da ayrıyıq
Gecəbəgündüz,
Keçir ömrümüz
Ahda-amanda.
Mən öz komamdayam, sən öz komanda,
Onsuz da ayrıdır talelərimiz.
Bu, bəs deyilmi ki,
Məsafəcə də
Ayrı düşək biz?

*Mərdəkan. Yanvar, 1967*

## SAHİLƏ ÇIXMAQ İSTƏYİRƏM

Görüşdük, görüşdük ayrılmaq üçün;
Dünya gözlərimdə qaraldı o gün.
Dedin ki, səbr elə, gəl bir az da döz;
Əbədi vüsalçın ayrılırıq biz.

Dedim: - Tutmamısan dilə az məni,
Dedin: - Dil sevmir ki, sevən ürəkdir.
Dedim: - Təsəllilər ovutmaz məni,
Çiçəyə isti yox, bahar gərəkdir.

*Hacıkənd. Avqust, 1961*

***

Uzaq,
Bataqlıqdan, çamurdan uzaq!
Könüllü dustağam, könüllü dustaq.
Bir böyük arzuya,
Bir böyük qəmə.
Dairə çəkmisən mənim dövrəmə
Məhəbbətindən!
Gecəli, gündüzlü vurnuxuram mən
İçində bu məchul,
Sirli dövrənin,
Mən çıxa bilmirəm sehrindən sənin...

*Aprel, 1967*

***

Dəryada fanaram mən,
Od tutub yanaram mən.
Yayda qəm çovğunundan
Buz tutub donaram mən.

*1966*

***

Başlanan hər şeyin sonu var,
Getməyə başlayan bir qatar
Başqa bir şəhərdə duracaq.
Yaranan ömrünü
Bir il gec,
Ya da tez
Axıra vuracaq,
Ürək də duracaq.
Qapıda,
Bacada
Səslənən külək də
Duracaq!
Könlümdə səslənən bu külək,
Bu boran
Bəs haçaq
Duracaq?

*Aprel, 1967*

***

Yanında olanda da mənə elə gəlir ki,
Səndən uzağam, uzaq!
Uzaqlıqda, sevgilim, sən bir yaxınlığa bax!
Əfsanələr danışır könül cürbəcür mənə.
O qədər həsrətəm ki, o qədər təşnəyəm ki,
Sənin yaxınlığın da uzaq görünür mənə...

*Aprel, 1967*

## EŞQ - SƏTƏLCƏM

Vüsal nəsib olmadı
Bu dünyada onlara.
Könüllər baş əymədi
Eşqə qənim kəsilən
Amansız qanunlara...

Nəhayət
Gəldi bir gün,
İki qütbə ayrıldı
Həyat da onlar üçün.
Bir tərəfdə məhəbbət,
Bir yanda vaxtsız ölüm.
Məhəbbətsiz yaşamaq
Onlara dəhşət, zülm...

«Məhəbbətdən yarandıq,
Məhəbbətin yolunda
Ölmək də xoşdur!» - deyə,
Onlar verib əl-ələ
Qalxdılar bir təpəyə.
Onlar bu ucalıqda
Həyatdan uzaqdılar,
Onlar indi həyata
Bu zirvədən baxdılar.

Onların gözlərində
Yerdəkilər bu anda
Nə qədər kiçildilər.
Bu zirvənin başında
Həyatı yox, ölümü
Onlar zirvə bildilər.

«Əhdə vəfa qılmalı»,
Deyə yumub gözünü
Qayanın zirvəsindən
Oğlan atdı özünü.

Endimi?
Yox! Enmədi!
O daha da ucaldı.
Ölümün pəncəsindən
Ölümsüz həyat aldı.

İndi növbə qızındır
Yerə baxdı -
Duruxdu...
Oğlan quştək uçdumu?
Ətraf bomboş...
O yoxdu...

Qızın gözü qaraldı,
Qəlbini dəhşət aldı.
Yerə baxa bilmədi,
«Yox, yox! Çətindir!» dedi.

Qız qorxdu,

Qız çəkildi.
Məhəbbətsiz həyatı
Ölümdən uca bildi.
Çox ucaydı o bayaq,
Başını dik tutaraq
Qayanın zirvəsində
Dayanmışdı qayatək.
Başını endirərək
İndi qaya başında
Bir milçəyə döndü o.
Oğlan kimi qayadan
Atılıb ucalmadı,
Yavaş-yavaş endi o.

Hələ ərə də getdi
Sevmədiyi birinə.
O gündən bir daş asdı
Ürəyinin yerinə.

O yaşadı sevgisiz,
Yaşamadı, süründü.
Ölüm ona min kərə
Həyatdan xoş göründü.

O, ölümdən qorxaraq
Həyatını, eşqini
Çox ucuz satmış, demə.
Eşqin yolunda ölmək
Başqa həyatmış demə.

Yalnız indi bildi ki,

Məhəbbətsiz yaşamaq
Ölümdür insan üçün.
O ölübmüş,
Ölümdən
Həyata qayıdan gün.

Qız həyata qayıdıb
Öz-özünü danladı,
Lənət, nifrət qazandı;
Oğlan həyatdan gedib
Əbədiyyət qazandı.

Axır soyuqdəymədən
Qız da getdi dünyadan.
Sətəlcəmə verildi
Eşqə verilməli can.

Onun həyatı kimi
Ölümü də ürəksiz,
Səssiz, xəbərsiz oldu.
Öldü iyirmi beşində
Ancaq heç kəs demədi
Bu ölüm nə tez oldu.
Oğlan da öldü, qız da,
Ölüm ölümdür,
Nə qəm.
Ancaq düşün!
Dünyadan
Birini eşq apardı,
O birini sətəlcəm!

Ölüm ölümmü?
Yox, yox!
Ölüm var ki, yolunda
Azdır min can da versən.
Ölüm də var ki, ona
Adi qarışqanın da
Ömrünü qıymaram mən!

Qız həyata qayıdıb
Lənət, nifrət qazandı;
Oğlan həyatdan gedib
Əbədiyyət qazandı...

*1965*

***

Dedin: «Yordu məni bu üzüntülər,
Dünya dağılmaz ki, ayrılsaq əgər».
Dedim: «Yox! Dağılmaz, dünyaya nə var,
Könül dünyamızsa viranə qalar.
Bir yerdə, bölünməz zərrədən kiçik
Ayrılsaq, dünyaya sığa bilmərik.

*May, 1967*

## KÜÇƏDƏ İTİRDİM...

«Yaşaya bilmirəm bu sayaq daha,
Bəsdir,
Yorulmuşam,
Qurtaraq daha!»
Deyə avtobusa mindin...
Dayandım,
Vaxt da mənim kimi dayandı, sandım.
Yox! O dayanmadı, işlədi yenə -
Minib avtobusa səninlə birgə
Bir göz qırpımında zaman da getdi,
İxtiyar da getdi, güman da getdi...

Bu nədir?
Ayağım üzüldü yerdən,
Hər şey öz yerini dəyişdi birdən.
Dayandım...
Arxamca yollar süründü,
Saat da tərsinə dolandı, döndü.
Səndən ayrılmadım,
Səndən mən, gülüm,
Özümdən ayrıldım,
Özümdən, gülüm!
Bilmədim nə idim,
İndi nəyəm mən?
Küçələr uçruma döndü gözümdə.

Səni itirdiyim bu anda bilsən,
Yolların üstündə itdim özüm də.
Dolaşdı kainat,
Qarışdı aləm,
Kimdir qulağımda belə hönkürən?
Küçədə itirdim səni, dözmürəm;
Həyatda itirsəm neylərəm görən?

*İyun, 1967*

***

Deyək, mən dönürəm!
Ürək ki, dönmür,
Axı, dil deyəni eşitmir ürək.
Zərrə bölünsə də gözə görünmür,
Əgər sən varsansa,
Mən varam demək!

Əgər mən varamsa...
Sənəm mən, ancaq
Necə paralanım, parçalanım mən?
Varlığım,
Yoxluğum
Sənsən,
Sən ancaq!
Söylə, varlığımı necə danım mən?

Əgər biz ayrılsaq,
Görüşəcəkdir
Xəyali dünyada fikirlərimiz.
Şeirimdə səslənən kölgəli xallar
Olacaq əbədi görüş yerimiz.

*İyul, 1967*

## UNUDAM GƏRƏK

Ayrıldıq... güc gəldi bizə hücumlar,
Ayrıldıq, usanıb tənədən, sözdən;
Bizdən razı qaldı yadlar, qohumlar,
Biz razı qalmadıq öz-özümüzdən.

Ayrıldıq... nəğməmiz qaldı yarımçıq,
Fikirlər pərişan, könüllər qırıq.
Ayrıldıq... de harda ləngidi zaman?
İndi nə sən sənsən, nə də mən mənəm.
Başımda tufanlar hayqırdığından,
Meyvəsi dəyməmiş tökülən mənəm.

Dağlara dırmanıb ardımca qoşdun,
Özgə buludlara qarışan mənəm.
Taleyin hökmüylə sən çox vuruşdun,
Bu ağır hökm ilə barışan mənəm.

Yandıran da mənəm, yaxılan da mən,
Döyən də,
Vuran da, yıxılan da mən!
Ayrıldıq...
Bilmədik,
Neçin,
Nədən biz?
Ayrıldıq...

Ayrılmaq istəmədən biz.
Yoxdur ürəyimdə sənə qəzəb, kin,
Yadıma düşməyir bəd əməllərin.
Nifrətsiz ayrılıq ayrılıq deyil,
Nifrətsiz ayrılıq vüsaldan şirin...

Gülüm, sevə-sevə ayrılırıq biz,
Ürək kökdən düşən tək simə bənzər.
Bizim gözü yaşlı, bədbəxt eşqimiz
Atalı-analı yetimə bənzər.

Deyirəm unudam səni mən gərək,
Mümkünmü?
Arzuya əməl tən gərək!
Unuda bilməkçün səni, sevgilim,
Təzədən doğulam, təzədən gərək!

*Nalçik. Avqust, 1967*

***

Sevsəydin,
Eşqinə dal çevirəndə
Öz qəlbin,
öz hissin danlardı səni.
Hesaba almazdın mənimtək sən də
Özgə danlağını, yad tənəsini.
Özgə tənəsinə dözə bilməyən,
Söylə öz tənəmə necə dözüm mən?

*Sentyabr, 1967*

## GÖR NECƏ GÜCLÜSƏN

I

Yatmaq istəyirəm...
Sənsizliyimi
Yuxu dənizində batırım deyə.
Yuxumsa kölgəni öz kölgəm kimi
İzləyir, qısqanıb səni hər şeyə.

Yuxum qaçaq düşüb məndən yan gəzir,
Yuxum küçələrdə sərgərdan gəzir.
Həsrətin asılıb kirpiklərimdən,
Yuxum da gəlmir ki, heç olmasa mən
İtirim, batırım səni yuxumda,
Məndən vəfalıymış sənə yuxum da.
Yuxum qaçaq düşüb yatammıram mən,
Yuxum qorxub qaçıb fikirlərimdən...

II

Gəzmək istəyirəm...
Sənsizliyimi
Yollarda itirim, unudum tamam.
Hara gedirəmsə, xatirən kimi
Ağır bir yük ilə qarşılaşıram.
Səni itirmişəm,

Neyləyim, ancaq
Hər zaman, hər yerdə
Görünür yerin.
Yox, dözə bilmirəm, dərd ondadır ki,
Özündən ağırdır xatirələrin.
Şirin xatirələr bir tikan təki
Yollara səpilib dəstəbədəstə.
Xatirən tikandır cızır qəlbimi,
Yoxluğun duz səpir yaramın üstə.
Yaddaşım elə bir günəş ki, gün ki,
Dünəni nur kimi görürəm aydın.
Deyirəm, yaddaşım elə ölsün ki,
Mənə dünənimi xatırlatmasın!

III

Gülmək istəyirəm... ürəyimdəki
Hönkürtü səsini batırmaq üçün.
Bilmirdim,
Məhəbbət bir cəllad təki
Mənim gülüşümü öldürmüş bütün.

Yandırdı könlümü bu soyuqluğun,
Var ikən, sağ ikən yox olmuşam mən.
Gör necə güclüsən, sənin yoxluğun,
Mənim varlığımı aldı əlimdən...

Başımda tufan var, könlümdə çovğun,
Arzu da, fikir də qaldı yarıda.
Gör necə güclüsən, sənin yoxluğun
Mənə ögey etdi doğmaları da.

Fərəhim, sevincim dünəndə qaldı,
Dərdimdə, qəmimdə yaşarsan mənim.
Yoxluğun gör necə qələbə çaldı,
Bu günüm ölüdür, yaşar dünənim!
Çaldım öz könlümü ayrı simdə mən;
İlişib qalmışam dünənimdə mən.

*Sentyabr, 1967*

## HƏYAT İSTƏYİRSƏN

Məhəbbət istədin bir zaman məndən,
Dedin ki, dar gəlir könlümə könlün.
Utanıb o böyük məhəbbətindən,
Mənim məhəbbətim böyüdü hər gün.

Elə böyüdü ki, kiçildi dünya,
Əriyib nöqtəyə döndü gözümdə.
İtirdim dünyanı,
Dünyam sən oldun;
Həm məni, həm səni tapdım özümdə.

Dəm tutub eşqinə, məhəbbətinə
Günbəgün böyüdü, yüksəldi eşqim.
Elə böyüdü ki, çatıb həddinə,
Sənin ürəyinə dar gəldi eşqim.

«Sözdən, məhəbbətdən mən toxam» - dedin,
İndi də sən məndən həyat istədin.
Səni qınamıram, darda, çətində
Torpaqdan üzülən torpağa dəymiş.
Görünür ən böyük məhəbbətin də
Ayağı torpağa söykənməliymiş!

Külün istisidir səni aldadan,
Çoxdan ürəyində od sönmüş, gülüm.
Mən indi qanıram,

Aman, əlaman!..
Həyat - məhəbbətdən üstünmüş, gülüm!

*1967*

***

Mənə bəxş eləyib məhəbbətini
A zalım,
Özümü aldın özümdən.
Edama çəkirsən hər saat məni,
Mənə bəxş etdiyin hədiyyənlə sən!

*1967*

## KƏPƏNƏK

### *(Xatirələr)*

*Emin Sabitoğlu bəstələmişdir*

Kəpənəklər uçub gedər,
Əlimizdə
İşıldayan toza bənzər xatirələr.
Payız gələr...
Yollar üstə səpələnən xəzəllərdən
Gah itən, gah üzə çıxan
İzə bənzər xatirələr...

Fikrimizin aynasında
Gah alçalır,
Gah yüksəlir xatirələr...
Gah olur ki, acılıqdan
Ürək dəlir xatirələr...
Gah həyatın özündən də
Əziz gəlir xatirələr...

Dağ başından gün əyilər,
Bir müddətsə istiliyi
Daş-divarda qalar ancaq.
Gənclik gedər,
Xatiratı könlümüzü alar ancaq...

Unudulmuş bir kədərli nəğmədəki
Qırıq-qırıq sözə bənzər xatirələr.
  Hərdən yanıb,
  Hərdən sönən
  Közə bənzər xatirələr.
  Cığırları dağa çatan
  Düzə bənzər xatirələr.
  Bir işıqsız gözə bənzər
  Xatirələr...

*Noyabr, 1967*

## AĞRILAR

Bir gözündə əzab, bir gözündə mən,
Hər saat qoyursan çəkiyə məni.
Bəli, sən hər şeyi tam istəyirsən,
Bölmək istəmirsən ikiyə məni.

Məni mənim üçün deyil, sən bu gün,
Məni də sevirsən yalnız özünçün.
Dərdin əqrəb oldu,
Eşqini çaldı.
Məhəbbət qurtardı, ağrısı qaldı,
Ağrı, tək bir idi, artdı, min oldu.
Ağrılar böyüyüb tələbin oldu.

Mənim könlümdəki saf duyğuları
Necə lənətlədin,
Aman! Əlaman!
Həmin o ağrıdır, həmin o ağrı
Məni təhqir edən, səni ağladan!

Bu incik məhəbbət bizə nə verdi?
Yorulduq!
Bir ona yanıram ki, mən,
Sənə elə gəlir - əzabı, dərdi
Verəni mənəmsə... çəkəni sənsən!..

Silməyə çalışıb könlündən məni,
Gələcək günlərə qanadlanırsan.
Mən başa düşürəm:
Bu gün sən məni,
Yolunun üstündə kötük sanırsan!

Bəlkə də haqlısan... ax!... Bu bəlkələr!..
Sözüm yox! Təmizlə sən öz yolunu.
Mən ondan qorxuram: neylərsən əgər,
Boşluğa dirənsə bu yolun sonu?!.

*May, 1968*

## MƏN NİYƏ BELƏYƏM?

Mən niyə beləyəm?
Öz qədərimdən
Biryolluq usanıb üzülüşmədim.
Hamını hiss edən, başa düşən mən,
Özümü bir dəfə başa düşmədim.

İşə bax! Haqlıykən olmuşam nahaq!
Həmdəmin yanında qısadır dilim!
Sonsuz səfərdəyəm,
Bilinmir, ancaq,
Sonuncu düşərgəm, axır mənzilim!

Mənzil axtarırkən arzularıma,
Dönüb özgələrə mənzil olmuşam.
Dəldi qulaqları naləm, fəryadım,
Bəmə qaça-qaça mən zil olmuşam.

Ürək parçalandı, ömür gödəldi,
Öz arzum cücərdi, bağrımı dəldi;
Hamıya, hamıya yazığım gəldi,
Amma öz-özümə qatil olmuşam.

Aşdı çılğınlığım yenə də həddən,
Bu dərdim od alıb yandı o dərddən.
Ayıltmaq istədim xalqı qəflətdən,

Heç demə, mən özüm qafil olmuşam.
Bəxtiyar, əlimdə qəzəb qamçısı,
Gözümdə qəlbimin atəş damcısı,
Bir yandan özümün ittihamçısı,
Bir yandan özümə vəkil olmuşam!

Sevdim, ucalmadım, alçaldım ancaq -
Bu eşqin gücünə mən, mən olmuşam.
Sən bir taledəki dönüklüyə bax,
Sevdiyim insana düşmən olmuşam.

Məni vurmaq üçün işə baxın ki,
Eşqim dost əlində qılınc olubdur.
Hamının başını ucaldan sevgi
Mənimsə başıma qaxınc olubdur.

*May, 1968*

## DƏNİZ - SAHİL

Yolda da, kolda da ayaq izin var,
Sənin yüzmü gözün, minmi gözün var?
Qaçıb gizlənirəm səndən, ax, yenə,
Hər küncdən, bucaqdan baxırsan mənə.

Səndən necə qaçım? Hara qaçım mən?
Gözlərin hər yerə səpələnibdir.
Axı, sən ki mənim öz içimdəsən,
Dəniz sahil üçün ləpələnibdir.

*Yanvar, 1968*

***

Həftədə neçə yol, gündə neçə yol
Küsüb barışırıq, belə dərd olar?
Sevda aləmində bu, günah deyil,
Ağıl namərd olar, ürək mərd olar.

Təhqirlər, təhdidlər, tələblər bol-bol -
Yenə əfv edirəm, de, nədən səni?
Həftədə neçə yol, gündə neçə yol
İtirib tapıram təzədən səni.

İtdi, əldən getdi şərəf də, şan da,
Necə bağlanmışam, necə mən sənə!..
Hər dəfə itirib səni tapanda,
Vallah, vuruluram təzədən sənə.

*Avqust, 1968*

***

Axı, uzaqdayam... sənə sözüm var,
Bir yol zəng eləsən, axı, nə olar?
Bilmirdim, nə qədər dönükmüş üzün,
Bəs sənin heç yoxmu mənə bir sözün?

Boşalmaq istərmi ürək dolmasa?
Səni tərpətmədi bunca davalar?
Əgər sözün yoxsa...
Sən heç olmasa
Soruş, necə keçir burda havalar?

Dağ seli dağlanar dar dərələrdə,
Düzənə çıxmasa, durula bilməz.
Səni qınamıram, düzü, bu yerdə,
Eşqsiz ürəkdə söz ola bilməz.

Necə bacarırsan, necə dözürsən?
Əsəbin, ürəyin de daşdanmıdır?
Anlaya bilmirəm,
Damarlarından
Axan üz suyumu, yoxsa qanmıdır?

Bunu da oxuyub gülərsən yəqin,
Mənəm danlayan da, mənəm sevən də.
Poladdan əsəbin var imiş sənin,

Kaş sənin xislətin olaydı məndə.

*Noyabr, 1965*

**ÖZÜM-ÖZÜMÜ DANDIM...**

O gün... o müdhiş gün...
Sevərək səni,
Üstünə təhqirdən od ələdim mən.
Sənin on beş illik ümidlərini
Arzunu, hissini güllələdim mən.
İndi mən özümü dandım büsbütün,
Başqa cür baxıram indi aləmə.
Mənim söhbətimin, mənim sözümün
Dadı da, duzu da sənsənmiş, demə...

Söndü sinəmdəki o od, o ocaq,
Boş bir qovuq kimi havadayam mən.
İnsan nəfəsindən uzaq, çox uzaq,
Vulkanı soyuyan bir adayam mən.

Ağlım ürəyimə necə qıyıbdır,
Mən özüm-özümə bir yük olmuşam.
Sinəmdə ürəyim buz bağlayıbdır,
Budağı budanmış kötük olmuşam.

Nə çiçək oxşayır, nə ulduz məni,
Fikirlər dağılmış, xəyallar enmiş.
Yerin də, göyün də gözəlliyini
Sənin gözlərinlə mən görürəmmiş.

Gecələr düzülür sapa fikirlər,
Yorğanım daş olur, döşəyim tikan.
Səhərlər gözümü açıb dünyaya
Qalxmaq istəmirəm heç yatağımdan.

Yatmaq istəyirəm, yatmaq, bax elə
Gözümü zilləyib tavana baxım.
Mən hansı arzunun təlatümüylə
Əynimi geyinib qapıdan çıxım?

Qaçıram, qaçıram, səhərlər mənə
Bir deyən olmasın - «Sabahın xeyir».
Axı, sabahını itirən yazıq,
Sabahdan şər umur, xeyir istəmir.

Elə bil dayandı yolu ömrümün,
Buna can atırdım... bəs arzu nəydi?..
Həsrətlə, vüsalla dolu ömrümün,
Mənası itincə, özü itəydi...

İndi yolum düzdür... nə dağ, nə dərə...
Bu başdan baxanda, o baş görünür.
Kaş qismət olaydı istəyənlərə
Enişsiz, yoxuşsuz, dalğasız ömür...

Həyat çırpıntıymış... onun hər günü,
İllərin yükünü çəksə, nə dərdim...
Mən Qorqud olsaydım, sevgi sözünü
Yaşamaq sözünə cinas edərdim.

*Sentyabr, 1968*

## İLTİMAS

Yox-yox! İstəmirəm zəng çalım sənə,
- Necə? İstəmirəm?..
- Axı, nə deyim?
Yalan danışıram, ağ yalan yenə,
Gülürəm özümə, necə gülməyim?

Yox-yox! İstəmirəm... Neçin mən səni
Yerindən oynadım?..
Yenə ağ yalan!
...Nə zaman yığmışam bəs bu nömrəni,
Xəbər tutmamışam barmaqlarımdan.

Zəng çalan barmaqmı? Yox-yox! Ürəkdir,
Yazıq barmaqların nə günahı var.
Ürək dediyindən dönməyəcəkdir...
Dönəndə... Özünü danır adamlar.

Özümü danmışam... can verir ürək,
Hələ ki, ölməyib, can verir müdam.
Əvvəlcə qəlbimi öldürüb gərək
Sonra qara geyib ona yas tutam.

Yox, yetim deməmə, deməmə yenə,
Atası, anası ölənlərə mən.
Ən böyük yetimdir inanın mənə,

Sevgisi yaşayan, ümidi ölən.
Baş açmaz bu dərddən, vallah, fələk də,
Ağlım ürəyimə gör necə qıydı.
Deyirəm, ümidlər ölən ürəkdə
Məhəbbət özü də yaşamayaydı...

Neyləyim, neyləyim, bir cəllad kimi,
Öldürə bilmirəm məhəbbətimi.
Böyüyüb ürəyə dar gəlir həsrət,
Hər yerdə özünə güman axtarır,
Məqam axtarır,
Ürəkdə ölməyən böyük məhəbbət,
Həmişə özünə ümid axtarır,
İnam axtarır.

Eşqi yox, özümü dəfn etmişəm mən,
Qəbrimin üstündə dikələn daşam.
Gileyim, güzarım yoxdu kimsədən,
Mən özüm-özümdən bezar olmuşam.

Məhəbbət oyunmu, bir qumarmı ki -
Uduzan, oyuna buraxılmasın?
Bakıda elə bir küçə varmı ki,
Bizim xatirəmiz orda olmasın?

Dodaq cadar-cadar, qəlb oyuq-oyuq,
Tarix yaşamışam həsrətdən bəri.
Ayağım altında daşları yox, yox,
Mən basıb keçirəm xatirələri.

Sürünüb yaşamaq olarmı bunca?

Əzab vadisində sanma ki, təksən.
Sən bir mahnısan ki, ömrüm boyunca
Mənim qulağımda səslənəcəksən.
Həzin iniltisən sarı simdəki,
Od axır, qan sızır hər guşəsindən.
Daşıya bilmirəm ürəyimdəki
Boşluqdan duyduğum ağırlığı mən.

Soyuyub ocağım, sönüb çırağım,
Ayrılıq anında dayanıb zaman.
Üzülüb hər yerdən əlim, ayağım,
Könül boşluğunun ağırlığından.

Dərdimsən, dərdimə dolub dirildim,
Dözümsüz həmişə özünü öymüş...
Həsrət düyünündə bir bunu bildim:
Dərdimin dərmanı dərdin özüymüş...

Ümid bəzək olsun həsrətimizə,
Həmişə qorxubdur ümiddən ölüm!
Hər şeyin əvvəli məlumdur bizə,
Nəyin axırını bilirik, gülüm?

Zəngin ürəyimi, kasıb ağlımı,
Hələ keçirirəm dərd çəmənindən.
Eşqin bıçağıyla kəsib ağlımı
Qəlbimə yedirib gəlməliyəm mən.

*Noyabr, 1969*

***

Nə məni anladın, nə məni duydun,
Sən mənim könlümü xaraba qoydun.
Kimi qınamalı?
Yox-yox! Heç kəsi!
Öz könlüm özümdən indi uzaqdır.
Məhəbbət! Məhəbbət - barıt zərrəsi,
Ürəyə düşdümü, partladacaqdır!

Mənim bu ağ saçlı, qədim eşqimin,
Başında qapqara bir duman ağlar.
Tutub matəmini yetim eşqimin,
Xaraba könlümdə bir kaman ağlar.

Susdurdum könlümün istək səsini,
O, önü kəsilən bir çaya bənzər.
Könlüm öz əlilə öz körpəsini
Boğub matəm tutan anaya bənzər.

Çaşmışam,
Mənimçün saat yox, gün yox,
Bəs ağlım nə ilə öyünür indi?
Elə bil ürəyim duymaq üçün yox,
Hissini boğmaqçün döyünür indi.

Günlərim uzandı, səbrim gödəldi,
Görəsən ömrümün qışımı gəldi?

Kəsdi yay yağışı, dayandı tufan,
Niyə şimşək çaxmır, göy guruldamır?
Qışın üryan qalan budaqlarından,
Qəlbimə hərdənbir damcılar damır.
Məni diksindirir bu damcılar da
Ötən təlatümüm, hardasan, harda?

Düşdü ayaqlara, süründü naçar
Mənim min sevdalı, min sirli könlüm.
Gör necə qısılıb sinəmə lal-kar,
Bir zaman haraylı, həşirli könlüm!

*1969*

## YARPAQLAR TÖKÜLÜR

Yarpaqlar tökülür,
Susur,
Lal olur
Dağlardan süzülən şır-şır bulaqlar.
Yarpaqlar tökülür, bir xəyal olur,
O ötən əyyamlar,
Fərəhli çağlar...

Yarpaqlar tökülür,
Saralır bütün
Örüşlər,
Cığırlar,
Yallar,
Yamaclar.
Yarpaqlar tökülür,
Susur günbəgün,
Dodağı nəğməli, səsli ağaclar.

Yarpaqlar tökülür,
Çılpaq budaqlar,
Başını qaldırıb, göyə dikəldi.
Göründü sinədə bozaran dağlar,
Mənim də eşqimin payızı gəldi.

Yarpaqlar tökülür,
Tökülsün nə qəm!
Ağlama torpağın ahu-zarına.
Könül budağından qırılıb düşən,
Sapsarı məhəbbət yarpaqlarına
Ağla,
Ağla sən!
Ağaclar:
- O günlər hanı, bəs hanı? -
Deyə gileylənir bir yetim təki.
Ağaclar tökdükcə yarpaqlarını,
Çoxalır dərd yükü,
Artır qəm yükü!..

Həsrətdir ürəyim, həsrətdir oda,
Yazıq! Kirpiyimlə mən od götürdüm.
Çıl-çılpaq üşüyən budaqlarda da
Soyuqdan üşüyən könlümü gördüm.

Qısılıb sinəmə bağrında al qan,
Üşüyən ürəyim yatır, dincəlir.
Nəğməsiz qalan
Çıl-çılpaq məhəbbət budaqlarına
Yazığım gəlir.

*Oktyabr, 1969*

***

«Qaşına, gözünə bu vaxtımda mən,»
Tərifmi söyləyim?
Nəyə gərəkdir.
Tərif də solğundur gözəlliyindən,
Sözlərə nə hacət? Sevən ürəkdir!

Hələ yazmadığım şeirim kimi sən,
Coşqun ilhamıma sətir-sətir gəl.
Təpədən-dırnağa sən ilk baharsan,
Bu xəzan könlümə bahar gətir, gəl.

*1969*

## BU ULU DÜNYA

Yaxşı ki, sən varsan, şükr edəm gərək,
Sən varsan,
Mən varam,
Dünya var demək!

Yaxşı ki, dünyada sən də yaşarsan,
Nə ilə dolardı yoxsa bu dünya?
Sənin gözlərinlə gözünü açdı
Bu ayıq dünyaya yuxulu dünya.

Yaxşı ki, hissimiz aşıb-daşıbdır,
Ürəklər, diləklər yaxınlaşıbdır,
Sənin qədəminlə cavanlaşıbdır,
Bu uca,
Bu qoca,
Bu ulu dünya.

*1969*

***

Bu nə yoldur? Dolanır tərsinə süzgün günəşim,
Bu nə yoldur o tutub? Dön geri, tez dön, günəşim!
Sevgilimdən küsüşüb gen düşəli,
Günbatandan doğur hər gün günəşim!

*1969*



# QƏZƏL
# QOŞMA, GƏRAYLI

*Görüb dağ gölünü düşündüm səni*
*Görmədim suyunun təmizliyini.*
*Dibindəki daşlar aldatdı məni,*
*Əfv elə, dərini dayaz bilmişəm!*



***

Yenə bağlar o bağlardır, fəqət bağda gülüm yoxdur,
Gülüm yoxdur, bu dünyada ayım yoxdur, ilim yoxdur.

Zaman dönməz öz hökmündən... Biz ayrıldıq, tez ayrıldıq,
Dilim bar verməz, ay dostlar, deyəm ki, sevgilim yoxdur.

Çiçəklərdən, küləklərdən mən allam ətrini yazın,
Dilək ölməz, ürək ölməz, sevənlərçin ölüm yoxdur.

Gülüm, əğyar qılıncıyla sevərkən ayrı düşdük biz,
Bu həsrətdən, bu möhnətdən daha müdhiş zülüm yoxdur.

Sevib yandım, külək qalxdı, külüm sovruldu əflakə,
Məni gəzmə bu dünyada, odum söndü, külüm yoxdur.

Ağac yansa, fəqan eylər, deyər öz dərdini aşkar,
Deməkçün dərdimi yarə, bəmim varsa, zilim yoxdur.

Səninlə Bəxtiyaram mən, ayım sənsən, ilim sənsən,
Bu dünyada mənim sənsiz ayım yoxdur, ilim yoxdur.

*Oktyabr, 1961*

***

Ən ülvi, təmiz duyğudur insanda məhəbbət,
Ömrün yoluna nur səpir hər anda məhəbbət.

Dünya da məhəbbətlə dönür, fırlanır, ancaq
Məhvər də məhəbbətdi, bu dövran da məhəbbət.

Ad-san da, şərəf-şan da bir övladıdır eşqin,
Şövkət də məhəbbətdi, gülüm, şan da məhəbbət.

Min yol de ki, sev! Sevgidir insanı ucaldan,
Yox faidəsi, yoxsa əgər canda məhəbbət.

Həm zövqüdür, həm cövrüdür ömrün, o, həyatın;
İnsanı ucaldan da, qocaldan da məhəbbət.

Dünyanı gözəlləşdirir öz cilvələriylə,
Xoşdur duyan insana xəyaldan da məhəbbət.

Mən Bəxtiyar oldum o zamandan ki, sevildim,
Min can yaşadır əzmlə bir canda məhəbbət!

*May, 1963*

***

Bu qədər saldı məni həsrət amandan-amana
Könlüm axırda mənim düşdü gümandan-gümana.

Neçə alim yazıb öz dərdini izhar elədi,
Aşiqin dərdi fəqət keçdi zamandan-zamana

Dərdü-qəmdən usanıb düşdü könül hicr oduna,
Eləyək indi şikayətmi yamandan-yamana?!

Səni gördükdə mən ancaq belə dil-dil ötürəm,
Boşalır göydə buludlar da dolandan-dolana...

Demərəm görməmişəm mən səni çoxdandı, gülüm,
Görürəm surətini yalqız olandan-olana...

Könlümün üstə düşən kölgələr əlan silinir,
Başımın üstünə sən kölgə salandan-salana.

Neçə yol vədə verib əhdə vəfa qılmadı yar,
Bəxtiyar! Qəlbin axır düşdü talandan-talana.

*Sentyabr, 1963*

***

Könlüm, niyə sən gözlərin əsrarına uydun,
Öz cilvəli, hikmətli gözündən xəbərin yox.

Ruhun, xəyalın səndən uzaqlarda gəzir hey,
Bədbəxt, bu nə dərddir, öz-özündən xəbərin yox?

Yandın, yenə yandın, güman etdin ki, kül oldun,
Sönmüş külün altında közündən xəbərin yox.

Billah, daha bezdim, mən usandım, dedin, ancaq,
Tərkində coşan od dənizindən xəbərin yox.

Zənn etmə ki, eşqin səni bezdirdi tək, ancaq
Arxanda qalan tozlu izindən xəbərin yox.

Bəxtin sənə yar olduğuna çox da inanma,
Keçmiş sənə yar oldu, bu gündən xəbərin yox.

***

Hikmətli sözün hər biri min-min sözə rəhbər,
Mirvari olur göz yaşı dəryayə düşəndə.

Can tazələnir, qəlbə doğur tazə günəşlər,
İnsan ürəyi bir yeni sövdayə düşəndə.

Könlümdə şəfəq oynar, o yarın gəlişindən,
Hər gündə mənim çiynimə bir sayə düşəndə.

Mən boş yerə tutqun deyiləm, ay tutular tez,
Yerdən üzülüb kölgə bir az ayə düşəndə,

Eşqim mənim amalım olubdur, bunu danmam,
Bəs neyləyək amalımız əmmayə düşəndə?

Kim olsun harayçın sənin, ey Bəxtiyar, ağlın
Hissinlə durub üz-üzə qovqayə düşəndə?..

***

«Gəl-gəl» - deyə hicrində kaman tək mələdim mən,
Bir ömrü sənin eşqinə qurban elədim mən.

Asudə tifildin, nə qəmin vardı, nə dərdin,
Dərdimlə sənin gözlərini sürmələdim mən.

Hissim sənə «gəl-gəl» dedi, əqlim dedi «get-get»,
Bu qanlı döyüşdən mənə imdad dilədim mən.

Eşqim də qaxınc oldu mənim başıma hər gün,
Bir eşqin ucundan nə qədər tənə yedim mən.

Öz hissini dustaq eləyən Bəxtiyar olmaz,
Öz könlümü öz eşqimə zindan elədim mən.

*Fevral, 1969*

## BƏXTİYARAM MƏN

*(Səninlə)*

Ömrün payızında sevdim, sevildim,
Elə bilirəm ki, ilk baharam mən.
Arxanca sürünən kölgənəm sənin,
Harda qərar tutsan, orda varam mən.

Mey olsan, yanında bir qədəh ollam,
Gül olsan, çətrini öpən meh ollam.
Ot olsan, bir anda dönüb şeh ollam,
Dağ olsan, zirvənə yağan qaram mən.

Başımı qoyaram gündə yüz kərə
Bir yol ayağını basdığın yerə.
Eşqindir ucaldan məni göylərə,
Bu eşqin gücünə minnətdaram mən.

Sevgiyə hədd qoymaq, düzü günahdır,
Cahilin hər işi, sözü günahdır.
Eşqi günah saymaq özü günahdır,
Kim deyir, eşqimdə günahkaram mən?

Özün bir aləmsən, eşqin bir aləm,
Sən olan könüldə nə kədər, nə qəm!
Sənsiz bu dünyanın ən bədbəxtiyəm,

Səninlə dünyada bəxtiyaram mən.

*Dekabr, 1962*

## KÖNLÜM

*R.Mustafayev bəstələmişdir*

Ucaldır göylərə, ucaldır məni,
Gah coşur, gah susur, gah yanır könlüm.
Məsləkim yolunda bir əsgər kimi
Həmişə mərdanə dayanır könlüm...

Bəzən həftələrlə susub dinməyir,
Bəzən də göylərdən yerə enməyir.
Gecəsi, gündüzü heç bilinməyir,
Gah vaxtlı, gah vaxtsız oyanır könlüm.

Gülür ah içində, aman içində,
Elə bil gün doğur duman içində.
Dörd fəsil yaşayır bir an içində,
Görəsən, özünü nə sanır könlüm?

Ey vəfalı dostum, yaşa, min yaşa!
Görüm hər arzumuz tez gəlsin başa.
Gecələr mənimlə verib baş-başa
Səhərin rənginə boyanır könlüm.

*Aprel, 1965*

## SƏN GETDİN

Sən getdin, elə bil dünya boşaldı,
Yaz da köçüb getdi, yeri boş qaldı.
Bahar ürəyimi sənsiz qış aldı,
Mən yaza vurğunam, qışı neylərəm?

Eşqimi aparıb sən getdin demək,
Eşqsiz bir könül nəyimə gərək?
Soyuq daşa döndü o gündən ürək,
Sinəmdən asılan daşı neylərəm?

Həmişə ayrıyıq, gecə-gündüzük,
Birimiz təpəyik, birimiz düzük.
Üstünün qaşıyla tanınar üzük,
Əgər üzük yoxsa, qaşı neylərəm?

Niyə yaşayıram, mən niyə sənsiz?
Nə yerə baxmaram, nə göyə sənsiz.
Mən ki kor olmuşam hər şeyə sənsiz,
Kor gözün üstündə qaşı neylərəm?

*Mart, 1967*

## SƏNİN DİLİNDƏN

İllərlə bir eşqin cövrünü çəkdik,
Ayrılsaq, gün sönər, il qınar bizi.
Eniş-yoxuşunu bir ötdüyümüz
Yollara nə deyək, yol qınar bizi.

Sən dedin, başlanan qurtarsın gərək!
Mən dedim, doymayır arzudan ürək!
Birgə əkdiyimiz gülü dərməsək
Tikanlar əl çalar, gül qınar bizi.

Bəs deyil bu ələm, bu kədər mənə,
Elədin dünyanı sən hədər mənə.
Gözəl sözlər dedin nə qədər mənə,
Gəl indi danlama, dil qınar bizi.

Çox çəkə bilmədik nazını eşqin,
Qış gəlib, yaşadıq yazını eşqin.
Yamanca sındırdıq sazını eşqin,
Bilmədik, axırda tel qınar bizi.

Dedin ki, eşqimlə bəxtiyaram mən,
Dedin ki, dönmərəm qəlbin səsindən.
İndiysə çəkinib el tənəsindən
Deyirsən, ayıbdır, el qınar bizi.

*İyul, 1967*

***

Beş-on ulduz görüb qış gecəsində
Yağmurlu havanı ayaz bilmişəm.
Qaraya o qədər öyrənmişəm ki,
Mən yazıq bozu da bəyaz bilmişəm.

Görüb dağ gölünü düşündüm səni,
Görmədim suyunun təmizliyini,
Dibindəki daşlar aldatdı məni,
Əfv elə, dərini dayaz bilmişəm!

Çox vaxt təpə dedim yastı dağlara,
Yazdıq qara dərdi ağ varaqlara;
Aldanıb zahiri təmtəraqlara,
Mən sənin qədrini çox az bilmişəm.

*1967*

## OLURMUŞ

Nə yaman, nə çətin günlərə qaldım,
Sevginin düşməni min-min olurmuş.
Gümansız gümanlar, qansız şübhələr
Sevənin qəlbində çin-çin olurmuş.

Qırıldı arzular, öldü inamlar,
Qaldı aramızda quru salamlar.
Məni başa salın, siz ey adamlar,
Bəs nə vaxt sevənlər mətin olurmuş?!

Mən haqqı itirdim güman içində,
Azdım öz yolumu duman içində,
Sevəndə sevirik bir an içində,
Unutmaq nə qədər çətin olurmuş.

Bəxtiyar, düşündün, ərisin gərək
Sevənin mənliyi suda şəkər tək.
Sən yenə yanıldın, sevilən ürək
Qatildən beşbətər xudbin olurmuş.

*Yanvar, 1968*

## ZALIM

Sinəndən asılan dəmirmi, daşmı,
Odun parçasımı, könülmü, zalım?
İnsafdan, vicdandan çox danışardın,
Bəs kimdən öyrəndin bu zülmü, zalım?

Hicrana darıldın, vəslə tələsdin,
Zülmət dolaylarda yolumu kəsdin.
Bilmirəm, özün de, sənin bu qəsdin
Açıqca ədavət deyilmi, zalım?

Mən elə bildim ki, səbrin var sənin,
Dedim, əzab mənim, intizar sənin,
Dözsən, olacaqdır Bəxtiyar sənin,
Dözmədin, gözləmək müşgülmü, zalım?

*1968*

***

Biryolluq könlündən sil məhəbbəti,
Deyənlər könlümü nə sanır mənim?
Qəlbim bu sövdadan nə keçə bilir,
Nə atır, nə tutur, nə danır mənim.

Məcnuna nə var ki, o düşdü dərdə.
Qınayan olmadı onu bu yerdə.
Gör necə bədbəxtəm, bu çək-çevirdə
Eşqim, məhəbbətim qınanır mənim.

Deyirlər, möhkəm ol bu qovqalarda,
İradə insanı qoyarmı darda?
Mən necə bədbəxtəm, görün bir harda
İradəm, mərdliyim sınanır mənim.

*Avqust, 1968*

## ÖZ İÇİNDƏDİR

Gəl qışa «zəhrimar», yaza «can» demə,
Qışın dəhşətləri yaz içindədir.
Enişdə yoxuş var, yoxuşda eniş,
Ən böyük atəş də buz içindədir.

Yüz təpə boyu var bir uca dağda,
Yaxından yaxındır bəzən uzaq da.
Nifrət də, sevgi də, qara da, ağ da,
İşıq da, zülmət də göz içindədir.

Daş da qiymətlənir əldən gedəndə,
Mələk də səndədir, şeytan da səndə.
Yaxşı da, yaman da, dost da, düşmən də
Sənin öz içində, öz içindədir.

*1969*

## BAKIYLA TƏBRİZİN ARASINDAYAM

Mənim qismətimdir alatoranlıq,
Gecəylə gündüzün arasındayam.
Qurulur içimdə mizan-tərəzi,
O gözlə, bu gözün arasındayam.

Yollar ayrıcında çox talanmışam,
Fikirlər əlində haçalanmışam.
Təpədən qorxmuşam, düzü danmışam,
İndi dağla düzün arasındayam.

İlişib qalmışam qəm çalasında,
Bir gözəl tilsimin daş qalasında.
Həmişə qapılar astanasında,
Bayırla dəhlizin arasındayam.

Bəxtiyar, sinəndən neçə «mən» keçir;
Biri dərdli keçir, biri şən keçir.
Məftilli çəpərlər sinəmdən keçir,
Bakıyla Təbrizin arasındayam.

*May, 1969*

## DƏLİ

Heç demə axırda namərd olurmuş,
Eşqində, sözündə mərd olan dəli.
Ölüb qurtaraydı məhəbbətinin
Adı dodağında vird olan dəli.

Sevən ürək ki var, daş ola bilməz,
Günü-güzəranı xoş ola bilməz.
Min dərin ah çəksə, boşala bilməz,
Dünyanın dərdinə hər dolan dəli.

Mənə əzab verin, əzab, hər zaman
Əzabın qədrini nə bilir nadan.
Rahatlıq istəməz, axı, dünyadan
Sevib sevilməkçün doğulan dəli...

Bəxtiyar, usanma, dözüm vaxtıdır,
Eşqim, min fikrimin bir paytaxtıdır.
Deyirəm, dünyanın ən bədbaxtıdır,
Dərdinin dərmanı dərd olan dəli.

*Noyabr, 1969*

## DAĞLARIN

Üstündə ahı var neçə qəribin
Çeşməli dağların, sulu dağların.
Dövləti, sərvəti başından aşdı,
Yaşıl yarpağıdır pulu dağların.

Hər qara daşının min bir sirri var,
Tarix də yaşını ondan borc alar.
Bilməz yaş yetirən ulu babalar
Yaşını, sirrini ulu dağların.

Göylər nərildəyib nərə təpəndə
Heyranam dağların hüsnünə mən də.
Yağış çisələyər şəhərə, kəndə,
Döyər zirvəsini dolu, dağların.

Dibini sel oyar, başını rüzgar,
Sınmaz heç ondakı əzəmət, vüqar.
Əyilməz başını daim dik tutar,
Əyilər, burular yolu dağların.

Elə ki çalması başdan sürüşdü,
Gördüm sağı qaya, solu örüşdü.
Aşıq Ələsgərin yoluna düşdü,
Oldu Bəxtiyar da qulu dağların.

*Şəki. İyul, 1962*

## QOCALMIR

Qocaldır insanı, qocaldır zaman;
Ürəyin atəşi, közü qocalmır.
Dağları, daşları qocaldan zaman,
Bilmirəm, bəs niyə özü qocalmır?

Getdi baharımız, yer qışa qaldı,
Düzlər qara qaldı, yağışa qaldı.
Bizimki bir quru baxışa qaldı,
Neyləyək arzunun gözü qocalmır.

Bəxtiyar, düşünək biz dərin-dərin,
Xəyallar möhtəşəm, arzular şirin.
Əsl sənətkarın, əsl şairin
Özü qocalsa da, sözü qocalmır.

*1965*

## BƏHANƏDİR

Dişlərim töküldü, saçım ağardı,
Yaşın nə günahı, yaş bəhanədir.
Taleyim daş atdı, başımı yardı,
Buna daş neyləsin, daş bəhanədir.

Bəzən baharda da saralır yarpaq,
Taleyin əlində hər şey oyuncaq.
İnsanı öldürən əcəldir ancaq,
Azar da, bezar da boş bəhanədir.

Lağ etmə bədbəxtə, gülmə nakama,
Bədbəxt can atmaqla yetişməz kama.
Bəxtimdən qar yağdı ömür bağçama,
Buna qış neyləsin, qış bəhanədir.

Mən qüzeyli oldum, arzum güneyli,
Ona çatammadım, çalışdım xeyli.
Bəxtiyar, bəxtindən oldun gileyli,
Bu da sənin üçün xoş bəhanədir.

*1965*

## OLMUŞAM

Biz ikimiz bir can idik,
Ayrılmışam, min olmuşam.
İlahəsən, indi sənə
Çatmaq üçün din olmuşam.

Öz yolumu bilən idim,
Sükan idim, yelkən idim.
Bir zamanlar Mən Mən idim,
İndi dönüb sən olmuşam.

Nə gecəm var, nə gündüzüm
Ayrılığa necə dözüm?
Çığırdıqca indi özüm
Səs olmuşam, ün olmuşam.

Dəniz kimi çalxalandım,
Qaya kimi lal dayandım.
Ayrılığı əlac sandım,
Görürəm ki, yanılmışam.

*Noyabr, 1969*

## BİR GÜL İLƏ YAZ AÇILMAZ

Bir evdə ki, könül ağlar,
Toy-düyündən söz açılmaz.
Nəslik elə nəs gətirər,
Ah-amandan göz açılmaz.

Nəfəsi də al dərindən,
Dağı oynat öz yerindən.
Sərçələrin ləpirindən,
Qar üstündə iz açılmaz.

Ürəyimiz oldu şan-şan,
Aldığımız bu yaradan,
Hər ötərgi macəradan,
Ürəklərdə köz açılmaz.

Düşündükcə aram-aram:
O tay üçün göynər yaram.
Çox da ki, mən Bəxtiyaram,
Bir gül ilə yaz açılmaz.

*Noyabr, 1961*

## YARI XƏZƏL,
## YARI YARPAQ

Neçin düşdün budağından,
Neçin düşdün, sarı yarpaq?..
Sürünürsən ayaqlarda
Yarı xəzəl, yarı yarpaq?..

Külək əsdi, səni kəsdi,
Yox etməkmi səni qəsdi?
Öz hökmündə o tələsdi,
Ağacların barı yarpaq...

Quşlar köçür dəstə-dəstə,
Könlüm özgə bir həvəsdə:
Kaş yerdə yox, ağac üstə,
Salamlaya qarı, yarpaq...

*Dekabr, 1966*

# KİTABIN İÇİNDƏKİLƏR

**ÖN SÖZ** *(Tərtibçi-redaktordan)*___________________3

**ƏLVAN ÇIÇƏKLƏR**

Dağda şəlalə kimi______________________________15
Kimdir mənim düşmənim?_______________________18
Özümdən narazıyam___________________________20
Mən onu dəyişmərəm__________________________22
Sən bilirsən, mən duyuram______________________28
Bakı_______________________________________29
Torpaq_____________________________________30
Yüz ömrün səsidir____________________________31
Ey şair, sən haqlısan__________________________33
Günbatandan gündoğana________________________36
Tarix kitabı_________________________________37
Rəisin masası_______________________________42
Göz yaşı ___________________________________44
Həkimlə söhbət______________________________48
Gözəllik____________________________________51
Son nöqtə__________________________________53
Qoy ömrüm ötüşsün boranda, qarda________________54

Keçmiş-gələcək 56
Təbrik 47
Özünə xəyanət 59
Günün ayaq səsləri 61
İstəyirəm 63
Gülüşlər 64
Vağzalı 66
Ucalıq 68
Dağ çiçəkləri 70
Yağış və torpaq 72
Göygöl 74
Zəhmətimiz 77
Borc 78
Bethoven haqqında şeirlər 79
Qədir 84
Ana hədiyyəsi 86
Tar səsi 87
Vətəndən-vətənə 88
Karvan gedir 89
Səadət nədir? 93
«Dəyişir donunu, dəyişir aləm» 95
Səməndər 96
Anam haqqında şeirlər 97
Göy-yer 103
«Adamlar içində darıxıram mən» 104
Saxla, saxla fırçanı 105
Təyyarədən yerə baxanda... 107
Ağıl-göz 109
İnsan 110

Çox da öyünmə ki... 111
Bəlkə doya ürəklər 112
Dünyanın sərhədi 114
Bir arzunun naminə 115
Yarpaq-xəzəl 116
Bizim gözəl nəğmələr 118
Gecənin sağlığına 120
Habil segahı 122
Payız lövhələri 125
Mənim şeirim 127
Tülu-qürub 129
Al günəşin sağlığına 131
Oğul köməyi 134
Gecə günəş yatır ki... 136
Şeirim - imanım mənim 138
Özümüzdən öyrənək 140
Şəhriyara 143
Sökün çəpərləri 146
Novruz qarı 147
İstiliкölçən 148
Dan yeri ağarır 149
Gözəllik bəxşişdir 150
Nifrətim 151
Xəyalım mənim 153
Qarağac 155
Karusel 156
Qəmərvan 158
Nə sən gülsən, nə mən bülbül 161
Sükut 164

«Çox eşit, az danış» 165
Özümü axtarıram 166
Səadət haqqında düşüncələr 168
İtlə at haqqında «ballada» 171
Qəlbini gen saxla 172
Meşə yolu 173
«Qadir insan» 174
Üzük 175
«Fikirlisən?» 176
«Bu nə iniltidir, bu nə nalədir» 177
Həyatı yaşa 178
«Kitabdan qaçıram...» 179
Söndürmə 180
Van Klibernə 181
Xalq artisti Lütvəli Abdullayevə 182
Təyyarələr 183
Vəzifə 185
O təmiz izlər 187
Qız qalası 188
«Açılır səhər» 189
Ucalıq, uzaqlıq 190
Ürəyim ağrıyır 191
«Ömrümüz qısadır bir nəfəs qədər» 192
Təkərlər üstündə 193
Dağ və mən 194
Azərbaycan oğluyam 196
Nəsənsə, özün ol 201
Deyirlər 205
«Ömür çox qısadır...» 207

«Körpülər var» 208
«Bülbül, min il şerimizdə» 209
Mübarək 210
Qarğa - bülbül 213
İki çinar 214
Mən hazıram!.. 215
Ekranda görüş 221
Meşin qapılar 222
Qışda ilan 224
Ümid 225
Bəlkə də 227
«Hə» ilə «yox» arasında 228
«Telefon zəng çalır...» 231
Şair - vətən 232
Miz arxasında 234
Bəs özün nəsən? 237
Pirqulu rəsədxanası haqqında şeirlər 238
Əbədi gənclik 245
Seyiz keçi 246
Riyakar 248
«Anamın kitabı» 250
Mənə nə var? 253
Müsafir 255
Sərbəst şeir 256
Oğrular 257
Əks-səda 260
Kök 261
«Ürək sinəmizdən asıldığından» 262
Mənim anam 263

Buludlar nə yaman gözəl olurmuş 264
«Dağ seliyəm» 266
İki kor 267
Mənim gəncliyim 268
Dağlar da əyilər öz kədərindən 273
Səhəndə məktub 274
«Həm yerin...» 277
«Yaxşı ki, dünyada ələm var imiş» 278
Dağ çayı 279
Fikir qanadlarım 281
Şairlər 283
Beşik 287
«Vətən eşqi hər eşqidən əzəldir» 290
Qafiyələr 291
İki söz 292
Nakam 293

## İNSAN VƏ ZAMAN

Qağayı kimi 307
Hər şəkildə bir anım 308
Tələsirəm mən 311
Ömrün payızı 314
Görə bilmirəm 316
Yerin göydəki ilk elçisinə 317
İki saat 318
Gözəllik önündə 320
Kibernetika 321
Barmaqlar 323

Ölçü ____ 325
Otuz yeddi yaşım ____ 326
Qaliley ____ 329
«Günün ömrü» ____ 332
Sürət ____ 333
Xoşbəxtdir o adam ki... ____ 334
Zaman ____ 336
Yeni il duyğuları ____ 340
«Ulduzlar da kainat» ____ 342
Hüdud ____ 343
«Bəzən soruşuram özüm özümdən» ____ 344
Nekroloq ____ 345
İllərə nə var ki... ____ 346
Hər kəsin özüylə yaşıddır cahan ____ 347
Zirvə oldu o özü ____ 349
Dincəlmək istəyirəm ____ 350
Ürəkdəki «saatlar» ____ 352
«Ömür bizə verilmir» ____ 354
Bir ürəkdə dörd fəsil ____ 355
Babamdan qocayam mən ____ 356
Bir binada doğulduq ____ 358
Yer öz yerindəmi? ____ 360
Uçuş ____ 361
Yol çəkirik ____ 364
Mənim ad günlərim ____ 366
Mən ya avtomat ____ 368
Bizə elə gəlir ki... ____ 369
Özümdən qabaq ____ 371
Ay ____ 372

İtki 376
İki yoldaş - iki həmyaş 377
Qorxu 380
Anam təzədən böyüyür 381
Qırxbirinci duracaq 382
Köhnə - təzə 384
Nəsə çatmır 385
Xoşbəxt ölüm 389
«Emadin» - «Volqa» 394
Antenna 396
Köhnə bayatı 400
Fayton 404
İnsan qəhqəhəsi 407
Zöhrə 409
Sabah... sabah 411
Bəsdir 413
Efirdə səslər 415
Mən kiməm 420
On səkkiz gün 421
Təəssüf 424
Baş 425
Zərrə-dünya 428
Siqnallar 430
Neo 432
Hərəkətdə... hərəkətdə 439
Heminquey 441
«O öldü birdən-birə» 442
Elə böyüdük ki... 443
Elm-əxlaq 445

«Sığınmadım o bucağa, bu bucağa» 449
Qitələr 450

## HƏSRƏT NƏĞMƏLƏRİ

Daha yaxşı görürəm 455
Qınamayın siz məni 456
Heyf 457
Qısqanıram mən 458
Gözün dili 459
Soruşma 460
«Elə baxma, qadan alım» 461
Hansımız yoxuq? 462
Eşqim 463
Səni görürəm, səni 464
Yox, düşmürəm, qalxıram 467
Bir salama dəymədi 469
«Bu gün ömür yarıdır» 471
On dəqiqə sonra 472
«Bu gün ad günündür...» 473
Sən - ilham 474
İşıq - qaranlıq 475
Məktublar 476
Həsrət 478
«Necə odsan, bilmirəm» 482
Sevə bilirəmsə... 483
Bir qız, bir oğlan 486
Təzədən 487

Ney səsində sənin əksin 489
Nəsən sən 491
Özündən ayrıla bilməyəcəksən 493
Qayıt 495
«Əgər bu dünyada sən olmasaydın» 497
«Xəyalım elə qalxıb...» 598
«Kupe sıxır məni...» 599
«Unutmaq istərəm!..» 500
Unutdurdun sən mənə 501
Nöqtəyə döndərərdim 504
«Son görüş» poemasından parçalar 506
«Bu gün sənin ad gününmü?» 518
Məhəbbətə qıymadın 519
Biz yenə də sözə gəldik 520
«Mən qürbətdə...» 522
«Uzaq bir səfərə çıxmısan, uzaq» 523
«Sənə məktub yazıram» 524
«Ay bəlalı başımın bəlalı macərası» 525
Ağ gecələr 526
Azadlıq 527
«Nəğmə olub gecələr» 529
«Həmişə həsrətəm...» 531
Səfərə çıxmışıq 532
«Evimizin kandarında» 533
«Hirsimdən...» 534
«Bilmirəm, tək qoyub səni şəhərdə 535
Sahilə çıxmaq istəyirəm 536
«Uzaq,..» 537
«Dəryada fanaram mən» 538

«Başlanan hər şeyin sonu var» 539
«Yanında olanda da...» 540
Eşq-sətəlcəm 541
«Dedin» 546
Küçədə itirdim 547
«Deyək, mən dönürəm!» 549
Unudam gərək 550
«Sevsəydin» 552
Gör necə güclüsən 553
Həyat istəyirsən 556
«Mənə bəxş eləyib məhəbbətini» 557
Kəpənək 558
Ağrılar 560
Mən niyə beləyəm? 562
Dəniz - sahil 564
«Həftədə neçə yol,..» 565
«Axı, uzaqdayam...» 566
Özüm-özümü dandım... 567
İltimas 569
«Nə məni anladın,..» 572
Yarpaqlar tökülür 574
«Qaşına, gözünə...» 576
Bu ulu dünya 577
«Bu nə yoldur?..» 578

## QƏZƏL, QOŞMA, GƏRAYLI

«Yenə bağlar o bağlardır...» 581
«Ən ülvi, təmiz duyğudur insanda məhəbbət» 582

«Bu qədər saldı məni...»____________583
«Könlüm, niyə sən...»____________584
«Hikmətli sözün...»____________585
«Gəl-gəl deyə...»____________586
Bəxtiyaram mən____________587
Könlüm____________588
Sən getdin____________589
Sənin dilindən____________590
«Beş-on ulduz görüb...»____________591
Olurmuş ____________592
Zalım____________593
«Biryolluq könlümdən...»____________594
Öz içindədir____________595
Bakıyla Təbrizin arasındayam____________596
Dəli____________597
Dağların ____________698
Qocalmır____________699
Bəhanədir____________600
Olmuşam____________601
Bir gül ilə yaz açılmaz____________602
Yarı xəzəl, yarı yarpaq____________603

# BƏXTİYAR VAHABZADƏ

**ƏSƏRLƏRİ**

**On iki cilddə**

**II cild**
**(1960-1969)**

«Qafqaz Turizm Redaksiyası» MMC-də hazırlanmışdır.

*Bədii dizayneri*
***Xəyyam Əliyev***

*Rəssamı*
***Zaur Əliyev***

*Texniki redaktorları*
***Aytən Cəfərova,***
***Ləman Qafarova***

Çapa imzalanmış 26.03.2008. Kağız formatı 84x108 1/32.
Həcmi 39,15. Tirajı 500. Sifariş 146.
Qiymət müqavilə ilə.

*Direktor:* ***prof. N.B.Məmmədli***

*Nəşrə məsul:* ***Əziz Ələkbərli***

*Kitab «**Nurlan**» nəşriyyat-poliqrafiya müəssisəsində*
*hazır diapozitivlərdən çap edilmişdir.*